**Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi**
**Lənkəran Dövlət Universiteti**



# “TÜRK DÖVLƏTLƏRİ TƏRKİBİNDƏ İNTEQRASİYA PROSESLƏRİ: MÜASİR ÇAĞIRIŞLAR VƏ HƏDƏFLƏR” MÖVZUSUNDA BEYNƏLXALQ ELMİ-PRAKTİKİ KONFRANSIN

# MATERİALLARI

**Lənkəran, 18 oktyabr 2024-cü il**

**AZƏRBAYCAN RESPUBLİKASI ELM VƏ TƏHSİL NAZİRLİYİ**
**LƏNKƏRAN DÖVLƏT UNİVERSİTETİ**

# “TÜRK DÖVLƏTLƏRİ TƏRKİBİNDƏ İNTEQRASİYA PROSESLƏRİ: MÜASİR ÇAĞIRIŞLAR VƏ HƏDƏFLƏR” MÖVZUSUNDA BEYNƏLXALQ ELMİ-PRAKTİKİ KONFRANSIN

**M A T E R İ A L L A R I**

**Lənkəran, 18 oktyabr 2024-cü il**

## TƏŞKİLAT KOMİTƏSİ

| | |
|---|---|
| **Natiq İbrahimov** | Professor, rektor, sədr, ( Azərbaycan) |
| **Mikayıl Məhərrəmov** | Professor, sədr müavini, ( Azərbaycan) |
| **Zaur Məmmədov** | Dosent, üzv, ( Azərbaycan) |
| **Elvin Əliyev** | Dosent, üzv, ( Azərbaycan) |
| **Akmal Ahatov** | Prof, üzv, ( Özbəkistan) |
| **Aisulu Beishenova** | Prof, üzv, ( Qırğızıstan) |
| **Gülden Akdağ Gürsoy** | Assoc.prof, üzv, (Türkiyə) |
| **Okszana Kiszil** | Assoc.prof, üzv ( Macarıstan) |
| **Günnur Peşmen** | Assoc.prof, üzv (Türkiyə) |
| **Carmelia Mariana Dragomir Balanica** | Assoc.prof, üzv ( Rumıniya) |
| **Mine Koç** | Assoc.prof, üzv (Türkiyə) |
| **Stoıca Marıcıa** | Assoc.prof, üzv ( Rumıniya) |
| **Karliqaş Aşirxanova** | PhD, üzv (Qazaxıstan) |
| **Samira Ontunç** | İKSAD, üzv (Türkiyə) |
| **Allahşükür Quliyev** | Dosent, üzv ( Azərbaycan) |
| **Ənvər Şahqubadbəyli** | Baş müəllim, üzv ( Azərbaycan) |
| **Balayar Şahbazov** | Dosent, üzv ( Azərbaycan) |
| **Gülbəniz Əliyeva** | Dosent, üzv ( Azərbaycan) |
| **Elman Mirzəyev** | Dosent, üzv ( Azərbaycan) |
| **Afaq Qasımova** | Dosent, üzv ( Azərbaycan) |
| **Günel Məmmədova** | Məsul katib ( Azərbaycan) |

## MÜNDƏRİCAT

### "HUMANİTAR ELMLƏRİ" BÖLMƏSİ


| | | |
|---|---|---|
| 1. | **Afaq Qasımova, Rəna Hüseynova** - Qori müəllimlər seminariyasının lənkəranlı məzunu........................................................................................................................ | **8** |
| 2. | **Allahverdi Həsənov, İlham Tahirov** - Söz birləşmələrinin funksiyaları haqqında.... | **11** |
| 3. | **Ayəddin Əliyev, Aydan Əlizadə** - Ana dili və fəal interaktiv təlim......................... | **13** |
| 4. | **Elnarə Piriyeva, Aysel Hacıyeva** - Müxtəlif etnik-mədəni cəmiyyətlərdə dəyərlər sisteminin təzahürü........................................................................................................ | **15** |
| 5. | **Elnur Hasanov** – Türk dünyasının şehir kültürü araştırmalarında Gence'nin tarihi yerdeğişmelerinin örneği…………………………………………………….. | **17** |
| 6. | **Esmira İsmayılova** – Məhəmmədhüseyn Şəhriyarın anadilli yaradıcılığında türkçülük ideyalarının təbliği………………………………………………… | **19** |
| 7. | **Əkrəm Hüseynzadə** - Dədə Qorqud dastanlarında və Oğuznamələrdə qədim adlarımız........................................................................................................ | **21** |
| 8. | **Gülnar Bayramova, Sədaqət Abbasova** - İngilis dilinin tədrisində perfect zamanlar sistemi və onun Azərbaycan dilində ifadəsi……………………………….. | **23** |
| 9. | **Gündüz Quluyev, İlham Tahirov** - İngilis dilində feilin məchul növünün qısa mətnlərlə tədrisi metodu…………………………………………………………… | **25** |
| 10. | **Günel Nəcəfova, Ayşən İsmayılova** - İnklüziv təhsil prosesində valideynlərlə əməkdaşlıq………………………………………………………………………… | **27** |
| 11. | **Günel Şahinzadə** - Sosial iqtisadi amillərin uşaqların rifah halına təsiri…………… | **29** |
| 12. | **Günel Yunusova** – Mahmud Bey Mahmudbeyov ve Abbas Sahhat'ın "Türk edebiyyatına ilk adım" (1914) ders kitapında Türk edebiyyatı sorunları…………….. | **31** |
| 13. | **Xalidə Rəhimova** - Camal Yusifzadənin yaradıcılığında mövzu rəngarəngliyi…….. | **33** |
| 14. | **Kamal Mahmudov** - Türkdilli dövlətlərin beynəlxalq qurumlarının Türk dünyasının inteqrasiyasında rolu……………………………………………………... | **36** |
| 15. | **Konul Jabbarova, Müşfik Tariverdiyev** - Haydar Aliyev ve Mustafa Kemal Atatürk'ün çocuk terbiyesine ilişkin tarihsel görüşleri............................................. | **38** |
| 16. | **Ləzifə Qasımova, Nərmin Əliyeva** - Milli-mənəvi dəyərlər yeniyetmə və gənc qızların tərbiyəsində nümunə məktəbidir……………………………………….. | **40** |
| 17. | **Məlahət Nuriyeva** - İlkin psixoloji yardım-sistemli yanaşma……………………… | **43** |
| 18. | **Müşfiq Bayramov, Orxan Kərimov** - Tarixi gerçəkliyin öyrənilməsində xəritələr əvəzedilməz vasitədir………………………………………………………………… | **45** |
| 19. | **Müşfiq Bayramov** - Səlcuqlar dövlətinin tarixi Türk tarixçisi Yaşar Bedirhanın əsərlərində………………………………………………………………........ | **47** |
| 20. | **Nabat Qəhrəmanova** - Uşaqların məktəb təliminə hazırlığında sosial tərbiyə………………………………………………………………………………… | **49** |
| 21. | **Nəzrin Kamalova, Sədaqət Abbasova** - İngilis dilində tək və cəm isimlərin tədrisi. | **52** |
| 22. | **Nəzrin Miriyeva** - Ali təhsil müəssisələri tələbələrində idarəetmə mədəniyyətinin formalaşması........................................................................................................ | **54** |
| 23. | **Ramilə Fərəczadə, Yeganə Cavadova** - Sifətin tədrisi zamanı müəllimin istifadə etdiyi müasir metodlar……………………………………………………………... | **57** |

| | | |
|---|---|---|
| 24. | **Rəqsanə Həkimzadə, Yeganə Cavadova** - Frazeoloji birləşmələrin bir sıra xüsusiyyətləri…………………………………………………………………… | **59** |
| 25. | **Ruxsarə Feyziyeva, Ceyran Hüseynli** - İbtidai siniflərdə ismin qrammatik kateqoriyalarının öyrədilməsi yolları……………………………………………………… | **61** |
| 26. | **Rüfət Hüseynzadə, Lalə Əzimova** -Təhsilin idarəedilməsinin funksiyaları və prinsipləri……………………………………………………………………………….. | **63** |
| 27. | **Rüfət Hüseynzadə, Lalə Əzimova** - Təhsildə idarəetmə konsepsiyası…………….. | **65** |
| 28. | **Sahil Cəfərov, Kamil Zeynalov** - Ümumi təhsildə qiymətləndirmə siyasətinin mahiyyəti və məzmunu…………………………………………………………… | **67** |
| 29. | **Sahil Cəfərov, Sədayə Muradova** - Qiymətləndirmə prosesinin mahiyyəti və məzmunu……………………………………………………………………………... | **69** |
| 30. | **Sahil Cəfərov, Zəminə İbrahimova** - Tədris keyfiyyətinin artırılmasına verilən tələblər………………………………………………………………………………... | **71** |
| 31. | **Sevda Tağıyeva, Afət Bayramova** - İnklüziv təhsildə ailə ilə əməkdaşlığın əhəmiyyəti……………………………………………………………………………… | **73** |
| 32. | **Sevinc Kərimova** – Dövrün tələbindən irəli gələn inklüziv təhsil…………………... | **75** |
| 33. | **Şəhla Fərzullayeva** – Süleyman Ələsgərovun “Vətənimdir” romansının musiqi-nəzəri təhlili……………………………………………………………………………... | **77** |
| 34. | **Şəkər Məmmədova** - XX əsrin elmi-mədəni hadisəsi-I Türkoloji Qurultay və Latın əlifbası………………………………………………………………………………... | **79** |
| 35. | **Vəfa Allahverdiyeva** - Konsept linqvokulturologiyanın predmeti kimi…………….. | **81** |
| 36. | **Vüsalə Musayeva** - Müasir cəmiyyətdə internet asılılığı probleminin sosial-psixoloji təhlili və qabaqlayıcı tədbirlər…………………………………………… | **84** |
| 37. | **Yaqub Səmədov, Afiq Əliyev** - Türk xalqlarının mədəni irsinin mühafizəsi və təbliği istiqamətində Türksoyun fəaliyyəti………………………………………… | **87** |
| 38. | **Zaur Məmmədov** – Türk dünyasında mədəni inteqrasiya…………………………... | **89** |
| 39. | **Zülfiyyə Tanrıverdiyeva** - Müasir təhsil sistemində müəllimlərin peşəkar inkişafı və rolu……………………………………………………………………………… | **92** |
| 40. | **Irana Mammadova** - Globalization and integration: geocultural stability of Azerbaijan……………………………………………………………………………… | **94** |
| 41. | **Mehdi Rahimov, Fidan Isayeva** - Methods of interactive learning in foreign language lessons......................................................................................................... | **97** |
| 42. | **Ахундова Нигяр** - О деятельности международной организации Тюркской культуры – Тюрксой........................................................................................... | **99** |

## “TƏBİƏT VƏ RİYAZİYYAT ELMLƏRİ” BÖLMƏSİ


1. **Ağababa İbrahimov, Turan Məhərrəmbəy Əhmədli** - Türk dövlətlərində davamlı inkişaf və ətraf mühit məsələləri: inteqrasiya proseslərinin ekoloji təsirləri................ **101**
2. **Elşən Səfixanov, Allahşükür Quliyev** - Diferensial təlimin riyaziyyat dərslərində tətbiq edilməsi metodları........................................................................................... **103**
3. **Elvin Əliyev** - Ağciyər xərçənginin tədqiqində bioloji və biokimyəvi yanaşmalar...... **105**
4. **Natiq İbrahimov, Qadir Quliyev** - Yeni tədris texnologiyalarının tədris prosesində əhəmiyyəti........................................................................................................... **106**
5. **Rəşid Qasımov, Hüseyn Yaqublu** - Orta məktəb riyaziyyat kursunda məntiq elementlərinin formalaşması........................................................................................ **108**
6. **Rəşid Qasımov, Mirsadiq Əsgərov** - Hər iki tərəfinin fərqinin işarəsini təyinetmə yolu və qiymətləndirmə üsulu ilə bərabərsizliklərin isbatı......................................... **110**
7. **Səlimə Mirzəyeva, Mailə Hüseynzadə** - X-XI siniflər üzrə informatika dərslərində distant təlimin modeli ................................................................................... **112**
8. **Vahab Həbibov, Xəyalə Mehsumzadə** - Matatalab robot texnikası dəstinin imkanlarının təhlili.................................................................................................. **114**
9. **Vahab Həbibov, Sənani Teymurlu** - Avtomatlaşdırılmış çevik informasiya sistemlərinin çevikliyi.......................................................................................... **115**

## “AQRAR VƏ İQTİSADİYYAT ELMLƏRİ” BÖLMƏSİ


| | | |
|---|---|---|
| 1. | **Almas Həmidova -** Türk dövlətlərinin investisiya imkanları…………………………..... | **117** |
| 2. | **Aytəkin Əfəndiyeva, Ayşə Fərəcli -** Beynəlxalq təcrübənin turizmdə tətbiqi imkanları…………………………………………………………………………… | **119** |
| 3. | **Aytəkin Əfəndiyeva, Nərgiz Məmmədzadə -** Azərbaycan və digər Türk dövlətlərinin birgə inkişafında turizm sənayesinin rolu............................................... | **121** |
| 4. | **Aytəkin Əfəndiyeva -** Neft gəlirlərindən səmərəli istifadənin dünya təcrübəsi……..... | **123** |
| 5. | **Ehtiram Əhmədzadə, Mikayıl Məhərrəmov -** Lənkəran mətbəxində quş və quş məhsullarının yeri və rolu.................................................................................... | **125** |
| 6. | **Esmira Cəfərova, Mətanət Yusifova –** Türk dövlətlərinin inteqrasiyasında Azərbaycanın rolu………………………………………………………………… | **126** |
| 7. | **Əlixan Bədəlov, Lalə Şahbazova –** Türk dövlətlərinin bank sektorunun inteqrasiya problemləri............................................................................................................ | **129** |
| 8. | **Əlixan Bədəlov, Murad Təhməzov –** Türk dövlətləri ölkələrinin audit sisteminin inteqrasiya problemləri……………………………………………………………… | **131** |
| 9. | **Əlixan Bədəlov, Vüsal Novruzov –** Türk dövlətlərinin maliyyə sistemində rəqəmsal inteqrasiya problemləri...................................................................................... | **134** |
| 10. | **Fərid Xankişiyev, İlkana Hacızadə -** Turizm-Türk dövlətlərinin inteqrasiya obyekti kimi (Azərbaycan və Türkiyənin timsalında)............................................................ | **136** |
| 11. | **Fidan Qurbanova, Sevinc Xasayeva -** Müstəqil Türk dövlətləri arasında inteqrasiya (Azərbaycan-Türkiyə timsalında)……………………………….................... | **138** |
| 12. | **Gülbəniz Əliyeva, Mirəhməd Nəsirov –** Türk dövlətləri arasında inteqrasiya və turizm sektorunun inkişafı: Birgə siyasətlərin rolu və strateji hədəflər....................... | **140** |
| 13. | **Gülbəniz Əliyeva, Vasif Zamanov -** Azərbaycanla Türkiyə iqtisadi əlaqələrində ticarət imkanlarından istifadənin iqtisadi reallıqları…………………………………… | **142** |
| 14. | **Gülbəniz Əliyeva –** Türk dünyasının inteqrasiya modelinin hədəfləri........................ | **144** |
| 15. | **Gülbəs Rüstəmova, Könül Şirvani –** Türk dövlətləri arasında inteqrasiya prosesləri.. | **146** |
| 16. | **Gültac Əliyeva, Mikayıl Məhərrəmov -** Balqabağın kimyəvi tərkibi və qidalanmada rolu………………………………………………………………........................ | **148** |
| 17. | **İlahə Məlikzadə, Mikayıl Məhərrəmov -** Düyünün kadmiumla çirklənməsi və onun insan sağlamlığı üçün təhlükə riskləri……………………………………………….. | **150** |
| 18. | **Leyla Yusubzadə -** Türk dövlətlərində e-ticarət platformalarının inkişafı və gələcək perspektivləri…………………………………………………………………………… | **152** |
| 19. | **Məhəmməd Hüseynov, Fəridə Mikayılova -** Azərbaycanın Türk dövlətləri ilə iqtisadi və mədəni əməkdaşlığı yeni mərhələdə……………………………………….. | **154** |
| 20. | **Natiq Qarayev, Kamran Bayramov –** Türk dövlətləri arasında əməkdaşlığın inkişafında əsas mərhələlər…………………………………………………………….. | **157** |
| 21. | **Nigar Fatullazadə, Mikayıl Məhərrəmov -** Düyünün arsenlə (mərgümüş) çirklənməsi və onun insan sağlamlığı üçün təhlükə riskləri………………………….. | **160** |
| 22. | **Orxan Şükürov -** Biznesdə innovasiya və rəqabət qabiliyyəti arasında qarşılıqlı əlaqə…………………………………………………………………………………... | **162** |
| 23. | **Rövşən Ələkbərov, İlkin Bayramov -** Turizmin xüsusi iqtisadi zonaların yaradılmasında Türk dövlətlərinin rolu……………………………………………… | **165** |

24. **Seymur Məmmədov, Rafiq Çobanov -** Azərbaycanda əhalinin gigiyenik vasitələrə olan tələbatının öyrənilməsinin bəzi aspektləri………………………………………… **167**
25. **Şahanə Babazadə -** Azərbaycan Respublikasının türkdilli dövlətlərin iqtisadiyyatında rolu…………………………………………………………………………….…...... **170**
26. **Şəfa Bağırova** – Türk dövlətləri və Azərbaycan arasında iqtisadi inteqrasiyanın inkişaf tendensiyaları…………………………………………………………………….. **172**
27. **Taleh Əhmədzadə, Mikayıl Məhərrəmov -** Ətli-tərəvəzli xörəklərin qidalanmada rolu və onların (kadmium və qurğuşun) çirklənməsinin müasir vəziyyəti…………….. **174**
28. **Toğrul Əkbərli -** Maşınqayırma sənayesində maliyyə-iqtisadi təhlükəsizlik göstəricilərinin təhlili və qiymətləndirilməsi…………………………………………... **176**
29. **Vildan Rizayeva, Fuad Ələkbərov -** Azərbaycanın ixrac imkanlarının artırılmasında Türkiyənin rolu........................................................................................................ **179**
30. **Магеррамова Севиндж, Магеррамов Микаил -** Влияние предварительной ферментативной обработки на химический состав соков из дикорастущих ягод.................................................................................................................... **181**

## “HUMANİTAR ELMLƏR” BÖLMƏSİ

# QORİ MÜƏLLİMLƏR SEMİNARİYASININ LƏNKƏRANLI MƏZUNU

**Afaq Qasımova**
**dosent**
**Rəna Hüseynova**
**müəllim**
**Lənkəran Dövlət Universiteti**
**e.rauf@aqroservis.gov.az**
**huseynova739@mail.ru**

**Açar sözlər:** Qori Müəllimlər Seminariyası, pedaqoji kadr hazırlığı, Teymur Bayraməlibəyov, Rus – tatar məktəbləri, Qız məktəbi

Azərbaycanda elmi-pedaqoji kadrların yetişməsində, xalqın mədəni inkişafında XIX əsrin 70-ci illərinin ortalarında Gürcüstanın Qori şəhərində yaradılmış Qafqaz (Qori) Müəllimlər Seminariyasının (ZMS) böyük rolu olmuşdur. 1875-ci ilin 8 aprelində seminariyanın açılmasına icazə verilmiş, 1876-cı ilin 12 sentyabrında iki müəllimlə fəaliyyətə başlamış və təhsil müddəti 3 il nəzərdə tutulmuşdur. 1879-cu il 1 sentyabrda isə seminariyanın Azərbaycan şöbəsi açılmışdır ki, burada Azərbaycanın müxtəlif bölgələrindən təhsil almağa gələn gənclər var idi.

Qori Müəllimlər Seminariyası görkəmli pedaqoq K.D.Uşinskinin hazırladığı “Müəllimlər seminariyası” layihəsi əsasında fəaliyyətə başlamışdır. Uşinski öz layihəsini irəli sürərkən müəllimin ilk növbədə intellektual, mədəni səviyyəsini yüksəltmək, onun mənəvi əxlaqi keyfiyyətlərinin inkişaf etdirilməsini nəzərdə tuturdu. K.D.Uşinski yazırdı ki, indi xalq oxumağın zəruriliyini dərk etmişdir. İndi məktəblər üçün yaxşı müəllimə hava, su kimi ehtiyacımız var. Lakin müəllim yoxdur və yoxdur. 1876-cı ilin ilin mayında “Əkinçi” qəzeti yazırdı: “Qori şəhərində bir məktəbxana açılıb ki, orada oxuyan şagirdləri müəllim eləsinlər. O məktəbxanada iyirmi nəfər erməni və gürcü padşahlıq xərcinə oxuyacaqlar. İndi “Kafkaz” adlı qəzet yazır ki, doğrudur, müsəlmanların məktəbxanaları üçün müəllimləri oxutmaqdan ötrü əlahiddə məktəbxana açılacaq, amma indi müsəlmanlardan hər kəs xahiş etsə, zikr olan Qoridə açılan məktəbxanaya öz uşaqlarını öz xərcinə qoya bilərmi? Oraya oxumağa girən hər kəs gərək uyezdni şkolada oxumuş ola və özü on altı-on doqquz yaşında ola. Orada üç il dərs deyiləcək Qori Müəllimlər Seminariyası ibtidai siniflər üçün müəllim kadrları hazırlayırdı. Qori Seminariyasını bitirən nəsilin Azərbaycan maarif və mədəniyyətinin, təhsilinin və tərəqqisinin inkişafında çox böyük xidmətləri olmuşdur. Seminariyanın məzunları yüksək milli ruhlu şəxsiyyətlər olmuş, millətimizin azadlıq və istiqlaliyyəti uğrunda apardığı mübarizəsinin önündə getmişlər. Bu seminariyada təhsil rus dilində olsa da, hər millətin öz ana dilini və şəriət dərsini ayrıca keçirdilər, eyni zamanda dünyəvi fənlər tədris edilir və burada xalqımız üçün milli ruhlu, vətənpərvər pedaqoji kadrlar yetişirdi. Azərbaycanın müxtəlif bölgələrindən buraya gəlmiş gənclərimiz təhsillərini başa vuraraq, vətənə dönmüş və vətənin qüdrətlənməsində, xalqın maariflənməsində, insanların tərəqqi etməsində, təhsilin inkişafında xeyli faydalı işlər görmüşlər. Ulu öndərimiz Heydər Əliyevin dediyi kimi, “Bu təhsil məbədi özündən sonra böyük mədəni irs qoymaqla adını Azərbaycan maarifi tarixinə əbədi həkk etmişdir”. Seminariyanın Azərbaycan şöbəsinin ilk rəhbəri Aleksey Osipoviç Çernyayevski olmuşdur. O, 10 il Qafqazın müxtəlif şəhərlərində ibtidai məktəb müəllimi, daha sonra bəzi xalq məktəbləri müdiriyyətlərində məsul vəzifələrdə çalışmışdır. Şamaxıda anadan olan A.O.Çernyayevski Azərbaycan xalqına, onun böyüyən

nəslinin təlim-tərbiyəsinə, müəllim kadrları hazırlığına fədakarlıqla xidmət etmişdir. O, ilk təhsilini Şamaxı qəza məktəbində almış, əmək fəaliyyətinə Mərəzə kənd poçtunda başlamışdı. Mərəzə kəndində ilk xalq məktəbini yaratmış və müəllimlik vəzifəsini öz öhdəsinə götürmüş, kənd uşaqlarına təhsil vermişdir. Görkəmli maarifpərvər, pedaqoq Firidun bəy Köçərli yazırdı ki, "Qori Seminariyasının Azərbaycan şöbəsində yaxşı və diqqətəlayiq nə vardısa, hamısı Çernyayevskinin adı ilə bağlıdır".

Seminariyanın ilk məzunları olan Firudin bəy Köçərli İrəvan gimnaziyasına, Teymur bəy Bayraməlibəyov Lənkərana, Cəlil Məmmədquluzadə Uluxanlı məktəbinə, Mirzə Əli Məhəmməd isə Naxçıvana ibtidai Rus-tatar məktəbinə, müəllim Rəşid bəy Əfəndiyev isə Şəki qəzasının Qutqaşen kəndinə məktəb müdiri kimi göndərilmişdir. Seminariyaya ilk qəbul edilənlər sırasında da Lənkərandan gedən Teymur bəy Bayraməlibəyov olmuşdur. Teymur Məmməd bəy oğlu Bayraməlibəyov (22.08.1862, 02.09.1937) görkəmli tarixçi-etnoqraf, pedaqoq, maarifçi, folklorşünas olmuş, Qori Müəllimlər Seminariyasının ilk müdavimlərindən biri olmuşdur. İlk təhsilini Lənkəran rayonunun Yeddi oymaq kənd mollaxanasında almışdır. Burada Quranı əzbər öyrənmiş, Sədi Şirazinin (1210-1292) "Gülüstan" və "Büstan" əsərlərini oxumuş, fars dilinə mükəmməl yiyələnmişdir. Daha sonra qardaşının təklifi ilə Lənkərandakı 2 sinifli rus məktəbində oxumuş, 1875-ci ildə oranı bitirib Tiflisdə feldşerlik məktəbinə təhsil almağa göndərilmiş və daha sonra 1879-cu ildə Qori Müəlimlər Seminariyasının Azərbaycan şöbəsinə daxil olmuşdur. Teymur bəy maarif sahəsində çox böyük işlər görmüşdür. Onun bir neçə "Üsuli-cədid" məktəblərinin açılmasında böyük xidmətləri olmuşdur. Düzdür, ilk dəfə olaraq Lənkəranda Füzuli ədəbi məktəbinin davamçısı olan Mirzə İsmayıl Qasir (1805-1900) Talış mahalında 1871-ci ildə ana dilində "Üsuli-cədid" məktəbi açmış və ilk olaraq "Üsuli cədid" dərsliyi də yazmışdır. Bundan əlavə 1894-cü ildə Mirzə İsmayıl Qasir fars dilinin qrammatikasına aid "Qanuni-Mirzə İsmayıl Qasir" adlı bir dərslik də yazmışdır. Əlyazma halında olan bu kitab tezliklə məşhurlaşmış, "Qasirin dövründə də, ondan sonra da uzun müddət Lənkəranda və onun ətrafında olan məktəblərdə ən çox işlənən bir dərslik olmuşdur.

Teymur Bayraməlibəyov ana dilinin tərbiyəvi əhəmiyyətindən bəhs edərkən Y.A.Komenskinin "Ana dilini bilmədən özgə dili bilmək olmaz" - fikirlərinə istinad edərək böyük pedaqoqun ideyalarından bəhrələnmişdir. O, Komenskinin "Böyük didaktika" əsərindən iqtibas gətirərək yazırdi: "Xalq məktəblərində təlimin əsas vəzifəsi və məqsədi insan həyatına lazım olan yenilikləri öyrətməkdən ibarətdir. Ona görə də Xalq məktəbləri uşaqlara ana dilində savadlı yazıb oxumağı öyrətməlidir. Hər xalqın ana dilini daim təkmilləşdirmək lazımdır. Ana dilini bilmədən başqa dili öyrənmək gəzməyə başlamamış uşağın ata minib qaçmasına bənzəyir".

Teymur Bayraməlibəyov talış bölgəsinə məxsus zəngin folklor materaiallarını toplamış, araşdırma və tədqiqatlar aparmışdır ki, o folklorşünaslığımızı xeyli zənginləşdirmiş və özü də ilk folklorşünas tədqiqatçılarımızdan sayıla bilər. 1881-ci ildə seminariyanı bitirən Teymur bəy Lənkərandakı 2 sinifli rus məktəbində 1881-ci ildən 1899-cu ilədək rus dili və riyaziyyat müəllimi kimi fəaliyyət göstərmişdir. Teymur bəyin səyi nəticəsində 5 sinifli "Behcət" adlı məktəb 15 sentyabr, 1907-ci ildə İran səfiri İsmayıl xanın səlahiyyəti altında təsis edilmişdir. Teymur bəyin təşəbbüsü ilə yaradılan "Behcət" məktəbi 1910-cu ildə bağlanmışdır. Lənkəranda tez-tez maneə və müqavimətlə qarşılaşan Teymur bəy mənəvi tərəqqi uğrunda ardıcıl mübarizəsini davam etdirmiş, o 1909-cu ildə "Ziya" adlı ilk Rus-tatar (Azərbaycan) məktəbini açmış, Lənkəranda ilk kitabxana yaratmışdır.

Qadınların təhsilinə böyük əhəmiyyət verən Teymur Bayraməlibəyov 1917-ci ildə Lənkəranda "Ünas" (qızlar) məktəbinin əsasını qoymuşdur. Teymur bəy Bayraməlibəyovun müsəlman qadınlarının hüququsuzluğuna qarşı həyata keçirdiyi mübarizənin önündə getmişdir.

Teymur Bayramalibəyov 1918-ci ildə Bakıya köçmüş pedaqoji fəaliyyət göstərməklə yanaşı “Kaspi”, “Tiflisskiy listok”, “Rıbnoye delo”, “Sbornik” jurnal və məcmuələrində əməkdaşlıq etmiş maarifləndirici məqalələr yazmışdır. Teymur bəy Bayraməlibəyov Azərbaycan maarifçiliyinin, pedaqoji fikrin inkişafına böyük töhfələr vermiş, bir tarixçi-etnoqraf olaraq pedaqoji fikir tariximizi xeyli zənginləşdirmişdir.

Teymur bəy Bayraməlibəyovun inqilabi hərəkatda fəal iştirakı bəhanə göstərilərək, o, 1918-ci ildə həbs edilmiş, 1937-ci ildə vəfat etmişdir.

# SÖZ BİRLƏŞMƏLƏRİNİN FUNKSİYALARI HAQQINDA

**Allahverdi Həsənov**
**magistrant**
**İlham Tahirov**
**professor**
**Lənkəran Dövlət Universiteti**
**Azərbaycan Milli Elmlər Akademiyası Nəsimi adına Dilçilik İnstitutu**
**allahverdihsnov52@gmail.com**
**ilham_tahir@rambler.ru**

**Açar sözlər:** söz birləşmələri, məna dəqiqliyi, ismi fraza, zərf frazaları, səbəb-nəticə əlaqələri

Söz birləşmələri dilin sintaktik və semantik funksiyalarının əsas elementlərindən biridir. Onlar fikirləri daha aydın, məntiqi və dəqiq ifadə etməyə imkan verir. Həmçinin, cümlələrin dinamikasını və nitqin axıcılığını təmin edir. Bundan çıxış edərək söz birləşmələrinin dildə daşıdığı müxtəlif funksiyalarının izahına çalışacağıq.

1. Məna dəqiqliyi və ifadə zənginliyi. Söz birləşmələrinin ən vacib funksiyalarından biri məna dəqiqliyini artırmaqdır. Tək sözlərin əhatə etdiyi məna çox vaxt məhdud və dar çərçivədə qalır, lakin söz birləşmələri vasitəsilə fikir daha ətraflı və aydın şəkildə ifadə oluna bilər. Məsələn:

- book (kitab) ifadəsi sadə bir obyekti göstərir, lakin a fascinating historical book ifadəsi bu kitabın təbiətini, maraqlılığını və mövzusunu daha dəqiq izah edir.

Söz birləşmələri dilin müxtəlif funksional aspektlərini daha dərin şəkildə ifadə etmək üçün imkanlar yaradır. Bu birləşmələr məna zənginliyi yaradır və dilin təsir gücünü artırır. Məsələn, the bright, shining sun sadəcə sun ifadəsindən daha çox təsirli olur, çünki bu birləşmə günəşin xarakteristikalarını daha geniş şəkildə ifadə edir.

2. Cümlə strukturunun çoxşaxəli qurulması. Söz birləşmələri cümlənin strukturunu daha çoxşaxəli edir və sadə cümlələri daha mürəkkəb formaya gətirir. Bu, dilin daha funksional və təsirli istifadə edilməsini təmin edir. Məsələn:

- John bought a car (sadə cümlə) ilə John bought a brand new, red car from the dealership yesterday (mürəkkəb cümlə) arasındakı fərq söz birləşmələrinin əlavə edilməsi ilə yaranan genişləndirilmiş məlumatlar sayəsində aydın görünür.

Söz birləşmələri cümlədə daha çox məna qatları yaradır, nitqin dəqiqliyini və ifadə zənginliyini artırır. Bu, əsasən ismi və sifət frazaları ilə mümkündür. Bu frazalar nitqə əlavə məlumat verərək məzmunun daha dolğun çatdırılmasına imkan yaradır.

3. Cümlədəki əlaqələri və münasibətləri ifadə etmək. Söz birləşmələri cümlə daxilindəki fərqli fikirləri və ya obyektləri bir-biri ilə əlaqələndirir. Bu əlaqələr adətən prepozisiya frazaları vasitəsilə qurulur. Məsələn:

- The cat is under the table cümləsi prepozisiya frazası ilə obyektlər arasında məkan əlaqəsini göstərir.
- She left after the meeting cümləsində after the meeting frazası hadisələrin vaxt ardıcıllığını bildirir.

Prepozisiya frazaları kimi söz birləşmələri obyektlər və hadisələr arasındakı məkan, zaman və digər əlaqələri daha dəqiq ifadə etməyə imkan verir. Bu da dilin strukturunun məntiqi əlaqələr üzərində qurulmasını təmin edir.

4. Müxtəlif məntiqi əlaqələrin qurulması. Söz birləşmələri dilin məntiqi əlaqələrinin qurulmasında da mühüm rol oynayır. Onlar müxtəlif hallarda əlaqələrin və şərtlərin ifadə

edilməsinə kömək edir. Bu funksiyanı əsasən zərf frazaları və prepozisiya frazaları yerinə yetirir. Məsələn:

- He completed the task quickly cümləsində quickly zərf frazası hərəkətin necə baş verdiyini göstərir.
- In case of emergency, call 911 cümləsində in case of emergency prepozisiya frazası şərti bir vəziyyəti bildirir.

Bu frazalar cümlənin mənasını genişləndirir və şərtlər, səbəb-nəticə əlaqələri kimi mürəkkəb məntiqi quruluşları dil vasitəsilə ifadə etməyə imkan yaradır. Bu xüsusiyyətlər, xüsusilə, yazılı nitqdə daha dəqiq və səlis ifadələr yaratmağa imkan verir.

# ANA DİLİ VƏ FƏAL İNTERAKTİV TƏLİM

**Ayəddin Əliyev**
**dosent**
**Aydan Əlizadə**
**magistrant**
**Lənkəran Dövlət Universiteti**
**ayeddin59@mail.ru**
**aydan.alizade333@gmail.com**

**Açar sözlər:** təlim, təhsil, ana dili, metod, bilik

Müasir dövrdə texnoloji tərəqqi təhsildən də yan keçməmişdir. Hazırda psixoloqlar, metodistlər öyrənmə və öyrətmənin daha asan və səmərəli yolları haqqında müxtəlif fərziyyələr irəli sürürlər. Bu məsələ, xüsusən fəal interaktiv təlimdə daha aktual xarakter daşıyır.

Məlum olduğu kimi, Azərbaycan dili fənninin tədrisinin effektli tədrisi diqqət mərkəzində saxlanılan bir məsələdir. Çünki bütün elmlərə gedən yol məhz ana dilindən keçir. Odur ki, bu fənnin təlimi şagirdlərin gələcəkdə biliklərə daha dərindən yiyələnmələri üçün şərtdir. Məhz buna görə də pedoqoqlar, psixoloqlar bu fənnin tədrisi üçün müxtəlif üsul və metodlar təklif edirlər.

Ana dilinin mükəmməl öyrənilməsi şagirdlərin ünsiyyət imkanlarını genişləndirir, onlarda düşünmə, öyrənmə və danışma bacarıqlarını formalaşdırır. Nəticədə bu dil düşünmə, öyrənmə, danışma vasitəsinə çevrilir. Ana dilinin tədrisi şagirdlərdə nitq mədəniyyətinin formalaşmasına xidmət edir. Şagirdlər bu fənn vasitəsilə milli mədəniyyət nümunəsi kimi ana dilini öyrənir, onun səs sisteminə, lüğət ehtiyatına, üslubi qrammatik xüsusiyyətlərinə yaxından bələd olur, elmi, bədii publisistik və digər üslublarda yaradılmış ədəbiyyat nümunələri ilə tanış olmaq imkanı qazanırlar. Eyni zamanda bu dildən istifadə edərək öyrənəcəkləri digər fənlərin daha yaxşı mənimsənilmə potensialını genişləndirirlər. Orta məktəbi başa vuran gənclər təhsilini davam etdirmək, müxtəlif sahələrdə işləmək üçün müasir dövrün iqtisadi, hüquqi və texnoloji çətinliklərinə hazır olmalı, onların aradan qaldırılmasında təşəbbüskarlıq və fəallıq göstərməlidirlər. Bunun üçün təkcə elmi-nəzəri hazırlıq deyil, həm də yüksək əxlaqi-mənəvi keyfiyyətlər, o cümlədən dil və ünsiyyət bacarıqları əldə olunmalıdır. Hər bir şəxs müxtəlif formalı və məzmunlu mətnləri səlis, şüurlu oxumağa, yazılı və şifahi şəkildə səmərəli və yaradıcı ünsiyyət qurmağa qadir olmalıdır. Bu baxımdan, Ana dilinin bir fənn kimi təlim əhəmiyyəti böyükdür. Ana dili qüdrətli tərbiyə vasitəsidir. Şagirdlər onun vasitəsilə milli-mənəvi sərvətlərimizi öyrənir, əxlaqi dəyərlərə və yüksək insani keyfiyyətlərə yiyələnirlər.

Ana dilinin öyrənilməsi insanın ünsiyyət bacarıqlarını təkmilləşdirir və şəxsiyyət kimi formalaşmasında əsas rol oynayır. Ana dili təliminin qarşısında iki əsas vəzifə durur: ümumi vəzifələr; konkret didaktik vəzifələr. Ümumi vəzifələrə şagirdlərin dünyagörüşünün yüksəldilməsi, onları şəxsiyyət kimi yetişdirmək və həyata hazırlamaq aiddir. Konkret didaktik vəzifələrə isə şagirdləri ana dili ilə bağlı bilik, bacarıq və vərdişlərə yiyələndirmək, şagirdlərin nitq və təfəkkürünü inkişaf etdirmək, onlarda düzgün tələffüz, ifadəli oxu, rabitəli nitq vərdişlərini inkişaf etdirmək, orfoqrafiya və durğu işarələri ilə bağlı vərdişlər yaratmaqdan ibarətdir.

Ana dilimizdə oxumaq, yazmaq ümumtəhsil məktəblərimizin tədris planlarında ibtidai siniflərdən başlayır və ibtidai təhsilin bütün pillələrində öyrənilir. İbtidai siniflərdə Azərbaycan dili dərslərində bir şox üsullardan istifadə etmək olar. Belə üsullara misal olaraq

ümumi şəkildə bunları göstərə bilərik: dil ilə əlaqəli fəaliyyətlər; müxtəlif materiallardan istifadə; interaktiv təlim metodları; müəyyən məzmunlar; dərslərə fərqlilik qazandırmaq və s.

Ana dili təlimində şagirdləri dil ilə əlaqəli müxtəlif fəaliyyətlərə cəlb etmək vacibdir. Belə fəaliyyətlərə şeir oxumaq, hekayə dinləmək, mətn yazmaq, dil qaydalarını öyrənmək və müzakirələrdə iştirak etmək aiddir.

Ana dili təlimində müxtəlif məqalələr, kitablar və digər materiallardan istifadə etmək şagirdlərin dil qaydalarını anlamalarını və təhlil etmələrini təmin edir. Bu da onlara dil üzrə biliklərini inkişaf etdirməkdə kömək edəcəkdir.

Tədrisdə fəal interaktiv təlim metodlarından istifadə şagirdlərdə dərsə marağın və motivasiyanın artmasına kömək edir.

Təlim zamanı əsas məzmunlar üzərində durmaq və müəyyən mövzuları tədqiq etmək vacibdir. Bu şagirdlərə öz ətrafındakı dünyanı anlamaq, fikirlərini ifadə etmək üçün mühüm rol oynayır. Dərslərə fərqlilik qazandırmaq, təlim prosesində müxtəlif metodlardan istifadə etmək, dərsi oyunlar qurmaqla tədris etmək şagirdlərin marağını cəlb etməyə və təlim prosesində aktiv iştirak etməyə gətirib çıxarır.

# MÜXTƏLİF ETNİK-MƏDƏNİ CƏMİYYƏTLƏRDƏ DƏYƏRLƏR SİSTEMİNİN TƏZAHÜRÜ

**Elnarə Piriyeva**
**psixologiya üzrə fəlsəfə doktoru**
**Aysel Hacıyeva**
**doktorant**
**Bakı Dövlət Universiteti**
**elnarapirieva@mail.ru**
**ayselhuseyin2018@gmail.com**

**Açar sözlər:** etnik amil, mədəni sfera, dəyərlər sistemi, milli-mədəni dəyərlər

Mədəniyyətlərarası perspektivi nəzərə alaraq, müxtəlif tədqiqatlarda və nəzəriyyələrdə şəxsi dəyərlər və davranış arasındakı əlaqələrə dair empirik nəticələr nəzərdən keçirilmişdir. Şəxsi dəyərlər bir çox tədqiqatlarda araşdırılsa da, şəxsi dəyərlər və davranış münasibətlərinin sistemli, nəzəriyyəyə əsaslanan, mədəniyyətlərarası müqayisələrə nadir hallarda rast gəlinir. Bu icmalda isə mədəniyyəti, şəxsi dəyərləri və davranışı birləşdirən inteqrativ perspektiv çərçivəsində tədqiqat üçün təkliflər qeydə alınmışdır. Müxtəlif mədəniyyətlərdən olan insanlar davranışlarını istiqamətləndirmək üçün daxili atributlarından nə dərəcədə istifadə etdiklərinə görə dəyişir. Beləliklə, dəyərlər və davranış arasındakı əlaqələrin gücü mədəni qruplar arasında fərqlidir. Mədəniyyət həm də normativ davranışların repertuarını müəyyən etməklə dəyərlər və davranışlar arasındakı əlaqələri tənzimləyir. Mədəniyyət davranışın mənasını müəyyən edir, belə ki, oxşar görünən davranışlar müxtəlif mədəniyyətlərdə fərqli mənalara malik ola bilər. Həmçinin tədqiqatda cəmiyyətin artan heterojenliyinin dəyərlər və davranış münasibətlərinə mümkün təsirinin müzakirəsi aparılmışdır.

Dəyərlər siyasət, din, təhsil və ailə həyatının baxışlarında, tənqidlərində və müzakirələrində böyük rol oynayır. Gündəlik nitqdə göstərilən bütün diqqət dəyərlərinə baxmayaraq, onların sistematik tədqiqi yalnız 1990-cı illərdə əsasən psixologiyada öz yerini tutmuşdu. Bu məzmunda dəyərlərin mahiyyəti müzakirə edilir və əsas şəxsi dəyərlər nəzəriyyəsinə diqqət yetirilməklə müasir dəyər nəzəriyyələri təqdim olunur. Mədəniyyətlər arasında mövcud olan dəyərlər ziddiyyəti və uyğunluğun məzmunu və strukturu üçün sübutları nəzərdən keçirilmişdir. Bir qrup tədqiqatlar şəxsi dəyərlərin şəxsiyyət xüsusiyyətləri və subyektiv rifahla əlaqəsi və dəyər fərqlərinin dindarlıq, qərəz, qeyri-sosial davranış, siyasi və ekoloji davranış və yaradıcılıq üçün nəticələrinə dair sübutları təqdim edir. Eyni zamanda dəyərləri davranışla əlaqələndirən mexanizmlərin müzakirəsini təqdim edirlər.

Bizi əhatə edən mədəniyyət şəxsi dəyərlərin inkişafını və onların ifadəsini formalaşdıran kritik kontekstdir. Müəlliflər müxtəlif cəmiyyətlərdə aparılan araşdırmaları nəzərdən keçirir və tapıntıların mədəniyyətlər arasında ümumiləşdirilib-ümumiləşdirilmədiyini qeyd edirlər. Həmçinin mədəniyyətin bir sıra münasibət və davranışlarla dəyərlərin assosiasiyasında vasitəçi və ya tənzimləyici rolunu qeyd edirlər. Mədəniyyətlər arasında dəyərlərin məzmunu və strukturu ilə bağlı nəzəriyyə və tapıntıları təqdim edilmiş və ölçmə məsələlərinin təhlili aparılmışdır.

Mədəni dəyərlərin üç görkəmli nəzəriyyəsi (Hofstede 2001, Inglehart 1977, Schwartz 2006) cəmiyyətdə üstünlük təşkil edən dəyər vurğularını mədəniyyətin ən mərkəzi xüsusiyyəti kimi nəzərdən keçirməkdə razılaşır. Bu zaman vurğulanır ki, dəyər nəyin yaxşı və arzu olunan olduğuna dair ümumi anlayışları ifadə edir. Onlar fərdi və qrup inanclarını,

hərəkətlərini, normalarını, məqsədlərini, eləcə də institutların siyasətini formalaşdırır və əsaslandırır. Hər bir nəzəriyyə ictimai dəyərin vurğulandığı mədəni ölçüləri təklif edir. Cəmiyyətlərin bu ölçülərdə yerləşməsi onların yaşamaq və inkişaf etmək üçün universal problemlərə həll yollarını təmsil edir.

Dəyər Sorğunun nümunələrində iki ölçü müəyyən edilmişdir: sağ qalmaya qarşı özünüifadə dəyərlərinə və ənənəvi və dünyəvi-rasional dəyərlərə qarşı (Inglehart 1977, Inglehart & Welzel 2005). Sosial-iqtisadi səviyyələr yüksəldikcə, milli mədəniyyətlər yaşamaq və ənənəvi dəyərlərə vurğudan özünüifadə və dünyəvi-rasional dəyərlərə vurğuya keçir. Hofstede (2001) IBM işçilərinin məlumatlarında dörd dəyər ölçüsü müəyyən etdi:

- kollektivizmə qarşı fərdilik,
- güc məsafəsi,
- kişiliyə qarşı qadınlıq və qeyri-müəyyənlikdən qaçma, daha sonra uzunmüddətli oriyentasiya və təmkinliliyə qarşı təmkinlilik əlavə etdi (Hofstede & Minkov 2010).

Bu ölçülər üzrə milli ballar təşkilati və mədəniyyətlərarası tədqiqatlarda xüsusilə təsirli olmuşdur. Bunun əksinə olaraq, Schwartz (2006) nəzəriyyədən üç bipolyar ölçü çıxarmışdı və onları empirik şəkildə sınaqdan keçirmişdi. Bütün cəmiyyətlərin üzləşdiyi üç əsas problem – fərdlər və qruplar arasında münasibətlər, məsuliyyətli sosial davranışın təmin edilməsi və bəşəriyyətin təbiətlə münasibətləri – Şvartsın ölçülərini ortaya qoyur: muxtariyyətə qarşı daxili, iyerarxiyaya qarşı bərabərlik və ustalığa qarşı harmoniya.

Qrupları və ya millətləri mədəni ölçülərdə yerləşdirmək üçün hər üç nəzəriyyə dəyər və ya münasibət suallarına fərdi cavabları birləşdirir. Ehtimal ki, bu cavablar fərdlərin məruz qaldığı mədəniyyəti əks etdirir. Üç nəzəriyyənin ölçüləri əhəmiyyətli olaraq üst-üstə düşür (məsələn, Beugelsdijk və Welzel 2018, Schwartz 2014b). Maraqlıdır ki, fərqli üsullarına baxmayaraq, Inglehart (1977) və Schwartz (2006) dünya üzrə demək olar ki, eyni yeddi və ya səkkiz mədəni bölgəni müəyyən edir. Sosial-iqtisadi səviyyə milli mədəni fərqlərin ən güclü göstəricisidir. Bununla belə, sosial-iqtisadi səviyyələrdən yuxarı və yuxarı olan mədəni ölçülər rifah, təhsil, işçi hüquqları və orduya investisiya kimi mühüm milli siyasətləri izah etməyə kömək edir (Hofstede 2001, Inglehart və Welzel 2005, Schwartz 2016).

Bu mədəni dəyərlər sosial kollektivin üzvlərinin həyata keçirməyə təşviq edildiyi məqsədlərdir. Onlar qrup üzvlərinin və liderlərinin kollektiv məqsədlərə nail olmaq üçün həyata keçirdikləri hərəkətləri əsaslandırmağa xidmət edir. Mədəni Dəyərlər adlı əlavə qeydlər mədəni dəyərlərin əsas cari nəzəriyyələrinin icmalını təqdim edir.

Şəxsi dəyərlər həyatın erkən dövründə prioritetlərin iyerarxiyası kimi inkişaf edir və həyat boyu rəhbər prinsiplər kimi nisbətən sabit qalırlar. Bu məqalədə nəzərdən keçirilən tədqiqat dəyərlərin mənşəyi və inkişafından tutmuş münasibət və davranışların izah edilməsində və proqnozlaşdırılmasındakı roluna qədər onların geniş icmalını təqdim edir. Sosial, şəxsiyyət, inkişaf, siyasi, təşkilati və mədəniyyətlərarası psixologiya daxil olmaqla psixologiyanın bir çox sahəsindən tədqiqatların inteqrasiyası müxtəlif dəyərlərin bütün sahələrdə ardıcıl bələdçi rolunu oynadığını ortaya qoyur. Oxşar dəyərlər müxtəlif sahələrdə davranışın əsasında dayandıqda və motivasiya etdikdə (məsələn, tolerantlıq və siyasi fəallığın əsasını təşkil edən özünüidarəetmə və universalizm dəyərləri), biz bu davranışların paylaşdığı mənanı tanıya və bir sahədən digəri haqqında öyrənə bilərik.

# TÜRK DÜNYASININ ŞEHİR KÜLTÜRÜ ARAŞTIRMALARINDA GENCE'NİN TARİHİ YERDEĞİŞMELERİNİN ÖRNEĞİ

**Elnur Hasanov**
**doçent**
**Azerbaycan Milli Bilimler Akademisinin Gence Bölmesi**
**lnurh273@gmail.com**

**Anahtar kelimeler:** Türk dünyası, Azerbaycan, Gence, şehir kültürü, tarihi yerdeğişme

Elverişli coğrafi koşullara sahip olan Gence şehrinin Bakü-Tiflis kervan yolu üzerinde bulunması, onun, hem Zakafkasya`nın Bakü, Tiflis, Nahçıvan, Şuşa, Şamahı ve başka şehirleri, hem de Doğu'nun Tebriz, İstanbul gibi büyük ticaret merkezleri ile ilişki kurmasına olanak veriyordu. Şehir gibi en az 3-4 bin yıldan fazla tarihe sahip olan Gence şehrinin en az 5 defa yerini değişmesi ile ilgili son yıllarda çok saylı ilmi bilgiler, tarihi, arkeщloji-etnografik ve maddi medeniyet malzemeleri bulunmuştur.

Önemle vurgulamak gerekir ki, 2017-2024 yıllarından itibaren Azerbaycanlı uzmanlarla beraber, dünyanın önemli bilim adamlarının - ABD'nin Smitson Enstitüsünün Milli Tabiat Tarihi Müzesinin, Japonya'nın Tokyo Müze Üniversitesinin, Fransa'nın İkinci Lion Üniversitesinin araştırmacılarının katılımı ile kadim şehir arazilerinde teşkil edilmiş uluslararası katılımcıların elde ettiği ilmi neticeler esasında kanıtlanmıştır. Gence'nin orijinal şehri, halk arasında "Kale yeri" olarak adlandırılan Genceçay'ın sol kıyısında, Zurnabad köyüne beş kilometre uzaklıktaki Gadamiş köyü yakınlarındaki bölge olarak kabul edilir.

427 yılındaki deprem ve Hunlar ile Sasaniler arasındaki savaşlar sonucunda Gence antik kenti yıkılmış ve ikinci kez şehir, Altın Kaya'nın 9-10 km kuzeyindeki Altın Kaya'dan 8-9 verst uzaklıkta kurulmuştur. Şimdiki Gence şehri. 7. yüzyılda Arap işgalcileri tarafından tahrip edildi.

Üçüncü kez yer değiştiren Gence, şimdiki Samuh ilçesi topraklarında bulunan "Şehir Burnu" denilen bölgede kurulmuştur. Bir doğal afet sonucu yerle bir olan Gence şehri, şimdiki İmamzade bölgesinin bulunduğu harap arazi olan Şeyh ovası denilen bölgede 7-17. yüzyıllarda dördüncü kez var olmuştur.

Beşinci kez Gence şehri, 17. yüzyılda Şah Abbas I tarafından mevcut Gence kalesinin topraklarında inşa edildi. Kurulduğu günden beri en az beş defa yerini değişen Gence jeopolitik ve stratejik taraftan uygun bir ortamda yerleştiğinden beri yabancıların gözü önünde olmuştur. Defalarca dehşetli depremlerin yeri olan Gence bundan başka farsların, gürcülerin, Harezm, moğol, arapların ve rusların defalarca askeri baskınlarına maruz kalmıştır.

Tarihin belirli zamanlarında harp meydanına dönen Gence maruz kaldığı olaylardan sarsılmış, buna rağmen kökünden kuvvet alarak dirilmiş ve gelişerek muhteşem şehirler seviyesine yükselmiştir. Bu olay bir daha Gence'nin kadim ve çok asırlık şehir medeniyeti geleneklerine istinat ettiğini gösteriyor.

Meşhur yabancı alimler, arkeologlar Zare, Morqan, Virxov, Belk, Resler, İvanovski, Rozendorf, Şults, Skinder, Paritsenmayer, Hummel kardeşleri ve İsak Caferzade gibi meşhur arkeologların yürüttükleri uzun zamanlı arkeoloji araştırmaları Gence şehrinin kadim tarihe sahip olduğunu göstermişdir.

Gencede en az üç-dört bin yıl bundan önce şehir medeniyetinin bütün önemli tarafları ile ortaya çıkmasının araştırılmasında sanat sahaları bin yıllıklara istinat eden sanatkarlık geleneklerinin nesilden nesile aktarılması sahasında Gencede şehir medeniyetinin hızlı

yükselmesi için zaruri tarihi ortam yaratılmıştır. Dünyanın en kadim şehirlerinden biri olan Gence deniz seviyesinden 400-500 metre yükseklikde, başkent Bakü'den 360 km batıda, Küçük Kafkas dağlarının kuzey – doğu eteğinde Gence – Kazak düzenliğinde yerleşiyor. Gence şehrinin isminin etimolojisi hakkında şimdiye kadar farklı fikirler mevcut olmuştur. Bazı yazarlar - M.Şopen, Sen-Martin, Y.Markvayt, N.Marr, K.Patkanov ve diğerlerine göre, Gence şehrinin adı fars dilindeki ''genç'' - hazine sözü ile bağlıdır. E.Reslere göre Gence Azerbaycan sözü olup ''açık yer'', ''geniş yer'' manasındadır. XI asrın tarihçisi M.Kaşğari, aynı zamanda da Gence toponimini araştıran bir çok diğer meşhur araştırmacılar şehrin adını kadim türk tayfalarından olan ''Gencekler''in isminden götürüldüğünü ilmi kanıtlarla kanıtlamışlar. Kadim devirlerden genceklerin yayıldıkları arazilerde bir çok meskenler onların ismi ile isimlendirilmişti.

Doğu Asya'da ''Gencek Sengir'', Kırgızistan'da Talas yakınlığında ''Gencek'', Rusya Federasyonunun Amur vilayetinde ''Genja'', Dağıstanda ''Hunzah'', Tacikistanda ''Ganççi'', Gürcüstanda ''Gandzani'' isimli mekanlar direkt gencek tayfalarının ismi ile bağlıdır.

Gence'de tunç devrinin sonlarında gelişmiş ''Demircilik", "Bakırcılık", "Çömlekçilik", "Şerbafçılık'' gibi sanatkarlık sahasında yüksek derecede bir yere toplanmanın mevcut olması, bu mesleklerle meşgul olan sanatkarların mesleki bakımdan yükselmesi ve bundan kaynaklı olarak ihtisaslaşmanın güclenmesi, aynı zamanda zengin etnografik medeniyeti Gencenin şehir gibi yaşının bin yıldan fazla olmasını ispat eden sebeplerdendir. Artık ilk orta asırlar devrinde Gencede okullar, medreseler, şahsi ve sosyal kütüphaneler faaliyet göstermiş, ''Hikmet evleri'' ve ''Şifa ocakları'' kurulmuştur. Şeyh Nizaminin okuduğu ve ismini zikr ettiği eserlerden de anlıyoruz ki, Gencede Zengin kütüphaneler ve bin yıllıklara dayanan bilimsel-kültürel ortam mevcut olmuştur

# MƏHƏMMƏDHÜSEYN ŞƏHRİYARIN ANADİLLİ YARADICILIĞINDA TÜRKÇÜLÜK İDEYALARININ TƏBLİĞİ

**Esmira İsmayılova**
**müəllim**
**Lənkəran Dövlət Universiteti**
**esmira.ans@mail.ru**

**Açar sözlər:** ana dilli türkçülük, ideya, vətənpərvərlik

XX əsr Cənubi və Şimali Azərbaycan ədəbiyyatının klassiklərindən sayılan, böyük söz ustadı Seyid Məhəmmədhüseyn Şəhriyarın anadilli poeziyası mövzu baxımından olduqca rəngarəng, çoxşaxəli, məzmunlu, ideya cəhətdən zəngindir. Milli-mənəvi dəyərlərə, soy-kökə, milli yaddaşa bağlılıq, doğma dilə məhəbbət şairin anadilli poeziyasında öz real bədii əksini tapır. Vətəninə qəlbən bağlı olan, yaratdığı sənət əsərlərində bu sevgini böyük ustalıqla təsvir və tərənnüm edən M. Şəhriyar yaradıcılığında Türk dilinə, Türk elinə diqqət də ön planda olmuşdur.

"Əvvəli sultani-eşq, axırı ustadi-şeir Şəhriyar" adlandırılan dahi söz sərrafı ana dilində yazdığı “Türkün dili”, “Dərya elədim”, “Türkiyəyə xəyali səfər”, “Türk övladı, qeyrət vaxtıdır” şeirlərində Türk dilini vəsf etməklə yanaşı, özünün Türk oğlu olması ilə fəxr etdiyini də qürurla bəyan edir. Azərbaycan dilinin İranda rəsmən qadağan olunduğu, məhəlli səciyyəli ləhcə adlandırıldığı bir dövrdə Türk dili və türkçülüyü təbliğ edən əsərlərin yazılması əsl qeyrət məsələsi idi, sənətkardan cəsarət və qəhrəmanlıq tələb edirdi.

M. Şəhriyarın “Türkün dili” qəzəli İranda dil ayrıseçkiliyi salan, xüsusilə Azərbaycan dilinin işlədilməsinə qadağalar qoyan fars millətçilərinə ünvanlanmış kəskin ittihamnamədir. 1969-cu ildə yazılmış şeirdə “Türkün dili tək sevgili, istəkli dil olmaz” - deyən şair Azərbaycan xalqının İranın həyatında oynadığı rol barədə önəmli fikirlər söyləmiş, onun zənginliyi, folkloru ilə fəxr etdiyini gizlətməmişdir:

Fars şairi çox sözlərini bizdən aparmış,
Sabir kimi bir süfrəli şair pəxil olmaz.
Türkün məsəli, folkloru dünyada təkdir,
Xan yorğanı kənd içrə məsəldir mitil olmaz.

Türk dilinə olan sevgisini M.Şəhriyar “Dərya elədim” adlı qəzəlində də tərənnüm etmiş, bu dilin yaşaması, yayılması üçün özünün də var gücü ilə mücadilə etdiyini dilə gətirmişdir:

Türki bir çeşmə isə, mən onu dərya elədim,
Bir soyuq mərəkəni məhşəri-kübra elədim.

M.Şəhriyar “analar oxşaması, laylay dili” olan Türk dilinin məhz onun kimi şairlərin sayəsində yaşadığını və əbədi olaraq var olacağını bildirir, bu yolda mübarizədən bir an da olsa çəkilməyəcəyini deyir:

Türkinin canını almışdı həyasız tağut,
Mən həyat aldım ona, haqq üçün ehya elədim.
Acı dillərdə şirin türki olurdu hənzəl,
Mən şirin dillərə qatdım onu, halva elədim.
Türki, vallah, analar oxşağı, laylay dilidir,
Dərdimi mən bu dəva ilə müdava elədim.

M.Şəhriyar Türkiyəyə getmək arzusunu çox təəssüf ki, reallaşdıra bilməmişdir. Çox güman ki, bu, obyektiv və subyektiv səbəblərlə bağlı olmuşdur. Amma şair bu arzusunu “Türkiyəyə xəyali səfər” şeirində obrazlı şəkildə əks etdirmişdir:

Gəlmişəm nazlı hilal ölkəsinə,
Fikrətin incə xəyal ölkəsinə.
Akifin marşı yaşardıb gözümü,
Baxıram Yəhya Kamal ölkəsinə

Şair Türkiyədən vurğunluqla bəhs etsə də, özünün Azərbaycan türkü olmağı ilə fəxr etdiyini də xüsusi vurğulayır:

Mən də Azər balası, Türk oğlu,
Qonağam doğma qarındaşlarıma.
Demişəm ayrı düşən leşlərimi,
Gedəlim, vəsl edəlim başlarıma

M.Şəhriyarın 1986-cı ilin sentyabr ayında yazdığı "Türk övladı, qeyrət vaxtıdır" şeiri şairin türkçülüyü və milli mənlik şüurunu təbliğ edən əsərləri içərisində xüsusi yer tutur. Burada başlığa çıxarılmış "Türk övladı" kəlmələri geniş məna daşıyır, təkcə Cənubi və Şimali Azərbaycana deyil, Türkiyə Respublikasına, bütün Türk dünyasına şamil edilməlidir.

Xatırladaq ki, ustad sənətkarın anadilli yaradıcılığının zirvəsi sayılan "Heydərbabaya salam" poeması Ankarada Azərbaycan dərnəyinin orqanı olan "Azərbaycan" jurnalında 1954-cü ildə dərc edilib və böyük oxucu marağı qazanıb. Görkəmli ictimai-siyasi xadim Məhəmməd Əmin Rəsulzadənin yazdığı "Ədəbi bir hadisə" adlı məqaləsi "Heydərbabaya salam" poeması haqqında ilk elmi yazı hesab olunur. Məqalə 1955-ci ildə "Azərbaycan" jurnalında dərc olunmuşdur.

Böyük mütəfəkkir Məhəmməd Əmin Rəsulzadənin adıçəkilən məqaləsinin təsiri ilə 1960-cı illərdə Türkiyədə Şəhriyar barəsində tədqiqatların sayı sürətlə artmağa, şair haqqında elmi-publisistik əsərlər yazılmağa başlanılıb. Türkiyəli tədqiqatçı alim Məhərrəm Erginin "Azəri türkcəsi" kitabı Şəhriyarın "Heydərbabaya salam" poemasının leksik-qrammatik xüsusiyyətlərinin təhlili barədədir.

Tədqiqatçı şair M.İsmayılın məqaləsində M.Şəhriyarın yaradıcılığının Türk dünyasına təsiri belə şərh olunur: "Şəhriyar yalnız paramparça olan Azərbaycanın deyil, eyni zamanda bütün Türk dünyasının mənəvi birliyinə önəmli töhfələr verən bir sənətkardır. Millət fərdlərin deyil, mərdlərinin sayı ilə güclü olur. Torpağın dərd və sızıltılarını yarpaq dilləri ilə aləmə yaymaq üçün ormanın bütün güc və enerjisini bir ağaca verməsi kimi, toplum da ağrı və acılarını dünyaya bildirmək üçün içindən bir övladına bu vəzifəni verir. Məhəmmədhüseyn Şəhriyar da Türk dünyasında bu tarixi missiyanı yerinə yetirən o öndər sənətkarlardan biridir".

Qüdrətli söz ustadı M.Şəhriyar Türk xalqlarının tarixinin, mədəniyyətinin qədim və zənginliyinə görə daim fərəh duymuş, əsərlərində Türk millətinin mədəni-mənəvi keyfiyyətlərini böyük məhəbbətlə təsvir və tərənnüm etmiş, türkçülük ideyalarına daim sadiq qalmışdır. Şairi Türk dünyasında daim yaşar edən də bu keyfiyyətləridir.

# DƏDƏ QORQUD DASTANLARINDA VƏ OĞUZNAMƏLƏRDƏ QƏDİM ADLARIMIZ

**Əkrəm Hüseynzadə**
**dosent**
**Naxçıvan Dövlət Universiteti**
**ekrem.h@mail.ru**

**Açar sözlər:** Dədə Qorqud dastanları, Oğuznamələr, yer adları, tarix, coğrafiya

Xalqımızın ən qədim ulu mənəvi abidəsi olan "Kitabi Dədə Qorqud" dastanının boylarında müxtəlif adlar - şəxs adları, yurdumuzun qədim yerlərinin adları çəkilir. Dastanda bu adların çəkilməsi yurdumuzun tarixini, coğrafiyasını, insanlarını, onların həyat tərzini öyrənməyə əsaslı zəmin yaradır. Bu adlar qədim Azərbaycanın müxtəlif bölgələrində - Göyçə mahalında, Borçalıda, Dərbənddə, Trabzonda baş verən hadisələrin yerlərinin adlarıdır. Bu yerlərdə hadisələrin cərəyan edilməsi, dastanda yerlərin göstərilməsi həm də qədim yurdumuzun genişliyini, ərazisini bildirən dəyərli bir mənbədir. Dastanda adı çəkilən bir çox yer adları Naxçıvan ərazisindədir. Burada Əlincə, Şərur-Dərələyəz, Ağ qaya, Altun taxt, Qaracuq, Qarasux, Şərik (Şərur), Dərəşam, Göyçə dəniz (Göygöl), Günortac (Günorta daşı), Sallaxana, Qazan və s yer adları vardır. Ümumiyyətlə Naxçıvan regionunda dastanda adı çəkilən müxtəlif yerlərin, şəxs adlarının və qəhrəmanlarının adını yaşadan 50-dən artıq etnonim, toponim və mikrotoponim qeydə alınmışdır.

Naxçıvan MR Ordubad rayonunun Kilit və Kotam kəndlərində qədim Oğuz Türk tayfaları yaşamışdır ki, onlardan birinin adı İşquzlar (İç oğuzlar), digəri isə Diqliqoz (Dinqiliqoz) adlanır ki, bu da dış Oğuzların adı ilə bağlıdır. Hətta bəzi mənbələrdə göstərilir ki, Salur Qazanın sərkərdələrinin birisinin adı Dinqili bəy olmuşdur. Dastandan məlum olur ki, orada gedən proseslərin mühüm bir qismi Naxçıvan ərazisində baş vermişdir. Bayandır xan və Qazan xan hakimiyyətləri, onların iqamətgahları çox ehtimal ki, bu ərazilərdə olmuşdur.

Dədə Qorqud dastanında və "Oğuznamə"lərdə adı çəkilən və böyük maraq doğuran, tarixi əhəmiyyət kəsb edən adlardan biri "Kanlı", "Kanqlı", "Qanlı Qoca" adıdır ki, bu ad bu gün Naxçıvanda və Azərbaycanın digər yerlərində yaşayan Kəngərli soyadını daşıyan qədim "Kanqlı", "Kəngərli" tayfalarının adı ilə bağlıdır.

Kəngərlilər tarixən cəsur, cəngavər döyüşçü Türk qəbiləsi olmuşdur. "Kəngərli" sözü bəzi mənbələrdə qəhrəmanlıq, igidlik mənasını ifadə edən "Qanq+ər+eli" kəlmələrindən meydana gəldiyi də göstərilir.

Tarixi mənbələrin qeydinə görə və bəzi rəvayətlərə görə bizim eranın IV əsrində Muğanın Cənubunda Hun–Türk tayfaları yaşayırdılar. Bunların arasında Kəngərlilər çoxluq təşkil etmişlər. Tarixşünas alimlər göstərmişlər ki, "Kəngərli mənşəli qəbilələr eramızın IV–VII əsrlərində indiki Azərbaycan Respublikası və onun ayrılmaz parçası olan Naxçıvanda və bu yerə yaxın bölgələrdə qədimdən məskunlaşmışlar.

Rusiyada konsul olaraq İrana gedən Yermolov yolüstü bir neçə gün Naxçıvanda Naxçıvan xanı Kalbalı xana, onun oğlu Ehsan xana qonaq olmuşdur. Yermolov bu yolüstü görüş haqqında xatirəsində yazır ki, Kalbalı xan Kəngərli mənə dedi ki, üç min ildən artıqdır ki, bizim Kəngərli tayfası bu ölkəni idarə etmişdir. Bizə xoş münasibət göstərənlərə sadiq dost olmuşuq, düşməni isə nifrətlə qarşılamışıq, vətənimizi onlardan cəsarətlə qorumuşuq.

Xalqımızın ən qədim folklorlarından biri olan "Oğuznamə"lərdə də Kəngərlilərin qədim adı keçməkdədir. Azərbaycanın Oğuz elinə daxil olması tarixi mənbələrə də məlumdur. Bir çox alimlər oğuzların Azərbaycanda, Anadoluda eradan çox-çox əvvəllər

yaşadıqlarını qeyd etmişlər. Faruq Sümərin “Oğuzlar” əsərində deyilir: “Oğuzlar azərbaycanlıların əcdadlarıdır. Oğuzlar Türkiyə türkləri, Azərbaycan türkləri, İran və Türkmənistan türklərinin atalarıdır”. F.Rəşidəddinin “Oğuznamə”sini farscadan tərcümə edən R.M.Şükürova qeyd edir ki, bu “Oğuznamə” ya Anadoluda yazılmış, ya da Azərbaycanda yazılmışdır. “Oğuznamə”də “Azərbaycan” sözünə bir neçə yerdə rast gəlmək olur .

“Oğuznamə”lərdən məlum olur ki, arabanı kəşf edənlər Kanqlı tayfası olmuşdur. “Oğuznamə”də deyilir: “Oğuz Kağanın çeriyində bacarıqlı, cüssəli bir kişi vardı. Bu kişi bir araba çapdı”. Arabalar gedəndə “Kanğa, kanğa” deyə səs çıxarırdılar. Onun üçün arabaya “Kanğa” adı qoydular. Oğuz Kağan kanğaları gördü, güldü, ayıtdı. Qoy yüklü arabaları əsirlər çəksin. Sənə verilən “Kanğalıq” adı qoy kanğanı yada salsın”.

Dədə Qorqud hekayələri Oğuz dastanının bir hissəsi və ya davamı kimi də adlandırıla bilər. Elə kitabın içində də bu hekayələrin Oğuznamə adlandırıldığını görürük. “Qazılıq qoca oğlu Yeynək boyu”nda deyilir: “Min yerdə ipək xalça döşənmişdi. İç Oğuz və Dış Oğuz bəyləri məclisə toplaşmışdı. Dədəm Qorqud gəlib boy boyladı soy soyladı. Bu Oğuznamə Yeynəyin olsun!- dedi”.

Görkəmli ədəbiyyatşünas alim Fuad Köprülü Dədə Qorqud kitabındakı on iki boyun hər birini ayrıca “Oğuznamə” adlandırmışdır.

Fəzlullah Rəşidəddinin (XIV əsr) “Oğuznamə”sində Oğuzun şəcərəsi verilmişdir ki, bunun Nuh Peyğəmbərdən (s) gəldiyi göstərilir. Yeri gəlmişkən qeyd edək ki, Nuh Peyğəmbərin (s) gəmisinin Naxçıvanda Gəmiqayada-onun Kiçik Qafqazın ən yüksək zirvəsi olan Qapıcıqda (3906 m) oturması və Nuh Peyğəmbərin (s) qəbrinin Naxçıvanda “Köhnə Qala”da olması mənbələrdə göstərilir. Naxçıvanlı realist rəssam Bəhruz Kəngərli (1892-1922) 1919 və 1921-ci illərdə Nuhun qəbrinin bir neçə variantda rəsmini çəkmişdir. Sərdabəli bu məzar palçıq kərpicdən hörülmüş və yer üstündən 1, 1.5 metr yüksəklikdə dairə şəklindədir. Çox maraqlı və diqqət çəkici budur ki, görkəmli Qazax alimi, şairi, türkoloq Oljas Süleymenov “Az-ya” əsərində Türk xalqlarına məxsus maraqlı bir məlumatı qeyd edir ki, Kəngərli tayfasının bilavasitə xalqımızın yazı mədəniyyəti ilə sıx bağlılığı vardır: “Eramızdan əvvəl III əsr Çin salnaməçisi göstərir ki, Kanqyu (“Kanqlı”) xalqı ənənəvi Çin yazısından fərqli olaraq eninə – horizontal xətlə yazırmışlar”.

O tay, bu tay Azərbaycanımızda “Baba” sözlüklü xeyli tarixi yerlərimiz, müqəddəs məkanlarımız da vardır ki, onlardan biri o taydan Mərənd, bu taydan Naxçıvan yaxınlığında Arazın o tayında yerləşən “Kərgər” tayfasının adı ilə bağlı olan “Baba Kərgər” yeri və çayıdır ki, bu da yenə “Kəngərli” kəlməsi ilə bağlı olan bir tarixi addır.

# İNGİLİS DİLİNİN TƏDRİSİNDƏ PERFECT ZAMANLAR SİSTEMİ VƏ ONUN AZƏRBAYCAN DİLİNDƏ İFADƏSİ

**Gülnar Bayramova**
**magistrant**
**Sədaqət Abbasova**
**dosent**
**Lənkəran Dövlət Universiteti**
**gulnarbayramova17@gmail.com**
**sadagat2001@yahoo.com**

**Açar sözlər:** zaman formaları, qrammatik struktur, tərcümə, bitmiş zamanlar, praktik istifadə

İngilis dilində "perfect" zamanlar sistemi (Perfect Tenses) dərinləşdirilmiş şəkildə hadisələrin tamamlandığını ifadə edən zaman formalarıdır. Bu zamanlar bir hərəkətin müəyyən bir dövr ərzində tamamlanmasını və ya təsirini vurğulayır. Tədrisdə "perfect" zamanların öyrədilməsi tələbələr üçün çətin görünə bilər, lakin onların məntiqini və istifadəsini düzgün anlamaq bu prosesi asanlaşdırır.

İngilis dilindəki perfect zamanlar sistemi bitmiş zamanları ifadə etmək üçün istifadə olunur və bir hərəkətin nəticəsi, tamamlanmışlığı və ya indiki vəziyyətə təsiri haqqında məlumat verir. Perfect zamanlar əsasən Present Perfect, Past Perfect, və Future Perfect kimi zaman formalarında mövcuddur. Hər biri Azərbaycan dilində fərqli şəkildə ifadə olunur.

1. Present Perfect (İndiki Bitmiş Zaman)

İngilis dilində bu zaman bir hərəkətin keçmişdə başladığını və indiyədək tamamlandığını və ya hələ də təsirinin olduğunu göstərir. Bu zaman formasında cümlə strukturu aşağıdakı kimi olur.

have/has + Participle II (feli sifət II).

Məsələn:

"I have finished my homework." (Mən tapşırığımı bitirmişəm.)

"She has lived here for five years." (O, burada beş ildir ki, yaşayır.)

Azərbaycan dilində, bu zaman forma daha çox indiki zamanda tamamlanmış və nəticəsi indiki zamanda görülən hərəkət kimi ifadə olunur. Çox vaxt keçmiş və indiki zaman formalarından istifadə olunur.

Məsələn:

"Mən tapşırığı bitirmişəm."

"O, beş ildir ki, burada yaşayır."

2. Past Perfect (Keçmiş Bitmiş Zaman)

Bu zaman keçmişdə iki hadisədən birinin daha əvvəl baş verdiyini göstərir. Bu zaman formasında cümlə strukturu aşağıdakı kimi olur.

had + Participle II (feli sifət II).

Məsələn:

"She had left before I arrived." (Mən gəlməzdən əvvəl o, çıxmışdı.)

Azərbaycan dilində iki keçmiş hadisə arasındakı ardıcıllığı göstərmək üçün işlədilir. Bu zaman, keçmişdə baş verən hərəkətin əvvəl baş verdiyini göstərmək üçün "artıq" kimi sözlərdən istifadə edilir.

Məsələn:

"O, mən gəlməzdən əvvəl artıq çıxmışdı."

3. Future Perfect (Gələcək Bitmiş Zaman)

Bu zaman gələcəkdə müəyyən bir anda tamamlanacaq hadisələri ifadə edir. Bu zaman formasında cümlə strukturu aşağıdakı kimi olur.

will have + Participle II (feli sifət II).

Məsələn:

"By next week, I will have finished the project." (Gələn həftəyə qədər layihəni bitirmiş olacağam.)

Azərbaycan dilində bu zaman forma "bitirmiş olacağam" kimi keçmişdə tamamlanacaq gələcək hadisəni ifadə edir.

Məsələn:

"Gələn həftəyə qədər layihəni bitirmiş olacağam."

İngilis dilindəki perfect zamanlar Azərbaycan dilində tam uyğun olmasa da, hərəkətlərin nəticəsini, tamamlanmasını və ya keçmişdə baş vermiş olayları ifadə etmək üçün keçmiş, indiki və gələcək zamanların müxtəlif birləşmələri ilə ifadə olunur. Əhəmiyyətinə baxmayaraq, bitmiş zamanlar çox vaxt öyrənənləri çaşdırır. Bu strukturların qavranılmasının çətinləşməsinə bir neçə amil səbəb ola bilər:

Birbaşa tərcümənin olmaması: Bir çox dillərdə bitmiş zaman sisteminə birbaşa ekvivalent yoxdur və bu, ana dili olmayanların konsepti başa düşməsini çətinləşdirir. Məsələn, Azərbaycan dilində bitmiş zaman istifadəsi ingilis dilindən əhəmiyyətli dərəcədə fərqlənir ki, bu da öyrənənlərin sözdən sözə tərcümə etməyə cəhd edərkən çaşqınlıq yarada bilər.

Zamana istinad: Bitmiş zamanların ən çaşdırıcı tərəflərindən biri zaman istinadını başa düşməkdir. Məsələn, indiki bitmiş zamanda diqqət hərəkətin nə vaxt baş verdiyinə deyil, indiki zamana təsir etdiyinə yönəldilir. Tələbələr çox vaxt oxşar istifadələrinə görə sadə keçmişlə indiki bitmiş arasında fərq qoymaqda çətinlik çəkirlər.

Kontekstual İstifadə: Bitmiş zamanlar tez-tez xəbər hesabatları, ədəbiyyat və ya rəsmi ünsiyyət kimi xüsusi kontekstlərdə istifadə olunur, bu da o deməkdir ki, öyrənənlər gündəlik söhbətdə onlarla tez-tez qarşılaşmaya bilər.

Yuxarıda göstərilən problemləri nəzərə alaraq, müəllimlər bitmiş zamanları effektiv şəkildə öyrətmək üçün xüsusi strategiyalar qəbul etməlidirlər.

Bitmiş zamanları ayrı-ayrılıqda öyrətməkdənsə, kontekst təmin etmək vacibdir. Müəllimlər bitmiş zamanlarla digər zamanlar arasındakı fərqi aydın göstərən cümlələr təqdim etməlidirlər. Məsələn, “I ate breakfast” ilə “I have eaten breakfast” cümlələrini müqayisə etmək şagirdlərə bitmiş zamanların mənaya təsirini görməyə imkan verir.

Tələbələri real həyat vəziyyətlərində bitmiş zamanlardan istifadə etməyə təşviq etmək onların anlayışlarını möhkəmləndirməyə kömək edə bilər. Məsələn, tələbələrdən indiki bitmişdən istifadə edərək keçmişdə yaşadıqları təcrübələr haqqında danışmağı və ya keçmiş bitmişdən istifadə edərək hadisələrin ardıcıllığını təsvir etməyi xahiş etmək onlara qrammatik strukturları praktik istifadə ilə əlaqələndirməyə kömək edir.

Ədəbiyyatda, xəbər hesabatlarında və rəsmi yazılarda bitmiş zamanlara tez-tez rast gəlinir. Tələbələri ingilis dilində qəzetlər, məqalələr və ya kitablar oxumağa həvəsləndirmək onlara müxtəlif mətnlərdə bitmiş zamanların necə istifadə olunduğunu anlamağa kömək edə bilər.

Bitmiş zamanlar ingilis dilinin ayrılmaz hissəsidir və zaman əlaqələrini, tamamlamanı və aktuallığını ifadə etməkdə həlledici rol oynayır. Bununla belə, onların mürəkkəbliyi onları öyrənənlər üçün ingilis qrammatikasının çətin aspektinə çevirir. Diqqətli təlimat, kontekstual təcrübə və real həyat nümunələri vasitəsilə müəllimlər tələbələrə bitmiş zamanlarla bağlı çətinlikləri aradan qaldırmağa və onların istifadəsini daha dərindən dərk etməyə kömək edə bilər.

# İNGİLİS DİLİNDƏ FEİLİN MƏCHUL NÖVÜNÜN QISA MƏTNLƏRLƏ TƏDRİSİ METODU

**Gündüz Quluyev**
**magistrant**
**İlham Tahirov**
**professor**
**Lənkəran Dövlət Universiteti**
**Azərbaycan Milli Elmlər Akademiyası Nəsimi adına Dilçilik İnstitutu**
**gunduz.quliyev.1985@gmail.com**
**ilham_tahir@rambler.ru**

**Açar sözlər:** ingilis dili, məlum növ, məchul növ, mətn, tədris, metod

İngilis dili mürəkkəb quruluşa malik qədim bir dildir. Feilin məchul növü (passive voice) ingilis dilində cümlə quruluşunda ən çox istifadə edilən qrammatik konstruksiyalardan biri hesab olunur və onun mənimsənilməsi dil öyrənənlər üçün əhəmiyyətli bir tədris komponentidir. Məchul növün öyrənilməsi zamanı dil öyrənənlərin mövzunu əzbərləməsi kifayət etmir, çünki mövzunun dərin məzmunu yalnız əzbərləməklə tam mənimsənilə bilməz. Mövzunun tam mənimsənilməməsinin əsas səbəblərindən biri, izahdan sonra kifayət qədər müxtəlif tipli və maraqlı praktiki tapşırıqların təqdim edilməməsidir. Belə hallarda şagirdlər əldə etdikləri bilikləri qısa müddət ərzində unudur və ya tam olaraq mənimsəyə bilmirlər. Şagirdlərin öyrəndikləri mövzunu daha effektiv şəkildə yadda saxlamaları üçün aşağıdakı tədris metodları faydalı ola bilər. Əvvəlcə, məlum növdə olan feillərin məchul növə çevrilmə qaydasını göstərən düsturun təqdim edilməsi və nümunələrlə izahı olduqca vacibdir. Bütün zaman formalarında bu qaydanın nümunələrlə izahından sonra, öyrənənlərin mənimsədikləri bilikləri daha da möhkəmləndirmək məqsədilə müstəqil şəkildə təhlil etmək üçün onlara mətnlər təqdim edilir.

İlkin olaraq öyrənənlərə məlum və məchul növlə bağlı əsas qrammatik qaydaları aşağıdakı kimi izah edirik:

Mübtəda (subject) + to be (feilin müvafiq zaman formasında) + əsas feilin III forması (past participle)

İzah edilməli olan əsas qaydalar.

1. Aktiv cümlədəki mübtəda məchul cümlədə tamamlıq olur: Məsələn, "They build houses" (Onlar ev tikirlər) → "Houses are built (by them)" (Evlər tikilir) (onlar tərəfindən).
2. Aktiv cümlədəki feil passivdə "to be" + III forma ilə əvəz olunur: Zaman formasından asılı olaraq, "to be" feili müvafiq forma alır, məsələn, indiki zaman üçün "am/is/are", keçmiş zaman üçün "was/were", gələcək zaman üçün "will be".
3. İcraçı şəxs vacib olduqda cümlənin sonuna "by" ilə əlavə olunur: Əgər icraçının kim olduğu önəmli deyilsə, onu cümlədən çıxarmaq olar. Məsələn, "The letter was written" (Məktub yazıldı) – icraçının kim olduğu vacib deyil.

Fərqli zamanlarda məlum növ aşağıdakı şəkildə məchul növə çevirilir.

1. İndiki sadə zaman (Present Simple): Aktiv: They make cakes. Passiv: Cakes are made (by them).
2. Keçmiş sadə zaman (Past Simple): Aktiv: They built a house. Passiv: A house was built (by them).
3. Gələcək sadə zaman (Future Simple): Aktiv: They will paint the walls. Passiv: The walls will be painted (by them).

4. İndiki davamedici zaman (Present Continuous): Aktiv: They are fixing the car. Passiv: The car is being fixed (by them).
5. Keçmiş davamedici zaman (Past Continuous): Aktiv: They were cleaning the room. Passiv: The room was being cleaned (by them).

Bütün qaydalar izah edildikdən sonra öyrənənlərə aşağıdakı qısa mətni təqdim edib onlardan məlum növdə olan cümlələri müəyyənləşdirib məchul növə çevirilməsini istəyirik.

Yesterday, the students completed their homework. They discussed the problems with the teacher during the class. Later, the principal announced that a new program would be introduced next week. The students eagerly awaited the new lessons, and they shared their excitement with each other. The teacher explained the benefits of the new program, and everyone seemed pleased with the changes.

Mətn (Məchul növə çevrilmiş cümlələr):

1. Yesterday, the homework was completed by the students.
2. The problems were discussed by them with the teacher during the class.
3. Later, it was announced by the principal that a new program would be introduced next week.
4. The new lessons were eagerly awaited by the students, and their excitement was shared with each other.
5. The benefits of the new program were explained by the teacher, and the changes were found to be pleasing by everyone.
6. Yesterday, the homework was completed by the students.
7. The problems were discussed by them with the teacher during the class.
8. Later, it was announced by the principal that a new program would be introduced next week.
9. The new lessons were eagerly awaited by the students, and their excitement was shared with each other.

Tədqiqat göstərir ki, mövzunun yalnız izah və əzbərləməklə öyrənilməsi yetərli olmadığı üçün müxtəlif tipli praktiki tapşırıqlar və aktiv təlim metodları tələb olunur. Bunun kimi bir sıra nümunələr əsasında qaydaların izah edilməsi, şagirdlərin cümlə quruluşunu anlamaqda və tətbiq etməkdə daha uğurlu olmalarına kömək edir. Məchul növün effektiv mənimsənilməsi üçün dil öyrənənlərə müstəqil təhlil və tətbiq imkanı verilməli, bu proses davamlı və interaktiv şəkildə aparılmalıdır. Bu yanaşma, dil öyrənənlərin məchul növdə cümlə quruluşunu daha yaxşı başa düşmələrinə və yadda saxlamalarına kömək edir.

# İNKLÜZİV TƏHSİL PROSESİNDƏ VALİDEYNLƏRLƏ ƏMƏKDAŞLIQ

**Günel Nəcəfova**
**müəllim**
**Ayşən İsmayılova**
**müəllim**
**Mingəçevir Dövlət Universiteti**
**gunel.necefova.35@mail.ru**
**ismayilzade_omer@mail.ru**

**Açar söz:** sağlamlıq imkanları məhdudluğu, passiv reaksiyalı ailələr, hiperaktiv reaksiyalı ailələr, psixoloji konsultasiya, psixoloji dəstək

Uşaqların sağlamlıq imkanlarının məhdudluğu günbəgün artmaqdadır. Bu artımın əsas səbəbləri arasında ekoloji şəraitin pozulması, gələcək valideynlərin və xüsusilə də anaların sağlamlıq problemləri, həll olunmamış sosial-iqtisadi problemlər sayıla bilir. Hazırda, dünya cəmiyyətində uşaqların sosiallaşmasına özəl diqqət ayrılır və ehtiyac vardır. Vurğulanmalıdır ki, bu məsələ ölkəmizdə hal-hazırda da aktualdır və çox böyük bir problemdir.

Məhdudiyyətli şəxslərin valideynləri üçün uşaqlara qulluq məsuliyyətlidir. Uşaqlarının öyrənmə və sosiallaşma prosesində öhdəlikləri daha da artır. Çoxsaylı araşdırmalar göstərir ki, bu qəbildən olanların valideynləri emosional gərginlik, həyəcan, günah hissi və s. mənfi emosialar keçirirlər və xroniki stress vəziyyətində olurlar. Bütün bunlar valideynlərin uşaqlarına olan münasibətlərinə təsir edir və uşaqların sağlamlıq və inkişafı üzərində olumsuz təsir göstərir.

Bu kateqoriyadakı ailələr üçün dəstək proqramları və sosial yardım təşkilatları vacibdir. Ailələrə edilən dəstək vasitəsilə valideynlər uşaqlarının problemləri ilə daha yaxşı başa çıxır və özlərini daha az stressli hiss edirlər.

Məhdudiyyətli uşağın ailədə doğulması valideynlər üçün fərqli bir hadisədir. Bu zaman onlar üçün 3 reaksiya növü mövcuddur:

- Passiv reaksiyalı ailələr - problemin ağırlığını başa düşmədə, qarşıya alınan tədbirlər haqqında qərar verilmədə təxirə salınma ilə əlaqəli olanlar;
- Hiperaktiv reaksiyalı ailələr - uşağın müalicəsi üçün çox iş görənlər, yüksək dəyərləndirilən dərmanlara üstünlük verənlər, çoxsaylı klinikalara gedənlər və s.
- Ortaq razılaşmış və razılaşmamış ailələr - təlimatları ardıcıl icra edənlər və ya problemin ağırlığı ilə mübarizədə hələ də qərar verməkdə çətinlik çəkənlər.

Sağlamlıq imkanları məhdud uşaqların doğulması, ailə üzvləri üçün ağır bir psixoloji yükdür. Mövcud proses zamanı, ailə üzvlərinin arasında münaqişələr, anlaşmazlıqlar və həyəcanlar artır. Bu amildən dolayı, əlil uşaqların valideynləri qarşısında böyük bir vəzifə qoyulur - uşağı müalicə etmək, onun ehtiyaclarına diqqət yetirmək və ailədə müsbət bir hava yaratmaq. Bu zaman, mədəni asudə vaxt üçün imkanlar azalır, uşaqların təhsili zəifləyir və valideynlərin sağlamlığı da ciddi risklərlə qarşılaşır.

Cəmiyyətin bu problemli uşaqlara və ailələrinə yalnızca az münasibət bəsləməsi də başqa bir problemdir. Bu, valideynləri belə bir addım atmağa məcbur edir və onları uşaqlarını körpələr evinə göndərməyə sürükləyir.

Məhdudiyyəti olanların cəmiyyətə adaptasiyası, inteqrasiyası, çox faktorlu bir məsələdir. Bu uşaqların böyüdüyü ailələr, tərbiyə və sağlamlıq xidmətlərindən kifayət qədər dəstək ala bilmədikləri üçün təklik və izolyasiya içində qalır. Bu durum məhdudiyyəti

olanların sosiallaşmasını, mədəniyyətlə tanış olmağı, təhsil almağı və hətta mümkün karyera inkişafı üçün zəiflədir.

Dövlət tərəfindən, hərtərəfli kömək yolları ilə, belə ailələrə yardım edilməlidir. Bu dəstək paketləri, sağlamlıq xidmətlərinin yanı sıra, təhsil, məşq proqramları da əhatə etməlidir. Beləliklə, onların valideynləriylə birlikdə inteqrasiyası mümkün olacaq və uşaqlar sosial, mədəni və təhsil sahələrində həyata keçirilən bir çox proseslərdən yararlana biləcəklər.

Həmçinin, cəmiyyətin mentalitetində dəyişikliklərə ehtiyac duyulur. Məhdudiyyəti olanlar və onların valideynləriylə birgə işləmək və onları cəmiyyətə inteqrasiya etmək, bütün cəmiyyətin məsuliyyəti altındadır. Bu uşaqların bədəni və zehni fəaliyyətlərinə əsaslanan təhsil, mədəniyyət və sosial proqramlar tətbiq edilməlidir. Bu sayədə, məhdudiyyəti olan uşaqları da cəmiyyətin bir parçası kimi görəcəklər və həyatlarını dolu-dolu yaşaya biləcəklər.

Məhdudiyyəti olanların izolyasiya səbəblərindən biri, psixofiziki çatışmazlıqlar haqqında mövcud olan stereotiplərdir. Bu uşaqları küçələrdə, mədəniyyət ocaqlarında və digər cəmiyyət məkanlarında görmək çox nadirdir. Onların bir hissəsi məktəb-internatlarda təhsil alırlar. Buna baxmayaraq, bir hissəsi isə bütün günlərini evdə keçirməlidirlər.

Məhdudiyyətli övladı olan ailələrə psixoloji konsultasiya və dəstək çox vacibdir. Onlara uşaqlarının bədən və ruh sağlamlığı ilə bağlı problemlərlə başa çıxmaqda bu dəstək kömək edir. Psixoloji yardım, valideynlərə uşaqlarının psixoloji inkişafını izləmək və onların psixoloji səhiyyəsini idarə etmək, həmçinin mövcud vəziyyətə uyğun tədbirlər almaq üçün yönəldici məsləhətlər verir.

Həmçinin, psixoloji konsultasiya, valideynlərin öz psixoloji sağlamlığı üçün də gərəklidir. Məhdudiyyətli övladı olan valideynlər ümumiyyətlə daha çox stresli və gərgin olmağa meyilli olurlar. Psixoloji dəstək, onların bu hissləri idarə edə bilmələrinə yardımçı olur və valideynlərin məhdudiyyətli övladları üçün daha səmərəli bir valideyn olmalarına kömək edir.

Göstərilən ümumi məsələlər, uşaqların bərpası üçün tədbirlərin aparılmasına kömək edir:

-Uşağın psixi inkişafı ilə işləyən insanlar özbaşınalığı və fərdi xarakterlərinə diqqət etməlidirlər;

-Müxtəlif qüsurlu və psixi inkişafında pozuntuları olan uşaqların qısa bir müddətdə müalicə edilməsi və tibbi-psixoloji-pedaqoji konsultasiyaya yönəldilməsi;

-Məhdudiyyətli olanların ikincil qüsurlarının qarşısının alınması, psixoloji profilaktika və psixogigiyena üzrə tövsiyyələrin verilməsi;

-Ümumi hər bir kəs üçün təlim zamanı üzə çıxan çətinliklərin psixo-pedaqoji düzəlişi üzrə məsləhətlərin hazırlanması;

-Ailədə uşaqların tərbiyəsi üzrə tövsiyyələrin tətbiqi;

-Valideynlərlə psixoloji konsultasiya zamanı istənilən formada korreksiyon işinin aparılması;

-Cəmiyyətdə maarifləndirmə işlərinin səhmlənməsi və uşaqların mümkün qədər çox insana çatdırılması.

## SOSİAL İQTİSADİ AMİLLƏRİN UŞAQLARIN RİFAH HALINA TƏSİRİ

**Günel Şahinzadə**
**doktorant**
**Bakı Dövlət Universiteti**
**gunelshahinzade@mail.ru**

**Açar sözlər:** uşaq psixologiyası, sosial dəstək proqramı, sosial rifah, psixoloji yardım

Müasir dövrdə həyat özü ilə müxtəlif imkanlarla yanaşı, əhəmiyyətli risklər də gətirir. Ailədə valideynlərdən birinin vəfatı, ayrılığı halında uşağı gələcəyə sağlam şəkildə hazırlamaq öhdəlikləri digər valideynin təkbaşına öhdəsindən gəlməsi asan olmayan riskləri ehtiva edir. Bu risklərin qarşısını almaq üçün inkişaf etmiş ölkələrdə yaradılmış müxtəlif sosial təminat qurumları arasında belə bir riskin tək ana üzərində qalmasının qarşısını alacaq sosial dəstək proqramları da var. Dünyanın çox böyük bir hissəsi aşağı iqtisadi gəlir səviyyəsinə görə bu cür sosial təminat qurumlarından məhrumdur. Belə bir mühit uşaq yoxsulluğu problemini ortaya qoyur. Uşaq yoxsulluğu ev təsərrüfatlarında yoxsulluğun ən əlverişsiz ciddi növünü təşkil edir. İqtisadi cəhətdən zəif inkişaf etmiş ölkələrdə coğrafiyalarda dövlət və ya sosial təminat qurumları tərəfindən yerinə yetirilə bilməyən bu funksiyanı yerinə yetirmək üçün müxtəlif ölkələrdə müxtəlif vətəndaş təşəbbüsləri rol alır.

Xüsusilə II Dünya müharibəsindən sonra dünya rifahında nəzərəçarpacaq artım oldu. Görünür ki, son 25 ildə ifrat yoxsulluq həddinin altında olan, lakin bu həddən yuxarı qalxan (yoxsulluq səviyyəsi 36%-dən təxminən 10%-ə enib) təxminən 1 milyard insan var. Bütün bu inkişaflara baxmayaraq, son illərdə gündəlik gəliri 1,90 dollardan aşağı olan ifrat yoxsulların sayında azalma müşahidə olunur. Nisbətən azalan yoxsulluq fenomeninə baxmayaraq, hələ də təkbaşına yaşamaqdan məhrum olan uşaqlar ən çox təsirlənən qrup hesab edilə bilər. Belə bir vəziyyətdə olan uşağın yoxsulluq ucbatından məruz qalacağı risklərə qarşı tədbir görmək, ən azı, mənəvi insani bir vəzifədir. Cəmiyyətlər öz davamlılığını təmin etmək üçün uşaqların özlərini həyata keçirmələri üçün imkanlar yaratmalıdırlar. Təhlükəsiz yaşayış mühitinin təmin edilməsi, adekvat qidalanma, sağlamlıq və təhsil imkanlarının təmin edilməsi uşağı təkcə onun indiki dövründə deyil, gələcəkdə də yoxsulluqdan qoruyacaqdır. Əslində, təhsil və yoxsulluq arasında güclü tərs əlaqə mövcuddur. Bunun üçün bütün lazımi hüquqi, inzibati və digər tədbirləri görürlər. İqtisadi, sosial və mədəni hüquqlara münasibətdə iştirakçı dövlətlər, lazım gələrsə, beynəlxalq əməkdaşlıq çərçivəsində, mövcud resurslardan maksimum dərəcədə istifadə etməklə, belə tədbirlər görürlər". O, tapşırıqları bəyanatla yükləyir. Aydın məsələdir ki, bu vəzifələrin icrasında axşama baş verərsə, məsuliyyətlər tədricən cəmiyyətin müxtəlif təbəqələrinin üzərinə düşəcək. Dövlət aparatının bu vəzifələri yerinə yetirə bilmədiyi halda qeyri-hökumət təşkilatlarının hərəkətə keçərək insanlıq naminə məsuliyyət daşıması nümunələri var.

Yaşadığımız epidemiya prosesi daha dramatik şəkildə göstərir ki, yoxsulluq hələ də dünyanın ən mühüm problemlərindən biridir. Dünya Bankının (2021) məlumatlarından hazırlanmış aşağıdakı cədvəl 1-i diqqətlə araşdırdıqda görmək olar ki, gündəlik gəliri 1,90 ABŞ dolları və ya daha az olan yoxsulların ümumi əhaliyə nisbəti 1990-cı ildən bu günə qədər əhəmiyyətli dərəcədə azalmışdır. Aşağı gəlirli ölkələrin əhalisinin təxminən yarısı hələ də qeyd olunan yoxsulluq səviyyəsindən aşağıdır. Yoxsulluq həddini 1 dollardan bir qədər çox artıraraq 3,20 dollara qaldırdıqda, Sub-Sahara Afrika ölkələri və aşağı gəlirli ölkələrin əhalisinin demək olar ki, dörddə üçünün qeyd olunan yoxsulluq həddinin altında qaldığı görünür. Dünya əhalisinin dörddə birinin yoxsulluq həddinin altında olduğu görülür. Yoxsulluq həddinin çox aşağı artımı və yoxsulluq səviyyəsinin sürətlə artması onu göstərir

ki, çox böyük əhali yoxsulluq fərqi adlanan səviyyədən bir qədər yuxarıda cəmləşib. Dünya Bankının hazırladığı araşdırma hesabatlarında epidemiya təhlükəsi və qlobal istiləşmənin yoxsul əhalini artıracağı müəyyən edilmişdir.

Son Covid-19 epidemiyasında təkcə 2020-ci ildə 88 milyondan 115 milyona qədər insanın həddindən artıq yoxsulluq həddinin altına düşəcəyi proqnozlaşdırılır. Ekoloji problemlərin mövcud problemlərin üstünə gətirəcəyi əlavə yüklə bağlı proqnoz araşdırmalarına uyğun olaraq, əlavə baza ssenarisinə əsasən, 68 milyondan 132 milyona qədər insanın ekoloji problemlər səbəbiylə həddindən artıq yoxsulluğa sürüklənəcəyi aşkar edilmişdir. Şimalın yüksək gəlirli, firavan ölkələri ilə cənubun kasıb iqtisadiyyatları arasındakı gərginlik kütləvi miqrasiyaya qapı açdı.

Uşaqlara sosial dəstək göstərildikdə sağlam cəmiyyət formalaşır, insanların gəlir səviyyəsi yüksəlir, iqtisadiyyatlar yüksəlir, cəmiyyət daha ahəngdar olur. Bütün bu üstünlüklərə baxmayaraq, dünya ölkələrinin səhiyyə və təhsilə ayırdığı dövlət xərclərinin səviyyəsini müqayisə etdikdə vəziyyət qənaətbəxş deyildir. Bu, təbii olaraq təhsil və səhiyyə xərclərinə ayrılan resursların keyfiyyətinin və əlçatanlığının azalmasına gətirib çıxarır. Məsələn, məlumdur ki, əgər uşaq vaxtında peyvənd etməsə, gələcək həyatında onun sağlamlığı üçün böyük risklər yaranacaq. Uşaq, ailə və cəmiyyət üçün belə bir inkişafın dəyəri daha yüksək olacaq.

Dünyamızı təhdid edən epidemiyalar, dəyişən iqlim şəraiti və ərzaq qıtlığı kimi qlobal problemlər gələcəkdə xüsusilə cənub yarımkürəmizdə daha çox hiss olunacaq. İnsan nəslinin ən həssas təbəqəsi olan yetimlərin bu neqativ hallara görə düşəcəyi yoxsulluq problemi və onların müdafiəsinə ehtiyac getdikcə daha çox aktuallaşacaq problem olaraq qalacaq. Bu problemin mümkün uzunmüddətli iqtisadi və sosial nəticələrini minimuma endirmək üçün həmin ölkələrin milli imkanları ilə yanaşı, inkişaf etmiş ölkələrin, beynəlxalq institutların və qeyri-hökumət təşkilatlarının da çox mühüm rolları vardır. Qeyri-hökumət təşkilatlarının uşaqların əsas sosial ehtiyaclarını dəstəkləmək üçün mühüm funksiyalar irəli sürdüyü görülür. İnsani və sosial inkişaflarını dəstəkləmək üçün kimsəsiz uşaqlara piknik, səhər yeməyi, müxtəlif idman proqramları və pul yardımları kimi sosial imkanlar təklif olunur və bu sosial imkanlar onlara yeni və fərqli insanlar və məkanlarla tanış olmaq, yeni təcrübələr əldə etmək imkanı verir. Sosial çevrələrini genişləndirir, müxtəlif mədəniyyətlərlə tanış olurlar və bunun onların istedadlarını kəşf etmələrinə kömək etdiyini bildirirlər.

# MAHMUD BEY MAHMUDBEYOV VE ABBAS SAHHAT'IN "TÜRK EDEBİYYATINA İLK ADIM" (1914) DERS KİTAPINDA TÜRK EDEBİYYATI SORUNLARI

**Günel Yunusova**
**PhD**
**Mingeçevir Devlet Üniversitesi**
**yunusova_edu@mail.ru**

**Anahtar kelimeler:** ders kitabı, Türk şair ve yazarları, şiir örnekleri, dikkatsizlik, hurafe, milli ruh

Mahmud bey Mahmudbeyov ve Abbas Sahhat'ın ortak yazdığı "Türk edebiyatına ilk adım" (1914) ders kitabı, lise ve ortaokulların alt sınıflarına yönelikti. Kitapta Türk edebiyatından oldukça fazla örnek yer alıyordu. Genel olarak ders kitabındaki sanat eserlerinin yaklaşık dörtte üçü Osmanlı "Udeba ve Şuera" yaratıcılığının örnekleriydi. Bunların çoğu şiir, bir kısmı da düzyazı(nesir) örnekleriydi. Nesir eserlerin bir kısmı sanat eserlerinden, bir kısmı ise gazetecilik eserlerinden oluşmuştur.

"Türk edebiyatına ilk adım" kitabında yer alan Osmanlı yazar ve şairlerinin sayısı oldukça fazladır. Bu sanatçılar arasında Namık Kamal, Muhammed Emin Yurdagül, Tevfik Fikret, Halid Rıza bey, İbrahim Alaeddin, Pashazade Sezai, Ali Ulvi, Halid Ziya, İzzat Alavi, Rıza Tofik, Cenab Şahabaddin, Abdulhak Hamid, Nigar Hanım, Mehmet Akif Ersoy, Ahmet Hikmet, Ziya Goyalp, Ömer Seyfeddin vb. gibi isimleri saymak mümkün. Ders kitabında T.Fikret'in "Ramazan sadakaları", "Temmuz", "Milletin şerqisi", "Farda: Bugünün gençliğine" adlı dört şiiri yer aldı. Ders kitabında öğrencilere sunulan eserler arasında M.E.Yurdagül'ün "Çiftçilik" ve "Demir" adlı emek ve insan azmi ile ilgili şiirleri de yer aldı.

"Türk edebiyatına ilk adım"da şiir mirasından en çok örnek verilen sanatçı İbrahim Alaeddin Gövsa'ydı. Kitapta onun "Gerçek", "Kırık testere", "Kelebek", "Yıldız", "Çiftler", "Kış", "Denizler" şiirlerini buluyoruz. Sanatçının tüm bu eserlerinin doğrudan çocuk edebiyatı örnekleri olduğunu özellikle belirtmek gerekir. Genel olarak I. Alaeddin, Türk sanat düşüncesi ve edebiyat akımı tarihinde çocuk edebiyatının zenginleşmesine çok değerli hizmetler vermiş yetenekli insanlardan biri olarak bilinmektedir. Şunu da söyleyelim ki, Türk edebiyatında da Azerbaycan'da olduğu gibi, "kendi müstakil hakları ve kanunları" olan çocuk edebiyatının oluşum ve ilk gelişim dönemi, 19. yüzyılın ikinci yarısına ve 20. yüzyılın başına denk gelmektedir.

20. yüzyılın başlarında milletin geleceği olan ülke çocuklarına yönelik manevi zenginlik ve gerekli okuma çalışmalarının eksikliğini gören vatansever eğitimciler, bu alanın gelişmesiyle ilgilenmeye başlamış ve başarılı adımlar atmışlardır. Dönemin tanınmış aydınlarından Sati Bey, 1909 yılında "Tadrisati-İbtidaiya" dergisinin ilk sayısında "çocuk şiirlerine, çocuk şarkılarına ihtiyacımız var" diyerek yazarlara yönelmiş ve onları ciddi bir kaygıyla milletin çocukları için şiirler ve şarkılar yaratmağa çağırmıştır. 1910 yılında demokratik aydınlarla birlikte çocuk edebiyatının sorunlarına yönelik bir toplantı düzenledi. Yazar ve şairleri bu yolda gayret göstermeye çağırdı. Çağrısına yanıt verenler arasında T.Fikret, İ.Alaeddin ve A.Ulvi Alavi ön sıralarda dururdu. Çocukların iyiliği için çağdaş ruhla ve anlaşılır sözlerle eserler yaratmayı önemli gören ve çocukları cehaletten, hurafelerden, eski kitapların anlaşılmaz ifadelerinden, çirkinliğinden kurtarmak için bunu meslektaşlarına tavsiye eden I. Alaeddin, şöyle yazmıştır: "Çocuk kalbi işlenmemiş bir elmas gibi kıymetdar bir şekil almağa gayet müsait iken onu ihmal ile kömür gibi siyah bırakmak, husûsuyla iklimimizin yetiştirdiği zeki, cevval dimağları büyük ninelerin hurâfâtı, eski ibtidâî

kitaplarının anlaşılmaz ibâratı ile imlâ etmek bir cinâyet-i ma‘neviyyedir”. I. Alaaddin'in çocuk şiirleri fikir ve içerik bakımından modern, dil ve üslup bakımından saf ve netti. Aşağıda adı geçen “Yıldız” şiiri şiirsel değeri olan incilerden biridir. Küçük kahramanın gök alemine dair romantik izlenimi burada saf bir türkçe ile parlak bir duyguyla okuyucuya aktarılıyor:

Yakından görülemeyen bu yıldızlar nedir dedim?
Perilerin evi mi, meleklerin evi mi?
Dayım güldü ve “Kim bilir?” dedi.
Gitmek yok, bunu biliyor musun?
İnanamadım, bir gece Çerkez kızına baktım
Ona sordum, gizlice söyledi:
Güneş tüm gök yüzünün padişahı sayılır,
Şu gördügün mavi səma iştə onun sarayı.

“Türk edebiyatına ilk adım”da bahsettiğimiz sanatçıların yanı sıra R.Tevfik “Divan”, A. Alavi “Yaz”, M.Akif “Hazreti Ömer ve yaşlı kadın”, Z.Goyalp “Turan”, “Altun destanı”, A. Kami-“Atalarımızın kemikleri” vb. şairlerin de şiir örnekleri sunulmuşdur. Sunulan şiirler çoğunlukla ahlaki-didaktik, doğa, ulusal geçmişe bağlılık, vatanseverlik, etnik hafızanın yeniden canlandırılması vb. konularla ilgili şiirlerdir. R.Tevfik'in halk şiiri tarzında yazdığı “Divan” beyiti, vatanın başına gelen musibetten, ona tutulan divandan bahseder. Sanatçı, vatanın ve milletin acılarını halk şiiri türünde, saf halk türkçesiyle anlatmaktadır. Beyit, içerik ve fikir bakımından N. Kamal'ın vatan konulu şiirlerini anımsatmaktadır. Vatan'ın acı dolu bir “felaket bahçesine” dönüşmesi şairin yüreğini burkar:

Fəlâkət bağını dolaşdım serseri,
Fəryâdü zârımı duyan kalmamış.
Aradım o şâhin, yiğid erləri,
Yattıqları yerdən nişân kalmamış.
Qapılar qapanmış, bacalar tütməz,
Kimsəcik o çöldə bir koyun gütməz.

Türk araştırmacı Mehmet Selim Ergül haklı olarak şunu belirtiyor: “Bu şiirde genellikle görsel imajlar kullanılır. Görsel imajlar, vatan konulu hemen bütün şiirlerin en belirgin özelliğidir. Anlatıcı mekânda olsa da, olmasa da katılmadığı, dahil olmadığı bir hayatı ve yeri anlatır”.

“Türk edebiyatına ilk adım” ders kitabında Osmanlı yazarlarından H.Rıza bey, P.Sezai, H.Ziya bey, İ.Alavi, H.Sabit, R.Tevfiq, C.Şehabaddin, A.Hamid, Nigar hanım, N.Kamal, Ö.Seyfeddin vb. ait pek çok hikâye, gezi notu, edebi-yayın niteliğindeki mektuplar, ilmi-yayın niteliğindeki eserler ve anı niteliğinde nesir örnekleri bulunmaktadır. Elbette bu tür çalışmaların, yetişen neslin milli ruhuna ve vatanseverliğine, zihinlerinde milli idealleri uyandırmasına, etnik hafızayı yeniden canlandırmasına, diğer Türk toplumlarını tanımasına büyük etkisi olmuştur. Ders kitabı yazarları da ayık bir pedagojik anlayış ve ulusal taassub duygusuyla okuma örneklerinin seçiminde bu önemli hususları dikkate almışlardır. Genel olarak o dönemdeki ders kitaplarının çoğunda bu değerler dikkate alınıyordu.

# CAMAL YUSİFZADƏNİN YARADICILIĞINDA MÖVZU RƏNGARƏNGLİYİ

**Xalidə Rəhimova**
**dissertant**
**Lənkəran Dövlət Universiteti**
**qumu_88@mail.ru**

**Açar sözlər**: poetik dəsti-xətt, üslub, forma, mövzu əlvanlığı

60-90-cı illər Lənkəran şairlərinin, demək olar ki, böyük əksəriyyəti gənclərdən ibarət idi və çox keçmədən onların bir neçəsi Azərbaycan Yazıçılar İttifaqına üzv qəbul olundu, kitabları kütləvi tirajla dövlət nəşriyyatlarında çap olunaraq bütün respublikaya yayıldı, bəzilərinin əsərləri isə rus dilinə tərcümə olunaraq SSRİ-nin paytaxtı Moskva şəhərində kitab halında nəşr olundu. Beləliklə, Lənkəran şairləri təkcə regionda və Azərbaycanda deyil, İttifaq miqyasında tanınmağa başladı.

Həmin illər poetik dəsti-xətti, üslub və forma gözəlliyi, mövzu əlvanlığı ilə diqqəti cəlb edən şairlərdən biri Camal Yusifzadə idi. Yaradıcılığa Azərbaycan Dövlət Universitetinin (indiki Bakı Dövlət Universiteti - red.X.Rəhimova) tarix fakültəsində tələbə ikən başlayan C.Yusifzadənin "Lənkəran nəğməsi" adlı birinci kitabı "Gənc şairin ilk kitabı" seriyası ilə 1970-ci ildə "Gənclik" nəşriyyatı tərəfindən "Camal Yusifoğlu" imzası ilə çap olunmuşdur.

Kitabın annotasiyasında qeyd edilir ki, "Camalın bu ilk kitabçası təzə söz deməyə can atan gənc şairin məhəbbət duyğuları, dünən və bu gün haqqında düşüncələridir".

Sərbəst vəzndə yazılmış "Mavi dəniz", "Lənkəran", "Ana", "Dərinləşmək istəyirəm", "Çahargah" kimi kiçik həcmli şeirlərində hələ püxtələşməkdə olan şairin hiss-həyəcanları ilə tanış olur, onun az sözlə böyük mətləblər ifadə etməsi cəhdinin şahidi oluruq. Şair cəmi on bir sözdən ibarət "Lənkəran" şeirində gözəl və düşündürücü bir tablo yaradır. Şeirdə oxuyuruq:

Gözü yağışlı
Buludu kövrək,
Yatağı nəm,
Mənim islanmış,
Yaşıl,
Zərif nənəm!

"Ehtiyac" adlı şeirdə müharibə qurtarsa belə, hələ də yaralarının sağalmadığını, maddi sıxıntılar azalsa da, mənəvi sıxıntıların davam etdiyini və davam edəcəyini şair belə ifadə edir:

Hələ də evimizdən,
Əl götürmür ehtiyac:
Ana sevgiyə möhtac,
Oğul qayğıya möhtac,
Gözümüz yola möhtac...

Lənkəran, Xəzər dənizi, talış torpağının təbiəti və gözəllikləri C.Yusifzadə poeziyasının aparıcı mövzularındandır. Müəllif "Yaşıl-yaşıl çay kolları", "Əmək mahnısı" şeirlərində torpağın hər qarışına izi düşən əmək adamlarının rəşadətini tərənnüm edirsə, "Sübh yuxusu" şeirində "tufanların yorğunu" olan dənizin rəsmini çəkir:

Tufanların yorğunuydu,
Sakitliyi-yorğanıydı;

Yırğalandı,
Dalğalandı,
Yavaş-yavaş
Gözlərini açdı dəniz
Mən gördüm,
siz görmədiniz?

Şair "Dəniz məni tanımadı" şeirində gözəl bir lövhə yaradır və etiraf edir ki, çoxdan görüşünə gəlmədiyi dəniz onu tanımır və burada o, dənizi yox, özünü günahkar sayır. Heca vəznində yazılmış üç bəndlik şeirdə oxuyuruq:

Mavi dalğalara atdım özümü,
Gümüş balıqlara tutdum üzümü,
Sarı yosunlara sürtdüm üzümü -
Dəniz məni tanımadı.

"Qarağac kölgəsi", "Dəmirağacının monoloqu", "Payız", "İstidi nar çiçəyi", "Yağışlı şəhər" şeirlərində təbiət təsvirlərinə müəyyən yer ayıran şair, əslində təbiətlə insanın hisslərinin harmoniyasını yaradaraq, təbiət hadisələrindən düşüncələrini ifadə etmək üçün istifadə edir.

Bu şəhər yağışa düşüb nə vaxtdır,
Bu şəhər yağışda islanıb yaman.
Gözümü açanı
Dəniz görmüşəm.
Kükrəyəm, çağlayan,
Təmiz görmüşəm.
Bu dəniz yağışa düşüb nə vaxtdır,
Bu dəniz yağışda islanıb yaman.

Poeziyası mövzu rəngarəngliyi, fikir orijinallığı ilə seçilən C.Yusifzadənin həmin illərdə yazdığı şeirlərə xas olan cəhətlərdən biri də, keşmiş xatirələrə qayıdış, uşaqlıq illərinin tez-tez xatırlanması və ana həsrəti, ana nisgilidir. "Sübh yuxusu", "Qışın nəğməsi", "Arpa boyda böyüyürdüm", "Mənə nağıl danışın", "Sol əlim sinəmdə" şeirlərindəki səmimiyyət oxucunu valeh edirsə, anasının xatirəsinə həsr etdiyi "Ay qonşu, bu evin yiyəsi hanı?" şeiri adamı mütəəssir edir.

Qapıda soyumuş bir əl yeri var,
Həyətdə mürgülü ayaq izi var,
Külü laxtalanmış ocaq yeri var,
Ay qonşu, bu evin yiyəsi hanı?

Məhəbbət mövzusu həmin illərin Lənkəran şairlərinin əksəriyyətində olduğu kimi, C.Yusifzadənin də yaradıcılığında mühüm yer tutur. Müəllifin "Əllərin əlimdə qalsın", "Sən məni heç zaman bağışlamazsan", "Vaxtsız gələn qonaq", "Ləli, qurbanın olum", "Mənim yaşımda", "Məhəbbəti təzələyəkmi?" və s. bu qəbildən olan şeirləri gənc şairin məhəbbət nəğmələri təsirini bağışlayır.

Yağışlı havada gəlsəm, qınama,
Yağışlı havada, vallah, dəliyəm,
Darıxdım, kövrəldim,
Dağıldı sinəm.
İslandım, üşüdüm,
Gəldim isinəm.

C.Yusifzadənin tədqiqata cəlb etdiyimiz şeirləri deməyə əsas verir ki, o, əsərlərində həyata öz fərdi münasibətini bildirməyə, müasirlərinin daxili aləminə nüfuz etməyə, adi

görünənləri poetik həqiqətlər səviyyəsinə qaldırmağa çalışmış və qarşısına qoyduğu məqsədə, əsasən nail olmuşdur.

# TÜRKDİLLİ DÖVLƏTLƏRİN BEYNƏLXALQ QURUMLARININ TÜRK DÜNYASININ İNTEQRASİYASINDA ROLU

**Kamal Mahmudov**
**dosent**
**Lənkəran Dövlət Universiteti**
**kamal-1965@mail.ru**

**Açar sözlər:** türkdilli dövlətlər, türkdilli xalqlar, Türk dövlətləri təşkilatı, inteqrasiya

Avroasiya materikində son illərdə münaqişələrin kəskinləşməsi (Rusiya-Ukraina müharibəsi, İsrail-Həmaz münaqişəsi) və kollektiv qərbin bir sıra ölkələrə qarşı sanksiyalar tətbiq etməsi regionda iqtisadi əlaqələr və kommunikasiyaların təhlükəsizliyi sahəsində müəyyən problemlərin yaranmasına səbəb olmuşdur. Son illərdə müxtəlif güc mərkəzləri arasında rəqabətin və açıq qarşıdurmanın dərinləşməsi müxtəlif qurumların güc mərkəzi kimi formalaşması prosesini sürətləndirmişdir. BMT, Avropa Şurası və digər beynəlxalq təşkilatların nüfuzunun zəifləməsi fonunda BRİCS, Şanxay Əməkdaşlıq Təşkilatı, Türk Dövlətləri Təşkilatı beynəlxalq münasibətlərdə daha fəal rol oynayırlar. Beynəlxalq münasibətlər sistemində baş verən dəyişikliklər türkdilli dövlətlərin xarici siyasətinə də təsir edir.

Müasir dövrün çağırışlarına cavab olaraq Türk dünyasında siyasi, iqtisadi və mədəni inteqrasiya prosesləri dərinləşir. Türkdilli ölkələr həm öz aralarında, həm də təmsil olunduqları beynəlxalq təşkilatlarda əməkdaşlığı genişləndirirlər. İslam Əməkdaşlıq Təşkilatı, MDB, Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatı, İqtisadi Əməkdaşlıq Təşkilatı (EKO), Şanxay Əməkdaşlıq Təşkilatında türkdilli ölkələr təmsil olunurlar. Türkiyə və Azərbaycan arasındakı sıx əməkdaşlıq fonunda Özbəkistan, Qazaxıstan və Qırğızıstan respublikaları inteqrasiya proseslərində daha fəal iştitirak edirlər. Türkdilli dövlətlər arasında inteqrasiya proseslərinin dərinləşməsində bu dövlətlər tərəfindən yaradılmış qurumlar mühüm rol oynayır.

Ortaq ümumtürk mədəniyyətini təbliğ etmək və tanıtmaq məqsədilə TÜRKSOY Türkiyə, Azərbaycan, Qazaxıstan, Qırğızıstan, Özbəkistan və Türkmənistan tərəfindən yaradılmışdur. Rusiya Federasiyasının tərkibində olan muxtar qurumlar - Tatarısan, Başqırdıstan, Altay, Saxa-Yakutiya, Tuva və Xakasiya respublikaları, Moldovanın tərkibində olan Qaqauziya Muxtar Ərazisi və Şimali Kipr Türk Respublikası təşkilatda müşahidəçi statusu ilə təmsil olunmuşlar. Qurum 2009-cu ildən Beynəlxalq Türk Mədəniyyəti Təşkilatı adlanır. TÜRKSOY türkdilli xalqlar və ölkələr, eyni zamanda tükdilli xalqların yaşadıqları bölgələr arasında mədəni əlaqələrin inkişaf etdirilməsi istiqamətində fəaliyyət göstərir. Təşkilat çoxsaylı layihələr həyata keçirir, UNESCO və bir sıra beynəlxalq təşkilatlarla əməkdaşlıq edir.

Türk dövlətləri Əməkdaşlıq Təşkilatı türk dillərində danışan və oxşar mədəni mühitdə yaşayan xalqların siyasi və iqtisadi əlaqələrin gücləndirilməsi məqsədi ilə türkdilli ölkələrin dövlət başçılarının 2009-cu ilin 3 oktyabr tarixində Naxçıvan şəhərində keçirilən Zirvə Görüşündə imzalanmış Naxçıvan Sazişinə əsasən 2012-ci ilin 1 noyabr tarixində yaradılıb. Bu təşkilatla yanaşı türkdilli ölkələri birləşdirən bir sıra təşkilatlar da, bu ölkələr arasında müxtəlif sahələrdə inteqrasiya prosesinin dərinləşməsinə öz töhvəsini verir. 2021-ci il tarixində 8-ci Zirvə Görüşü çərçivəsində təşkilatın adı TDƏŞ-dən Türk Dövlətləri Təşkilatına dəyişdirilmişdir. Təşkilata beş üzv (Azərbaycan, Türkiyə, Qazaxıstan, Qırğızıstan və Özbəkistan) və üç müşahidəçi üzv (Macarıstan, Türkmənistan və Şimali Kipr Türk Respublikası) daxildir.

Türkdilli Ölkələrin Parlament Assambleyası (TÜRKPA) 2008-ci ildə fəaliyyətə başlayıb. Assambleyanın məqsədi türkdilli ölkələrin parlament strukturları arasında əməkdaşlığı genişləndirməkdir. Türk Akademiyası 2012-ci ildə yaradılmış və ona beynəlxalq status verilmişdir.

Təşkilat üzvləri arasında inteqrasiya proseslərini genişləndirmək məqsədilə TDT-ı ilə əlaqəli qurumlar da fəaliyyət göstərir.

Türk Mədəniyyəti və İrsi Fondu 2012-ci ildə yaradılıb. Fond türk dünyası ilə bağlı müxtəlif tədbirlər, layihələr və proqramları maliyyələşdirmək və dəstəkləmək yolu ilə ümumtürk mədəniyyəti və mədəni irsinin qorunmasına, tədqiqinə və təbliğinə yardım edir. Türk Biznes Şurası - 2011-ci ildə təsis edilib. Qurum TDT-yə üzv ölkələrin işgüzar dairələri və digər təşkilatları vasitəsilə türkdilli ölkələr arasında iqtisadi əməkdaşlığı inkişaf etdirir. Türk Ticarət və Sənaye Palatası - 2019-cu ildə təsis edilmişdir. Qurum Türkdilli ölkələrin ticarət və sənaye palataları vasitəsilə bu ölkələr arasında iqtisadi əməkdaşlığı genişləndirir. Türk İnvestisiya fondu 2022-ci ildə yaradılmışdır. TDT-nin ilk ortaq maliyyə qurumudur. Fond təşkilata üzv dövlətlər arasında iqtisadi əməkdaşlığı genişləndirmək məqsədilə birgə layihələr həyata keçirir.

İkitərəfli və çoxtərəfli əməkdaşlıq nəticəsində Türk dövlətləri arasında inteqrasiya prosesi son illərdə yeni mərhələyə qədəm qoymuşdur. Türkiyənin 2020-ci ildə İkinci Qarabağ müharibəsində Azərbaycana dəstək verməsi dünyada böyük əks-səda doğurdu, türkdilli xalqlar arasında mənəvi birliyin daha da güclənməsinə səbəb oldu. Azərbaycan və Türkiyə arasında imzalanmış Şuşa bəyannaməsi iki ölkə arasında olan münasibətləri yeni müttəfiqlik səviyyəsinə qaldırması, digər türkdilli ölkələrlə əlaqələrin genişləndirilməsinə təkan verdi. Qazaxıstan, Özbəkistan və Qırğızıstan rəhbərlərinin Azərbaycana səfərləri və işğaldan azad olunmuş bölgələrin bərpasına töhvələri, ümumtürk birliyinin dərinliyinin göstəricisidir.

Türkiyə ilə geniş ərazi və strateji resurslara malik Qazaxıstan arasında əlaqələr genişlənir. Türkiyə ilə Qazaxıstan Qazaxıstanın rəhbərliyi ilə yaradılmış Asiyada Qarşılıqlı Fəaliyyət və Etimad Tədbirləri üzrə Müşavirəni (AQEM) Türkiyənin də daxil olduğu 27 üzvdən ibarət platformadan ATƏT kimi təşkilata çevrilməsi səylərini davam etdirirlər. Türkdilli ölkələr Çin və Avropanı birləşdirən, Türk dövlətlərinin ərazisindən keçən Orta Dəhlizin inkişafı üçün böyük səylər göstərirlər.

Özbəkistan-Türkiyə əlaqələri də sıxlaşmaqda davam edir. Türk dövlətləri arasında iqtisadi əlaqələrin, ticarət dövriyyəsinin genişlənməsində Qazaxıstan, Özbəkistan və Qırğızıstan fəal iştirak edirlər. Yalnız "birtərəflik" siyasəti yürüdən Türkmənistan inteqrasiya proseslərinə qoşulmur.

Bütün dünyada olduğu kimi Türk dünyasında da əvvəllər proqnozlaşdırılmayan hadisələr baş verir. Türkdilli ölkələr arasında inteqrasiyanın dərinləşməsi regiondakı siyasi və iqtisadi proseslərə təsir göstərir. Türkdilli dövlətlər öz aralarında müxtəlif sahələrdə əməkdaşlığı inkişaf etdirmək, bir-birlərinə dəstək verməklə beynəlxalq münasibətlər sistemində daha fəal rol oynamaqla yanaşı, regionda və dünyada gedən proseslərə təsir etməyə yeni imkanlar qazanmışlar.

## HAYDAR ALİYEV VE MUSTAFA KEMAL ATATÜRK'ÜN ÇOCUK TERBİYESİNE İLİŞKİN TARİHSEL GÖRÜŞLERİ

**Konul Jabbarova**
**PhD**
**Müşfik Tariverdiyev**
**yüksek lisans öğrencisi**
**Mingeçevir Devlet Üniversitesi**
**kenulcabbarova@gmail.com**
**tariverdiyevmushfiq@gmail.com**

**Anahtar Kelimeler:** Haydar Aliyev, Mustafa Kemal Atatürk, çocuk eğitimi, çocuk terbiyesi

Mustafa Kemal Atatürk ve Haydar Aliyev Türk dünyasının liderleridir. Bu fikir, Türkiye'nin Bursa şehrinde düzenlenen "Nizami Gencevi'den Yunus Emre'ye, Mustafa Kemal Atatürk'ten Haydar Aliyev'e uzanan sevgi ve barış yolu" VII uluslararası sempozyumunun açılışında dile getirilmiştir. Liderlerin eğitim ve terbiye hakkında söyledikleri hikmetli sözler, dönemin ve bugünün çocuklarının yoluna daima ışık tutmuş ve tutacaktır. Her iki devlet için de Ulu Önder sayılan şahsiyetlerin eğitim ve terbiye hakkındaki düşünceleri okullarda öğrencilere aşılanmakta, onların gelişimine katkı sağlamaktadır. Her iki liderin ülkeleri için yaptıkları fedakarlıklar çok büyüktür. Özellikle çocukların eğitim, gelişim ve terbiyesine özel bir özen göstermişlerdir. Çocuk terbiyesi, her toplumun ve milletin geleceğini şekillendiren temel ve başlıca unsurlardan biridir. Bu alanda Haydar Aliyev ve Mustafa Kemal Atatürk gibi büyük liderlerin düşünceleri ve yaklaşımları özel bir öneme sahiptir. Onların çocuk terbiyesi ve eğitimi hakkındaki tarihi düşünceleri, gelecek nesillerin şekillenmesinde önemli bir rol oynamış ve oynayacaktır. Bu tezde, her iki liderin çocuk terbiyesi ile ilgili tarihi düşünceleri ve bu düşüncelerin modern dönemdeki önemi araştırılacaktır.

Çocukların gelişimi, eğitimi ve öğretimi alanındaki görevler, genel olarak bu sorunun bağımsız devletçiliğimiz açısından temel kavramsal ilke ve maddeleri, Azerbaycan Cumhuriyeti'nin ulusal lideri Haydar Aliyev'in çeşitli konuşma, rapor ve nutuklarında milli-ideolojik, bilimsel-teorik açıdan tüm incelikleriyle aydınlatılmıştır. Milli terbiyenin önemli bir bileşeni olan terbiyeden bahsederken Haydar Aliyev demiştir ki: "Terbiye geniş bir anlam taşır. Terbiye sadece gidip Vatanı silahla savunmak değildir. İnsan her dönemde, faaliyetinin tüm alanlarında kendi Vatanının, ülkesinin kaygısıyla yaşamalıdır, onun hem ekonomisinin, hem siyasetinin, hem de kültürünün kaygısıyla yaşamalıdır. Bunların hepsi terbiyeden doğan şeylerdir. İnsan kendi kültürünün de, ekonomisinin de, kendi dilinin de, eğitiminin de gelişmesini ister. Bu alıntıdan da görüyoruz ki, Haydar Aliyev Azerbaycan'ın geleceği olarak adlandırdığı çocukların terbiyesi ve eğitimi için anlamlı düşünceler bırakmıştır. Terbiyeyi çok açık bir şekilde açıklayan Ulu Önder, terbiyenin aynı zamanda vatanın çeşitli şekillerde kaygısını taşımakla eşdeğer olduğunu belirtir. Belirtir ki, terbiye çok geniş anlamlı bir kelimedir, onu sadece vatanı silahla korumak, vatanı savunmak değildir. O aynı zamanda vatanının, ülkesinin kaygısını taşımaktır.

"Bazen bana soruyorlar ki, bu kadar yoğun işleri yürütmem nasıl mümkün olmuştur? Her insanın ilham verici bir gücü vardır. Bana ilham veren en büyük güç Azerbaycan'ın çocuklarıdır, Azerbaycan'ın gençleridir, Azerbaycan'ın geleceğidir." Bu sözleri dile getiren Ulu Önder'in çocukların geleceği, gelişimi ve terbiyesine ne kadar özel bir dikkatle yaklaştığını açıkça görebiliyoruz. Çocukları ona ilham veren en büyük güç olarak adlandıran

Haydar Aliyev, onların gelişimi ve terbiyesi için birçok işler yapmış, onları vatana, millete faydalı vatandaş olmaya, daima kendi üzerlerinde çalışmaya çağırmıştır.

Ulu Önder Haydar Aliyev'in "Çocuklar bizim sevincimiz, mutluluğumuz, toplumun geleceğidir. Bu nedenle her insansever toplumda çocuklara daima özel bir özen, özel bir dikkat gösterilmiştir" – bilge ve hikmetli sözü, çocuklara olan sevgisinin bir tezahürü idi. Haydar Aliyev, tüm ağır ve zor işlerin arasında Azerbaycan'ın geleceği olarak gördüğü çocuklara da zaman ayırıyordu. Biz bunu aslında Ulu Önder'in ileri görüşlülüğü ve devletine, milletine bağlılığı ile ilişkilendirebiliriz. Haydar Aliyev diyordu ki: "Çocuklar bizim geleceğimizdir ve onların doğru terbiyesi, ülkemizin geleceğini sağlayacaktır." Ona göre, çocukların eğitimi ve terbiyesi aileden başlar ve okulda devam eder. O, öğretmenlerin ve ebeveynlerin çocuklara örnek olmasının önemini vurguluyordu. Haydar Aliyev, çocukların doğruluk ve dürüstlük konusunda eğitimine de büyük önem verdi. Toplumun sağlıklı gelişimi için çocukların dürüst ve adil olmasının önemli olduğunu kaydetti.

Türkiye Cumhuriyeti'nin kurucusu Mustafa Kemal Atatürk, çocuk eğitimine büyük önem vermiştir. Çocukların yetiştirilmesi ve eğitimi konusunda da çok önemli fikirleri vardı. Çocukların eğitimini ve yetiştirilmesini ulusal kalkınmanın temel koşulu olarak görmüş, çocukları geleceğin teminatı olarak görmüş, onların iyi eğitim almasına önem vermiştir. Atatürk şöyle derdi: "Yeni nesil Türkiye'nin geleceğidir. Onların eğitim ve öğretimi, ülkemizin kalkınmasının teminatıdır."

Atatürk, çocukların çağdaş bilgiler edinmelerinin ve milli değerlere bağlı kalmalarının önemli olduğunu düşünüyordu. Eğitimin herkes için erişilebilir olmasını sağlamak için bir dizi reform uyguladı. Mustafa Kemal Atatürk çocuklara özel önem verdi. Bunu söylemenin nedeni Atatürk'ün dünyada ilk kez çocuk bayramını kutlamaya başlamasıdır. 23 Nisan Çocuk Bayramı, çocuklara verdiği değerin bir tezahürüdür. Çocukları geleceğin liderleri olarak görüyor ve gelişimlerine büyük önem veriyordu. Atatürk, çocukları ve gençleri geleceğin teminatı olarak görmüştür. Türkiye Cumhuriyeti'ni onlara emanet etti ve onların iyi bir eğitim almalarını önemli gördü. Atatürk şunları söyledi: "Ey yükselen yeni nesil! Gelecek senindir. Cumhuriyeti biz kurduk, onu yükseltecek ve sürdürecek olan sizlersiniz."

Haydar Aliyev ile Mustafa Kemal Atatürk'ün çocuk eğitimi konusundaki görüşleri birçok bakımdan benzerlik göstermektedir. Her iki lider de çocukların eğitim ve yetiştirilmesine büyük önem vermiş ve bu alanda bir takım reformları hayata geçirmiştir. Onlara göre çocukların doğru yetiştirilmesi ve eğitimi ülkenin geleceğini güvence altına alacak. Her iki lider de çocukların ulusal değerlere sadık kalmasının ve çağdaş bilgi edinmesinin önemli olduğunu belirtti.

Haydar Aliyev ve Mustafa Kemal Atatürk'ün çocuk eğitimi konusundaki tarihsel görüşleri bugün de geçerliliğini korumaktadır. Gelecek nesillerin oluşmasında ve ülkelerin kalkınmasında onların görüşleri önemli rol oynamaktadır. Bu tezde her iki liderin çocuk yetiştirme konusundaki görüşleri incelenerek modern çağdaki önemi vurgulanmıştır.

# MİLLİ –MƏNƏVİ DƏYƏRLƏR YENİYETMƏ VƏ GƏNC QIZLARIN TƏRBİYƏSİNDƏ NÜMUNƏ MƏKTƏBİDİR

**Ləzifə Qasımova**
**professor**
**Nərmin Əliyeva**
**doktorant**
**Bakı Dövlət Universiteti**
**lazifa.qasimova@mail.ru**
**sabka567@gmail.com**

**Açar sözlər:** Milli-mənəvi dəyərlər, yeniyetmə və gənc qızlar, davranış mədəniyyəti, gənclər

Azərbaycan qadını hər zaman layiq olduğu şərəfli, müqəddəs ana adını uca tutmaqla müdrikliyi, ictimai-siyasi, mədəni həyatda fəallığı, işgüzarlığı, fədakarlığı və mübarizliyi ilə tarixi keçmişimizə ən parlaq səhifələr yazmışdır. Şərqdə ilk dəfə olaraq Azərbaycan Xalq Cümhuriyyəti dövründə qadınlara seçmək və seçilmək hüququnun verilməsi də tarixin ən böyük hadisəsidır.

Qadınlarımız tarix boyu öz müdrik zəkası və ağlı ilə, vətənpərvərliyi və şücaəti ilə, namus və qeyrəti ilə hər zaman mənəviyyat nümunəsi olmuşdur. Ümummilli lider Heydər Əliyev qadınların cəmiyyətdəki rolu ilə bağlı dəyərli fikirlər söyləmiş, onların dövlət quruculuğunda, elm, mədəniyyət, təhsil, səhiyyə, idman və digər sahələrdə təmsil olunmasına xüsusi diqqət və qayğı göstərmişdir. Ulu öndər Heydər Əliyev Qadınların birinci Qurultayında demişdir: "Azərbaycan qadını tarix boyu öz ağlı, zəkası, namusu, qeyrəti, isməti ilə, fəadakarlığı, çalışqanlığı, mərdliyi, vətənpərvərliyi ilə, millətinə torpağına olan hədsiz məhəbbəti ilə, gözəlliyi və Azərbaycan xalqının xüsusiyyətləri ilə tanınmışdır". Bəli, bu dəyərli, müdrik fikirlər bizim ulu dastanımız Dədə Qorqud dastanında öz bədii – obrazlı əksini tapmışdır.

"Kitabi-Dədə Qorqud" dastanı qəhrəmanlıq, igidlik, mərdlik, cəsurluq, dostluq, birlik dastanı olmaqla, həm də namus, qeyrət, ləyaqət, insanpərvərlik kimi əxlaqi, milli-mənəvi dəyərlərlə zəngin olan və gənc nəslin tərbiyəsində mühüm rol oynayan böyük tarixi mənəvi abidədir. Milli-mənəvi dəyərlərin mühüm tərkib hissəsi olan vətənpərvərlik, qəhrəmanlıq, yurd sevgisi əsərin əsas ideyasını təşkil edir ki, bunlar da dəyərli tərbiyə nününələridir. Dastanda qadınlar da kişilər qədər mübariz olub onlarla çiyin çiyinə vuruşur. Dastanda Beyrəyin evlənmək vaxtı çatanda deyir ki, "Ata mənə elə qız al ki, mən yerimdən durmamış o dursun, mən ata minməmiş o minmiş olsun. Mən düşmənin üstünə gedənə qədər, o mənə baş gətirsin". Qadın həm də evin dirəyi, nəsil artıran, incə məlahətli, gözəl nəvazişli yüksək mənəviyyatlı mədəni davranışlı xanım kimi təsvir edilir. Dastanda anaya məhəbbət, qadına yüksək dəyərli münasibət öz əksini tapmışdır: "Ay, Şöklü Məlik! evimi soyub, xəzinəmi gətirmisən, sənə kölgəlik olsun. Şahbaz atları gətirmisən, sənin olsun. Nə qədər var dövlətimi gətirmisən, sənin olsun. Amma, dünyada anadan əziz nə var? Anamı qaytar, arvadımı, oğlumu və bütün əsirləri ver, davasız-qırğınsız geri dönək". Belə dəyərli misalları çox göstərmək olar. Yaxud Koroğlu dastanında qadına yüksək münasibət, qadının həyat yoldaşının həmişə yanında olması, onunla birlikdə mübarizə aparması çox dəyərli nümunələrlə təsvir edilir ki, bütün bunlar da milli-mənəvi tərbiyə baxımından çox əhəmiyyətlidir. Koroğlu yüzillərdir Qıratın belində, Misri qılıncı əlində, telli sazı ilə, sehrli sözləri ilə, sevimli Nigarı ilə bir qəhrəman kimi Türk xalqlarının qəhrəmanlığını, azadlıqsevərliyini, haqsevərliyini, vətənpərvərliyini, insanpərvərliyini bütün dünyaya bəyan

edir. Koroğlunun Nigarı vətənpərvərlik, qəhrəmanlıq, sədaqət, iffət, ismət nümunəsidir ki, xüsusilə yeniyetmə qızlarımız üçün nümunə məktəbidir.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev Bakıda Koroğlu abidəsinin açılışındakı nitqində "Koroğlu" dastanının milli-mənəvi dəyərlərin, Azərbaycan idealının azərbaycançılığın təcəssümü olduğunu xüsusi vurğulamışdır: "Gənc nəslin tərbiyə edilməsində "Koroğlu" dastanı çox mühüm bir vasitədir. Çünki gənc nəslimiz vətənpərvərlik ruhunda böyüməli, tərbiyə almalıdır. Müstəqil Azərbaycanın vətəndaşları öz Vətənini, xalqını sevməlidirlər. Koroğlu xalq içərisindən çıxmış, xalq üçün yaşamış gözəl insan, böyük sərkərdə idi. Koroğlu, eyni zamanda, istedadlı insan idi - həm şair, həm aşıq idi. Bir daha demək istəyirəm ki, Azərbaycan xalqının ən gözəl xüsusiyyətləri onda var idi və bizim gənclərimiz keçmişimizdə olan müsbət obrazları da bilməlidirlər, yaxından, dərindən tanımalıdırlar. Bizim çox böyük, zəngin tariximiz, mədəniyyətimiz vardır. Şifahi xalq yaradıcılığımız vardır. Gözəl əsərlərimiz, dahi şəxsiyyətlərimiz vardır. Bizim vətəndaşlar, xüsusilə, gənclər o dahi şəxsiyyətləri tanımalıdırlar. Koroğlu da haqq-ədalətin tərəfində idi. Koroğlu kasıbların tərəfində idi. Koroğlu ədalətsizliyə dözməyən və ədalətsizliyə qarşı vuruşan görkəmli şəxsiyyət, sərkərdə, gözəl vətəndaş idi. Biz, bir daha demək istəyirəm ki, gənc nəsli bu müsbət nümunələr əsasında tərbiyə etməliyik. Mən çox şadam ki, Azərbaycan gəncləri vətənpərvərdirlər, Vətənə bağlıdırlar, Vətəni sevirlər. Bizim vətəndaşlar haqlı olaraq, qürur hissi keçirirlər ki, biz hamımız Azərbaycan vətəndaşıyıq. Bizim üstünlüyümüz ondan ibarətdir ki, gənc və güclü dövlətimiz möhkəm təməl üzərində qurulubdur. Çoxəsrlik tarix, mədəniyyət üzərində qurulubdur.

Milli-mənəvi dəyərlər bizim üçün ən vacib məsələdir. Biz, təbii ki, ümumbəşəri dəyərləri bölüşürük. Ancaq bizim üçün başlıca dəyərlər öz milli-mənəvi Azərbaycan dəyərlərimizdir. Bu gün qadınlarımız təkcə respublikamızda deyil, ölkəmizin hüdudlarından kənarda da apardıqları dövlət əhəmiyyətli çoxşaxəli, mürəkkəb fəaliyyət proqramlarını yüksək səviyyədə həyata keçirirlər. Azərbaycan qadını görkəmli dövlət, elm, mədəniyyət və ictimai-siyasi xadim adını qazanaraq, dövlətçilik tariximizdə mühüm rol oynamışdır. Respublikamız dövlət müstəqilliyini yenidən bərpa etdikdən sonra da qadınların cəmiyyətdə rolu daha da yüksəlmiş və ictimai fəaliyyətləri daha da genişlənmişdir. Birinci vitse-prezident, Heydər Əliyev Fondunun prezidenti, ölkəmizin birinci xanımı xeyirxah əməlləri ilə dünyada tanınmış Mehriban Əliyevaya YUNESKO-nun və İSESKO-nun xoşməramlı səfiri adı verilməsi buna bariz nümunədir. Azərbaycan qadınının milli-mənəvi dəyərlər sistemimizin təşəkkülündə və yaradılmasında müstəsna rolu vardır.

Qadın adını hər bir azərbaycanlı uca tutaraq Ana məfhumunu Vətənin təcəssümü sayıb. Bu gün cəmiyyətimizin elə bir sahəsi yoxdur ki, orada qadın əməyi görünməsin. Bu gün milli-mənəvi dəyərləri zəngin olan Azərbaycan xanımları Vətən qarşısında vəzifə borclarını ləyaqətlə yerinə yetirirlər. Qadın anadır, həm də müəllim, həkim, mühəndis, jurnalist, alim, polis, idmançı, hətta hərbiçidir. Hərbiçi qadınlarımız hərbi and içərək ordu sıralarına daxil olurlar. Onlar çətin, eyni zamanda, şərəfli peşəyə ömürlərini həsr edirlər. Azərbaycan Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin rəhbərliyi ilə 2020- ci ilin 27 sentyabrında düşmənə qarşı başlanan əks-hücum əməliyyatı zamanı arxa cəbhədə xidmət edən və çalışan Azərbaycan Ordusunun xanım hərbi qulluqçuları və mülki qadın əməkdaşları vəzifə borclarını ləyaqətlə yerinə yetirdilər. Torpaqlarımızın azadlığı uğrunda vətənpərvərlik, qəhrəmanlıq, mərdlik nümunəsi göstərən qadınlarımız, canından keçən şəhidlərimizin ana və bacıları, həyat yoldaşları dözümlülük və səbr nümayiş etdirdilər. Bütün bunlar xalqımızn milli-mənəvi dəyərlərindən irəli gəlir.

Azərbaycan xalqı tarixin ən çətin dövrlərində belə, öz zəngin milli-mənəvi irsini, mənəvi dəyərlərini, adət və ənənələrini yad təzahürlərdən qorumuş və onu gələcək nəsillərə, bugünkü tələbə gənclərimizə, oğlan və qızlarımıza ötürmüşdür. Hər hansı bir xalqın mənəvi

mədəniyyətinin inkişafında, milli-mənəvi şüurun formalaşmasında tarixən yaranmış milli - mənəvi dəyərlər mühüm rol oynayır. Çünki hər bir xalqın milli-mənəvi dəyərlərini şərtləndirən dil, din, adət və ənənələr, geyim, davranış mədəniyyəti onun mənəvi aləminin formalaşmasına həlledici təsir göstərən mühüm amillərdəndir. Pedaqoji psixoloji fikir tariximizdə yeniyetmə qızların şərəf və ləyaqət hisslərinin formalaşdırılması ilə bağlı dəyərli tədqiqatlar aparılmış, bir çox kitab və məqalələr yazılmışdır. Prof. Ə.Ə.Əlizadə, prof.L.N. Qasımova, prof. A.N.Abbasov, prof. R.L.Hüseynzadə, dos. E.Ə.Mollayeva və başqalarının yaradıcılığında yeniyetmə və gənc qızlarda şərəf və ləyaqət hisslərinin tərbiyə məsələləri, o cümlədən geyim, dəb, davarnış qaydaları, adət və ənənələrimzin qorunması xüsusi aktuallıqla şərh olunur. Müasir dövrümüz Azərbaycan qadını qarşısında sonsuz imkanlar açmışdır. Cəmiyyətdə kişilərlə bərabər ictimai-siyasi hüquqa malik qadınlarımız ictimai həyatda fəal rol oynayırlar. Gələcək nəsillərin tutduğu yeri, mövqeyi onların tərbiyəsində milli- mənəvi, əxlaqi keyfiyyətlərin formalaşdırılması ilk növbədə ananın, qadının, bugünkü yeniyetmə və gənc qızların mənəvi-əxlaqi keyfiyyətlərindən, həyat tərzindən, təhsilindən, davranış mədəniyyətindən asılıdır.

# İLKİN PSİXOLOJİ YARDIM-SİSTEMLİ YANAŞMA

**Məlahət Nuriyeva**
**müəllim**
**Bakı Dövlət Universiteti**
**malahat.nuriyev@bsu.edu.az**

**Açar sözlər:** ilkin psixoloji yardım, psixi sağlamlıq, stress pozuntusu, təşviş reaksiyaları, müdaxilə modelləri

Psixoloji problemlər bir sıra hallarda qısamüddətli, lakin əhəmiyyətli dərəcədə problemli olan ekstremal situasiyalardan - potensial travmatik hadisələrdən sonra baş verir. Daha nəzərə çarpan reaksiyalara travma sonrası stress pozuntusu (PTSP), depressiv pozuntular, təşviş pozuntuları və maddə istifadəsi kimi psixiatrik problemlərin inkişafı daxildir. Bu pozuntuların inkişafının qarşısını ala biləcək erkən müdaxilələr hazırlamaq bir sıra hallarda effektiv nəticələr verir, belə ki problemin sonrakı terapevtik sessiyalarla aradan qaldırılması və konsultativ görüşlər ilkin psixoloji yardımın nəticəsindən bilavasitə asılıdır.

Sistematik araşdırmalar göstərir ki, psixi sağlamlıq göstəricilərinin yaxşılaşdırılması üçün travmatik bir hadisədən qısa müddət sonra həmin situasiyada iştirak etmiş və şahid olmuş hər kəsə yönəlmiş hər hansı bir psixososial müdaxilə çox vacibdir. Bu zaman fərdi psixoloji debrifinq və koqnitiv behavioral terapiyaya əsaslananlar çoxsaylı sessiya müdaxilələri kimi tək birdəfəlik seans həyata keçirilə bilər.

"Psixoloji ilk yardım" ilk dəfə konseptual olaraq iyirminci əsrin ortalarında tətbiq edilib; bu dövrdə psixoloji ilk yardım fəlakətlərdən və ekstremal hadisələrdən sağ çıxanlara erkən psixoloji müdaxilənin əsas dayağı kimi ortaya çıxdı. Kütləvi zorakılığa dair 2001-ci il Milli Psixi Sağlamlıq İnstitutu konfransı, psixoloji ilk yardım ən çox dəstəklənilən, erkən müdaxilə yanaşmasıdır. Psixoloji ilk yardım, bir sıra konsensusun hesabatlarında psixi sağlamlıq mütəxəssisləri tərəfindən geniş şəkildə təsdiq edilmiş və geniş yayılmışdır. İlkin psixoloji yardım həmçinin post travmatik stress pozuntusu üçün beynəlxalq müalicə təlimatlarında, protokollarında və ektremanl situasiyalardan, müxtəlif fəlakətlərdən sağ çıxanlar üçün erkən müdaxilə kimi ardıcıl olaraq tövsiyə olunur.

11 Sentyabr hadisəsindən sonra çoxsaylı psixoloji ilk yardım protokolları təqdim edilmişdir. Protokollar və modellər ilkin psixoloji yardım, icma əsaslı psixososial dəstək, fəlakət zamanı davranış sağlamlığına ilk yardım, psixi sağlamlıq üçün ilk yardım və streslə bağlı ilk yardım kimi müxtəlif şəkildə qeyd edilir.

Son illərdə fəlakətə məruz qalmanın psixososial nəticələri məharətlə tədqiq edilmiş və geniş ictimaiyyət tərəfindən mənfi təsirlərin aradan qaldırılması və sağlam bərpanın asanlaşdırılması üçün erkən müdaxilə strategiyaları tələbi ilə geniş şəkildə qəbul edilmişdir. Psixoloji debrifinq ilkin olaraq stresli missiyalardan qayıdan peşəkar fövqəladə hallara müdaxilə edənlərin psixoloji ehtiyaclarını qarşılamağa çalışdı və sonradan debrifinq üsulları mülki fəlakətdən sağ qalanlarla istifadə üçün genişləndirildi. Nəzarət edilən bir araşdırma qrupu, bu yanaşmanın uzunmüddətli bərpa baxımından faydalı təsirləri ilə bağlı ciddi suallar doğurdu. Daha ciddi narahatlıq doğuran, alıcıların azlığı üçün psixoloji məlumatlandırmanın əslində daha pis uyğunlaşma ilə nəticələnə biləcəyi təklifi idi. PFA bu kontekstdə iatrogenik ola biləcək elementlərdən (xüsusilə hadisənin təfərrüatlı nəzərdən keçirilməsi üçün gözləntilərdən) qaçaraq, bərpaya kömək etmək ehtimalı yüksək olan digər modellərin elementlərini saxlamaqla "əvvəlcə heç bir zərər verməyəcək" bir müdaxilə kimi ortaya çıxdı.

İlkin psixoloji yardım yeni bir müdaxilə deyil. Qeyd etmək lazımdır ki, müasir cəmiyyətdə baş verən hadisələr, sosial proseslər, ixtişaşlar, həmçinin müharibələr səbəbli

ilkin psixoloji yardım konsepsiyaları üzərində işlənilmiş və effektiv şəkil almışdır. 2004-cü ildə təşkil edilən və daha sonra Hobfoll və 19 həmmüəllif tərəfindən xüsusi nəşrdə ümumiləşdirilmiş fəlakət psixi sağlamlıq ekspertlərinin konsensus konfransı ilə mövcud tədqiqat ədəbiyyatından əldə edilən beş "vacib element" ilə dəstəklənmişdir. Bu beş element aşağıdakılardır:

- təhlükəsizlik,
- sakitləşdirmə,
- bağlılıq,
- öz-özünə effektivlik və ümid.

Müxtəlif ilkin psixoloji yardım modelləri bu elementlərə müxtəlif dərəcədə uyğundur. Sadə dillə desək, ilkin psixoloji yardım ekstremal hadisəyə məruz qalanlara məlumat, rahatlıq, emosional qayğı və instrumental dəstəyi, insanın ehtiyaclarına uyğun olaraq mərhələli şəkildə təmin edilməsini əhatə edir. Ön xətt strategiyası olaraq, ilkin psixoloji yardım psixi sağlamlıq mütəxəssisləri tərəfindən çatdırılması üçün nəzərdə tutulmamışdır, daha doğrusu, o, peşəkar fəlakətlərə cavab verənlərdən (təcili yardım xidmətlərinin personalı, tibbi təcili yardım qrupları) tutmuş müəllimlərə, din xadimlərinə və bu mövzuda təlim keçmiş fəlakət könüllülərinə qədər çoxlu sayda peşəkar təminatçılar tərəfindən idarə olunmaq üçün nəzərdə tutulmuşdur.

İlkin psixoloji yardım çərçivələri indi geniş şəkildə əlçatandır və qlobal dil spektrində mövcuddur. İlkin psixoloji yardım üzrə təhsil bir sıra canlı, onlayn, mobil və vasitəçi təlim üsulları vasitəsilə təklif olunur. Əvvəlcə mülki fəlakətdən sağ çıxanlar ilə istifadə üçün nəzərdə tutulsa da, son vaxtlar fövqəladə hallara cavab verən heyət, fəal hərbi döyüş birləşmələri və digər yüksək riskli peşə qrupları ilə istifadə üçün bir neçə “stressə ilk yardım (‘Stress first aid’)” variantları təqdim edilmişdir. Qısacası, müxtəlif formalarda modellər sürətlə fəlakət və travmaya məruz qalmış əhali üçün universal olaraq qəbul edilmiş erkən seçim müdaxiləsinə çevrilmişdir.

# TARİXİ GERÇƏKLİYİN ÖYRƏNİLMƏSİNDƏ XƏRİTƏLƏR ƏVƏZEDİLMƏZ VASİTƏDİR

**Müşfiq Bayramov**
**dosent**
**Orxan Kərimov**
**magistrant**
**Lənkəran Dövlət Universiteti**
**mushfiq76@mail.ru**
**karimovorxan4400@gmail.com**

**Açar sözlər:** xəritə, fəal təlim, tarixin tədrisi, pedaqoji düşüncə

Tarix xəritələri, fəal təlim vasitələri içərisində mühüm yer tutur. Onlar tarixi biliklərin öyrənilməsi və sistemləşdirilməsi üçün əvəzsiz bir vasitədir. Təlim prosesində xəritə iki mühüm funksiyanı yerinə yetirir: bir tərəfdən tarix təlimində öyrənmə obyekti rolunu oynayır, digər tərəfdən isə mühüm informasiya mənbəyi kimi xidmət edir. Xəritənin əsas və ən qiymətli xassəsi onun əyaniliyidir. Bu, o deməkdir ki, xəritə üzərində toplanmış məlumatlar, vizual formatda təqdim edildiyinə görə, gözümüzlə daha asan qavranılır.

Xəritələr, bilavasitə müşahidə edilməsi mümkün olmayan coğrafi və tarixi təsəvvürləri yaratmağa kömək edir. Şərti işarələrin və xəritənin tərtib olunma qaydalarının yaxşı bilinməsi, şagirdlərin müxtəlif ərazilərin coğrafi xüsusiyyətlərini, tarixi proseslərin və hadisələrin xarakterini dəqiq təsəvvür etmələrinə imkan tanıyır. Bu biliklər, onların analitik düşüncə qabiliyyətini inkişaf etdirir, müstəqil düşünməyə və tədqiqat aparmağa təşviq edir.

Xəritənin psixoloji-pedaqoji rolu da böyükdür. O, düşüncəni təşkil edir, bilikləri sistemləşdirir, bununla da onların mənimsənilməsini və yadda saxlanılmasını asanlaşdırır. Bu xüsusiyyətlər, şagirdlərin məktəb dövründə, eləcə də bütün həyatları boyu gərəkli olur. Tarix və coğrafiya kimi fənlərdə, xəritələr vasitəsilə öyrənilən biliklər, şagirdlərin tarixi kontekstdə düşüncə tərzini formalaşdırmağa kömək edir.

İnformasiyanın verilməsi və mənimsənilməsində xəritənin üstünlüyü danılmazdır. Xəritə vasitəsilə təqdim olunan məlumatlar, insanların diqqətini daha tez cəlb edir. Xəritənin dili, vizual xarakteri sayəsində hamı tərəfindən asanlıqla anlaşılır. Kartoqrafik vizual təsvirlər, öyrənilən məlumatların daha yaxşı qavranılmasına və yadda saxlanılmasına şərait yaradır. Xəritələr, tarixi materialların təkrarında və şagirdlərin yaddaşında möhkəmlənməsində də böyük rol oynayır.

Müəllimin dərs zamanı divar xəritəsində göstərdiyi, şagirdlərin dərsliklərdəki və atlasdakı xəritələrdə izlədiyi, xəritənin təhlili nəticəsində aydınlaşdırdığı hadisələr, dərsdə müəllimin suallarına cavab verərkən xəritə üzrə müstəqil şərh etməyə imkan tanıyır. Bu cür interaktiv yanaşma, şagirdlərin tarixi hadisələri daha yaxşı başa düşməsinə və uzun müddət yaddaşlarında saxlamalarına kömək edir.

Xəritələr, ətraf mühiti, tarixi gerçəklikləri və reallığı dərk etməyə çalışan şagirdlər ilə tədqiqat obyekti arasında şüurlu əlaqə yaradır. Bu əlaqə, şagirdlərin analitik düşünmə bacarıqlarını inkişaf etdirir, onların dünyagörüşünü genişləndirir və onları tarixi hadisələri daha geniş kontekstdə qiymətləndirməyə yönləndirir. Xəritələr, şagirdlərin tədqiqat aparmalarını təşviq edərək, onların öz suallarını formalaşdırmalarına, fərqli perspektivlərdən düşünmələrinə və tarixi kontekstdə müstəqil fikirlərini inkişaf etdirmələrinə imkan verir.

Müəllimlərin dərs prosesində xəritələrdən istifadə etməsi, şagirdlərin motivasiyasını artırır və onları dərslərə daha aktiv şəkildə cəlb edir. Xəritələr, tarixi hadisələrin, coğrafi xüsusiyyətlərin və müxtəlif mədəniyyətlərin öyrənilməsində interaktiv bir alət kimi çıxış

edir, çünki vizual təhlil imkanı yaradaraq şagirdlərin marağını artırır. Bu interaktiv yanaşma, dərslərdə müzakirələri canlandırır, şagirdlərin suallarını formalaşdırmalarına və müxtəlif perspektivlərdən düşünmələrinə imkan tanıyır. Nəticədə, tarixi biliklərin daha dərin və davamlı şəkildə mənimsənilməsi, şagirdlərin analitik düşüncə qabiliyyətini inkişaf etdirir, onlara tarixi kontekstdə daha geniş bir baxış açısı qazandırır. Bu cür dinamik təhsil mühiti, şagirdlərin öz öyrənmə proseslərinə daha çox sahiblənmələrinə səbəb olur.

Nəticə etibarilə, tarix xəritələri yalnız informasiya mənbəyi deyil, həm də şagirdlərin analitik düşüncə və müstəqil tədqiqat qabiliyyətlərini inkişaf etdirməkdə vacib bir vasitədir. Onlar, tarix təliminin effektivliyini artırır və şagirdlərin tarixə olan marağını daha da gücləndirir. Xəritələr vasitəsilə öyrənilən biliklər, şagirdlərin gələcəkdəki akademik və şəxsi inkişafında mühüm rol oynayır. Beləliklə, tarix xəritələrinin təlim prosesindəki yeri, onların əhəmiyyətini daha da artıraraq, müasir təhsil sisteminin ayrılmaz bir hissəsinə çevrilir; bu da gənc nəsli daha məlumatlı, tənqidi düşünən və tarixi kontekstdə düşünməyi bacaran vətəndaşlar halına gətirir.

# SƏLCUQLAR DÖVLƏTİNİN TARİXİ TÜRK TARİXÇİSİ YAŞAR BEDİRHANIN ƏSƏRLƏRİNDƏ

**Müşfiq Bayramov**
**dosent**
**Lənkəran Dövlət Universiteti**
**brahid97@mail.ru**

**Açar sözlər:** Yaşar Bedirhan, səlcuq, tarixşünaslıq, mədəniyyət, siyasi tarix

XI əsrin 30-cu illərində Yaxın Şərqdə ən qüdrətli Türk imperiyalarından biri yarandı. Bu tarix boyu yaranmış dörd böyük Türk imperiyalarından biri idi. Böyük Səlcuqlar dövləti adlanan bu imperiya Oğuzların qınıq boyundan olan Səlcuq bəyin adı ilə bağlıdır. Geniş bir ərazini əhatə edən Səlcuqlar dövləti orta əsrlərdə burada yaşayan xalqların siyasi, iqtisadi və mədəni həyatında mühüm rol oynamışdır. Səlcuqlar dövlətinin tarixi müasir tarixşünaslıqda çoxşaxəli tədqiqatlara səbəb olmuş, istər Türkiyə istərsə də xarici tarixşünaslıqda elm adamları bu mövzuda çoxsaylı tədqiqat əsərləri yazmışdır. Onlardan biri də Türk tarixçisi, arxeoloqu, etnoqrafı Yaşar Bədirhandır. O, Səlcuq dövlətinin siyasi-iqtisadi və mədəni tarixi üzrə geniş tədqiqatlar aparmışdır.

Bədirhanın elmi irsi, Səlcuq dövləti ilə bağlı bir sıra əsas əsərlərdən ibarətdir. Bunlardan “Selçuklu çağında Türkiye'de iç ve dış ticaret”, “Türkiye selçuklu devleti tarihi”, “Selçuklular ve Kafkasya”, “Selçuklu müesseseleri ve medeniyeti tarihi”, “Malazgirtten vatana Anadolu Selçuklu devleti tarihi”, “Türkiye Selçuklularında dış ticaret”, “Orta çağda ipek yolu hakimiyyeti türk yurtları” və çoxsaylı başqa əsərlərdir ki, bunlar səlcuklular dövlətinin siyasi-iqtisadi və mədəni həyatına həsr edilmişdir.

Tədqiqatçının əsərləri Səlcuq dövlətinin tarixi ilə bağlı bir neçə əsas tema ətrafında cəmlənmişdir: siyasi idarəetmə, iqtisadiyyat, elm və təhsil. Xüsusilə səlcuqlular dövrünün daxili və xarici ticarət mövzusunda elmi tədqiqatlar aparan alim əsərlərində Səlcuqlu imperiyasının ticarət yollarını, limanları və bazarları, pul və maliyyə siyasətini geniş şəkildə araşdırmışdır. Bu mövzuda yazdığı “Selçuklu çağında Türkiye'de iç ve dış ticaret” əsəri xüsusilə diqqətəlayiqdir. Əsərdə müəllif Səlcuqlar dövründə daxili və xarici ticarətin inkişafını, ticarət yollarının əhəmiyyətini və ticarət mərkəzlərinin rolunu təsvir edir. O, Selçuklu imperiyasının geniş ərazisi boyunca uzanan ticarət yollarının necə formalaşdığını və bu yolların iqtisadi əlaqələri necə gücləndirdiyini izah edir. Onun analizləri, Selçuklu dövründə ticarətin cəmiyyətə, mədəniyyətə və iqtisadi inkişaf proseslərinə olan təsirlərini aydın şəkildə ortaya qoyur.

Belə ki, bu dövrdə İpək Yolu ticarəti Anadolu üzərindən keçərək Səlcuqluların iqtisadi gücünü artırmışdır. Bedirhanın tədqiqatları göstərir ki, Türkiyə Səlcuqluları Bizans, İran, Qafqaz və Mərkəzi Asiya ilə sıx ticarət əlaqələri qurmuşdular. Səlcuqlar dövründə Karvansaraylar və ticarət yollarının inkişafı ticarətin təhlükəsizliyini təmin etmiş, həcmini artırmışdır.

Y.Bədirhan həmçinin Səlcuqlar dövrü mədəniyyəti, incəsənəti və elmin inkişafı sahəsində də əhəmiyyətli tədqiqatlar aparmışdır. Bu mövzuda Zeki Atçekenlə birlikdə yazdığı “Selçuklu müəssisələri və mədəniyyəti tarixi” əsəri son dərəcə mühüm əhəmiyyət kəsb edir. Əsərdə Səlcuqlar dövrünün mədəniyyəti, sosial və iqtisadi quruluşu, elm və ədəbi mühiti dərin bir şəkildə araşdırılır. Əsərdə bu dövrdə yaranan ədəbiyyat, memarlıq və elmi nailiyyətlər tarixi kontekstdən təhlil edilir. O, dövrün görkəmli alimləri, şairləri və filosoflarının əsərlərini araşdıraraq, bu şəxsiyyətlərin Səlcuq mədəniyyətinə və elminə olan təsirlərini analiz edir. Ədəbiyyatda meydana çıxan müxtəlif üslublar, şairlərin yaratdıqları

əsərlər və onların mövzularının dövrün ictimai və mədəni mühitini necə əks etdirdiyini incələyir.

Memarlıq sahəsində isə, Səlcuq dövrünün mühüm memarlıq abidələrini və onların xarakteristikalarını araşdırır. O, Səlcuq memarlığının estetik xüsusiyyətlərini, inşaat texnikalarını və bu dövrdə inşa edilən məscid, türbə, karvansaray və digər tikililərin sosial-iqtisadi əhəmiyyətini izah edir. Bu əsərlərin bəziləri, Səlcuq mədəniyyətinin təkcə öz dövründə deyil, həm də sonrakı dövrlərdə necə dərin təsir buraxdığını göstərir.

Y.Bədirhanın "Selçuklu müəssisələri və mədəniyyəti tarixi" əsəri Selçuklu mədəniyyətinin zənginliyini anlamaq, tarixi kontekstdə mədəni irsin qorunması və müasir tədqiqatların inkişafı üçün dəyərli bir mənbədir.

Y.Bedirhanın Səlcuqlar dövlətinin siyasi tarixinin araşdırmasında rolu böyük olmuşdur. Tədqiqatçının "Türkiye Selçuklu devleti tarihi", "Selçuklular ve Kafkasya", "Malazgirtten vatana Anadolu Selçuklu devleti tarihi" əsərləri bu baxımdan diqqətəlayiqdir. "Türkiye Selçuklu devleti tarihi" adlı əsərində müəllif Səlcuq dövlətinin yaranma prosesi, Malazgirt döyüşü və Anadolunun türkləşməsi prosesi, səlcuqlu hökmdarlarının dövrü, onların xarici və daxili siyasətləri, apadıqları müharibələr, siyasi strukturu, sosial-iqtisadi vəziyyəti və mədəni inkişafı haqqında ətraflı məlumat təqdim edir.

Tədqiqatçı "Selçuklular ve Kafkasya" adlı əsərində Səlcuq İmperiyasının Qafqaz regionu ilə siyasi, mədəni və hərbi əlaqələrini ətraflı şəkildə araşdırmışdır. Səlcuq dövlətinin qonşu ölkələrlə, xüsusilə Gürcüstan, Ermənistan və Bizansla olan diplomatik əlaqələri, Səlcuqluların Qafqaza gəlməsi, burada apardığı müharibələr, strateji bölgələrin fəthi və regional güclərlə mübarizə, Malazgirt döyüşü və onun nəticələri, Səlcuq mədəniyyətinin Qafqazda yayılması, ticarət əlaqələri Səlcuqluların Qafqazda apardığı müharibələr, strateji bölgələrin fəthi və regional güclərlə mübarizə və.s. məsələlər barəsində əhəmiyyətli məlumatlar verilmişdir.

Beləliklə, pofessor Y.Bedirhan Səlcuqlar dövrünün tarixi, mədəniyyəti və siyasəti haqqında əhəmiyyətli araşdırmalar aparmış bir tarixçidir. Bədirhanın əsərləri əsasən Səlcuq dövlətinin quruluşu, siyasi strukturu, dövlət idarəçiliyi, hərbi strategiyaları və mədəniyyət sahəsindəki fəaliyyətlərinə həsr olunmuşdur. O, dövrün əsas mənbələrini təhlil edərək, Səlcuq imperiyasının İslam dünyası və Orta Asiyanın tarixinə olan təsirini aydınlatmışdır. Bədirhanın əsərləri həmçinin Səlcuq sultanlarının siyasi fəlsəfəsi və diplomatiya sahəsindəki nailiyyətlərini də öyrənməklə tarix elminə yeni baxışlar gətirmişdir.

# UŞAQLARIN MƏKTƏB TƏLİMİNƏ HAZIRLIĞINDA SOSİAL TƏRBİYƏ

**Nabat Qəhrəmanova**
**müəllim**
**Azərbaycan Dövlət Pedaqoji Universiteti**
**nabat.gahramanova@yahoo.no**

**Açar sözlər:** məktəbə hazırlıq, ümumtəhsil məktəbi, ailə, məktəbəqədər təhsil

Uşağın məktəbə gəlməsi onun həyat tərzini dəyişir, yeni sosial münasibətlər yaranır, yeni kollektiv münsibətlər formalaşır və pedaqoji, psixoloji və sosial tələblər yaranır. Bu mürəkkəb pedaqoji, psixoloji və sosial prosesdə uşağın düzgün istiqamət alması, yorulmadan, usanmadan məktəb təliminə hazırlaşması, ona müsbət yanaşması, məktəbi, müəllimləri, uşaqları sevməsi, məktəb qaydalarına həvəslə əməl etməsi onun uğurlu məktəb təliminin əsasını yaratmış olur. Mənbələrdə haqlı olaraq göstərilir ki, hər bir insan təkrarolunmaz varlıqdır. Hər bir insanın fərqli xüsusiyyəti vardır. Bu cəhətdən hər bir insanın sosiallaşma prosesi də fərqli olaraq həyata keçirilir. Sosial inkişaf şəraitini təhlil etmək üçün, hər şeydən əvvəl, uşağın ailədə tutduğu faktiki yeri, statusunu, rollarını, onun öz sosial şəraitinə münasibətlər sistemini, xüsusilə, anasına və atasına, bacı-qardaşlarına münasibətinin xarakterini, onlarla və ətrafdakı adamlarla qarşılıqlı münasibətlərinin xüsusiyyətlərini və fəaliyyətinin xarakterini aydınlaşdırmaq lazımdır. Bu cəhətdən uşağın da ailədə, məktəbdə və məktəbəqədər təhsil müəssisəsində sosiallaşması müxtəlif səviyyədə olur. Uşaqların məktəb təliminə hazırlığı əsasən üç sosial institut tərəfindən həyata keçirilir: 1.Ailə. 2.Ümumtəhsil məktəbləri. 3. Məktəbəqədər təhsil müəssisələri.

Hər üç sosial institut uşağın məktəbə hazırlığında maraqlıdır və bunu həyata keçirməyə məsuldur. Uşağın məktəbdə yaxşı oxuması, təlimə məsuliyyətlə yanaşması, biliklərə maraq göstərməsi onun məktəb təliminə sosial hazırlığından asılıdır. Ailə özünəməxsus spesifik xüsusiyyətləri ilə xarakterizə olunan, psixoloji çalarlara malik və bir sıra funksiyaları icra edən kiçik sosial qurumdur. Ailə ilk sosial institut kimi uşağın sosial tərbiyəsinə onun sosiallaşmasına xüsusi diqqət və qayğı göstərməlidir. Ailə cəmiyyətin ilkin özəyi olaraq cəmiyyətə yararlı insanların yetişməsində məsuliyyət daşıyır. O, uşaqlarda hələ kiçik yaşlardan şüurun, iradənin, hisslərin sosial təcrübənin formalaşmasına şərait yaradır. Uşaqlar valideynlərin rəhbərliyi altında ilk sosial təcrübələr əldə edir, onları əhatə edən insanlarla sosial münasibətə girir, elementar biliklərə yiyələnir, cəmiyyətdə lazımi həyati bacarıq və vərdişlərə yiyələnirlər. Uşaq üçün ilk sosial mühit ailədir. Belə ki, ailədə hər bir uşağın inkişafı üçün özünəməxsus sosial inkişaf şəraiti olur. Bu, ilk növbədə, ailə üzvlərinin şəxsi keyfiyyətləri, ailə üzvlərinin məişət birliyi, mənəvi cavabdehlik və qarşılıqlı kömək hissinin olması, sərvət meylləri, dünyagörüşü, mədəni və tərbiyə səviyyəsi və xüsusilə uşağa münasibəti ilə şərtlənir. Ailədə valideyn-uşaq münasibətləri ailənin strukturundan, ailədə nəsillər arasında münasibətlərin xarakterindən, övladların cins və yaş xüsusiyyətlərindən, qohumlarla münasibətlərindən və s. asılı olur. Bu cəhətlər Azərbaycan ailələrində dərin etnik-psixoloji köklərə malikdir. Məktəb təliminə hazırlıqla əlaqədar uşağın sosial inkişafında valideynlərin uşaqlar qarşısında qoyduğu tələb və tapşırıqlar mühüm rol oynayır. Uşaq tədricən nələri etməli və etməli olmadığını müəyyənləşdirir. Beləliklə, öz hisslərini razı salmaq üçün münasib cəzasızlıq yollarını müəyyənləşdirir. Maraqlar bu cəzasızlıq mühitinə yönəlir. Uşaqlarda ətraf aləmlə əlaqələrə maraqların yaranması, müsbət emosional münasibətin formalaşması şəxsiyyət komponentlərinə: xarakterə, fərdi yönümlərə, meyllərə, dünyagörüşünə və nəticədə mənlik şüuruna, təfəkkür və tərzinə əhəmiyyətli dərəcədə təsir göstərir. Məktəbə hazırlıq dövründə uşaqların intellektual, psixoloji, sosial-

pedaqoji hazırlığı, onların mənəvi, əxlaqi mədəniyyətə, mədəni davranış qaydalarına, ünsiyyət mədəniyyətinə yiyələnməsi, ictimai yerlərdə davranış qaydalarına əməl etməsi onların sosial tərbiyəsinin əsasını təşkil edir. Bu keyfiyyətlərə yiyələnmək uşağın sosiallaşması, ictiamiləşməsi ümumtəhsil məktəblərində məktəbə hazırlıq qruplarında daha sistemli və ardıcıl xarakter daşıyır. Ümumtəhsil məktəbində məktəbə hazırlıq qruplarında sosiallaşma sistemli xarakter daşıyır. Müəllim məşğələ zamanı uşaqlara diqqətlə dinləməyi, kollektivin bir üzvü olduğunu öyrədir. Burada onlara başqasının sözün kəsmədən səbrlə dinləməyi, yoldaşına hörmət etməyi öyrətmək mühümdür. Müəllim hər bir şagirdə ayrılıqda müraciət etməyə vaxtı və imkanı olmadığından o bütöv sinfə müraciət etdikdə hər bir uşaq bilməlidir ki, müəllim ona da müraciət edir. Bu onun sosial tərbiyəsinin əsas kompetensiyasıdır. Hər bir uşağın öz maraq dünyası, xarakterik keyfiyyətləri var. Müəllim uşaqlara başa salır ki, bunlar başqa uşaqların maraq və heysiyyətinə toxunmamalıdır. Buna görə də qrupda uşaqlar ümumi birgəyaşayış normalarına əməl etməli, məktəbdə davranış normalarını mənimsəməlidirlər. Beləliklə, uşaqlarda tədricən mədəni-əxlaqi, sosial davranış inkişaf edir. Uşaqların yaşıdları ilə birgə həyat tərzi müsbət əxlaqi keyfiyyətlərin yaranması üçün əlverişli zəmin yaranır. Onlar bir-birinə mehriban və səmimi yanaşır, çətin məqamlarda köməklik və qayğı göstərirlər. Bu prosesdə hər bir uşaq kollektivin fəal üzvü kimi hərəkət edir və bu da bir-birinə səmimi münasibətin formalaşmasına, nəzakətli və mədəni olmasına kömək edir.

Məktəbəqədər təhsil müəssisələrində isə uşaq şəxsiyyətinin sosiallaşmasının özünəməxsus səciyyəvi xüsusiyyətləri vardır. Məktəbəqədər təhsil müəssisələrində məktəbə hazırlıq qruplarında uşaqlar kollektiv birgə fəaliyyət zamanı dərk edirlər ki, oyuncaqlar hamıya məxsusdur. Oyuncaqlardan səliqəli istifadə etməlidir. Yoldaşı ilə də paylaşmalıdır. Uşaq öyrənir ki, kollektiv oynamaq lazımdır. Artıq onlar bilirlər ki, qrupda hamı bərabər hüquqa malikdir. Məktəbə hazırlıq yaş dövründə uşaqlarda sosial təsəvvürlər məzmununa görə yeni mahiyyət daşıyır. Vətən, yaşlıların əmək işləri, təbiət, ictimai hadisələr, böyüklərlə ünsiyyət və s. haqqında uşaqların təsəvvürləri xeyli genişlənir. Məktəbəqədər təhsil müəssiələrində məktəb hazırlıq qruplarında tərbiyəçi və valideynlər uşaqlarda sosial keyfiyyətləri bir xarakter formasında aşağıdakı kimi möhkəmləndirməlidirlər:

1. Məktəbə hazırlıq qrupu uşaqların Vətən haqqında nisbətən möhkəm anlayışa və biliyə malik olmaları təmin olunmalıdır;

2. Dövlətin himni, bayrağı, gerbi, sərhədi, müstəqilliyi, Milli Ordusu haqqında aydın və mühüm anlayışlar yaradılmalıdır;

3. Xalqımız, millətimiz və adət-ənənələrimiz haqqında müvafiq məlumatları olmalıdır;

4. Vətənimizin təbii sərvətləri (Xəzər dənizi, dağlar, meşələr, çaylar, bitki və heyvanat aləmi, quşlar, balıqlar, iqlim və s.) haqqında müvafiq biliyə malik olmalıdırlar;

5. Respublikamızın iqtisadiyyatı (neft, pambıq, taxıl, və s. istehsalı) və əmək adamları haqqında uşaqlarda yaşlarına müvafiq anlayışlar olmalıdır;

6. Öz xalqının milli mənəvi dəyərləri (tarixi, dili, dini, etnik tərkibi, musiqisi, incəsənəti və s.) haqqında sadə məlumatlara malik olmalıdır;

7. Məktəbə hazırlıq qrupunun uşaqları dahi klassiklərimiz – Nizami, Füzuli, Nəsimi, Xətai və s. müasir şair və yazıçılar haqqında müvafiq məlumata malik olmalıdırlar. Məktəbə hazırlıq qruplarında uşaqların sosial-əxlaq tərbiyəsini qeyd edilən istiqamətdə formalaşdırmaq nəticəsində onlarda yoldaşı və dostu üçün səy etmək, birgə sosial fəaliyyətdə olmaq, ümumi məqsəd üçün çalışmaq, ehtiyacı olana yardım göstərmək, əmək və oyun zamanı ilkin formada olsa da vəzifə, borc hissi formalaşır. Onlarda Vətən məhəbbəti, müxtəlif millətlərin nümayəndələrinə hörmət get-gedə inkişaf edir, insanlara məhəbbət

güclənir, incəsənət əsərlərinə maraq artır, ətraf mühitə münasibətdə müsbət irəliləyiş nəzərə çarpır.

Məktəbə hazırlıq qruplarında uşaqların mənəvi mədəniyyəti şəxsiyyətin sosiallaşmasını təmin edir, onu həyatda cəmiyyətdə ictimai fayda verəcəyi fəaliyyətə hazırlaşdırma prosesidir. Çünki insanın zənginliyi onun həqiqi, obyektiv münasibətlərinin zənginliyindən asılıdır. Məhz, tərbiyəolunma sayəsində insanlara, əməyə, biliklərə, fəaliyyətə çoxcəhətli münasibətlər yaranır. Şəxsi təcrübənin qazanılmasında başlıca cəhət ictimai münasibətlərin şüurlu dərk olunmasından ibarətdir.

# İNGİLİS DİLİNDƏ TƏK VƏ CƏM İSİMLƏRİN TƏDRİSİ

**Nəzrin Kamalova**
**magistrant**
**Sədaqət Abbasova**
**dosent**
**Lənkəran Dövlət Universiteti**
**nezrinkamalova22@gmail.com**
**sadagat2001@yahoo.com**

**Açar sözlər:** kəmiyyət, tək isimlər, cəm isimlər, toplu isimlər, tapşırıqlar

İngilis dilində tək və cəm isimlərin tədrisi zamanı əsas diqqət cəm isimlərin düzgün formalaşdırılmasına və istifadə qaydalarına yönəldilir. Tək və cəm isimlərin əsas qaydalarını və tədris zamanı diqqət edilməli məqamlara nəzər salmaq lazımdır. İngilis dilində ismin kəmiyyətini tədris etmək üçün müəllimlər bir sıra strategiyalardan və fəaliyyətlərdən istifadə edə bilərlər. Bu, şagirdlərin dil bacarıqlarını inkişaf etdirmək və kəmiyyət anlayışlarını öyrənməsi üçün effektivdir.

Tədris strategiyaları

Mətn və nümunələr

- Kəmiyyət isimlərinin istifadəsi ilə əlaqədar danışıq nümunələri və ya kiçik mətndən parçalar təqdim edilir. Mətndə kəmiyyət ifadələrinin altından xət çəkmək və ya dairə çəkmək tapşırığı verməklə təhsilalanlarda diqqət bacarığı inkişaf edir və qaydanın daha tez mənimsənilməsinə şərait yaradır.

Cədvəl hazırlama

- "Countable" (sayılabilən) və "uncountable" (sayılmayan) isimləri ayıran bir cədvəl hazırlayaraq öyrənənlərdə fərqləndirmək, müqayisə etmək, fikri cəmləmək kimi anlayışlar formalaşır. Məsələn, "many" və "few" sayılabilən isimlər üçün, "much" və "little" isə sayılmayan isimlər üçün istifadə etmək olar.

Oyunlar və tapşırıqlar

Tədris prosesində oyunlardan istifadə etmək daha əyləncəli və yadda qalan olur. Məsələn, təhsilalanlara şəkillər göstərib onların tək və ya cəm formalarını soruşmaq dərsi daha effektiv və keyfiyyətli edəcəkdir.

Qruplarla iş

Təhsilalanlar bir-birilə işləyərək tək və cəm isimləri formalaşdıra və öz aralarında müzakirələr apara bilərlər. Bu əsas qaydalar və metodlar ingilis dilində tək və cəm isimlərin tədrisini asanlaşdırır və tələbələrin bu mövzunu daha yaxşı mənimsəməsinə kömək edir.

Diaqramlar və vizual materiallar

- Vizual materiallardan istifadə edilməsi dərsi daha yaddaqalan edir. Məsələn, şəkillər və ya qrafiklər vasitəsilə tək və cəm isimlərin hansı hallarda istifadə edildiyini göstərmək əsas metodlardan biridir.

Rollu oyunlar

- Şagirdləri rollu oyunlara cəlb etmək dərsin daha maraqlı keçməsinə şərait yaradır. Məsələn, bir bazar səhnəsi yarada bilərsiniz, burada şagirdlər müştəri və satıcı rollarını oynayaraq kəmiyyət isimlərini tətbiq edirlər:

"I would like some apples" - "Mən bir az alma istəyirəm".

Praktik məşğələlər

- Tələbələrə müxtəlif cümlələr verilir və onlara kəmiyyət ifadələrini düzgün şəkildə tamamlanması tapşırılır. Bu şəkildə, onlar tək və cəm isimlərin istifadəsini praktik şəkildə öyrənə bilərlər.

Düzgünlük və interaktivlik

- Şagirdlərin sualları cavablandırılır və onlara qrup müzakirələri və fərdi tapşırıqlar vasitəsilə fikirlərini ifadə etmə imkanı verilir.

Dialoqlar hazırlanması.

Dil öyrənənlərin dil prosesini inkşaf etdirmək üçün müxtəlif situasiyalar üzrə dialoqların qurulması da dərsin təşkilinin əsasını təşkil edir.

Bu yanaşmalarla kəmiyyət isimlərini daha effektiv bir şəkildə öyrətmək mümkündür. Tədris prosesində əyləncəli və interaktiv üsullardan istifadə etmək, təhsilalanların marağını artıraraq öyrənmə prosesini asanlaşdırar.

# ALİ TƏHSİL MÜƏSSİSƏLƏRİ TƏLƏBƏLƏRİNDƏ İDARƏETMƏ MƏDƏNİYYƏTİNİN FORMALAŞMASI

**Nəzrin Miriyeva**
**doktorant**
**Lənkəran Dövlət Universiteti**
**nezrin.miriyeva.96@bk.ru**

**Açar sözlər:** tələbə, idarəetmə, mədəniyyət, sosial-pedaqoji

Mövzunun aktuallığı davamlı inkişafın qlobal məqsədləri, ölkənin inkişafının innovativ istiqaməti, insan kapitalının formalaşmasını təmin edən sahələrdə genişmiqyaslı dəyişikliklərlə bağlıdır. Məhdudiyyətlərlə üzləşən postindustrial rəqəmsal cəmiyyət şəraitində bütün dünyada təkcə qabaqcıl elmi və texnoloji inkişaflar deyil, həm də insan fəaliyyəti mədəniyyətinin keyfiyyətcə dəyişməsi vacibdir.

Tədqiqatın obyekti-sosial və pedaqoji fəaliyyətdir.

Tədqiqatın predmeti-universitetdə tələbələr arasında sosial-pedaqoji fəaliyyətin idarəetmə mədəniyyətinin formalaşdırılmasının konseptuallaşdırılmasıdır.

Tədqiqatın məqsədi-universitet tələbələri arasında sosial-pedaqoji fəaliyyətin idarə edilməsi mədəniyyətinin formalaşmasının konseptuallaşdırılmasının nəzəri və metodoloji əsaslarını inkişaf etdirməkdir.

Mədəniyyətin vacib tərkib hissəsi kimi, humanizm və humanistlik dedikdə, insanpərvərlik, insansevərlik, mərhəmətlilik, rəhmdillik, sədaqət, alicənablıq, insaf, ədalət, mürvət, xeyirxahlıq, insaniyyət və s. kimi anlayışlar başa düşülür. İllər boyu humanizmin insanlara aşılanmasının ən böyük yolu təhsildən və tərbiyədən keçib. Əslində humanizm anlayışının tarixi kökləri çox dərindir. Bütün dini sistemlərdə insana sevgi, şəfqət, mərhəmət kimi hisslər həmişə ön plana çəkilib. Hələ XII əsrdə Nizami öz əsərlərində humanizmə və demokratizmə önəm vermiş, elmi, incəsənəti, dostluğu, xeyirxahlığı, əməyi yüksək qiymətləndirmişdir.

Son dövrlər təhsil və elm adamları ölkənin sosial təminatının əsası kimi təhsilin keyfiyyət parametrlərinin yaxşılaşdırılması və sosiallaşmanın vacibliyinə diqqət çəkirlər. Bu sahədə dövlət proqramlarının həyata keçirilməsi, əhalinin bütün yaş mərhələlərində sosiallaşmasının müasir problemləri mühitlərin sosiallaşmasının yaradıcı və uyğunlaşdırıcı prinsiplərindən, onların insanlara pedaqoji təsirindən istifadə etmək zərurətini gücləndirir.

Bu aspektdə sosial və pedaqoji fəaliyyətin peşəkar müşahidəçi kimi rolu və sosial işə pedaqoji dəstək kimi cəmiyyətin və təhsil subyektlərinin rolu durmadan artır. Burada şəxsiyyətin həyat boyu ictimailəşməsi və aktivləşməsinə yardımın təşkilinin qeyri-institusional forması kimi sosial-pedaqoji fəaliyyətin idarəetmə mədəniyyətinə sahib olması vacib şərt kimi meydana çıxır.

Müasir sosial vəziyyət bir tərəfdən böhranlar və məhdudiyyətlər, digər tərəfdən innovasiyalar, yeni subyektlər və müxtəlif sahələrdə sosial və pedaqoji fəaliyyətlərin texnolojiləşdirilməsi də daxil olmaqla, davamlı dəyişən vəziyyəti nəzərə alaraq idarəetmə mədəniyyətinin innovativ komponentlərinin formalaşmasını tələb edir. Konseptuallaşdırma problemi tədqiqatın elmi cəhətdən təsdiqlənmiş dizaynı və həyata keçirilməsi və tətbiqi, keyfiyyətin idarə edilməsi ilə bağlı qərarlar qəbul etmək kimi vəzifələrin həllini aktuallaşdırır. Eyni zamanda sosiallaşmanın, təhsilin, tərbiyənin və təlimin prinsipləri və innovativ modelləri pedaqoji elmdə formalaşan anlayışla əlaqədar olaraq vacibdir ki, təhsil və sosial təşkilatların inkişafında əsas rolu sosial-pedaqoqların öz fəaliyyətlərini konseptuallaşdırmaq istəyi və bacarığı oynayır.

Nəzərə almaq lazımdır ki, müasir şəraitdə idarəetmə mədəniyyəti idarəetmə qərarlarının qəbulunun konseptual üslubunun əsası kimi tələb olunur ki, bu da qeyri-müəyyənlik şəraitində yüksək koqnitiv qabiliyyətə malik liderlərin, rəhbərlərin, menecerlərin və könüllülərin şəxsiyyəti, təşkilatçılığı əsasında mürəkkəb problemlərin həllini və xüsusi sosial-pedaqoji layihələrin həyata keçirilməsini nəzərdə tutur.

Sosial və pedaqoji fəaliyyət subyektlərinin idarəetmə mədəniyyəti əhalinin həyat keyfiyyətinin yaxşılaşdırılması və sosial rifahın təmin edilməsi problemi ilə sıx bağlıdır. Bütün bunlar universitet məzununun gələcək fəaliyyətində (pedaqoji, psixoloji, sosial, tibbi, hüquqi və s.) sosial və pedaqoji funksiyaların (sosial məlumatlandırma, maarifləndirmə, profilaktika, terapiya, reabilitasiya, uyğunlaşma və s.) həyata keçirilməsinə daxil ediləcək müxtəlif təlim sahələri üzrə idarəetmə mədəniyyətinə olan tələbləri gücləndirir.

Tələbələr tərəfindən mənimsənilən müəyyən fəaliyyətlərdə idarəetmə mədəniyyəti, ilk növbədə sosiallaşmanın pozitivliyinə, ömür boyu təhsil sisteminə və insan həyatının keyfiyyətinə təsir göstərir, beləliklə ali təhsil həm də yeni texnoloji strukturlara keçid dövründə böhran vəziyyətlərinin həlli, ölkənin inkişafı, iqtisadiyyatı üçün həlledici amildir. Bu mövqelər ali təhsil pilləsində davamlı sosial və pedaqoji təhsil sosial-pedaqoji fəaliyyətin idarəetmə mədəniyyətinin formalaşdırılması zərurətini əks etdirir ki, bu da inkişaf prioritetlərinin müəyyən edilməsi, mövcud və gələcək sistemlərdə mənalı islahatların aparılması zamanı çox vacibdir.

Ali təhsil tələbələr arasında sosial-pedaqoji fəaliyyətin idarə edilməsi mədəniyyətinin formalaşdırılmasında innovativ təcrübəyə malikdir, lakin müasir şəraitdə universitet tələbələri arasında sosial-pedaqoji fəaliyyətin idarəetmə mədəniyyətinin formalaşdırılmasının aydın strukturu, şərtləri və alqoritmləri, gələcəyin idarəetmə mədəniyyətini formalaşdırmaq üçün modellər və texnologiyalar, universitet şəraitində sosial və pedaqoji fəaliyyətin subyektləri, ümumilikdə isə vahid metodologiyası pedaqoji elm tərəfindən hələ də işlənib hazırlanmamışdır. Bu mövqelərdən nümunə və prinsiplərin elmi əsaslandırılmış dizaynı kimi konseptuallaşdırma xüsusi əhəmiyyət kəsb edir.

Problemin öyrənilmə dərəcəsinin təhlili göstərir ki, elmi ictimaiyyət universitetdə gələcək sosial-pedaqoji fəaliyyət subyektlərinin idarəetmə mədəniyyətinin formalaşdırılmasının nəzəri və metodoloji aspektləri üçün ilkin şərait yaratmışdır. Sosial-pedaqoji fəaliyyət nəzəriyyəsinin sistemli tədqiqatları V.M.Basova, S.A.Beliçeva, V.G. Bocharova, M.A. Qalaquzova, S.İ. Qriqoryev, A.V. İvanov, R.M. Kuliçenko, İ.D. Lelchitsky, I.A.Lipski, L.V.Mərdaxayev, V.A.Nikitin, M.M.Plotkin, V.A.Slastenin, M.V.Firsov, V.M. Akimenko, O.S.Anisimova, A.A.Derkach, N.I.Nikitina və bir çox başqaları, respublikamızda isə professorlardan H.Əlizadə, F.Rüstəmov, A.Abbasov və digərləri tərəfindən həyata keçirilmişdir.

Universitet tələbələri arasında sosial-pedaqoji fəaliyyətin idarəçilik mədəniyyətinin formalaşması vəziyyətinin təhlili və yerli və xarici tədqiqatların məlumatlarının ümumiləşdirilməsi, sosial-pedaqoji fəaliyyət subyektlərinin müəyyənləşdirilməsi, tələbələrin idarəetmə mədəniyyətinin formalaşmasının konseptuallaşdırılması kimi məsələlərin tədqiqini hələ də qeyri-kafi hesab etmək olar.

Eyni zamanda mövcud konsepsiyalar sosial və təhsil təcrübələrindəki müasir tendensiyalar nəzərə alınmaqla hazırlanmışdır. Bu hallar bir sıra ziddiyyətləri müəyyən etməyə imkan verir:

- müasir sosiallaşma, sosial maarifləndirmə, əhalinin sosial maarifləndirilməsi problemlərini həll edən təhsil təşkilatlarında və sosial xidmətlərdə yüksək keyfiyyətli idarəetmə qabiliyyətinə malik kadrlara cəmiyyətin və dövlətin ehtiyacları və sosial idarəetmə mədəniyyətinin qeyri-kafi səviyyəsi arasında;
- pedaqoji bu problemlərin həlli üçün zəruri olan universitet məzunlarının fəaliyyəti;

- idarəetmə mədəniyyətinin formalaşdırılması ehtiyacı ilə tələbələr – sosial və pedaqoji fəaliyyətin gələcək subyektləri və bu prosesin təkmilləşdirilməsi sahəsində nəzəri və metodoloji işlərin kifayət qədər olmaması;
- idarəetmə mədəniyyətinin formalaşmasında universitetlərin potensialı arasında tələbələr arasında sosial-pedaqoji fəaliyyət və bunun üçün kifayət qədər elmi-metodiki təminat olmadığından onun tam həyata keçirilməməsi müasir ali təhsil şəraitində proses.

Nəticə etibarilə yuxarıdakı ziddiyyətlər elmi problemin formalaşmasına səbəb oldu:
sosial-pedaqoji fəaliyyətin gələcək subyektləri kimi tələbələrdə idarəetmə mədəniyyətinin formalaşmasının konseptuallaşdırılmasının nəzəri və metodoloji əsasları hansılardır?
Bu problemin həllində sosial və pedaqoji təcrübələrin aktuallığı, sosial əhəmiyyəti, qeyri-kafi inkişafı və obyektiv ehtiyacı tədqiqat mövzusunun seçilməsini müəyyənləşdirdi.

# SİFƏTİN TƏDRİSİ ZAMANI MÜƏLLİMİN İSTİFADƏ ETDİYİ MÜASİR METODLAR

**Ramilə Fərəczadə**
**magistrant**
**Yeganə Cavadova**
**dosent**
**Lənkəran Dövlət Universiteti**
**ferecli11.r@gmail.com**
**yegames@mail.ru**

**Açar sözlər:** sifət, sifətin tədrisi, tədrisdə istifadə olunacaq müasir metodlar

Sifət ingilis dili biliklərinə hazırlıq zamanı təqdim olunan ilk nitq hissələrindən biridir. Lakin bu o demək deyil ki, onların müxtəlifliyi və hətta digər nitq hissələri ilə müəyyən dərəcədə oxşarlıqları səbəbindən onları başa düşmək və aktiv şəkildə istifadə etməyə başlamaq daha asandır. Sifətləri müvafiq olaraq düzgün və rahat istifadə etmək üçün məhz effektiv metodlarla öyrənmək lazımdır. Bunun üçün əsas idarəçilik müəllimin üzərinə düşür. Bəs müəllimin sifətin tədrisi üçün tətbiq etməli olduğu metodlara nələr daxildir? Gəlin bunların bir neçəsinə nəzər salaq.

1. A Strong Star-Möhkəm Təməl. Sifətin tədrisinə  müəllim tələbələrinə əsas sifətləri təqdim etməklə başlamalıdır. Onun seçdiyi sifətlər sinif səviyyəsindən asılı olacaq. Başlanğıc səviyyədə olan tələbələr əsas sözləri öyrənməlidirlər, lakin digər səviyyədəki tələbələr daha da irəli getməlidirlər. Əgər müəllimin qrupu hansısa bir işə fokuslanıbsa, yəni hansısa sahə üzrə ixtisaslaşırsa, siyahısını onlara uyğunlaşdırmağa daha üstünlük verməlidir. Sözləri yavaş-yavaş təqdim etmək, lazım olduqda təkrar nəzərdən keçirmək məqsədəuyğundur.

2. Clever Categories-Məntiqi kateqoriyalar. Bu əyləncəli fəaliyyət üçün sinif iki komandaya bölünür. Lövhəyə bir isim qeyd olunur (mümkünsə, faktiki obyekt göstərilməlidir). Hər bir komandaya bir dəqiqə (və ya sinifə uyğun vaxt) verilir ki, bu adı təsvir etmək üçün mümkün qədər çox sifət tapsınlar. Vaxt bitdikdən sonra hər komandadan bir oxucu öz siyahısını ucadan oxuyaraq təqdim edir. Digər komandanın sadalamadığı hər sifət üçün bir xal alırlar. On xal qazanan ilk komanda qalib gəlir. Bu metodla əyləncəli və rəqabət formasında daha yadda qalan bir şəkildə söz bazası yeni sifətlər ilə zənginləşmiş olur**.**

3.Who am I?-Mən kiməm? Bizim məqsədimiz bu fəaliyyət vasitəsilə tələbələri ingilis dilində danışdırmaqdır. Sifətlərin siyahısı nəzərdən keçirilir və bir şəxsi təsvir etmək üçün ümumi istifadə olunan hər hansı biri təqdim edilir, daha təkmilləşmiş bir qrupun öyrənənlərindən bu sifətləri bir sinif kimi beyin fırtınası etmələrini və lazım olduqda onlardan istifadə etməyi bacarmağı müəllim istəyə bilər. Sifət siyahısı lövhəyə qoyulur sonra tələbələrə özlərini təsvir etmək üçün beş sifət seçməli olduqları söylənilir. Müəllim kimi siz sifətlərin siyahısını ucadan oxuyursunuz və tələbələrə onun kim olduğunu təxmin etməyə imkan verirsiniz. Bu əyləncəli fəaliyyət, söhbətləri genişləndirmək və kommunikativ formada öyrənmək üçün yaxşı bir fəaliyyətdir.

4.Opposing Opposites-Əks məna. "Hot and cold" (isti və soyuq) , "Expensive and cheap" (bahalı və ucuz) və ya "Tall and short" (hündür və qısa) kimi bir-birinə zidd olan bəzi sifət

cütlərini təqdim etmək və ya sinifin səviyyəsindən asılı olaraq nəzərdən keçirmək lazımdır. Müəllim daha sonra onları kartlara yazdırır. Kiçik sinifdirsə müəllimə sadəcə bir dəst kart lazım ola bilər, lakin daha böyük sinif üçün bir neçə dəst ayrılır ki, cüt qruplarda istifadə oluna bilsin. Şagirdlərdən bütün kartları üzü aşağı yerləşdirilməsi xahiş edilir. Şagirdlərin hər biri iki kartı çevirərək növbələşir. Şagirdlər əks olan iki kartı seçsələr, onları saxlayırlar. Əgər alınmasa növbəti oyunçu davam edir. Bütün kartlar qurtarana qədər oynanılır və müəllim kartları çevirərkən bütün tələbələrin sifətləri oxuduqlarına və mənalarını anladıqlarına əmin olmalıdır.

5. ABC's of Adjectives-Sifətlərin əlifba ilə öyrənilməsi. Müəllim şagirdlərə bir tərəfində əlifbanın qeyd olunduğu vərəq verir. Əgər müəllim onların əlifbanı ingilis dilində məşq etmələrini istəyirsə, əlifbanı tələbələrin özlərinə yazdıra bilər. Şagirdlərə hər hərflə başlayan bir sifət düşünməyə çalışmaları lazım olduğunu söyləyən müəllim sinifin səviyyəsinə uyğun bəzi lüğətlərlə dəstək olaraq, hərflərə əsasən sifətlərin qeyd olunmasını tələb edir.

6.Circling adjectives on favourite stories-Sevimli hekayələr üzərində sifətlərin seçilməsi. Bir qrupda və ya sakit vaxtda oynanıla bilən bu əyləncəli oyunu təşkil etməyin bir neçə yolu var. Müəllimlər tələbələrin sevimli hekayələrindən nümunələri çap edə və ya lövhəyə yaza bilərlər. Tələbələri hekayəni oxumağa həvəsləndirməklə onları hekayə daxilindəki sifətləri haşiyəyə almalarına istiqamətləndirirlər. Bu məşqin ən yaxşı tərəfi onun çox yönlü olmasıdır və istənilən dərs planına asanlıqla daxil olur.

# FRAZEOLOJİ BİRLƏŞMƏLƏRİN BİR SIRA XÜSUSİYYƏTLƏRİ

**Rəqsanə Həkimzadə**
**magistrant**
**Yeganə Cavadova**
**dosent**
**Lənkəran Dövlət Universiteti**
**reksanehekimzade@gmail.com**
**yegames@mail.ru**

**Açar sözlər:** frazeoloji birləşmələrin sinonimliyi, frazeoloji birləşmələrin antonimliyi, frazeoloji birləşmələrin çoxmənalılığı

Frazeoloji vahidlərlə bağlı mübahisə edərkən tədqiqatçılar onların mənşəyini, necə yarandığını, kompozisiyalarına daxil olan vahidlərin (atalar sözləri, deyimlər, hikmətli kəlamlar, aforizmlər, qənaətlər və s.) fərqli və oxşar xüsusiyyətlərini, istifadə olunan qarşılıqları ilə oxşar və fərqli cəhətlərini araşdırmışlar. Aparılan araşdırmalar nəticəsində məlum olmuşdur ki, frazeoloji vahidlərdə antonimlik və sinonimlik baxımdan oxşarlıqlara baxmayaraq, onlar arasındakı fərq bundan artıqdır. Frazeoloji sinonimlərin digər sinonimlərdən əsas fərqi ondan ibarətdir ki, onlar danışığa yaxınlığı ilə xarakterizə olunur. Bundan əlavə, sinonimlər dilin lüğət tərkibini zənginləşdirməklə yanaşı, semasioloji cəhətdən yaxın və incə çalarlar yaradır, semantik nüvənin frazeoloji sinonimlərin işləndiyi vahidlərdə də təkrara rast gəlinmir, fikir daha aydın ifadə olunur. Əgər əşya və hadisələrin adları, xassələri, xüsusiyyətləri leksik sinonimlərdə ifadə olunursa, frazeologizm sinonimlərində onların münasibətləri ifadə olunur. Deməli, bu sinonimlər komponentlərin birləşməsindən asılıdır. Onların hər bir üzvü ən azı iki sözdən ibarətdir.

İngilis dilində frazeoloji vahidlərin sinonimiklərinə tez-tez rast gəlinir. Məsələn:
1.“ a donkey between two bundles of hay”,”an as between two bundles of hay”. Hər iki sinonim frazeoloji birləşmələrin yalnız bir mənası var “ikiüzlü olmaq”.
2.” to leave no stone unturned “,” to move Heaven and Earth”. Bütün imkanlardan istifadə etmək mənasını verir.
3.“make a long story short”,”in a nutshell”. Uzun sözün qısası mənasını verir.
4.“whole nine yards”,”for the rest of”. Mümkün olan hər şey mənasını verir.

Antonimlər dilin əsas semantik kateqoriyalarından biri olub, müəyyən şəkildə bir-biri ilə qarşılıqlı vəhdətdə öyrədilir. Antonim frazeologizmlər təbiət və cəmiyyətin inkişafı zamanı əmələ gələn ziddiyyətlərin dildə ifadəsi kimi formalaşmışdır. Belə ki, antonimlik frazeologizmlərdə sintaktik vahid kimi özünü göstərir. Antonim frazeologizmlərin ya birinci, ya ikinci, ya da hər iki tərəfi antonim olur. Antonimlər digər leksik kateqoriyalar kimi dilin qrammatik səviyyəsini özündə əks etdirir. Frazeologiyada antonimliyin bəzi xüsusiyyətləri haqda onu qeyd edə bilərik ki, antonimiya semantika hadisəsidir. Lakin diqqət yetirdikdə məlum olur ki, qarşılaşdırılan vahidlərin strukturlarının xarakteri antonimik semantik əlaqələrə biganə qalmır. Semantik baxımdan, onlar yeni mənalar, məna çalarları qazana, köhnələrini itirə bilər. Ümumiyyətlə ingilis dilində frazeoloji birləşmələrin antonimliyini ofadə etmək üçün aşağıdakı nümunələri göstərmək olar:
1.make a good first at (of) something (make a good attempt at) - make a poor fist at something (make a bad attempt at);
2. be in twenty two minds (hesitate) - know one's own mind not to hesi- tate;
3. as like as two peas(exactly alike) as like as chalk and cheeis (quite different, not alike)

4.on the spur of the moment(without previous intention or preparation) - second thoughts(opinions formed after reconsideration).

Frazeoloji vahidin semantik və qrammatik quruluşunun mürəkkəbliyi onun müxtəlif mənalarda işlədilməsini imkanlarını məhdudlaşdırır. Beləliklə, çoxmənalılıq frazeoloji vahidlərin hamısına qismət olmur. Çoxmənalılıq, əsasən, frazeoloji qovuşma və frazeoloji birləşmələrə xas olan xüsusiyyətdir. Məsələn, to be on the shelf - 1) təxirə salınmaq, 2) həbs altında olmaq, 3) ayaqlarını uzadıb ölmək;break the neck of smth 1) məhv etmək, darmadağın etmək, 2) bir şeyin ən çətin hissəsinin öhdəsindən gəlmək, 3) ən çətin işə tab gətirmək və s.

Çoxmənalılıq komponentlərinin nominativ məna əsasında inkişaf edərək yeni əlavə mənalar qazanmasıdır. Bu yeni mənalar həmişə ilkin məna ilə bağlı olur. Məsələn, to be on the go- 1) hərəkətdə olmaq, 2) iş başında olmaq, 3) tələsmək, 4) kefi yuxarı olmaq (içkidən), 5) tərk etmək, getmək və s. frazeoloji birləşməsinin bir neçə variantı mövcuddur: to be at work//to be on the move//to be going to leave //to be in a hurry// to be in one's cups.

Polisemantik sözlərdə olduğu kimi, kontekstdə də polisemantik frazeoloji vahidin mənası müəyyən edilə bilər. Polisemiya bir sözün və ya ifadənin çox mənalı olduğu fenomenə aiddir. Bu müxtəlif mənalar, istifadə olunduğu kontekstdən asılı olaraq, terminin polisemik təbiətini vurğulayır. Bəzi ingilis frazeoloji vahidləri polisemantik ola bilər, məs. balıqları yedirtmək vahidinin bir neçə mənası var: 1) to drown and 2) to be seasick.

# İBTİDAİ SİNİFLƏRDƏ İSMİN QRAMMATİK KATEQORİYALARININ ÖYRƏDİLMƏSİ YOLLARI

**Ruxsarə Feyziyeva**
**dosent**
**Ceyran Hüseynli**
**magistrant**
**Lənkəran Dövlət Universiteti**
**feyziyeva@yahoo.com**
**huseynliceyran2001@gmail.com**

**Açar sözlər:** morfologiya, isim, metodika, kateqoriya, tətbiq, üsul

İbtidai siniflərdə şagirdlərin dil biliklərinin inkişafı, onların müstəqil düşünmə, ifadə etmə və ünsiyyət bacarıqlarını formalaşdırmaq üçün əhəmiyyətlidir. İsimlər dilin əsas strukturlarından biri olaraq, şagirdlərin nitqində və yazılı ifadələrində vacib rol oynayır. İsimlərin qrammatik kateqoriyaları dilin sintaktik və morfoloji strukturlarını anlamağa kömək edir.

İsim insanları, əşyaları, yerləri və anlayışları ifadə edən nitq hissəsidir. İsimlərin qrammatik kateqoriyaları aşağıdakılardır:

1. Cins: İsimlərin kişi, qadın və neytral cinsləri.
   - Kişi cins: “oğul”, “ata”
   - Qadın cins: “qız”, “ana”
   - Neytral cins: “kitab”, “masa”
2. Say: İsimlərin sayı tək və cəmdə ola bilər.
   - Tək: “kitab”, “qələm”
   - Cəm: “kitablar”, “qələmlər”
3. Müəyyənlik: İsimlər müəyyən (müəyyən) və qeyri-müəyyən ola bilər.
   - Müəyyən: “bu kitab”, “o qız”
   - Qeyri-müəyyən: “bir kitab”, “bir qız”
4. Hüquq: İsimlər şəxsi və qeyri-şəxsi ola bilər.
   - Şəxsi: “Səmra”, “Elçin”
   - Qeyri-şəxsi: “şəhər”, “dağ”
5. Şəkil: İsimlər konkret (maddi) və abstrakt (mücərrəd) ola bilər.
   - Konkret: “masa”, “qapı”
   - Abstrakt: “sevgi”, “bilik”

İsimlərin bu kateqoriyaları onları cümlədəki funksiyalarına, digər sözlərlə olan əlaqələrinə və dilin qrammatik sisteminə uyğun olaraq təsnif etməyə kömək edir.

İbtidai sinifdə isimlərin qrammatik kateqoriyalarının öyrədilməsi şagirdlərin dil biliklərini aşağıdakı yollarla inkişaf etdirir:

- Dil biliklərinin əsasını formalaşdırmaq: İsimlərin qrammatik kateqoriyaları, dilin strukturunu başa düşmək üçün əsasdır. Bu biliklər, dilin digər elementləri ilə birləşərək daha mürəkkəb ifadələrin yaranmasına səbəb olur.
- Ünsiyyət bacarıqlarının inkişafı: Şagirdlər, isimlərin qrammatik xüsusiyyətlərini bilmək sayəsində düzgün cümlələr qurur və öz fikirlərini daha dəqiq ifadə edirlər.
- Yazılı və şifahi ifadə bacarıqlarının artırılması: Qrammatik biliklər, şagirdlərin yazılı və şifahi ifadələrində aydınlığı və dəqiqliyi artırır.

İsimlərin qrammatik kateqoriyalarının öyrədilməsində metod və yanaşmalar bunlardır:

- Aktiv öyrənmə metodları: Oyunlar, rol oynama, qrup müzakirələri, şifahi tapşırıqlar kimi interaktiv fəaliyyətlər.
- Praktik məşğələlər: İsimlərin müxtəlif qrammatik kateqoriyalarını praktikada tətbiq etmək üçün tapşırıqlar.
- Vizual materiallar: Diaqramlar və kartlar vasitəsilə isimlərin qrammatik kateqoriyalarının göstərilməsi.

İbtidai siniflərdə isimlərin qrammatik kateqoriyalarının öyrədilməsi, şagirdlərin dil biliklərinin inkişafında vacib rol oynayır. Bu biliklərin sistemli və ətraflı öyrədilməsi, onların ünsiyyət bacarıqlarını, düşüncə qabiliyyətlərini və dil mühitinə inteqrasiyasını artırır. Müəllimlər, şagirdlərin bu kateqoriyaları başa düşməsi və tətbiq etməsi üçün müxtəlif metod və yanaşmaları istifadə etməlidirlər. İbtidai siniflərdə ismin öyrədilməsi üçün bir neçə effektiv metoddan istifadə oluna bilər. Bu metodlar, şagirdlərin ismləri daha yaxşı anlamalarına və yadda saxlamalarına kömək edir. Həmin metodlar aşağıdakılardır:

Təqdimat və müzakirə: Şagirdlərə ismləri təqdim edərkən, onların mənasını və istifadə kontekstini izah edin. Müzakirələr apararaq şagirdlərin ismləri anlamağına kömək edin.

Oyunlar və aktivliklər: İsimlərin öyrədilməsi üçün oyunlar (məsələn, "isim bingo" və ya "isim tapmaca") təşkil edin. Bu cür fəaliyyətlər öyrənməni əyləncəli edir.

Rəsmlərlə ifadə: İsimləri rəsmlərlə birləşdirərək daha konkret bir şəkildə öyrədin. Məsələn, hər isim üçün müvafiq bir şəkil göstərin.

Yazılı tapşırıqlar: Şagirdlərə isimləri yazdıraraq yadda saxlamalarına kömək edin. Eyni zamanda isimlərin tələffüzü ilə bağlı tapşırıqlar verə bilərsiniz.

Qruplar halında iş: Şagirdləri kiçik qruplara ayıraraq, birlikdə isimləri öyrənmələrini və bir-birləri ilə müzakirə etmələrini təmin edin.

Müxtəlif istifadə kontekstləri: İsimlərin müxtəlif cümlələrdə istifadə olunmasını göstərərək onların kontekstini genişləndirin. Bu, isimlərin mənasını daha aydın başa düşməyə kömək edir.

Mətn və hekayələr: İsimlərin istifadə olunduğu kiçik hekayələr və mətnlər oxuyun. Bu, şagirdlərin ismlərlə real kontekstdə tanış olmalarına imkan tanıyır.

İnteraktiv materiallardan istifadə: Rəqəmsal təhsil materialları və interaktiv tətbiqlərdən istifadə edərək şagirdlərin motivasiyasını artırın.

Bu metodların kombinasiya olunması, ismlərin öyrədilməsi prosesini daha təsirli və əyləncəli edə bilər. Həmçinin, müəllimlər şagirdlərin fərdi öyrənmə tərzlərini nəzərə alaraq metodları uyğunlaşdıra bilərlər.

# TƏHSİLİN İDARƏEDİLMƏSİNİN FUNKSİYALARI VƏ PRİNSİPLƏRİ

**Rüfət Hüseynzadə**
**professor**
**Lalə Əzimova**
**Qərbi Kaspi Kollecinin direktoru**
**Azərbaycan Dövlət Pedaqoji Universiteti**
**prof.rufat@mail.ru**
**laleezimova2023@gmail.com**

**Açar sözlər:** idarəetmə, təhsil, prinsiplər, kollegial orqanlar, humanizm

Təhsilin idarəedilməsinin başlıca məqsədi cəmiyyətin və dövlətin məktəb qarşısında qoyduğu tələbləri yerinə yetirmək, mənəvi cəhətdən zəngin, əxlaqca saf, fiziki cəhətdən kamil hərtərəfəli inkişaf etmiş, "vətənpərvərlik və azərbaycançılıq ideyalarına sadiq olan, müstəqil və yaradıcı düşünən vətəndaş və şəxsiyyət yetişdirmək", vətənə layiq insan yetişdirmək və bunun üçün əlverişli şəxsiyyət şərait və imkanlar yaratmaqdan ibarətdir.

Təhsili idarəetmə funksiyalarından danışdıqda söhbət planlaşdırma, təşkiletmə, rəhbərlik, nəzarət-monitorinq, təhlil və tərkib etmək anlaşılır. Bunlarla yanaşı bir sıra konkret funksiyalar da mövcuddur. Məsələn, pedaqoji kadrlarla işin təşkili və ya təhsilin keyfiyyətinə nəzarət, özfəaliyyət dərnəklərinin işinin keyfiyyətinin əldə edilməsi, fənn kafedralarının (fənn birləşmələrinin) fəaliyyətinin əlaqələndirilməsi və s.

Təhsilin idarəedilməsini səmərəli təşkil etmək üçün aşağıdakı pedaqoji prinsiplərə əməl edilməlidir.

1. İdarəetmədə məqsədyönlülük prinsipi. Hər bir iş müəyyən məqsəddən başladığı kimi, idarəetmə də elmi cəhətdən əsaslandırılmış məqsədin irəli sürülməsindən başlayır və vəziyyət öyrənilir, buna uyğun həyata keçiriləcək işlərin proqramı tərtib olunur.

2. Kollegiallıq ilə vahid rəhbərliyin əlaqələndirilməsi prinsipi. Bu prinsipə görə təhsil müəsissəsində təkbaşına idarəetmə səmərəli nəticələr verməz. Səmərəli və keyfiyyətli idarəetmə kollegial orqanların, ictimai özünüidarə orqanlarının əməkdaşlığı, birgə fəaliyyəti ilə həyata keçirilir. Kollegial orqanlara daxildir: Pedaqoji şura, Məktəb şurası, Valideyn şurası, Metodik Şura və metod birləşmələr, Məktəb Uşaqlar birliyi, Şagird özünü idarə orqanları, Məktəb həmkarlar təşkilatı, direktoryanı müşavirələr, Məktəb konfransı, məktəb direktorunun müavinləri, məktəb psixoloqu, hərbi rəhbər" .

3.Təhsilin demokratikləşdirilməsi prinsipi**.** Bu təhsilə rəhbərlikdə rəhbərin idarəçiliyə demokratik liderlik üslubundan başlaması deməkdir. Bu üslub müəllim və şagird, tələbə şəxsiyyətinə dərin hörmət, fərdin və kollektivin özünütəşkil və özünüidarəetmə istiqamətlərinə inam üzərində qurulur. İdarəetmədə demokratiklik o deməkdir ki, burada insan azadlığı və hüquqları qorunur, onların maraq və istəkləri nəzərə alınır, qabiliyyət və bacarıqları sərbəst şəkildə üzə çıxır, alınan nəticələrdə inkişafyönümlü sıçrayış baş verir

4.Təhsili idarəetmədə humanizm prinsipi. Bu prinsip təhsil rəhbərinin tabeçiliyində olanlara hörmətlə yanaşmasından, onlarla münasibətində pedaqoji etika normalarına və işgüzar ünsiyyət və münasibət etikasına ciddi riayət etməsindən irəli gəlir.

5.İdarəetmədə dövlət və ictimai əsasların uzlaşdırılması prinsipi. Bu prinsip, təhsil sisteminin idarə olunmasında və məktəbə rəhbərlikdə dövlət orqanlarının fəaliyyəti ilə ictimaiyyət və onu təmsil edən ictimai özünüidarə orqanlarının birgə əməkdaşlığının sıx əlaqələndirilməsini təmin edir. Təhsil həm dövlətin, həm də bütövlükdə cəmiyyətin işidir. Bu səbəbdən, ictimaiyyət təhsilin idarə edilməsində yaxından iştirak etməlidir.

6. İdarəetmədə ardıcıllıq, sistemlilik və bütövlük prinsipi. Bu prinsip pedaqoji

prosesin sistemli və ardıcıl mahiyyətini dərk etməyə əsaslanır. Məktəb idarəçiliyinə sistemli bir yanaşmanın metodologiyası, məktəbin bir sistem (bütövlük, quruluş, inteqrativlik, xarici mühitlə ünsiyyət) kimi aydın təsəvvürünə sahib olmağa təşviq edir.

7. Təhsilin idarə edilməsində elmilik və nəzəriyyə ilə praktikanın əlaqələndirilməsi prinsipi. Müasir dövrdə idarəetmə insanlar arasında yüksək şüurlu münasibətə və elmə əsaslanır. Bunların hər ikisi bir-biri ilə əlaqədar olub, biri digəri olmadan mümkün deyil.

8. Təhsili idarəetmədə aşkarlıq və şəffaflıq prinsipi. Bu prinsip demokratiyanın təzahürü olub, bir-birilə sıx bağlıdır. Aşkarlıq görülən işlərin, aparılan yoxlamaların, müzakirə və qərarların gizlin deyil, aşkar şəkildə olmasını, kollektivə vaxtında məlumat verilməsini nəzərdə tutur.

9.İdarəetmədə planlaşdırma, uçot və nəzarətin vəhdəti prinsipi. Planlaşdırma idarəetmənin mərkəzi həlqəsidir. İdarəetmə sistemində planlaşdırmanın mühüm rol oynadığı sübuta ehtiyacı olmayan bir həqiqətdir. Hər bir iş planlaşdırmadan başlanır.

10.Optimallıq prinsipi. Bu prinsip idarəetmə işində konkret şərait üçün ən münasib (optimal) variant seçib tətbiq etməklə səmərəli nəticəyə nail olmağı nəzərdə tutur.

11.Təhsilin idarə edilməsində inteqrasiya prinsipi. Bu prinsip idarətmədə Avropa və dünya təhsil sistemini öyrənməyi, onların təcrübəsindən istifadə etməyi tələb eidr.

12.Təhsili idarəetmədə tabeçilik prinsipi. Bu prinsip idarəetmənin yuxarı və aşağı pillələrinin qarşılıqlı asılılığını təmin etməklə, yuxarı səviyyədən gələn tapşırıqların aşağı səviyyələrdə yerinə yetirilməsini nəzərdə tutur.

13.Təhsilin idarə edilməsində bərabərlik prinsipi. Bu prinsip müəssisə daxilində fəaliyyət göstərən pedaqoji kollektivin üzvlərinin bərabər hüquqlara malik olması ilə xarakterizə olunur.

14.Təhsilin idarəedilməsində obyektivlik və ədalətlilik prinsipi.

15.Təhsili idarə etmədə mərkəzləşdirmə və qeyri-mərkəzləşdirmə prinsipi. Bu rəhbərin funksiyalarının bir hissəsinin tabeliyində olan işçilərə verilməsi, onlar arasında, vəzifə bölgüsünün aaparılması, idarə etmədə optimal əlaqələrin təmin edilməsidir.

Göstərilən prinsiplərdən əlavə bəzi pedaqoji ədəbiyyatda digər prinsiplər də verilmişdir ki, onları da faydalı və yararlı hesab etmək olar: "Operativlik, Çeviklik, Prinsipiallıq, Məsuliyyət, Nəticəyönümlülük, Varislik, Konkretlilik, Bərabər əmək bölgüsü. Təhsilin idarəedilməsində kollektivin əməyinin maddi və mənəvi cəhətdən stimullaşdırılması". Beləliklə, deyə bilərik ki, idarəetmə çətin və mürəkkəb pedaqoji proses olmaqla onun səmərəsi və keyfiyyəti idarəçilərinin yüksək səriştəsi və peşəkar fəaliyyət göstərməsindən asılıdır.

# TƏHSİLDƏ İDARƏETMƏ KONSEPSİYASI

**Rüfət Hüseynzadə**
**professor**
**Lalə Əzimova**
**Qərbi Kaspi Kollecinin direktoru**
**Azərbaycan Dövlət Pedaqoji Universiteti**
**prof.rufat@mail.ru**
**laleezimova2023@gmail.com**

**Açar sözlər:** kollegial orqanlar, təhsil, humanizm, prinsiplər

Təhsildə "İdarəetmə" konsepsiyası dedikdə bu ümumi anlayışlar, baxışlar sırasındadır. Bu təhsildə idarəetmə konsepsiyası ancaq texniki və istehsal sahələrində deyil, həm də sosial sistemlərdə, həmçinin pedaqoji sistemdə, təhsilin idarə edilməsində istifadə edilir. İdarəetmənin elmi əsasını elmi biliklər təşkil edir. Elmi biliklər idarəetmənin nəzəri və praktik əsasını təşkil edir.

Təhsili idarəetmə konsepsiyası dedikdə isə proses iştirakçılarının qarşılıqlı təsiri nəzərdə tutulur. İdarəetmə hər hansı bir obyekt (təşkilat, müəssisə, firma) olmadan icra edilə bilməz. İdarəetmənin mövcudluğu təşkilatın mövcudluğu ilə bağlıdır. Yəni təşkilat varsa idarəetmə də vardır. İdarəetmə sistemi-obyekt və subyekt olmaqla iki tərkib hissədən ibarətdir.

Təhsildə idarəetmənin struktur ünsürlərinə onun obyekt və subyektləri, həmçinin onların qarşılıqlı münasibətləri daxildir. Təhsilin idarəetmə subyektləri dedikdə, idarəetmə fəaliyyətini həyata keçirən, bu sahədə səlahiyyətə malik olan şəxslər, idarə və təşkilatlar nəzərdə tutulur. «Təhsilin idarəedilməsinin başlıca məqsədi cəmiyyətin və dövlətin məktəb qarşısında qoyduğu tələbləri yerinə yetirmək, müasir cəmiyyətimizə uyğun zəngin mənəviyyata və elmi dünyagörüşünə malik layiqli vətəndaş, hərətərəfli inkişaf etmiş şəxsiyyət yetişdirməkdən və bunun üçün əlverişli şərait yaratmaqdan ibarətdir.

İdarəetmədə təşkiletmənin həyata keçirilməsi ilə əlaqədar səlahiyyət, məsuliyyət, nüfuz, hakimiyyət, lider kimi müxtəlif anlayışlardan istifadə olunur. Bu anlayışlar barədə məlumat verməyi məqsədəuyğun hesab edirik.

Səlahiyyət – rəhbər işçinin müəssisənin müəyyən işlərini yerinə yetirmək üçün işçilərdən, təşkilatın maddi və maliyyə ehtiyatlarından istifadə etmək hüququdur.

Məsuliyyət – verilən tapşırıqların yerinə yetirilməsi öhdəliyini və onların qənaətbəxş həll edilməsinə cavabdehliyi ifadə edir.

Nüfuz – bir fərdin başqa bir fərdin davranışında, münasibətlərində, duyğusunda dəyişiklik yarada bilən davranışdır.

Hakimiyyət – səlahiyyət, nüfuz və fərdi keyfiyyətlərindən istifadə etməklə başqalarının davranışına təsir etmək imkanıdır.

Lider - (ingiliscə "leader" — birinci, aparıcı, qabaqda gedən) Müəyyən bir qrupda və ya kollektivdə hamının aparıcılığını qəbul etdiyi nüfuzlu şəxsdir. İnsanlar qrupu bu şəxsə ən məsul qərarlar qəbul etməyə səlahiyyət verir, o kollektivin daxili təşkilində və fəaliyyətində əsas rol oynayır.

Təhsildə idarəetmə özünəməxsus xüsusiyyətlərə malikdir. Bu xüsusiyyətlər idarəetmə işini düzgün qurmağa kömək edir. Həmin xüsusiyyətlər aşağıdakılardır:

1. İyerarxik- yəni idarəetmə ünsürlərinin tabeçilik asılılığı ilə əlaqədardır. Aşağı təbəqəli qurumlar, təşkliatlar yuxarı təşkilatlara tabe olmalıdır.

2. Nisbi – yuxarı səviyyəli subyektlər aşağı səviyyəli subyektlər üçün idarəedici rolunda çıxış edir.
3. Fasiləsiz – idarəetmə fasiləsiz olaraq davam etdirilir, informasiyalar davamlı olaraq dövr edilir, subyektlərə çatdırılır.
4. Dövrü - idarəetmə prosesində fasiləsizlik dövriliklə sıx bağlıdır. İlkin informasiya və qərardan sonra yeni qərarın qəbuluna və yeni informasiya alınması üçün yeni bir dövr başlayır.
Təhsilin idarəedilməsini səmərəli təşkil etmək üçün aşağıdakı pedaqoji prinsiplərə əməl edilməlidir.

1. İdarəetmədə məqsədyönlülük prinsipi
2. Kollegiallıq ilə vahid rəhbərliyin əlaqələndirilməsi prinsipi
3. İdarəetmədə humanizm və demokratiklik
4. İdarəetmədə dövlətlə ictimai təşkilatların əlaqələndirilməsi prinsipi
5. İdarəetmədə elmilik, nəzəriyyə ilə praktikanın qarşılıqlı əlaqəsi prinsipi
6. İdarəetmədə planlılıq prinsipi
7. İdarəetmədə optimallıq prinsipi
8. İdarəetmədə aşkarlıq və şəffaflıq prinsipi
9. İdarəetmədə mərkəzləşdirmənin və desentralizasiyanın rasional əlaqələndirilməsi.

"İdarəetmə çətin və mürəkkəb peadqoji proses olduğundan bir çox təhsil kollektivləri idarəetmə mexanizminə bəzi prinsiplər də əlavə etmişlər ki, onları da faydalı hesab edirik: Operativlik, Çeviklik, Prinsipiallıq, Məsuliyyət, Son nəticəyə istiqamətlənmə, Varislik, Konkretlilik, Əmək bölgüsü, Pedaqoji əməyin elmi təşkili və s.

Beləliklə, deyə bilərik ki, idarəetmə çətin və mürəkkəb pedaqoji proses olmaqla onun səmərəsi və keyfiyyəti idarəçilərinin yüksək səriştəli və peşəkar fəaliyyət göstərməsindən asılıdır.

# ÜMUMİ TƏHSİLDƏ QİYMƏTLƏNDİRMƏ SİYASƏTİNİN MAHİYYƏTİ VƏ MƏZMUNU

**Sahil Cəfərov**
**dosent**
**Kamil Zeynalov**
**magistrant**
**Lənkəran Dövlət Universiteti**
**kamil.zeynalov.043@mail.ru**
**ceferovsahil610@gmail.com**

**Açar sözlər:** qiymətləndirmə, təlim nəticələri, təhsil nəticələri, təlim strategiyası

Müasir dövrdə dinamikanın hər sahədə hiss oluması onu deməyə imkan verir ki, ümumi təhsil sistemində də islahatlar davamedici olmalıdır. Çünki təhsil bir növ inkişafın strategiya funksiyasını yerinə yetirir.

Ölkəmizin inkişafı naminə Ulu Öndər Heydər Əliyev elm və təhsilin inkişafı naminə köklü islahatların həyata keçirilməsi yöndə yeni təhsil proqramı qəbul etmişdir. Ulu Öndər bu sahəyə xüsusi diqqət və qayğı göstərmişdir. Çıxışlarında təhsilin mürəkkəb bir sahə olduğunu vurğulayaraq demişdir ki, "Təhsil nə sənayedir, nə kənd təsərrüfatıdır, nə ticarətdir. Bu, cəmiyyətin xüsusi, intellektual cəhətini əks etdirən bir sahədir. Belə halda təhsil sitemində çox diqqətlə yanaşmaq lazımdır və bu sitemə münasibət çox həsas olmalıdır". Ulu Öndər Heydər Əliyev təhsil siyasətinə dövlət siyasətinin əsası kimi yanaşmışdır. Bu uğurlu təhsil siyasətinin həyata keçirilməsi qiymətləndirmə strategiyasının qarşısında böyük vəzifələr qoyur.

Təhsildə nəticələrin qiymətləndirilməsi problemi həmişə pedaqogikada ən aktual problemlərdən biri olmuşdur. Qiymətləndirmənin aktuallığı həm psixoloji qiymətləndirmə mexanizminin özü, həm də onun nəticəsinin şagird və bütövlükdə təlim prosesi üçün əhəmiyyəti ilə müəyyən edilir, çünki o, təlim prosesinin bütün didaktik komponentlərini (məqsəd, məzmun, metod) birləşdirir. Hər bir konkret iştirakçıya münasibətdə öyrənmə motivasiyasına güclü təsir göstərir.

Qiymətləndirmə prosedurlarının mürəkkəbliyinə baxmayaraq, onlardan istifadə qiymətləndirmənin məqsədini əsaslandırır, onun təlim prosesinə fəal daxil edilməsini, təhsil və idrak fəaliyyətinin səmərəli həyata keçirilməsini və vaxtında korreksiyasını asanlaşdırmaq üçün məlumat əldə etməyi vacib edir. Qiymətləndirmə müxtəlif qiymətləndirmə üsullarına əsaslanaraq nəticələri toplamaqdan və təhsil prosesi iştirakçılarına bu barədə məlumat verməkdən ibarətdir. Mənimsəmənin necə inkişaf etməsi, şagirdin onu necə mənimsəməsi, tədris prosesini idarə etmək, onun məzmununu, metod və texnologiyaları seçmək, planlaşdırılan təhsil nəticələrinə nail olmaq üçün bu məlumatı şərh etməkdən ibarətdir.

Nəzəri cəhətdən hamı başa düşür ki, şagirdi qiymətləndirərkən müəllim yalnız bir qaydanı rəhbər tutmalıdır: şagirdin inkişafına kömək etmək. Yalnız qiymətləndirmə fəaliyyəti şagirdin ondan nə tələb olunduğunu başa düşsə, onun inkişafına kömək edir, biliyə olan tələbata və zəruri bacarıqlara olan ehtiyaca şübhə etmir, aldığı qiymətin yalnız ondan və səylərinin dərəcəsindən asılı olduğuna əmindir. Bununla belə, qiymətləndirmə şagirdin inkişafının müxtəlif mərhələlərində özündə daşıdığı xüsusiyyətlər, onun sosial mənası və öyrənmənin ümumi motivasiyasına təsiri çox vaxt unudulur. Məlum olduğu kimi, B.Blum taksonomiyasında qiymətləndirmə təhsil məqsədləri arasında ən yüksək yeri tutur, buna uyğun olaraq müəllimin qiymətləndirmə fəaliyyəti çox mürəkkəb, psixoloji cəhətdən gərgin və çətin prosesdir ki, ona ən azı fənn, psixoloji və pedaqoji biliklər daxildir. Təəssüf ki, öz

arsenalında bir sıra funksiyaları olan qiymətləndirmə proseduru çox vaxt yalnız nəzarətlə əlaqəli olanları həyata keçirir, həm şagirdlər, həm də müəllim üçün artan narahatlıq və stress daşıyır. Ənənəvi qaydada müəllimlərin qiymətləndirmə fəaliyyəti mahiyyətcə kortəbii, empirik, intuitiv olaraq baş verir və sözdə subyektiv qiymətləndirmə səhvləri istisna edilmir. Nəzərə almalıyıq ki, obyektivlik və ədalətlilik məsələsi qiymətləndirmədə mərkəzi məsələdir. Bundan əlavə, ümumi təhsil üzrə Dövlət Təhsil Standartlarının və Müəllim peşə standartının tələbləri qiymətləndirmə problemini daha da ağırlaşdıraraq, ona məktəblilərin özünüqiymətləndirmə fəaliyyətinin formalaşdırılması kimi başqa bir perspektiv təqdim etmişdir. Ümumiyyətlə qiymətləndirmə prosesinin mahiyyət və məzmunu təlimin bu və ya digər mərhələsində təhsil fəaliyyətinin nəticələrini proqramla müəyyən edilmiş tələblərlə müəyyən etmək və müqayisə etməkdən ibarətdir.

Məktəblilərin təhsil nəticələrinin qiymətləndirilməsinə yanaşmalardakı dəyişikliklər konseptual olaraq sosial-mədəni və təhsil vəziyyətindəki dəyişikliklərlə müəyyən edilir. Bu problemin həllinin əhəmiyyəti qiymətləndirmə üçün dəyişdirilmiş tələblərin nəzəri plandan praktik pedaqoji fəaliyyət sahəsinə köçürülməsi zərurəti ilə əlaqəlidir. Qiymətləndirmə məqsədinə uyğun məzmununa nail olmaq, təlim prosesinin gedişatını şagirdlərin dəyərləri və yaş xüsusiyyətləri ilə əlaqələndirməkdən ibarət olan tədris strategiyası kimi təhsil nəticələrinin qiymətləndirilməsi konsepsiyasının mahiyyəti müəyyən edilməlidir. Bu məlumat müəllim tərəfindən səmərəli idarə edilməsi, şagirdin təhsil və idrak fəaliyyətinin özünü idarə etməsinə imkan yaradır. Müəllimlərlə birlikdə tədris strategiyası kimi təhsil nəticələrinin qiymətləndirilməsinin həyata keçirilməsi üçün şərtlər işlənib hazırlanmalıdır, yəni qiymətləndirmə prosesində seçim və meyar çərçivəsinin olması, müəllimə inam və s. nüanslar nəzərə alınmalıdır. Tədrisin həyata keçirilməsinə mane olan amillər müəyyən edilməlidir, bunlardan ən mühümləri bunlardır: valideynlərin qiymətə konsentrasiyası, müəllimlərin qiymətləndirmə üçün tələblərinin qeyri-müəyyənliyi, qiymətləndirmə sisteminin dəyişdirilməsinin mürəkkəbliyi, beş ballıq sistem. Qiymətləndirmə prosesində seçim əsasında məktəblilərin özünüqiymətləndirməsinə xüsusi diqqət yetirilməlidir. Təhsil təcrübəsinin təhlili həm müəllimlərin təhsil nəticələrinin tədris strategiyası kimi qiymətləndirilməsi ideyasına müsbət münasibətini, həm də bu ideyanın həyata keçirilməsində müəyyən problemləri ortaya qoyur.

Bu istiqamətdə nəzərə almalıyıq ki, qiymətləndirmənin məzmunu fənn kurikulumlarının əsasını təşkil edir. Bu istiqamətdə qiymətləndirmə mexanizmləri və vasitələrinin hazırlanmasında məzmun standartlarından, fənn kurikulumlardan əsas vasitə kimi istifadə edilir. Nəzərə almalıyıq ki, qiymətləndirmə mexanizmlərinin yaradılması təhsilin məzmun standartları və fənn kurikulumları hazırlandıqdan sonra növbəti mərhələlər hesab olunur.

Nəticə etibarilə məktəblilərin təhsil nəticələrinin qiymətləndirilməsi ideyası yeni deyil, lakin hazırda cəmiyyətdə sosial-mədəni vəziyyətin dəyişməsi və təhsil sistemindəki strateji prioritetlər onun potensialını yeniləyib. Qiymətləndirmə, strateji təlim məqsədlərinə ardıcıl nail olunması, təlim prosesinin gedişi, onun adekvat şərhi haqqında məlumat verirsə, tədris strategiyası kimi çıxış edir. Onlardan istifadə şagirdin dəyərlərinə, xüsusiyyətlərinə uyğun olaraq müəllim tərəfindən səmərəli idarə edilməsi və şagirdin təhsil, idrak fəaliyyətinin özünü idarə etməsi imkanıdır.

# QİYMƏTLƏNDİRMƏ PROSESİNİN MAHİYYƏTİ VƏ MƏZMUNU

**Sahil Cəfərov**
**dosent**
**Sədayə Muradova**
**magistrant**
**Lənkəran Dövlət Universiteti**
**ceferovsahil610@gmail.com**
**sedayemuradova2@gmail.com**

**Açar sözlər:** qiymətləndirmə, təlim, tədris

*Biz bu gündə, gələcəkdə də gənclərimizi təhsilə, biliyə cəlb etməliyik, təhsilin keyfiyyətini artırmalıyıq, təhsil sahəsini daha da mükəmməlləşdirməliyik.*

*Heydər Əliyev*

"Azərbaycan Respublikasının ümumi təhsil sistemində Qiymətləndirmə Konsepsiyası" 13 yanvar 2009-cu ildə təsdiq edilmişdir. Bu konsepsiyada beynəlxalq, milli və məktəbdaxili qiymətləndirmə sistemlərinin əsas prinsiplər, komponentləri, məqsədləri göstərilməklə yanaşı tətbiq mexanizmləridə təqdim olunmuşdur. Beynəlxalq qiymətləndirmənin əsas məqsədi ölkələrin təhsil sistemlərini müqayisə etməkdən ibarətdir. Bu qiymətləndirmə xüsusi hazırlanmış, standartlaşdırılmış testlər vasitəsilə həyata keçirilir. Milli qiymətləndirmənin məqsədi təhsil sisteminin keyfiyyətinin artırılması, şagird nailiyyətlərinin qiymətləndirilməsi və təhsil sahəsinə dair məlumatlar əldə etməkdən ibarətdir. Məktəbdaxili qiymətləndirmənin əsas komponentləri şagird nailiyyətlərini izləmək, onların güclü və zəif tərəflərini aşkara çıxarmaq, təhsil prosesini inkişaf etdirmək, təkmilləşdirməkdən ibarətdir.

İlk dəfə 1988-ci ildə Avropada Volfqanq Bevel qiymətləndirmə standartlarını irəli sürmüşdür. Standartların yenilənməsi və klassifikasiyası prosesi hal-hazırda Avropada daha uğurla həyata keçirilir. Təhsilin keyfiyyətinin müəyyənləşdirilməsində şagirdin təlim nəticələrinin rolu vardır. Həmin nəticələrin obyektiv qiymətləndirilməsi keyfiyyəti üzə çıxarır. Qiymətləndirmə prosesinin məzmununu qısaca deyə bilərik ki, "Qiymətləndirmə müəllimlərin öyrətdiyi və şagirdlərin mənimsədiyi arasında əlaqəni, bağı əks etdirən körpü rolunu oynayır". Ümumilikdə qiymətləndirmə həm şagirdlərin, həm də müəllimlərin təkmilləşdirilməsinə xidmət etməlidir. Qiymətləndirmə prosesi müxtəlif sahələrdə müxtəlif növlərə uyğun olaraq formativ, summativ, diaqnostik, nəticəyönümlü qiymətləndirmə şəklində həyata keçirilir. Bu prosesin keyfiyyətli olması üçün məqsəd müəyyən olunur, məlumatlar toplanılır, analizi və təhlili aparılır, hesabat hazırlanır və qiymətləndirmə nəticələrinə əsaslanaraq qərar qəbul edilir.

Qiymətləndirmənin mahiyyətini aşağıdakı kimi qruplaşdırmaq olar:

1.Proqnostik - təhsilin keyfiyyətinin bugünkü inkişaf səviyyəsi baxımından növbəti mərhələlər üçün hədəflərin real təsəvvür edilməsi

2.İdarəedici - təhlil vasitəsilə əldə edilən nəticələr əsasında yeni keyfiyyət səviyyəsinin müəyyənləşdirilməsi

3.İnkişafetdirici - qiymətləndirmənin nəticələrinə görə keyfiyyət dəyişikliklərinin aparılması prosesində təhsilalanların, təhsilverənlərin, idarəedənlərin inkişafı

4.Səfərbəredici - təhsilin keyfiyyətinin təmin olunmasında təhsilverənlərin, təhsilalanların, valideynlərin, məktəb rəhbərlərinin, təhsili idarəetmə orqanlarının səylərinin birləşdirilməsi və məsuliyyətinin artırılması

5.Perspektivlilik - mövcud nəticələrə görə gələcək fəaliyyət istiqamətlərinin və təhsil siyasətinin müəyyənləşdirilməsi.

Qiymətləndirmə davamlı bir prosesdir və elə də olmalıdır, daim müəyyən qənaətə gəlmək üçün məcra əldə edilməlidir. Təhsil prosesinin ən vacib şərtlərindən biri də qiymətləndirmədir və məqsədyönlü olaraq həyata keçirilir. Qiymətləndirmə prosesi davamlı, dəqiq olmalı və obyektivliyə, şəffaflığa, ədalətliliyə yol verilməlidir. Effektiv qiymətləndirmənin əsas xüsusiyyətlərinə onun diqqəti prosesə və məhsula yönəldilməsi daxildir. Qiymətləndirmə zamanı həm müəllimlər, həm də tələbələr fəal iştirak etməlidir. Qiymətləndirmə prosesinin əsas mahiyyəti və xüsusiyyəti isə hər bir şagirdin ayrılıqda yeni şəxsi keyfiyyətlərini və bacarıqlarını üzə çıxarmasıdır. Qiymətləndirmə prosesinin mərkəzində təhsilalanların nailiyyətləri, fikir və bacarıqları dayanır. Təhsilalanların nailiyyətlərinin qiymətləndirilməsinin nəticələri isə ətraflı şəkildə təhlillər aparmağa və qiymətləndirilənlərin əhatə dairəsinin genişləndirilməsinə etibarlı zəmin yaradır. Bir sözlə qiymətləndirmə prosesinin əsas mahiyyəti və məqsədi tədrisin məzmununu və təlimin keyfiyyətinin yaxşılaşdırılması olmalıdır. Bütün təlim prosesi ərzində aparılmalıdır, şəraitdən və şagirdlərin inkişaf, bilik, bacarıq səviyyəsindən asılı olaraq müxtəlif metodlardan, üsullardan istifadə edilməlidir. Həm nəzəri, həm praktik səviyyədə tətbiq edilməli və gələcək fəaliyyətlərin istiqamətləndirilməsində istifadə olunmalıdır.

# TƏDRİS KEYFİYYƏTİNİN ARTIRILMASINA VERİLƏN TƏLƏBLƏR

**Sahil Cəfərov**
**dosent**
**Zəminə İbrahimova**
**magistrant**
**Lənkəran Dövlət Universiteti**
**ceferovsahil610@gmail.com**
**ibrazima02@gmail.com**

**Açar sözlər:** qiymətləndirmə, monitorinq, tədris, təlim

Müasir dövrdə qarşıya qoyulan əsas vəzifələrdən biri də təhsil sisteminin müasir səviyyədə formalaşdırılması və sistemləşdirilməsidir. Təhsil sisteminə aid qoyulan bu tələb təsadüfi deyil. Dövrün zəruri vəzifələri sırasındadır. Fikrimizcə, təhsilin keyfiyyətinin artırılmasında aşağıdakı istiqamətlər əsas götürülməlidir:
1.Təhsilin məzmununa yenidən baxılması
2. Müəllim hazırlığının təmini
3. Qiymətləndirmə sisteminin müasir səviyyədə formalaşdırılması.

Təhsilin məzmununa yenidən baxış məsələnin fundamental formada həllinə yönələn prosesdir. Müasir prizmadan yanaşdıqda təhsilin məzmunu şəxsiyyətyönümlülük prinsipi üzrə qurulmalı və praktik əhəmiyyətli olmalıdır. Yəni, məzmun elə formalaşmalıdır ki, şagirdin həm idrakı, həm ünsiyyət, həm də psixomotor inkişafına yönəlmiş olsun. Burada əsas məsələ tapşırıqların açıq suallar kontekstində tərtibatı ilə bağlıdır. Yəni, məzmun hafizəyə deyil təfəkkürə - məntiqi, tənqidi və yaradıcı təfəkkürün dinamikasına yönəlməlidir. Məntiqi təfəkkür şagirdlərdə fakt, hadisə və proseslərin mahiyyətinə nüfuz etməsini təşkil edir, tənqidi təfəkkür öyrənilən fakt, hadisə və proseslərə münasibətlərin formalaşmasına yönəlir yaradıcı təfəkkür isə şagirddə yeni məhsulun ortaya qoyulmasına stimul yaradır. Burada taksonomiyanın sistematik quruluşu və iyerarxik ardıcıllığı mütləq nəzərə alınmalıdır.

Müəllim hazırlığına yenidən baxılması. Müasir tələblər səviyyəsində kadr siyasətinin həyata keçirilməsi təhsilin keyfiyyətini şərtləndirən ən mühüm amillərdən sayılır. Əsas faktor və əhəmiyyətli tərəf təlim prosesinin subyekti və ya müəllim olduğu üçün düşünürəm ki, bu istiqamətə daha çox diqqət yetirilməlidir. Dəstəklədiyim əsas addımlardan hesab edilən Təhsil Nazirliyi tərəfindən sertifikasiyanın təşkili müəllim hazırlığının yenidən qurulmasında düşünülmüş addımdır. Bu gün ümumtəhsil məktəblərinin yeni kadırlarla təmini və eyni zamanda əvvəlki kadırların sertifikasiya vasitəsilə yeni tələblər səviyyəsində formalaşdırılması həm, indiki həm də gələcək addımlar səviyyəsində qəbul olunandır.

Qiymətləndirmə səviyyəsinin müasir səviyyədə formalaşdırılması bizdən 3 şərti tələb edir:
1. Şagird nailiyyətləri haqqında obyektiv məlumatın əldə edilməsi
2. Ölkədə dövlət standartlarının monitorinqinin keçirilməsi
3. Şagirdin təlim nəticələrinin qiymətləndirilməsi

Təhsil sahəsinin yeni inkişaf mərhələsinə yüksəlməsi, keyfiyyətli kadr potensialının təmin olunması ölkənin inkişaf konsepsiyasının tərkib hissəsini təşkil edir. Bu baxımdan, ölkəmizdə təhsilin əhatəliliyi və keyfiyyət göstəriciləri istiqamətində müsbət dinamika müşahidə olunur. Mütəmadi olaraq məktəbəqədər təhsilin məzmununun təkmilləşdirilməsi mexanizminin hazırlanması və onun müasir tələblərə uyğunlaşdırılması, ümumi təhsilin keyfiyyətinin artırılması məqsədilə müvafiq tədqiqatların aparılması və əldə olunmuş

nəticələrin müəyyənləşdirilməsi bu istiqamədə atılan uğurlu addımlardır. Bununla yanaşı, geniş dünyagörüşə, zəngin elmi biliklərə yiyələnmiş gənc nəslin yetişdirilməsi, müəllimlərin peşəkarlığının artırılması istiqamətində də zəruri işlər görülür, dünyada gedən müsbət tendensiyalar fonunda inkişaf etmiş ölkələrin təcrübəsi milli təhsil sistemində tətbiq olunur. Ölkə başçısının sərəncamları ilə təsis edilmiş təhsil qrantı proqramları, Azərbaycan Respublikasının tərəfdar çıxdığı hökumətlərarası sazişlər də milli təhsilin dünya təhsil sisteminə inteqrasiyasını şərtləndirir. Ümumtəhsil məktəblərində təhsilin keyfiyyətinin artırılması üçün həyata keçirilməli olan məsələlərə misal olaraq deyə bilərik:

1. Təlimin keyfiyyətinin yüksəldilməsi
2. Təlimdə geri qalan və xüsusi qayğıya ehtiyacı olan şagirdlərlə işin təşkili
3. Məktəb-valideyn-müəllim əməkdaşlığının inkişaf etdirilməsi
4. Sinifdənxaric və məktəbdənkənar tədbirlərin təşkili
5. Təhsilverənlərin peşəkarlığının yüksəldilməsi məqsədi ilə nəzərdə tutulmuş tədbirlər.
6. İdarəetmədə şəffaflıq və keyfiyyətin yüksəldilməsi.

Bunu anlamaq lazımdır ki, təhsilin keyfiyyəti pedaqoji prosesdə iştirak edən hər bir şəxsin məqsəd və vəzifələrini bilib əməl etməsindən asılıdır.

# İNKLÜZİV TƏHSİLDƏ AİLƏ İLƏ ƏMƏKDAŞLIĞIN ƏHƏMİYYƏTİ

**Sevda Tağıyeva**
**dosent**
**Afət Bayramova**
**baş müəllim**
**Bakı Qızlar Universiteti**
**Bakı Dövlət Universiteti**
**sevdasultanbdu@gmail.com**
**afet6670@gmail.com**

**Açar sözlər:** inklüziya, inklüziv təhsil, əməkdaşlıq, sağlamlıq imkanları məhdud uşaqlar, müəllim peşəkarlığı, valideyn qayğısı, məktəb və ailə əməkdaşlığı

Ölkəmizdə inklüziv təhsilin həyata keçirilməsi, yəni sağlamlıq imkanları məhdud uşaqların ümumtəhsil mühitinə daxil edilməsi həm müasir dövrün tələbi, həm də uşaqların qanuni təhsil hüququnun həyata keçirilməsinin təminatı deməkdir. İnklüziv təhsilin tətbiqi həm cəmiyyətin, həm təhsil sisteminin, həm də hər bir şəxsiyyətin inkişafında böyük və sağlam addımdır.

Bilirik ki, məktəb insanın yalnız bilik aldığı bir məkan deyil, eyni zamanda, onun həm əqli, həm psixi, həm də sosial baxımdan formalaşdığı bir təhsil ocağıdır. Təəssüf ki, bilik bacarıq və vərdişlərin əldə edilməsi, özünün ictimai əhəmiyyətliliyinin təsdiq etdirilməsi, cəmiyyətdə müyyən mövqe tutmaq arzusu heç də hamı üçün reallığa çevrilmir. Belələrinin arasında sağlamlıq imkanları məhdud olan uşaqlar da vardır ki, inklüziya bu uşaqlar üçün müəyyən imkanların açılmasını nəzərdə tutur. İnklüziya yalnız xüsusi qayğıya ehtiyacı olan uşaqların məqsədlərini həyata keçirməyə kömək etmir, eyni zamanda, müxtəlif mədəniyyətlərə malik, həyat tərzlərinə görə bir-birindən fərqlənən, başqa dinlərdən, dillərdən və irqlərdən olan uşaqları da əhatə edir. Belə uşaqlara informasiyanın ötürülməsi üsullarında müxtəlif modifikasiya və variantlar lazımdır. İnklüziv yanaşma təhsil alanların fərqli təhsil tələbatlarını başa düşməyi və təhsil prosesinə ictimaiyyəti də cəlb edərək, təhsildə seqreqasiyanı və diskriminasiyanı yox etməklə bu tələbatlara müvafiq xidmətlərin göstərilməsini tələb edir. İnklüziya təhsil alanların bərabər hüquqluluğunu, kollektivin bütün işlərində iştirakını təmin etməklə stimullaşdırıcı resurslardan istifadə edərək, təhsil alanların qabiliyyətlərinin inkişafına yönəldilməlidir.

Həqiqi və mənalı inklüziv təhsilin həyata keçirilməsi üçün əməkdaşlıq olduqca əhəmiyətlidir. Çox vaxt müəllimlər təhsilalanların ehtiyaclarını qarşılamaq üçün böyük çətinliklərlə üzləşirlər. Effektiv inklüzivliyin yaradılması üçün məktəbdə müəllim və valideynlərin əməkdaşlığı təlim strategiyalarının birləşməsini təmin edir. Uşaqlara yaxşı təhsil vermək üçün müəllimlər və valideynlər birgə çalışmalıdırlar. Bir çox fərqli fikir və inanclar müəllimlə valideynlər arasındakı münasibətlərin kəsilməsinə səbəb ola bilər. Bəzi ölkələrdə aparılan tədqiqatlar göstərir ki, müəllim-valideyn əməkdaşlığı müəllim və valideynlər üçün çox vacibdir. Təhsili səmərəli və maraqlı etmək üçün valideynlərlə məsləhətləşmək, birgə səylər göstərmək və məlumat mübadiləsi aparmaq lazımdır. Daha effektiv əməkdaşlıq üçün hər iki tərəfin bir-birindən nə gözlədiyini bilməsi çox vacibdir. Effektiv müəllim valideyn tərəfdaşlığının həyata keçirilməsi səbrli yanaşma, mütəşəkkil planlaşdırma tələb edir.

Uşaq haqqında ən bilikli, məlumatlı insan onun valideynidir. Valideynlər uşağın həyat hekayəsini, öyrənmə üsulunu daha yaxşı bilirlər ona görə də inklüziv məktəblər valideynləri təlimdə tərəfdaş kimi görməlidirlər. Çox vaxt bu əməkdaşlıq fikir mübadiləsi

formasını alır. Bu zaman valideynlər könüllü surətdə inklüziv təhsil prosesini yüngülləşdirməyə çalışır və bu fəaliyyətləri evdə də davam etdirilir. Rayon və kənd ərazilərində sağlamlığı məhdud olan uşaqların himayədarları kimlərdir sualını cavablandırsaq aydın olar ki, belə kontekstlərdə çox zaman uşaq böyütmək üçün ailələrdə böyüklər məsuliyyət daşıyırlar. Məsələn, nənə və babalar bioloji valideynlərdən daha yaxşı tərbiyəçi olur. Çünki valideynlər ailəni dolandırmaq üçün işləməyə məcbur olur və bu da vaxt çatışmazlığına gətirib çıxarır. Bu səbəbdən də geniş ailələrdə təkcə valideynlərin deyil, ailənin hər bir üzvünün əməkdaşlığa cəlb edilməsi də inklüziv təhsilin inkişafına təkan verə bilər. Həmçinin, valideynlər inklüziv uşaqların kurikuluma uyğunlaşmaları istiqamətində də faydalı məsləhətlər verə bilərlər, çünki onlar uşaqlarının funksional məhdudiyyətlərini və güclü tərəflərini bilirlər. Valideynlərə bu barədə söz verərək onların övladlarının təlim prioritetlərini nəzərə alıb məktəbdə öyrənilən bilik, bacarıq və vərdişlərinin evdə də tətbiqinə nail olmaq olar. Dövlət və qeyri-hökümət təşkilatları valideynləri və ictimaiyyəti inklüziv təhsilin dəstəklənməsinə cəlb etmək üçün strategiyalar və imkanlar yaratmalıdır. Bu işdə ailələr və sosial təşkilatlarla səmərəli tərəfdaşlıq, eyni zamanda, digər ölkələrin uğurlu təcrübələrindən faydalanmaq bizə kömək edə bilər.

Məktəbdən kənarda da inklüziyanın dəstəklənməsi çox vacibdir. Biz çox zaman fiziki məhdudiyyətli uşaqlara müəllimlər və valideynlər tərəfindən həm məktəbdə, həm də evdə hər cür şəraitin yaradılmasının şahidi oluruq. Lakin inklüziyanı asanlaşdırmaq üçün hələ də sağlamlığı məhdud olan uşaqlar asudə vaxt tədbirlərinə dəvət edilmir, sağlamlıq məhdudiyyəti olmayan həmyaşıdlarının ad günü tədbirlərində və məktəbdən kənar oyun və yarışlarda iştirak etmirlər və ya az iştirak edirlər. Dünyanın bir çox ölkələrində "əlil" etiketini aradan qaldırmaq üçün məktəblərdə və ictimai tədbirlərdə seminarlar təşkil edilir. Əlbəttə ki, bütün bunlar qısa müddətdə bərpa oluna bilməz və xüsusi qayğıya ehtiyacı olan uşaqlarla işləyən həmkarlar bu münasibətlərə tədricən alışır. Biz anlamalıyıq ki, bu iş böyük səbr və əzm tələb edir. Eyni zamanda, dərk etməliyik ki, bacarıqları üzə çıxara bilməyən məhz böyüklər olur. Qeyd edək ki, sağlamlığı məhdud olan uşaqların valideynlərinin arasında da ünsiyyətin olması çox vacib amildir. Belə ki, əgər onlar bir-birlərini başa düşüb müəyyən məsələlərdə razılığa gələ bilsələr, onların öz övladlarının gələcəyi üçün qorxusu da dəf oluna bilər. Bu mənada həmin valideynlərin inklüziyaya münasibəti də dəyişəcəkdir. Unutmayaq ki, fiziki məhdudiyyətli uşaqların sosiallaşması, kollektivə adaptasiya olunması valideynlərindən daha tez və asan olur.

Əgər inklüziya təhsili üzrə məktəb mədəniyyəti qurulubsa, eyni zamanda, məktəb rəhbərliyi, müəllimlər, psixoloqlar və prosesə cəlb olunan digər əməkdaşların fəaliyyəti üçün müvafiq şərait yaradılıbsa, o zaman valideynlər də həm etirazları, həm də təklifləri ilə bu prosesə cəlb olunacaqlar. Nəticədə valideynlər də tədricən inklüziv təhsilin əhəmiyyətini və zəruriliyini dərk edərək övladlarının bu təhsilə cəlb olunması üçün çalışacaqlar.

Çox yaxşı olardı ki, inklüziv təhsil üzrə mərkəzləşmiş ixtisasartırma kursları təşkil edilsin. Bakı və regionlardan mütəxəssislər həmin kurslara ardıcıl olaraq cəlb edilsin və inklüziv təhsilin əhatə miqyası daha da genişləndirilsin. Mən fikirləşirəm ki, təhsil birgə yaşamağa qadir olan nəsil yetişdirmək kimi çox ciddi bir tapşırığın astanasındadır. İnklüziv təhsil sağlamlıq imkanları məhdud olan insanlar üçün deyil, onlarla birgə bizim üçün, onlar üçün və hər kəs üçündür.

# DÖVRÜN TƏLƏBİNDƏN İRƏLİ GƏLƏN İNKLÜZİV TƏHSİL

**Sevinc Kərimova**
**dosent**
**Sumqayıt Dövlət Universiteti**
**kerimova_sevinc1967@mail.ru**

**Açar sözlər:** inklüziv təhsil, məktəbəqədər təhsil, korreksiayedici pedaqogika, proqramlar, layihələr

İnklüziv - ingiliscə "İnklüziya" sözündən əmələ gəlib "daxil olma", "qoşulma" mənasını verir. İnklüziya yalnız xüsusi qayğıya ehtiyacı olan uşaqların təhsilə cəlb edilməsi deyil, həmçinin müxtəlif mədəniyyətlərə malik, həyat tərzlərinə görə bir-birindən fərqlənən, başqa dillərdən olan, təhsilə müxtəlif maraqları olan, yaxud da, xaricdən gələn ailələrin uşaqları, yerləri dəyişilən hərbçi ailələrinin uşaqları da aid edilə bilər.

İnklüziv təhsil uşaqların əqli, fiziki, intellektual və digər xüsusiyyətlərindən asılı olmayaraq, hər bir uşağın öz həmyaşıdları ilə bir yerdə təhsil almasının, oynamasının, əylənməsinin təmin edilməsidir. "Əlillərin hüquqları haqqında" Konvensiyanın 24-cü maddəsində göstərilir ki, əlilliyi olan bütün şəxslər digər vətəndaşlar kimi təhsil almaq hüququna malikdirlər.

Təcrübələrdən məlum olur ki, məktəbəqədər təhsil müəssisələrində müəllim və tərbiyəçilər xüsusi qayğıya ehtiyacı olan uşaqların ehtiyacları haqqında müntəzəm olaraq biliklərini zənginləşdirməli və yenilikərdən daim xəbərdar olmalıdırlar. Təbii ki, qazanılmış bilik və əldə olunmuş təcrübə məktəbəqədər təhsil müəssisələrində inklüziv təhsilin təşkilində uğur qazanmaq üçün əsas amil sayılacaqdır. İnklüziv təhsil başqa sahələrə nisbətən yeni bir təhsil sahəsi olmaqla yanaşı, həm də mürəkkəb, çətin və çoxyönlüdür.

Ölkəmizdə məktəbəqədər təhsilin yüksək səviyyədə olması üçün dövlətimiz ardıcıl olaraq kompleks tədbirlər həyata keçirərək müxtəlif proqramlar, layihələr hazırlayır, qərarlar qəbul edir.

Hələ 2000-ci ilin əvvəllində Azərbaycan Respublikasının "Sağlamlıq imkanları məhdud şəxslərin təhsili (xüsusi təhsil) haqqında" qanunu ölkədə inklüziv təhsilin inkişafına start verdi. Bu Qanun inklüziv təhsil sahəsində aparılan işlərin daha səmərəli və məqsədəyönlü təşkili üçün geniş perspektivlər açdı və orada xüsusi olaraq qeyd edilmişdir: "Xüsusi təhsilin məqsədi sağlamlıq imkanları məhdud şəxslərə zəruri bilik, bacarıq və vərdişlər aşılmaqla onların cəmiyyətə uyğunlaşmasını, o cümlədən özünəxidmət verdiyinin yaradılmasını, əmək fəaliyyətinə və ailə həyatına hazırlanmasını təmin etməkdən ibarətdir".

Azərbaycanda 2005-ci ildən etibarən "İnkluziv təhsil layihəsi"nin tətbiqi ilə geniş miqyasda start verilmişdir. Nazirlər Kabinetinin 3 fevral 2005-ci il tarixli, 20 nömrəli qərarına əsasən "Azərbaycan Respublikasında xüsusi qayğıya ehtiyacı olan (sağlamlıq imkanları məhdud) uşaqların təhsili"nin təşkili üzrə inkişaf proqramı bu sahədə xüsusi təhsilin əhəmiyyətini daha da artırmışdır.

Azərbaycan Respublikasının Prezidentinin 12 aprel 2007-ci il tarixli, 2089 saylı Sərəncamı ilə "Azərbaycan Respublikasında məktəbəqədər təhsilin yeniləşdirilməsi Proqramı (2007-2010) qəbul edildi. Bu proqramda məktəbəqədər təhsil müəssisələrinin maddi-texniki bazasının möhkəmləndirilməsi, idarəetmə mexanizminin təkmilləşdirilməsi, pedaqoji kadr təminatının yaxşılaşdırılması, yeni təlim texnologiyalarının, kurikulumlarının hazırlanması, 5 yaşlı uşaqların məktəbə hazırlıq təhsilinə cəlb edilməsi və xüsusilə inklüziv təhsilin təşkili üçün lazımi şərait və mühitin hazırlanması məsələləri öz əksini tapmışdır.

26 fevral 2018-ci ildə Azərbaycan Respublikasının Nazirlər Kabinetinin qərarı ilə "Sağlamlıq imkanları məhdud olan məktəbəqədər yaşlı uşaqların təhsilinin dövlət standartları"nda isə məktəbəqədər təhsilin məzmununda istifadə ediləcək təlim forma və metodları, didaktik prinsiplər müəyyənləşdirilmiş, inklüziv təhsil üçün lazımi metodik tövsiyələr verilmişdir.

Burada həmçinin korreksiyaedici pedaqogika, inklüziv təlim və tərbiyə, inkişafyönlülük, azərbaycançılıq, müxtəlifliyin qəbul olunması və digər məsələlər öz əksini tapmışdır. Eyni zamanda bu mühüm qərarda təhsilin məzmunu müəyyənləşdirilərkən sağlamlıq imkanları məhdud olan, xüsusi qayğıya ehtiyacı olan uşaqların potensial imkanlarını, yaşını, istək və maraqlarını nəzərə alaraq, onların əqli, fiziki, əxlaqi, sosial, emosional və nitq qabiliyyətlərini inkişaf etdirməklə öyrənmə mühitinin yaradılması, uşağın sosial mühitdə və cəmiyyətdə səmərəli şəkildə yaşamasına imkan verən fərdi sosial və mənəvi keyfiyyətlərin formalaşdırılması və digər məsələlər nəzərə alınmışdır.

Qeyd edək ki, bu gün didaktik tədris texnikaları, pedaqoji texnologiyalar və kurikulum strategiyaları inklüziv təhsili müasir, hamı üçün əlçatan, humanist, demokratik bir təhsil sistemi olduğunu göstərirlər. İnklüziv təhsil onu təsdiq edir ki, qabiliyyətlərinə, fərdi xüsusiyyətlərinə və öyrənmə gözləntilərinə cavab verən hər kəs üçün ayrı-seçkiliyi aradan qaldıran, müxtəlifliyə və fərqliliyə hörmət edən cəmiyyət hər zaman inkişafda və tərəqqidə olacadır.

İnklüziv qruplarda tərbiyəçi-müəllimlər uşağı ardıcıl olaraq müşahidə etməli, onun təlim bacarıqlarını, istedad və qabiliyyətlərini üzə çıxarmalıdır. Tərbiyəçilər öz simalarında elə uşaqlara elə nümunə göstərməlidirlər ki, sağlam uşaqlar inklüziv uşaqları xoş qarşılasın və onlarla xoş rəftar etsin.

Məktəbəqədər müəssisədə inklüziv uşaqlara tərbiyəçi müəllimlərlə bərabər psixoloji xidmət də lazımdır. Bu xidmət yalnız uşaq üçün deyil, həm də valideynlər üçün də lazımdır. Hər hansı problemi həll etmək üçün inklüziv uşağın valideyni ilə məsləhətləşməli, söhbət etməli, onlara lazımi məsləhət və tövsiyələr verilməlidir.

Emosional narahatlıqlara malik olan uşaqlar ətrafdakılarla ünsiyyət zamanı bəzi çətinliklərlə üzləşdiyinə görə onlarda aqressiv və destruktiv davranış formaları özünü göstərə bilər. Bu zaman ətrafdakılarda gülüş doğura bilər. Belə halların qarşısı alınmalı və müvafiq tədbirlər görülməlidir.

İnklüziv bağçanın əsas məqsədlərindən biri emosional baxımdan əlverişli mühitin yaradılmasıdır ki, iklüziv uşaq digər uşaqlarla ünsiyyəti zamanı problem yaşamasın, özünü narahat hiss etməsin. Ümumilikdə götürdükdə isə inklüziv təhsil sağlamlığı məhdud, xüsusi qayğıya ehtiyacı olan uşaqların hərtərəfli inkişaf etdirilməsi, sosial mühitə inteqrasiyası üçün ən əlverişli təhsil alma formasıdır.

# SÜLEYMAN ƏLƏSGƏROVUN “VƏTƏNİMDİR” ROMANSININ MUSİQİ-NƏZƏRİ TƏHLİLİ

**Şəhla Fərzullayeva**
**müəllim**
**Lənkəran Dövlət Universiteti**
**sehlaferzullayeva063@gmail.com**

**Açar sözlər:** Süleyman Ələsgərov, romans, vətən

Azərbaycan bəstəkarlıq məktəbinin görkəmli nümayəndələrindən olan S.Ələsgərov Azərbaycan musiqi salnaməsinə daima yaşar musiqi əsərləri bəxş etmişdir. Onun xalq musiqi xəzinəsi, xalq musiqi nümunələri əsasında yaratdığı istər kiçik, istər iri həcmli əsərləri hamı tərəfindən sevilmiş və geniş dinləyici kütləsinin musiqi estetik zövqünün formalaşmasında böyük xidməti olmuşdur. Onun əsərlərini dinlədikcə musiqinin hər bir rəng və çalarlarını görmək olur. Təbiət öz yaşıllığı, dağlar öz əzəməti, bulaqlar öz saf və təmiz suları ilə onun əsərlərində dinləyici qəlbinə yol taparaq, insanın yaşamaq və bu gözəlliklərdən zövq almaq ruhunu yüksəldir. Bəstəkarın musiqi dili həmişə zamanla səsləşmiş, aktual və xalq tərəfindən qəbul edilən olmuşdur.

Bəstəkar S.Ələsgərov Əyyub oğlu 22 yanvar 1924-cü ildə Dağlıq Qarabağın Şuşa şəhərində anadan olmuşdur. O, ilk təhsilini Şuşa musiqi məktəbində alır, qısa zamanda Bakıya köçür. S.Ələsgərov Azərbaycan Dövlət Konservatoriyasında professor Boris Zeydmanın sinfində bəstəkarlıq dərsləri alır və 1948-ci ildə təhsilini başa vurur. S.Ələsgərov zəngin musiqi irsinə malikdir. Bu musiqi irsi Azərbaycan professional musiqisinin bir çox janrlarını əhatə edir. O, Azərbaycan musiqisinə bir çox yeniliklər gətirmişdir. S.Ələsgərov dahi alman bəstəkarı Feliks Mendelson Bartoldinin ənənələrini davam etdirərək Azərbaycan musiqi tarixində sözsüz mahnının əsasını qoymuşdur. Bundan başqa bəstəkar 2 opera (“Bahadur və Sona”, “Solğun çiçəklər”), 12 musiqili komediyanın (“Hardasan ay subaylıq’’, “Özümüz bilərik”, “Milyonçunun dilənçi oğlu”) və.s musiqili komediyalar, 2 simfoniya (“Gənclik’’ və “Vətən’’), F.Əmirovun ənənəsini davam etdirərək “Bayatı Şiraz” simfonik muğamının, 2 simfonik poemanın, 6 kantatanın, simfonik orkesrt üçün “ikili konsertin”, simfonik orkestr üçün “Uvertüralar”ın, 200-ə qədər mahnıların müəllifidir.

Görkəmli bəstəkar S.Ələsgərov yaradıcılığında dahi Ü.Hacıbəyovun romans-qəzəl janrını davam etdirərək bu janra müraciət etmişdir. O, müxtəlif dövrlərdə görkəmli şairlərin sözlərinə gözəl, ahəngdar romanslar yaratmışdır. 11 romans müəllifi olan bəstəkar hər bir romansında musiqi dili ilə insanın hiss və duyğularını sanki dilə gətirmişdir. Onun “Yada düşdü”, “Vətənimdir”, “Sərvi Xuramanım mənim”, “ Küsmərəm”, “Bilmirəm” və.s kimi romansları hər zaman məşhur ifaçıların repertuarında səslənir.

Bizim müraciət etdiyimiz məşhur romanslardan biri olan, sözləri M.Füzuliyə aid olan “Vətənimdir” romansı böyük Azərbaycan şairi M.Füzulinin vəfatının 400 illiyinə ithaf olunmuşdur. “Vətənimdir” romansı dünya şöhrətli müğənni Bülbülün ifasında səslənmişdir. Romansın sözlərinə nəzər salsaq, dəyişkən qafiyə prinsipi üzrə quruluşu göstərmək olar. Bu dəyişkən qafiyələri bəstəkar professional şəkildə ümumiləşdirərək romansda bənd və nəqarət quruluşu yaratmışdır.

Pənbeyi-dağı-cünun içrə nihandır bədənim, (15heca)
Diri olduqca libasım budur, ölsəm, kəfənim. (15heca)
Canı canan diləmiş, verməmək olmaz, ey dil! (14 heca)
Nə niza eyləyəlim, ol nə sənindir, nə mənim. (15heca)
Nəqarət:

Edəmən tərk Füzuli, səri-kuyin yarın, (13heca)
Vətənimdir, Vətənimdir, Vətənimdir, Vətənim. (15 heca)

Musiqi təhlilinə nəzər salsaq, romans "si bemol" mayeli "şüştər" üzərində yazılmışdır. 8/6 ölçüdə və "moderato con moto" tempində yazılan romans giriş, bənd və nəqarətdən ibarətdir. Giriş fortepianonun müşayəti ilə səslənən ümumilikdə 13 xanədən ibarətdir. Həmin hissəni 3 cümləyə bölmək olar. 3 cümlədə verilən melodiyanı biz A +A1+B kimi qeyd edirik. A cümləsində sağ əlin sekvensiya frazaları ilə aşağıya doğru hərəkəti və sol əlin tamamlayıcı ton üzərində orqan punktu səslənir. A1cümlənin əsasını bas və soprana səsləri təşkil edir. B cümlə tonika ("do") səsi üzərində yarım kadansla tamamlanır. Son olaraq nəqarət girişin melodiyası uzərində səslənir və bir daha sanki mövzunu təsdiq edərək əsərdə qapalılıq yaradır.

Görkəmli Azərbaycan bəstəkarı S.Ələsgərovun 100 illiyi və dahi Azərbaycan şairi M.Füzulinin 530 illiyi ilə əlaqədar olaraq "Vətənimdir" əsərinin təhlilindən aydın olur ki, bu əsər yazılmasından uzun illər keçməsinə baxmayaraq öz aktuallığını, gözəlliyini qoruyub saxlamışdır. "Vətənimdir" romansı hazırkı dövrümüzdə də sevilir və böyük dinləyici kütləsi qazanaraq gündəmdədir.

# XX ƏSRİN ELMİ-MƏDƏNİ HADİSƏSİ – I TÜRKOLOJİ QURULTAY VƏ LATIN ƏLİFBASI

**Şəkər Məmmədova**
**filologiya üzrə fəlsəfə doktoru**
**Azərbaycan Dövlət Pedaqoji Universiteti**
**shakarmammadova1986@gmail.com**

**Açar sözlər:** latın əlifbası, türk, türkoloji

Bu gün türksoylu xalqlar arasında ortaq əlifba məsələsi türkologiya elmi üçün böyük əhəmiyyət və aktuallıq kəsb edir. Ortaq mədəni birliyin yaradılmasındakı ən təməl şərtlərdən biri məhz ortaq əlifbanın yaradılmasıdır. Yeni türk əlifbasının tətbiqi türkdilli ölkələr arasında qarşılıqlı anlaşmanı təmin etməklə yanaşı, inteqrasiya prosesini sürətləndirəcək, türkoloji aspektdə aparılan elmi araşdırmalar daha geniş vüsət alacaqdır. XX əsrin 20-ci illərində Türkologiya sahəsində əsas mübahisəli məsələlərdən biri dil və yazı məsələsi idi. Məhz buna görə də 1926-cı ildə keçirilən I Türkoloji Qurultayın nümayəndələri ortaq əlifbanın yuxarıda göstərilən müsbət cəhətlərini nəzərə alaraq qurultay zamanı keçirilən 17 iclasın beşini əlifbaya həsr etmiş və mart ayının 4-də əlifbaya həsr olunmuş sonuncu iclasla konkret nəticələrə gəlinmişdir. 7 səsə qarşı 101 səslə latın qrafikalı əlifbanın qəbul olunması SSRİ-yə daxil olan Türk-tatar respublikalarında tətbiq edilməsi yolunda çox ciddi bir addım oldu.

1926-cı il Bakıda keçirilən Birinci Türkoloji Qurultay türkoloq alimləri bir araya gətirərək türkoloji aspektdə bir çox məsələlərin həlli ilə bağlı müzakirələr aparmasına şərait yaratdı. Bu məsələlərdən biri və ən vacibi əlifba məsələsi idi. Uzun bir zamanı əhatə edən əlifba islahatı türk dilli xalqların tarixi problemi, türk dili məsələsi idi. XIX yüzillikdən bəri türk maarifçilərin apardığı əlifba məsələsi iki istiqamətdə özünü göstərirdi: ərəb əlifbası və türk-latın əlifbası. I Türkoloji Qurultayda da məhz bu iki əlifba müzakirə olundu və səs çoxluğu ilə SSRİ tərkibində olan türk dövlətlərinin latın əlifbasına keçidi qərara alındı.

Türk dövlətlərinin latın əlibasına (ortaq əlifbaya) keçidi olduqca mürəkkəb və keşməkeşli olmuşdur. Ortaq əlifba türkləri bir-birinə bağlayan əsas vasitələrdən biri olmaqla yanaşı, türk dillərinin işlənmə arealının genişlənməsinə, bütün türk dövlətləri və türk topluluqları arasındakı mədəni, sosial, iqtisadi və siyasi əməkdaşlığı artırmaq baxımından əhəmiyyətli rol oynayır.

Qurultayda əlifba ilə bağlı söylənilmiş məruzələrdən aşağıdakılar latın əlifbasına keçiddə olduqca əhəmiyyətlidir:

1. «Əlifba məsələləri türk millətlərinin varlığının sosial və mədəni şəraiti ilə əlaqədə və yazı sisteminin müəyyənləşdirilməsi proqramı» (Yakovlev);
2. «Əlifbanın texniki baxımdan quruluşunun əsasları» (Jirkov);
3. .«Ərəb və latın şrift sistemləri və onların türk-tatar xalqları üçün tətbiqi məsələləri» (Alimcan Şərif);
4. «Türk dilində imla qaydaları» (Fərhad Ağazadə); “Türk xalqlarının əlifba sistemləri haqqında” (C.Məmmədzadə) və s.

Avropa və Asiyadan gələn türkoloqların iştirakı ilə baş tutan qurultayda latın əlifbası ərəb əlifbasından üstün qəbul edilərək yeni əlifbanın türk dillərinə, onun fonetik və qrammatik qruluşuna uyğun olduğu qərarına gəlinmişdir. Həmçinin qurultayda yeni əlifbanın tədqiqi hər bir ölkənin ixtiyarına buraxılmış və rəsmi olaraq qərara alınmış yeni əlifbanın tədbiqi üçün türk dövlətlərində müxtəlif əlifba konfransları və komitələri təşkil olunmuşdur. İstər Birinci Türkoloji Qurultaydan əvvəl, istər qurultay dövründə, istərsə də, qurultaydan

sonra yeni əlifba yolunda yorulmadan çalışan Səməd Ağamalıoğlu, Xalid Səid Xocayev, Vəli Xuluflu, Cəlil Məmmədquluzadə, Fərhad Ağazadə və bir çox insanların adını çəkmək mümükündür. Yeni əlifba fədailəri olan bu elm adamları öz çıxışlarında latın əlifbasının türk dillərinə uyğunluğu, gətirəcəyi uğur və inkişafı haqqında yetərincə uğurlu fikirlər səsləndirmişlər.

Türkoloji düşüncəni inkişaf etdirən müxtəlif sahələr arasında dilin və yazının təlmilləşməsinə önəm verən I Türkoloji Qurultay oldu. Bir millətin inkişafı həm də onun dilinin inkişafından asılıdır. Türk dilini danışan insanların bir-biri ilə olan əlaqələrinin genişləndirilməsi, sosial və iqtisadi cəhətdən inkişaf etdirməsi üçün digər xalqlar və millətlərlə ayaqlaşmaq şərtdir. Buna görə də bu yolda ən vacib məsələ danışdıqları dildə yaza bilməkdir.

## KONSEPT LİNQVOKULTUROLOGİYANIN PREDMETİ KİMİ

**Vəfa Allahverdiyeva**
**filologiya üzrə fəlsəfə doktoru**
**Bakı Slavyan Universiteti**
**vefabsu@mail.ru**

**Açar sözlər:** konsept, linqvokulturologiya, dilçilik, paradiqma, dünyanın dil mənzərəsi

Antroposentrik paradiqma tədqiqatçı maraqlarının idrak obyektlərindən subyektə keçididir, yəni bu zaman dildə insan və insanda dil təhlil edilir.

Bu paradiqma əsasında müasir dilçilikdə yeni bir elm – linqvokulturologiya yarandı. Bu elm dildə mədəniyyət faktorunu və insanda linqvistik faktoru önə çəkir. Ona görə də belə hesab edilə bilər ki, linqvokulturologiya dilçilikdə antroposentrik paradiqmanın məhsuludur.

Beləliklə, linqvokulturologiya canlı milli dildə təcəssüm olunan və dil proseslərində təzahür edən maddi və mənəvi mədəniyyəti öyrənən humanitar bir elmdir. O, bizə dilin əsas funksiyalarından birinin necə həyata keçirildiyini – mədəniyyətin yaradılması, inkişafı, saxlanması və ötürülməsi üçün bir vasitə olduğunu müəyyənləşdirməyə və izah etməyə imkan verir. Onun məqsədi dilin öz vahidlərində mədəniyyəti təcəssüm etdirmə, saxlama və ötürmə yollarını öyrənməkdir.

Kulturologiya insanın özünüdərkini təbiətə, cəmiyyətə, incəsənətə və onun sosial və mədəni varlığının digər sahələrinə münasibətdə öyrənir, dilçilik dünyanın dil mənzərəsinin mental modelləri şəklində dildə nümayiş etdirilən və qeydə alınan dünyagörüşünü təhlil edir. Dil mədəniyyətlə sıx bağlıdır: onun içərisində böyüyür, inkişaf edir və onu ifadə edir.

Bu ideya əsasında dilçiliyin müstəqil bir sahəsi hesab edilə bilən yeni bir elm-linqvokulturologiya meydana gəldi. “Linqvokulturologiya” termini XX əsrin 90-cı illərində ortaya çıxdı və son onilliklərdə daha da inkişaf etdi. Onun müəyyənləşdirilməsi V.N. Teliyanın rəhbərlik etdiyi frazeoloji məktəbin əsərləri ilə, Y.S.Stepanovun, V.V.Vorobyevin, V.Şakleinin, V.A.Maslovanın və başqa tədqiqatçıların əsərləri ilə sıx bağlıdır. Linqvokulturologiyanın predmeti bir-biri ilə qarşılıqlı əlaqədə olan dil və mədəniyyətdir.

Linqvokulturologiya dilçiliklə mədəniyyətşünaslığın kəsişməsində yaranmış dilçiliyin bir sahəsidir, xalqın mədəniyyətinin dildə əks olunan və möhkəmlənən təzahürlərini öyrənir. Etnolinqvistika və sosiolinqvistika linqvokulturologiya ilə sıx bağlıdır. Linqvokulturologiya həm tarixi, həm də müasir dil faktlarını mənəvi mədəniyyət prizmasından tədqiq edir. V.N. Teliya hesab edir ki, linqvokulturologiya yalnız dil və mədəniyyətin sinxron qarşılıqlı əlaqəsini tədqiq edir: o, canlı kommunikativ prosesləri və onlarda istifadə olunan linqvistik ifadələrin xalqın sinxron fəaliyyət göstərən mentaliteti ilə əlaqəsini araşdırır.

Linqvokulturologiyanın obyekti mədəni informasiyanın vasitəçisi olan dilin, öz münasibət və üstünlükləri ilə birlikdə mədəniyyətin və dildən istifadə edərək bu mədəniyyəti yaradan şəxsin qarşılıqlı əlaqəsinin tədqiqidir. Linqvokulturologiyanın tədqiqat predmeti mədəniyyətdə simvolik, etalon, obrazlı-metaforik məna qazanmış və arxetipik və prototipik insan şüurunun nəticələrini ümumiləşdirən vahidlər - miflərdə, əfsanələrdə, rituallarda, ayinlərdə, folklorda və dini diskurslarda, poetik və nəsr bədii mətnlərində, frazeoloji vahidlərdə və metaforalarda, simvollarda və paremiyalarda və s. qeydə alınmış vahidlərdir.

Hər bir dil dünyanı özünəməxsus şəkildə görür, yəni onu konseptuallaşdırmağın özünəməxsus yolu var. Buradan belə nəticəyə gəlirik ki, hər bir dil xüsusi dünya mənzərəsinə malikdir. Dil insanın dünya haqqında biliklərinin formalaşması və mövcudluğunun ən mühüm vasitəsidr. Fəaliyyət prosesində obyektiv dünyanı əks etdirən insan idrakın

nəticələrini sözlə qeyd edir. Linqvistik formada həkk olunmuş bu biliklərin məcmusu "dünyanın dil mənzərəsi"ni təmsil edir.

Dünyanın mənzərəsi insanın dünya haqqında təsəvvürlərinin öyrənilməsinə əsaslanır. Əgər dünya bir-birilə qarşılıqlı əlaqədə olan insan və ətraf mühitdən ibarətdirsə, o zaman dünyanın mənzərəsi ətraf mühit və insan haqqında məlumatların işlənməsinin nəticəsidir.

"Dünyanın mənzərəsi" termini XIX əsrin sonu – XX əsrin əvvəllərində fizikada meydana çıxdı. İlk dəfə alman fiziki G. Hertz tərəfindən təqdim edildi, o, dünya mənzərəsini təsəvvürlərin məntiqi zəruri nəticələri kimi səciyyələndirmişdir, bu da öz növbəsində nümayiş olunan obyektlərin təbii zəruri nəticələrinin obrazları idi.

Dünyanın dil mənzərəsi ideyası tarixən Vilhelm fon Humboldt və neohumboldtçuların dilin daxili forması ilə bağlı fikirlərinə, həmçinin linqvistik nisbilik fərziyyəsinə və ya Eduard Sepir və Benjamin Uorfun linqvistik determinizmə gedib çıxır. Onların əsas mövqeyi budur: dil onun daşıyıcılarının təfəkkür növünü müəyyən edir, ətraf aləmi tanımağın yolu təfəkkürün həyata keçirildiyi dildən asılıdır. V. fon Humboldt dilin və təfəkkürün milli məzmununa diqqət yetirən ilk dilçi alimlərdəndir. O hesab edir ki, müxtəlif dillər bir millət üçün onların orijinal  düşüncə və qavrayış orqanlarıdır.

"Dünyanın dil mənzərəsi" termini alman dilçisi Leo Vaysgerber tərəfindən elmə daxil edilmişdir. O, dilin insanın təfəkkürü və əməli fəaliyyəti ilə bağlı fəal rolunu vurğulayaraq qeyd etmişdir ki, dil fəaliyyətin məhsulu deyil, fəaliyyətdir.

Dünya obrazının yaradılması ilə bağlı ən mühüm təfəkkür proseslərindən biri kateqoriyalar üzrə bölgüdür: təsnifat, dünya haqqında biliklərin sistemləşdirilməsidir. Kateqoriya təfəkkürün ən mühüm vasitəsidir. E. S. Kubryakova hesab edir ki, kateqoriya insan fəaliyyətinin əsas anlayışlarından biri kimi dillə sıx bağlıdır. Biliklərin sistemləşdirilməsi koqnitiv proseslərinin təhlilinin əsas vahidi konseptdir.

Konseptlər insanın düşüncə prosesində işlədiyi bəzi ideal, mücərrəd vahidlərdir. Onlar bütün insan fəaliyyətinin və ətraf aləm haqqında biliklərinin nəticələridir. Onlar bilik kvantı olmaqla, əldə edilmiş biliklərin məzmununu əks etdirir. İnsanlar arasında ünsiyyət və məlumatların ötürülməsi prosesi həm də konseptlərin mübadiləsidir.

Stepanovun fikrincə, konseptlər xalqın şüurunda kollektiv irsi, onun mənəvi mədəniyyətini, xalqın mənəvi həyat mədəniyyətini təmsil edir. Daimi və ya çox uzun müddət mövcud olan konseptlərin qoruyucusu məhz kollektiv şüurdur.

Konseptin anlaşılmasına linqvokultural yanaşma ondan ibarətdir ki, konsept mədəniyyətin əsas vahidi, onun konsentratı kimi tanınır.

S.H.Lyapin konseptləri mədəniyyətin genotipinə daxil olan özünəməxsus mədəni genlər adlandırır.

V.İ.Karasik konseptləri xalqın mədəni-tarixi məkanında mövcud olan, onların mentalitetini müəyyən edən və insan varlığının müxtəlif sferalarına çevrilən ilkin mədəni formalaşma, mədəniyyətin unikallığını qeydə alan kollektiv psixi formalaşma (mədəniyyət elementlərin zehni proyeksiyası) kimi müəyyən edir.

V.A.Maslova linqvokultural yanaşmada konsepti "konsept linqvokultural spesifikliyi ilə seçilən və bu və ya digər şəkildə müəyyən etnomədəniyyətin daşıyıcılarını səciyyələndirən semantik formalaşmadır" kimi müəyyən edir. Etnik dünyagörüşünü əks etdirən konsept dünyanın etnik dil mənzərəsini ifadə edir və "varlıq evi"nin qurulması üçün bir kərpicdir.

Konsept dil daşıyıcıları tərəfindən formalaşır, insanların yaddaşında saxlanılır və dilin konseptosferini təşkil edir. Konseptosfer ilk dəfə D.S.Lixaçev tərəfindən irəli sürülmüşdür, o, konseptosferi konseptlər toplusu kimi ifadə edir.

Konseptin linqvokultural hadisə kimi yuxarıdakı şərhlərini nəzərə alaraq belə nəticəyə gəlmək olar ki, linqvokulturologiyada konsept mədəniyyətin ayrılmaz tərkib hissəsi,

onun məhsulu, vahidi, özəyidir. Linqvokultural konseptlər mental səviyyədə geniş yayılmış mədəniyyət elementləri, "insan şüurunda mədəniyyət toplusudur". Konseptlər mədəniyyət nöqteyi-nəzərindən qeyd olunan mənalar, insanın dünya haqqında mədəniyyət baxımından müəyyən edilmiş fikirləridir.

# MÜASİR CƏMİYYƏTDƏ İNTERNET ASILILIĞI PROBLEMİNİN SOSİAL-PSİXOLOJİ TƏHLİLİ VƏ QABAQLAYICI TƏDBİRLƏR

**Vüsalə Musayeva**
**fəlsəfə üzrə fəlsəfə doktoru**
**Bakı Dövlət Universiteti**
**vusala.musayeva@gmail.com**

**Açar sözlər:** internet asılılığı, internet istifadəsi, qabaqlayıcı tədbirlər

Hazırda ölkəmizdə və dünyada internet istifadəçilərinin sayı internet asılılığı problemini aktual edir. Hər gün daha çox istifadəçi internet və sosial şəbəkələrə qoşulur. Müasir cəmiyyətin artan kompüterləşməsi və internetləşməsi ilə əlaqədar olaraq, insanların internet resurslarından patoloji istifadəsi problemi aktuallaşdı.

Bu gün insan bir çox problemi, o cümlədən məşğulluq məsələlərini, yeni məlumatların axtarışını, emosional və sensor sferanı əhatə etməyən təmassız ünsiyyət səviyyəsində sosial əlaqələrin qurulmasını, təhsil oriyentasiyasını, qeyri-məşğulluğunun təmin edilməsini internet vasitəsilə həll edir. Bu da ümumiyyətlə şəxsiyyətlərarası qarşılıqlı əlaqə bacarıqlarının olmamasına səbəb olur.

İnternetin müsbət cəhətlərini görməmək mümkün deyil, lakin qlobal şəbəkə resurslarından istifadənin mənfi tərəflərini də qeyd etmək lazımdır. Söhbət ilk növbədə internet asılılığının inkişaf riskindən gedir. Geniş mənada, bu termin internetdən istifadə etmək üçün qeyri-kimyəvi asılılığa aiddir, bir insanın başqa bir şəkildə əldə edə bilməyəcəyi xüsusi bir emosional məmnunluq və özünə inam vəziyyətinə nail olmaqla reallıqdan qaçmaq istəyi ilə xarakterizə olunur. İnternet asılılığı insanın internetdən istifadə etmək üçün obsessiv fikirlərinə əsaslanır.

Beləliklə, insanın psixi sağlamlığını təhdid edən müasir problemlərdən biri də bu gün xüsusi araşdırma tələb edən ciddi sosial problemə çevrilən internet asılılığıdır.

İnternet asılılığı psixi pozğunluq, internetə qoşulmaq üçün obsessiv istək və ondan vaxtında ayrıla bilməməkdir. Hal-hazırda bu problem tələbə kollektivlərində də ən aktualdır, eyni zamanda dünyada bir sıra təhsil ekspertləri, tədqiqatçılar bu növ asılılığın qarşısının alınmasının adekvat üsulları və formalarını öyrənərək gələcəkdə tətbiq modellərini hazırlayır. Müxtəlif araşdırmalara görə, bu gün dünyada internet istifadəçilərinin təxminən 10%-i artıq asılılıqdan əziyyət çəkir. İnternet asılılığına ən çox meyllilik şəxsiyyətlərarası ünsiyyətdə çətinlik çəkən insanlarda müşahidə olunur. İnternetdə anonimlik, əlçatanlıq və təhlükəsizlik hissi sayəsində bir insan mənfi nəticələrdən qorxmadan tanımadığı insanlarla etibarlı münasibətlər qura bilər, çünki uğursuzluq halında həmişə sadəcə bu şəbəkədən ayrılmaq və ya başqa şəbəkəyə keçmək kifayət edir. Virtual reallıqda sosial statusun xarici görünüş, yaş, cins, məşğuliyyət və s. kimi xüsusiyyətləri heç bir əhəmiyyət kəsb etmir.

İnsanın qarşısında onu reallıqdan "bağlayan", özünə "köçürən", sosial əlaqələrin məhdudlaşmasına, psixoloji durumun pisləşməsinə, daxili stimulların oyanmasına, aqressiyanın yaranmasına səbəb olan yeni saysız-hesabsız imkanlar və maraqlar dünyası açılır. Bu xüsusiyyətlər sırasında təcrid, laqeydlik, sosial statusun itirilməsi, öz "mən"inin məhv edilməsi və nəticədə bütövlükdə şəxsiyyətin məhvinə gətirib çıxaran amillər fərqləndirlir.

Müəlliflərin fikrincə internet mühiti şəxsiyyətin müxtəlif münasibətlər sferasında rastlaşdığı rol konfliktləri, böhranların həlli üçün cəlbedicidir, çünki orada arzu olunan reallığı qurmaq imkanı var.

Əksər tələbələr üçün internet həyatın ayrılmaz hissəsidir. Bu, o cümlədən bir sıra səbəblərlə bağlıdır. Səbəblər sırasında aşağıdakılar fərqləndirilir:
1) internetdən təhsil məqsədləri üçün istifadə;
2) internet resurslarının əlçatanlığı və müxtəlifliyi;
3) tələbələrin idrak motivasiyası;
4) tələbələrin ünsiyyət və əyləncəyə ehtiyacı;
5) tələbələr arasında müəyyən psixoloji problemlərin olması.

Bundan əlavə, tələbə gənclər (17-25 yaş) ümumiyyətlə aşağıdakı psixoloji və pedaqoji xüsusiyyətlərlə xarakterizə olunur: həyat dəyərlərinin seçilməsi problemi; sosial əhəmiyyətli şəxsiyyət xüsusiyyətlərinin təyin edilməsi; empatiya qabiliyyətinin inkişafı, insanlara, özünə və təbiətə qarşı fəal mənəvi münasibət; özünü əks etdirmənin inkişafı, yəni insanın öz təcrübələri, hissləri və düşüncələri üzərində əks olunması şəklində özünü tanıması; həyatın mənası problemi; həyat planlarının ortaya çıxması; yaxın ətrafının birbaşa asılılığından xilas olmaq üçün peşə axtarışı. Qeyd edilən amillər onların internetdən, sosial şəbəkələrdən mütəmadi istifadəsinə və bir müddət sonra isə asılılığına gətirib çıxarır.

Əksər hallarda internet aludəliyi fərdin real həyatda başqa insanlarla tam sosial-psixoloji münasibətlər qura bilməməsi, normadan kənarlaşma arasındakı sərhədləri hiss edə bilməməsi səbəbindən baş verir.

Tədqiqatçılar internet asılılığının əsas meyarları kimi aşağıdakıları nəzərə almağı təklif edirlər: internetdə sərf olunan vaxta nəzarətin çətinliyi; istifadə edərkən əhvalın qeyri-sabitliyi; internetdə müxtəlif növ fəaliyyətlərdə iştirak və oflayn fəaliyyətlərə laqeyd yanaşma.

İnternet asılılığı olan tələbələrin şəxsiyyətinin psixoloji və pedaqoji xüsusiyyətləri müxtəlif sahələrə təsir göstərir: emosional sferada- bu zaman emosional gərginlik yüksək dərəcədə qeydə alınır, depressiya, aqressivlik və düşmənçilik, zəif iradə, stress müqaviməti, özünə hörmət və özünə inam; kommunikativ sahədə - artan təklik və münaqişə səviyyəsi, motivasiya sahəsində - uğursuzluqdan qaçmağa cəhd.

Beynəlxalq təcrübədə müxtəlif layihələr icra edilmiş və həmin qabaqlayıcı tədbirlərin icrası zamanı həm müsbət, həm də mənfi nəticələr əldə edilmişdir. Müsbət olanlara aşağıdakılar daxildir:
- tədbirlərdə, təlimlərdə, mühazirələrdə fəal iştirak; yüksək davamiyyət
- layihə iştirakçıları (tələbələr) tərəfindən dərslər;
- layihə iştirakçıları arasında qarşılıqlı əlaqə üçün əlverişli, psixoloji cəhətdən rahat şəraitin olması;
- yeni sosial təcrübə əldə etmək üçün əhəmiyyətli sosial və peşəkar bacarıqların və şəxsiyyət xüsusiyyətlərinin formalaşdırılması;
- layihə iştirakçıları arasında internet asılılığı problemi ilə bağlı adekvat mövqenin formalaşdırılması;
- internetdən asılı və asılılığa meylli tələbələrin sayının azalması.

Yekunda bir daha qeyd etmək lazımdır ki, bəzi insanlar virtual məkana o qədər aludə olublar ki, interneti reallıqdan üstün tuturlar, gündə 18 saata qədər kompüter başında vaxt keçirirlər. İnternetdən kəskin imtina belə insanlarda narahatlıq və emosional oyanmaya səbəb olur ki, bu da nəzərdən keçirilən problemin aktuallığını daha da göstərir.

Yuxarıda göstərilənlərə əsaslanaraq, qeyd etmək olar ki, internet asılılığının qarşısının alınması ilə bağlı sistemli iş onun inkişafını dayandırmaq üçün şərt kimi xidmət edir, çünki bu, tələbələrdə internetdən istifadəyə şüurlu münasibətin formalaşmasına kömək edir, onların vaxtını azaldır. İnternetdə az vaxt sərf etmək, onların asılılıq səviyyəsini azaltmaq bir sonrakı mərhələdə effektiv davranış strategiyaları və şəxsi resurslar, konstruktiv şəxsiyyətlərarası ünsiyyət bacarıqları və stresli vəziyyətlərin həlli, adekvat məqsəd qoyma, ünsiyyət

bacarıqlarının səviyyəsinin artırılması, özünə hörmət, özünə inam və digər müsbət nəticələrə gətirib çıxarır.

# TÜRK XALQLARININ MƏDƏNİ İRSİNİN MÜHAFİZƏSİ VƏ TƏBLİĞİ İSTİQAMƏTİNDƏ TÜRKSOYUN FƏALİYYƏTİ

**Yaqub Səmədov**
**dosent**
**Afiq Əliyev**
**dosent**
**Azərbaycan Dövlət Pedaqoji Universitetinin Ağcabədi filialı**
**Lənkəran Dövlət Universiteti**
**yaqub.semedov63@mail.ru**
**qi.afiq1958@gmail.com**

**Açar sözlər:** milli-mənəvi və bəşəri dəyərlər, Türk mədəniyyəti, mədəni irsin təbliği

XX əsrin sonlarında Sovet imperiyası süqut etdi. Sovet imperiyasının tərkibinə silah gücünə ilhaq edilmiş xalqlar bu tarixi şəraitdən faydalanaraq özlərinin siyasi müstəqilliklərini elan etdilər və müstəqil, suveren dövlətlərini qurdular. Eyni soya, dilə, tarixi və mədəni keçmişə, adət-ənənəyə malik türklərin mənəvi həyatında gedən prosesləri əlaqələndirmək və düzgün istiqamətləndirmək üçün TÜRKSOY-un yaranması zərurəti qarşıya qoyuldu.

TÜRKSOY-un yaradılması haqqında ilk təşəbbüslər 1992-ci ildə irəli sürüldü. Bu təşkilatın yaradılması ilə bağlı Bakı və İstanbul şəhərlərində bir sıra mühüm tədbirlər həyata keçirildi. Nəhayət, 12 iyul 1993-cü ildə Qazaxıstanın Almatı şəhərində TÜRKSOY-un yaradılması haqqında Qazaxıstan, Azərbaycan, Türkmənistan, Qırğızıstan, Özbəkistan və Türkiyənin mədəniyyət nazirləri tərəfindən protokol imzalandı. Qazaxıstan, Qırğızıstan, Özbəkistan, Azərbaycan, Türkiyə və Türkmənistan TÜRKSOY-un əsas üzv dövlətləri, qalan 8 üzv isə (Rusiya Federasiyasına daxil olan Altay, Başqırdıstan, Xakas, Saxa-Yakut, Tuva və Tatarıstan Respublikaları, Qaqauziya (Moldova) və Şimali Kipr Türk Respublikası) bu təşkilatda əsasən müşahidəçi qismində iştirak etdilər.

TÜRKSOY təşkilatının əsas məramı:

– Türk dilində danışan xalqlar, ölkələr və etnik qruplar arasında mədəni əlaqələri inkişaf etdirmək;
– Türk mədəniyyəti nümunələrini araşdırmaq, öyrənmək, qorumaq və dünyaya çatdırmaq;
– Türk xalqlarının mədəniyyətində tarixi, siyasi - coğrafi səbəblərdən və xarici ölkələrin təsiri altında yaranmış fərqləri aradan qaldırmaq;
– Türk mədəniyyətinin müştərək olduğunu sübuta yetmək;
– Türk mədəniyyətini digər mədəniyyətlərin zərərli təsirindən qurtarmaq və onu öz keçmişinə qaytarmaq;
– Coğrafi baxımdan geniş ərazidə yaşayan türk dövlətləri və toplumları arasında əlifba və dili qoruyub saxlamaq;
– Dünya mədəniyyətində mühüm yer tutan türk mədəniyyətini digər yerlərdə də yaymaq;
– Türk mədəniyyət, incəsənət və arxiv sənədlərinin qorunması üçün mərkəz yaratmaq;
– Türk dünyasının görkəmli tarixi şəxsiyyətlərini, mütəfəkkir, şair və yazıçılarının, habelə dövlət xadimlərini bütün dünyaya tanıtdırmaq və s.-dir.

Qarşıya qoyulan məqsədlərə çatmaq üçün TÜRKSOY aşağıdakı qeyd olunan məsələlərə mühüm önəm verir:

– Mədəniyyət və incəsənət sahəsində türkdilli xalqlar arasında əlaqələri inkişaf etdirir və möhkəmləndirir, bu məqsədlə müxtəlif proqram və layihələrin birgə həyata keçirilməsini təmin edir;

– Türkdilli xalqların ümummənəvi sərvətlərinin, tarixi irsinin, ədəbiyyat və incəsənət nümunələrinin, idmanın ənənəvi növlərinin və xalq oyunlarının aşkara çıxarılmasına, saxlanmasına, öyrənilməsinə, inkişafı və təbliğinə yönəldilmiş tədbirlər həyata keçirir;
– Türkdilli ölkələrin mədəniyyət və incəsənətinin ən yaxşı nailiyyətlərini yayan radio və televiziya proqramlarının, sənədli, video və kinofilmlərin yaradılması üçün sifarişləri yerinə yetirir;
– Teatr, musiqi, opera və balet sənəti sahəsində festival və müsabiqələri təşkil edir, digər profilli strukturların keçirdiyi oxşar tədbirlərdə iştirak edir;
– Türkdilli ölkələrin təsviri və plastik incəsənətinin inkişafına yönəldilmiş sərgiləri, rəsm sərgilərini və digər tədbirləri həyata keçirir;
– Dövri və birdəfəlik mətbu məhsulu nəşr edir;
–Ümumtürk tarixinin önəmli hadisələrinin, türkdilli ölkələrin dil, ədəbiyyat, mədəniyyət və incəsənətinin inkişafına əhəmiyyətli töhfələr vermiş görkəmli şəxsiyyətlərin ildönümlərinə həsr olunmuş yubileyləri, xatirə gecələrini və digər kütləvi tədbirləri təşkil edir;
– TÜRKSOYun məqsəd və vəzifələri çərçivəsində beynəlxalq elmi konfranslar, simpoziumlar, diskussiyalar və i.a. keçirir.
– Mədəniyyət, incəsənət, təhsil və s. sahəsində digər beynəlxalq və milli təşkilatlarla ictimai strukturlar və hərəkatlarla qarşılıqlı əlaqələr yaradır; birgə proqramların həyata keçrilməsində onlarla əməkdaşlıq edir.

1993-cü ildən TÜRKSOY bəşər sivilizasiyası xəzinəsinə Dədə Qorqud, Manas, Nizami, Füzuli, Yəsəvi, Mahmud Kaşğari, Yusif Balasaqunlu, Uluqbəy, Yunis İmrə, Nəvai, Məhdimqulu, Abay irsi kimi nadir incilər vermiş türk xalqlarının qədim və zəngin irsin araşdırılıb üzə çıxarılmasında, təbliğində, müxtəlif beynəlxalq mədəni layihələrin reallaşdırılmasında əhəmiyyətli rol oynadı. TÜRKSOY-un mədəni yönümünü, digər beynəlxalq təşkilatlarla, xüsusilə də YUNESKO ilə qurduğu əməkdaşlığın əhəmiyyətini də xüsusi qeyd etmək lazımdır. Belə ki, Əmir Teymurun 660, Manas eposunun 1000, Məhəmməd Füzulinin 500, Abay Kunanbayevin 150 illiyinin, Qazaxıstanın yeni paytaxtı Astananın açılışının, türkdilli xalqların milli eposu, ümumi sərvəti olan "Kitabi-Dədə Qorqud" dastanının 1300 illiyinə həsr olunan yubiley mərasimlərinin və son illərdə bir sıra mühüm mədəni tədbirlərin türkdilli dövlətlərdə təntənəli şəkildə qeyd olunmasının bu ölkələr arasında mədəni inteqrasiyanın dərinləşməsində TÜRKSOY-un rolu oluqca əhəmiyyətlidir. Qeyd etmək lazımdır ki, 2012-ci ildən başlayaraq TÜRKSOY-un təşəbbüsü ilə "Türk dünyasının mədəniyyət paytaxtı" adlı layihə də həyata keçirilir. Həmin il Qazaxıstanın Astana, 2013-cü ildə Türkiyənin Əskişəhər, 2014-cü ildə Tatarıstanın Kazan, 2015-ci ildə Türkmənistanın Marı şəhəri, 2016-cı ildə isə Azərbaycanın Şəki şəhəri ilə "Türk dünyasının mədəniyyət paytaxtı" elan olunmuşdu. Həmçinin, TÜRKSOY tərəfindən 2009-cu ildən etibarən hər il türk dünyasında baş verən mədəniyyət və incəsənət hadisəlrini, ümumtürk mədəniyyətini və təşkilatın fəaliyyətlərini geniş işıqlandıran, dünya mətbuatında təbliğ edən kütləvi informasiya vasitələrinin nümayəndələri və mətbuat qurumları "TÜRKSOY Media Mükafatı" ilə mükafatlandırılır.

Yuxarıda verilən məlumatlardan aydın olur ki, doğurdan da, Tükdilli dövlətlər arasında qarşılıqlı şəkildə mədəni irsin mühafizəsi və təbliğində TÜRKSOY-un rolu olduqca mühüm əhəmiyyət kəsb edir.

# TÜRK DÜNYASINDA MƏDƏNİ İNTEQRASİYA

**Zaur Məmmədov**
**dosent**
**Lənkəran Dövlət Universiteti**
**mammadovzaur@mail.ru**

**Açar sözlər:** mədəniyyət, türk, təşkilat, inteqrasiya

**Giriş.** XX əsrin 80-ci illərin sonu 90-cı illərin əvvəllərində soyuq müharibənin (birinci soyuq müharibə) başa çatması və SSRİ-nin dağılması ilə dünyada yeni siyasi şərait yarandı. Bu, Türk dünyasına da müsbət təsir etdi. Dünyanın siyasi xəritəsində yeni Türk dövlətlərinin yaranması ilə onların arasında siyasi, iqtisadi münasibətlərlə yanaşı, mədəni əlaqələr quruldu. Əməkdaşlıqda qazanılan nailiyyətlərin daha çox məhz mədəniyyət, incəsənət və təhsil sahələrində əldə olunması təsadüfi deyildir. Dili, dini, tarixi kökləri, adət-ənənələri bir olan Türk xalqlarının qarşılıqlı münasibətləri uzun müddət əngəllənsə də, yeni tarixi şəraitdə bu meyil aradan qalxdı. Dövlət müstəqilliyini bərpa etmiş Azərbaycan Respublikasının Türk dünyası ilə münasibətlərində ilk zamanlar obyektiv və subyektiv amillərdən qaynaqlanan ehtiyatlılıq hiss olunurdusa, bu, mədəniyyət və təhsil sahələrinə demək olar ki, aid deyildi.

Mövzu. Türk dünyasının mədəni əlaqələrinin formalaşmasında 1992-ci ilin iyun ayında İstanbul şəhərində 6 ölkənin mədəniyyət nazirləri tərəfindən əsası qoyulan Türkdilli Ölkələrin Mədəniyyət Nazirlərinin Daimi Şurası (TÜRKSOY) mühüm rol oynayır. 1992-ci ilin dekabrında Bakı şəhərində keçirilmiş toplantıda bu təşkilata TÜRKSOY adı verildi. 1993-cü il iyulun 12-də Almata şəhərində Azərbaycan, Qazaxıstan, Qırğızıstan, Özbəkistan, Türkmənistan və Türkiyə tərəfindən TÜRKSOY-un yaranması haqqında saziş imzalandı. TÜRKSOY-un baş direktorluğuna həmin illərdə Azərbaycan Respublikasının Mədəniyyət naziri Polad Bülbüloğlu seçilmişdi.

Təsis olunduğu tarixdən TÜRKSOY bəşər sivilizasiyası xəzinəsinə Dədə Qorqud, Manas, Nizami, Füzuli, Yəsəvi, Mahmud Qaşqarlı, Yusif Balasaqunlu, Uluqbəy, Yunis İmrə, Nəvai, Məxtumqulu, Abay irsi kimi nadir incilər vermiş türk xalqlarının mədəni inteqrasiyası, bu qədim və zəngin irsin araşdırılıb üzə çıxarılması, dünyada geniş təbliğ olunması, müxtəlif mədəni layihələrin gerçəkləşdirilməsində faydalı işlər görmüşdür.

TÜRKSOY-un mədəni yönümü, digər beynəlxalq təşkilatlarla, xüsusilə UNESCO ilə qurduğu əməkdaşlıq əlaqələri təqdirəlayiqdir. 30 sentyabr 2009-cu ildə isə Novruz bayramı UNESCO -nun Qeyri-Maddi İrs siyahısına daxil edilməklə əlaqədar 2010-cu ildə TÜRKSOY Novruz bayramını Parisdə, UNESCO -nun qərargahında qeyd etmişdir.

31 mart 2022-ci il tarixində TÜRKSOY Daimi Şurasının Bursa şəhərində keçirilən növbədənkənar iclasında Şuşa şəhərinin 2023-cü ildə Türk Dünyasının Mədəniyyət Paytaxtı elan olunması haqqında qərar qəbul edilmişdir. Bu da Azərbaycanın, onun əsrarəngiz gözəlliyi ilə seçilən Şuşa şəhərinin türk dünyasına mədəni inteqrasiyasının təşviqinin göstəricisidir.

Türkdilli dövlətlərin bir araya gəlməsində xüsusilə zirvə toplantılarının rolu olmuşdur. Belə ki, Türkdilli dövlətlərin dövlət başçılarının zirvə toplantısı altı türk dövlətinin başçılarının iştirakı ilə həyata keçirilən zirvələrdir. 2010-cu ildə keçirilən İstanbul zirvə toplantısında isə 2011-ci ildə Azərbaycan, Qazaxıstan, Qırğızıstan, Özbəkistan, Türkmənistanın müstəqilliyinin 20 illiyinin qeyd olunması və Aşqabadda Türkdilli xalqların festivalının keçirilməsi qərara alındı.

Türk dili dövlətlərin Zirvə toplantıları içərisində 3 oktyabr 2009-cu ildə Naxçıvanda keçirilən IX zirvə toplantısını xüsusilə qeyd etmək zəruridir. Burada qəbul edilən mühüm qərarlardan biri də Türkdilli Ölkələrin Əməkdaşlıq Şurasının yaradılmasıdır. Tərəflər eyni dildə danışan və oxşar mədəni mühitdə yaşayan xalqların birliyinin gücləndirilməsi, siyasi, ticarət və iqtisadi əlaqələrin möhkəmləndirilməsi üçün yeni regional ümumtürk birliyinin yaradılması məqsədiylə bir araya gəldilər. Təşkilata Azərbaycan, Türkiyə, Qazaxıstan, Qırğızıstan, Özbəkistanla yanaşı Macarıstan, Türkmənistan və Şimali Kipr Türk Respublikası müşahidəçi üzvlər kimi iştirak edirlər.

31 mart 2021-ci il tarixində videokonfrans vasitəsilə TDƏŞ-in qeyri-rəsmi Zirvə Görüşü keçirilmiş, Zirvə görüşündə Türkistan Bəyannaməsi qəbul edilmiş və Qazaxıstanın Türkistan şəhəri Türk Dünyasının "Mənəvi paytaxtı" elan edilmişdir.

2021-ci il 12 noyabr tarixində İstanbulda keçirilmiş Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının VIII Zirvə Görüşündə dünyanın siyasi sistemində önəmli bir platformaya çevrilməkdə olan Türk Şurasının bundan sonra Türk Dövlətləri Təşkilatı adı ilə fəaliyyətini davam etdirməsi haqqında qərar qəbul edilmişdir.

Tükrdilli dövlətlərin Naxçıvan zirvəsində mədəniyyət sahəsində qəbul olunan önəmli qərarlardan biri də Beynəlxalq Türk Akademiyası (TWESCO – Turkic World Educational and Scientific Cooperation Organization) yaradılmışdır. 25 may 2010-cu ildə Qazaxıstanın paytaxtı Astanada açılışı olan Türk Akademiyası bir müddət Qazaxıstan Respublikası Təhsil və Elm Nazirliyinin tabeliyində fəaliyyət göstərmiş, 23 avqust 2012-ci ildə Türkdilli Ölkələrin Əməkdaşlıq Şurasının (Türk Şurası) Bişkekdə keçirilən II Zirvə toplantısında beynəlxalq status almışdır. Türkdilli dövlətlərin mədəni inteqrasiyasında Azərbaycan hər zaman proseslərin önündə getmiş və BTA-na tarix elmləri doktoru, professor Şahin Mustafayev rəhbər seçilmişdir.

Beynəlxalq Türk Kültürü və Mirası Vəqfi, Azərbaycan Respublikasının prezidenti cənab İlham Əliyevin təklifi və Qazaxstan, Kırqızıstan ve Türkiyə Cumhurbaşkanlarının dəstəkləriylə qurulmuştur. Fondun Nizamnaməsi 2012-ci il avqustun 23-də Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının (Türk Şurası) Bişkek Zirvə toplantısında qəbul edilmişdir.

Vəqfin əsas məqsədi Türk dilli xalqların mədəniyyət ve mirasını qorumaq, tədqiq etmək ve tanıtmaqtır. Təşkilat məqsədlərini gerçəkləştirmek üçün müxtəlif beynəlxalq təşkilatlarla əməkdaşlıq edir, təhsil, elm, mədəniyyət və digər sahələrdə Türk xalqları arasındaki fəaliyətləri dəstəkləməktədir.

Türk Şurasının himayəsi altında Qırğızıstanda beynəlxalq təşkilat kimi Bişkek şəhərində Köçəri Sivilizasiya Mərkəzi (KSM) yaradılmışdır. Azərbaycan, Qazaxıstan, Qırğızıstan və Türkiyə hökumətləri ümumi tarix, dil və mədəni əlaqələri əsas tutaraq qloballaşma dövründə türk xalqları inteqrasiyanı möhkəmləndirmək, əsasən idmanın inkişafı yolu ilə türkdilli xalqlar və başqa dövlətlər arasında qarşılıqlı inam və əlaqələr yaratmaqdır.

2022-ci ilin sentyabrında Bursada keçirilən konfransda Türk Dövlətləri Təşkilatı Türk Dünyası Ortaq Əlifbası Komissiyasının yaradılmasına qərar verildi. 2024-cü il sentyabrın 11-də Türk Dövlətləri Təşkilatı tərəfindən xüsusi olaraq yaradılmış ortaq türk əlifbası komissiyası özünün yenilənmiş variantını qəbul etdi. Artıq təsdiq olunmuş layihə Türk Dövlətləri Təşkilatı vasitəsilə üzv dövlətlərə, Xarici İşlər nazirliklərinə, əlaqədar qurumlara göndərilmişdir.

Mədəniyyət sahəsində əməkdaşlıqda digər sahələrlə yanaşı qardaşlaşmış şəhərlərin mühüm rolu vardır. Bakı, Sumqayıt, Şamaxı, Naxçıvan, Gəncə, Şəki, Lənkəran Türkiyə Cümhuriyyətinin Ankara, İstanbul, İzmir, Bursa, Giresun, Qaziantep, Kars, İğdır şəhərləri ilə qardaşlaşmışlar. Azərbaycan Respublikasının Sumqayıt, Salyan, Lənkəran, Ağdaş, Qəbələ, Şəki, Yevlax şəhərlərinin icra hakimiyyətləri ilə müvafiq olaraq Türkiyə Respublikasının

Ceyhan, Dörtyol, İsgəndərun, Payas, Sarımazı, Lapseki və Toroslar bələdiyyələri arasında qardaşlaşma protokolları imzalanmışdır.

24 fevral 2023-cü ildə isə 1-ci Özbəkistan-Azərbaycan Regionlararası Forumu keçirilmiş və formda Lənkəran və Buxara şəhərlərinin Qardaşlaşması haqqında protokol imzalanmışdır.

Türk dünyasının mədəni inteqrasiyasında ali təhsil müəssisələrinin xüsusi rolu vardır. Xüsusilə ortaq universitetlər- Qazaxıstanda Əhməd Yəsəvi adına Türk-Qazax universiteti, Süleyman Dəmrəl Universiteti, Qırğızıstanda Manas Qırğızıstan-Türkiyə Universiteti, Azərbaycanda isə Türkiyə-Azərbaycan Universitetləri birgə kadr hazırlığını həyata keçirilər. Bununla yanaşı ikili diplom proqramları ilə kadr hazırlayan universitetlər də mövcuddur.

Nəticə. Göründüyü kimi Türk dünyasının mədəni inteqrasiyasında Azərbaycan Respublikası öz təşəbbüsləri ilə seçilir və Türkdilli dövlətlərə əməkdaşlıq dövlət siyasətinin prioritet hissəsidir.

Araşdırma göstərir ki, ölkələrin iqtisadi, sosial və mədəni tərəqqisində ən önəmli rol oynayan amillərdən biri kimi mədəniyyət, təhsil və tərəqqinin sadəcə surətini deyil, istiqamətini də müəyyən edir.

Türkdilli dövlətlər arasında mədəniyyət, təhsil və elm sahələrində əməkdaşlığın mərkəzində qarşılıqlı maraqlar dayanır. Artıq hər iki ölkə alimləri mədəni irsi öyrənmək üçün araşdırmalar aparır. Tez-tez hər iki ölkədə konqreslər, simpoziumlar, festivallar, sərgilər keçirilir, kitablar çap olunur.

# MÜASİR TƏHSİL SİSTEMİNDƏ MÜƏLLİMLƏRİN PEŞƏKAR İNKİŞAFI VƏ ROLU

**Zülfiyyə Tanrıverdiyeva**
**müəllim**
**Mingəçevir Dövlət Universiteti**
**zulfiyye.tanriverdi@gmail.com**

**Açar sözlər:** müasir təhsil, peşəkar inkişaf, texnologiya və təhsil, mentorluq

Müasir təhsil sistemi cəmiyyətin dinamik inkişafını dəstəkləyən əsas vasitələrdən biridir. Bu sistemin uğurla fəaliyyət göstərməsi, əsasən, müəllimlərin peşəkar səviyyəsindən və onların davamlı inkişafından asılıdır. Müəllim, gənc nəsli və digər təhsil alanları milli və ümumbəşəri dəyərlər əsasında məqsədyönlü, planlı və sistemli şəkildə təlimləndirən, nəsillər arasında mənəvi bağ quran və cəmiyyətin elmi, mədəni və iqtisadi inkişafına töhfə verən pedaqoji sahədə ixtisaslaşmış şəxsdir. XXI əsrdə təhsil siyasətində baş verən islahatlar müəllimlərin peşəkar inkişafını daha da vacib hala gətirmişdir.

Müəllimlərin peşəkar inkişafı onların biliyinin, bacarıqlarının və pedaqoji yanaşmalarının təkmilləşdirilməsi prosesidir. Bu proses daim dəyişən və yenilənən təhsil mühitində müəllimlərin öz biliklərini yeniləməsini təmin edir. Müasir dövrdə texnologiyanın təhsilə inteqrasiyası, qlobal rəqabət və müxtəlifliyin artması müəllimlərin təlim metodlarını daimi olaraq yeniləməsini zəruri edir. Peşəkar inkişaf müəllimlərə tələbələrin fərdi ehtiyaclarını daha yaxşı anlamağa və onlara uyğun təlim strategiyaları tətbiq etməyə kömək edir.

Müasir təhsil sistemi müəllimdən yalnız bilik ötürən rolunda çıxış etməyi deyil, həmçinin tələbələrə düşünmə, araşdırma və tənqidi yanaşma qabiliyyətlərini aşılamağı tələb edir. Müasir müəllimlər fərqli bacarıqlara və funksiyalara malik olmalıdır. Bunlara aşağıdakılar daxildir:

- Müəllimlər təhsilin ümumi inkişafında da fəal iştirak etməli, məktəb və təhsil siyasətindəki dəyişikliklərə töhfə verməlidirlər.
- Texnologiyanın təhsildəki rolunun artması müəllimlərin də texnoloji vasitələrdən effektiv istifadə etməsini tələb edir. Müəllimlər müxtəlif rəqəmsal alətlərdən istifadə edərək dərsləri daha maraqlı və interaktiv hala gətirə bilərlər.
- Müasir siniflərdə tələbələrin fərdi xüsusiyyətləri, maraqları və öyrənmə tərzləri müxtəlifdir. Müəllimlər hər bir tələbəyə fərdi yanaşma göstərərək onların potensialını maksimum dərəcədə inkişaf etdirməlidir.
- Müəllimlər tələbələri passiv bilik alıcıları olmaqdan çıxararaq onları tənqidi düşünən, suallar verən və problemi həll edən şəxsiyyətlər kimi formalaşdırmalıdır.

Müəllimin peşəkar və ictimai funksiyaları onun şəxsiyyətinə və əxlaqına yüksək tələblər qoyur. Müəllimə qarşı irəli sürülən bu tələblər, pedaqoji fəaliyyətin uğurunu müəyyən edən vacib peşə keyfiyyətlərinin əsas sistemini təşkil edir. Müəllimlərin peşəkar inkişafı müxtəlif formalarda həyata keçirilə bilər. Bu proses təkcə formal təlim və təlim kursları ilə məhdudlaşmamalıdır. Müasir dövrdə aşağıdakı yollar peşəkar inkişafın əsas vasitələrindən biri kimi qəbul edilir:

- ✓ Müəllimlər müxtəlif konfranslar, seminarlar, vəsaitlər və təlim kurslarında iştirak edərək öz sahələrində yenilikləri öyrənə bilərlər.
- ✓ Təcrübəli müəllimlər yeni müəllimlərə mentorluq edərək onların inkişafına dəstək ola bilər. Bu həm də təcrübəli müəllimlərin öz bacarıqlarını təkmilləşdirməsinə yardımçı olur.

- ✓ Müəllimlər tədris metodlarını tədqiq edərək və yeni təlim yanaşmalarını sınayaraq öz peşəkar inkişaflarını təmin edə bilərlər.
- ✓ Rəqəmsal resurslar, kitablar, jurnallar və onlayn mənbələr müəllimlərə yeni biliklər əldə etmək üçün geniş imkanlar yaradır.

Müasir təhsil sistemi müəllimlərin peşəkar inkişafını əsas prioritetlərdən biri kimi qəbul edir. Bu inkişaf prosesinə texnologiyanın tətbiqi, fərdi yanaşmanın formalaşdırılması, tədqiqatların aparılması və davamlı təlimin təşkil edilməsi daxildir. Müəllimlərin peşəkar inkişafı, tələbələrin daha keyfiyyətli təhsil almasına və cəmiyyətin tərəqqisinə böyük töhfə verir. Buna görə də, təhsil sistemində müəllimlərin peşəkar inkişafı daim dəstəklənməli və təşviq edilməlidir.

Müəllim, gənc nəsilin formalaşmasında və cəmiyyətin inşasında əsas rol oynayan bir şəxsdir. Cəmiyyət, özünün ən dəyərli sərvəti olan uşaqları, ümidlərini və gələcəyini müəllimə etibar edir. Müəllim, bu əhəmiyyətli missiyanı öz üzərinə götürərək, pedaqoji fəaliyyət vasitəsilə cəmiyyətə yararlı, milli dəyərləri olan, vətənpərvər və layiqli vətəndaşlar yetişdirir.

Ulu öndər Heydər Əliyev də müəllimlik peşəsinə yüksək qiymət verərək demişdir ki, "Mən yer üzündə müəllim adından yüksək bir ad tanımıram!". Bu müdrik sözlər, Ulu Öndərin müəllimlik peşəsi ilə olan dərin bağlılığına, ilk peşə seçiminin müəllimlik olmasına və ilk işinin də müəllimlik vəzifəsinə təsir edir. Bu səbəbdən, onun müəllimlik peşəsinə olan münasibəti özünəməxsus dəyər daşıyır.

# GLOBALIZATION AND INTEGRATION: GEOCULTURAL STABILITY OF AZERBAIJAN

**Irana Mammadova**
**PhD**
**Azerbaijan State Pedagogical University**
**elchin_mamedzade@hotmail.com**

**Key words:** Turkish union, integration, globalization, geoculture, implication, metalanguage

Against the background of geopolitical processes taking place in the world recently, the Turkish states have increased their efforts to further expand their areas of cooperation. With the liberation of Azerbaijani lands from occupation, the transition to a new stage of cooperation in the organization began. The emergence of new realities in the South Caucasus has also influenced the format of cooperation with Central Asia. The opening of the Zangezur Corridor will create conditions for the development of transit relations with the Turkish states and enable the implementation of new projects in the field of transport.

The existence of a single normative legal framework is an important factor for a successful integration process. TURKPA, which has become a successful format for inter-parliamentary dialogue, is determined to play the role of a hub in bringing together the legislative frameworks of member countries in the fields of political, legal, economic, socio-cultural, environmental and health protection. The model legislative activity implemented in this direction is of great importance. Acting as the main platform for the preparation of model laws within the framework of Turkish cooperation, the Assembly actively continues its activities in this direction.

In recent months, President Ilham Aliyev's participation in the summits of the Shanghai Cooperation Organization, the "European political union", the Council on Interaction and Confidence-Building Measures in Asia (CACEM), the League of Arab States, and now the Organization of Turkic States showed that Azerbaijan attaches great importance to multilateralism and international cooperation. demonstrates how it successfully protects its interests in the international world.

Without losing its historical interest in culture, science and education in the modern world, Azerbaijan actively participates in organizing international events and conferences at the state level. The Treaty of Friendship, Cooperation and Mutual Security, which the states signed on July 3, 1997, became the most important document in the legal framework of interstate relations between Russia and Azerbaijan. The issues of economic and geopolitical cooperation between Russia and Azerbaijan are always relevant and are studied by many authors from various angles, while at the same time, less attention is paid to the analysis of humanitarian relations.

The expansion of mutually beneficial cooperation with the Russian Federation, the development of multifaceted relations that existed in the post-Soviet space, in accordance with modern geopolitical realities, occupies an important place in the foreign policy of our country. In recent years, these relations have been built on the basis of the principle of equal partnership in all spheres and have developed in an ascending line within the framework of mutual interests. The positive aspects of strategic partnership relations are also manifested in the expansion of trade, economic and intercultural ties between the regions of Russia and Azerbaijan. This once again confirms the second Russian-Azerbaijani interregional forum "Russia and Azerbaijan: towards new horizons of interregional cooperation", organized in Astrakhan. The forum, organized by the Institute of Eurasian Studies with the support of the

administrations of the presidents of Russia and Azerbaijan, was attended by representatives of the central and regional authorities of both countries, as well as non-governmental organizations. The forum emphasized the dynamic development of relations between the two countries in all areas, as well as the expansion of economic, cultural and humanitarian ties between Azerbaijan and certain regions of Russia. At the same time, it was stated that one of the important factors that determine the need for comprehensive cooperation between Russia and Azerbaijan is precisely the historically established economic and multicultural relations between our countries.

After the collapse of the Soviet Union, these relations were severed, resulting in serious damage to the relations of both countries. Although the restoration of former relations and the expansion of the exchange of mutual experience seemed to be a necessary requirement of the new era, the coldness in political relations created certain problems for this. Since 2001, Russian-Azerbaijani relations have reached a completely new level, real opportunities have opened up for cooperation in the fields of cultural, humanitarian, as well as economic, political and energy security. More than 100 agreements have been signed between Azerbaijan and Russia. 70 of them are interstate and intergovernmental agreements. During the official and business visits of the heads of both states, important agreements were signed providing for the further strengthening of bilateral trade and economic relations and the mutual exchange of information. As a result of the intensive activity of the Russian-Azerbaijani intergovernmental commission, cultural relations between our countries are developing with high dynamics. Currently, more than 500 Russian companies operate in Azerbaijan, and most of them belong to Russian capital.

At the 2nd Russian-Azerbaijani interregional forum held in Astrakhan, our republic was represented by a delegation led by the head of the department of socio-political issues of the Presidential Administration Ali Hasanov. The delegation included senior officials of the Administration of the President of Azerbaijan, members of the government, deputies of the Milli Majlis, heads of executive power in a number of districts of the republic, entrepreneurs. The forum emphasized that there is a good potential for expanding economic and cultural ties between individual regions of Russia and individual regions of Azerbaijan, and it should be used effectively. Deepening relations with Russia has been and remains a priority in Azerbaijan's foreign policy. “Relations between Azerbaijan and Russia are open and sincere. At present, a consensus has been reached on many issues of cooperation between our countries. This indicates that partnerships are developing: relations are successfully developing in the fields of science, education, healthcare, and culture.

An important event in the life of the Azerbaijani diaspora in Russia was the 1st congress of the All-Russian Azerbaijan Congress (VAK), held in Moscow on October 4, 2001, which considered the main activities of the VAK, the tasks for the formation and development of this organization. The main goal and leitmotif of all activities of the Congress was the consolidation of Azerbaijanis in order to form a powerful and capable national diaspora, strengthening its role and socio-political significance in Russian society. In a relatively short period of time, the Congress has become one of the well-known public organizations in Russia and has been recognized as the main organization representing the interests of the Azerbaijani diaspora in all spheres of Russian society. Evidence of his recognition was the government decision to include the HAC as a permanent member of the Azerbaijani-Russian Intergovernmental Commission on Economic Cooperation, as well as in the Inter-Parliamentary Commission of the Milli Majlis and the State Duma of the Federal Assembly of the Russian Federation. The information and analytical work of the Congress has also expanded significantly. The socio-political newspaper VAK is published "Azerbaijani Congress", which is distributed in many regions of Russia. With the support of

the Congress, the Milletin Sesi newspapers are also published, "Asude watch", international scientific and journalistic journal "IRS - Heritage". Since the end of 2004, in the city on the Neva, where 16.5 thousand Azerbaijanis live, the organ of the National Cultural Autonomy of the Azerbaijanis of St. Petersburg "Dialogue of Civilizations" has been published.

The 8th Summit of the Cooperation Council of Turkic-Speaking States went down in history with another important decision for the Turkic world. Awarding the President of Azerbaijan Ilham Aliyev with the "Highest Order of the Turkish World" at the event is, in my opinion, a bright embodiment of our friendship and brotherhood, and at the same time, the pride of the Turkish states for the great victory of Azerbaijan. As stated by President Ilham Aliyev, this valuable order, signed by the heads of Turkish states and presented at the initiative of Recep Tayyip Erdogan, is an award given to the entire Azerbaijani people.

## METHODS OF INTERACTIVE LEARNING IN FOREIGN LANGUAGE LESSONS

**Mehdi Rahimov**
**professor**
**Fidan Isayeva**
**teacher**
**Mingachevir State University**
**mehdi_rahimov@yahoo.com**
**fidan.isayevaa7@gmail.com**

**Key words:** interactive methods, students, education, system

English, which has gained the status of an international language, is currently taught in many countries of the world. A lot of research has been carried out in the field of increasing the effectiveness and efficiency of teaching English, which is the main language of communication between countries in modern times, new methods and approaches have been developed and studied. Also, various materials were prepared for pupils and students with knowledge of English on each level, and many of them were used in the educational process. Increasing the effectiveness of teaching activities depends on the organizational and teaching abilities of the teacher along with the applied methods and techniques. In modern times, technology tools are already used in all areas. The development of science and technology has had a positive impact on the field of education, just as it has affected all spheres of society.

Psychologists and educators are aware of the urgent need to create and implement a personal approach to the student as one of the principles of organizing educational work. A fundamental change in the educational goal refocuses the learning process on the students' personality, their humanization, and general development character. Personality-oriented education provides for the organization of training based on deep respect for the personality of the pupil, taking into account the peculiarities of individual development, attitude towards him as a conscious responsible subject of educational interaction.

It is a form of cognitive and communicative activity in which each of the process participants contributes to mastering the taught subject. In this process, not only the teacher and the students, but also the students act in the mode of conversation and dialogue among themselves.

Since interactive methods do not provide ready-made knowledge to students, but rather help them to find this knowledge together, the teacher acts as organizer, coordinator, guide and consultant, and students act as experimenters, researchers and creative subjects in the learning process.

The question of the group form of educational activity in the psychological and pedagogical literature occupies an important place, since they open up opportunities for children to cooperate relationships, and cognition of the environment.

In recent years, there has been a tendency in the methodology of teaching foreign languages to move from a communicative approach to its variety - an interactive approach, which was proposed by Western methodologists. Some authors identify it with the communicative approach, considering that "the interactive model of language acquisition assumes that learning occurs during and in the process of participating in language acts ". Others define the interactive method as a modified direct method that includes a number of other methods.

The relevance of this work is due to the special place that interactive learning methods occupy in the modern education system.

The subject of the study is the role of interactive methods in foreign language lessons.

To achieve this goal, it is necessary to solve the following tasks:
1. To reveal the essence and objectives of interactive methods
2. To study the basic forms, principles and technologies of the interactive approach
3. Consider the organization of training on interactive methods
4. Develop a lesson plan based on interactive methods

# О ДЕЯТЕЛЬНОСТИ МЕЖДУНАРОДНОЙ ОРГАНИЗАЦИИ ТЮРКСКОЙ КУЛЬТУРЫ – ТЮРКСОЙ

**Ахундова Нигяр**
**доцент**
**Бакинский бизнес университет**
**nigar-akhundova @yandex.ru**

**Ключевые слова:** Тюркский мир, Турксой, культура, культурные связи

Пути развития культуры тюркских народов, ее межкультурные связи имеют важное значение для прогресса всего тюркского мира. Необходимо отметить важность данного развития не только в истории тюркских народов, но и в целом развитии мировой цивилизации.

Основная цель ТЮРКСОЙ - это развивать и улучшать культуру народов, межкультурные диалоги, передавать будущим поколениям историю культуры тюркизма, тюркского народа, развивать между ними сотрудничество . Сегодня уже 33 года со дня создания этой организации, которая проводила большое количество мероприятий международного масштаба. Среди них встречи художников и скульпторов, оперные и балетные фестивали, музыкальные и литературные конгрессы, кинофестивали, выставки художников, презентации книг, мероприятия, связанные с юбилеями известных представителей художественной интеллигенции. К примеру были проведены 880-летию со дня рождения великого азербайджанского поэта Низами Гянджеви, известного во всей тюркской и мировой литературе, мероприятия к 100-летию выдающегося художника Азербайджана Микаила Абдуллаева, издания избранных произведений народного писателя Казахстана Толен Абдикова, 100-летие великого дирижера Ниязи и многих другие Историю тюркских народов очень богата, имеет древнейшую историю и играет важную роль в пропаганде культуры тюркских народов. В деятельности ТЮРКСОЯ с момента создания ведущую роль играет художественная интеллигенция – основной носитель культуры тюркского мира .

Данная организация была создана в 1992 году. Международная организация тюркской культуры, объединяет тюркоязычные страны для сохранения и дальнейшего развития и передачи будущим поколениям общих материальных и культурных памятников (ТЮРКСОЙ). Генеральным директора избираются на определенный срок и являются представителями того или иного тюркского государства. В настоящее время Генеральным директором является Султан Раев (Киргизия) ( до него были Полад Бюльбюль оглы (Азербайджан), Дюсен Касеинов (Казахстан).

В результате соглашения, подписанного 12 июля 1993 года в Алматы министры культуры Азербайджана, Казахстана, Кыргызстана, Узбекистана, Турции и Туркменистана подписали соглашение о создании Организации по совместному развитию тюркской культуры и искусства.

Практически каждый юбилейный год издавались книги и буклеты, характеризующие те или иные аспекты работы. Среди них книга, посвящѐнная десятилетию ТЮРКСОЙ научный труд «ТЮРКСОЙ: На пороге славного пути», отражает значение учреждения Международной организации тюркской культуры, пути еѐ развития, цели и задачи этой организации. В книге собраны около 1000 событий - фактов , связанные с деятельности ТЮРКСОЙ.

Очень важным аспектом культурных связей является обмены делегациями, встречи, круглые столы. К примеру , 2012 год был объявлен ТЮРКСОЙ годом «Мирза

Фатали Ахундзаде», 24 февраля 2012 года в городе Астана (Казах-стан) было проведено мероприятие «Астана – культурная столица тюркского мира – 2012». В 2013 году город Эскишехер (Турция), был выбран культурной столицей тюркского мира. В 2014 год Казань (столица Татарстана, Россия) стала культурной столицей тюркского мира, в 2016 году Шеки был избран культурной столицы тюркского мира.

19-20 февраля 2015 г. в г.Стамбул (Турция) рассматривался вопрос о создании Фонда тюркской культуры и наследия

Представители 28 государств провели форум «Великий шелковый путь» в Бурсе (2015 г.)

В рамках дней театра ТЮРКСОЙ в 2015 году отметил 70-летие народной артистки.

Для дальнейшего развития деятельности ТЮРКСОЙ основными задачами остаются: обеспечение сильной материально-технической базы. Необходимо продолжать культурное сотрудничества тюркских народов. Необходима тесная связь художественной интеллигенции, а также молодого поколения тюркских стран. Ежегодно проводить круглые столы международные диалоги, для пропаганды тюркской. В ВУЗах тюркоязычных страны нужно подготовить программы по истории культуры тюркских народов.

Взаимное сотрудничество тюркских народов-это мир, прогресс и развитие не только тюркских государств , но и всех стран мира.

# TÜRK DÖVLƏTLƏRİNDƏ DAVAMLI İNKİŞAF VƏ ƏTRAF MÜHİT MƏSƏLƏLƏRİ: İNTEQRASİYA PROSESLƏRİNİN EKOLOJİ TƏSİRLƏRİ

**Ağababa İbrahimov**
**fizika-riyaziyyat elmləri namizədi**
**Turan Məhərrəmbəy Əhmədli**
**doktorant**
**Milli Aerokosmik Agentliyinin Xüsusi Konstruktor Texnoloji Bürosu**
**Artvin Çoruh Universiteti**
**aqababa@gmail.com**
**muharrembeyturan@gmsil.com**

**Açar sözlər**: ətraf mühit, Türk dövlətləri, ekoloji təsirlər, ekosistem, texnologiya

Türk dövlətləri arasındakı inteqrasiya prosesləri, iqtisadi və sosial əməkdaşlığı gücləndirmək məqsədini güdür. Bu proseslərin davamlı inkişaf və ətraf mühit məsələləri baxımından necə təsir edəcəyini başa düşmək, bölgədə uzunmüddətli və ekoloji baxımdan dayanıqlı inkişafı təmin etmək üçün əhəmiyyətlidir. Davamlı inkişaf, gələcək nəsillərin ehtiyaclarını ödəmək üçün bu günün ehtiyaclarını təmin etməklə yanaşı, iqtisadi, sosial və ətraf mühit aspektlərini balanslaşdırmağa çalışır. Türk dövlətləri bu prinsipləri tətbiq edərək iqtisadi böyümə və ətraf mühit qorunması arasında tarazlıq yaratmağa çalışırlar. Türk dövlətləri, xüsusilə Türkiyə, Azərbaycan, Qazaxıstan və Türkmənistan, sürətli iqtisadi inkişafla yanaşı ətraf mühit problemləri ilə də qarşılaşırlar. Bu dövlətlərdə inkişaf layihələri, infrastruktur layihələri və sənaye artımı, ətraf mühitə təsir edir.

İnteqrasiya proseslərinin ekoloji təsirlərini başa düşmək üçün, müxtəlif sahələrdəki mümkün təsirləri nəzərdən keçirmək lazımdır:

- Enerji sektorunda inkişaf: Türk dövlətləri arasında enerji resurslarının mübadiləsi və inteqrasiyası əhəmiyyətli bir mövzudur. Bölgədəki enerji layihələri, xüsusilə hidroelektrik, günəş və külək enerjisi layihələri, ekoloji təsirləri azaldacaq şəkildə həyata keçirilməlidir. Enerji istehsalı və istifadəsi üzrə birlikdə müəyyən edilən standartlar və texnologiyalar, ətraf mühitə təsiri minimuma endirə bilər.
- İnfrastruktur layihələri: Yollar, dəmiryolları, limanlar və digər infrastruktur layihələri ekoloji təsirə malikdir. Bu layihələrin həyata keçirilməsində ətraf mühitə təsirin qiymətləndirilməsi və ekoloji təsirləri azaltmaq üçün müasir texnologiyaların tətbiqi vacibdir. Tədqiqat və planlaşdırma mərhələlərində ətraf mühitin qorunması prinsipinin daxil edilməsi önəmlidir.
- Ticarət və iqtisadi əlaqələr: İqtisadi əməkdaşlıq və ticarət artımı ətraf mühit üzərində təsir göstərə bilər. Sənaye fəaliyyətlərinin artırılması, tullantıların idarə olunması və resurs istifadəsi məsələləri diqqətə alınmalıdır. Ekoloji təmiz texnologiyalar və davamlı istehsal metodları bu təsirləri azaltmaq üçün istifadə edilə bilər.

  Türk dövlətlərində inteqrasiya proseslərində davamlı inkişaf prinsiplərinin tətbiqi, ekoloji təsirlərin azaldılmasına və müsbət təsirlərin artırılmasına kömək edə bilər:

- Ekoloji dəyərlərin qorunması: Ekosistemlərin və bioloji müxtəlifliyin qorunması, davamlı inkişafın əsas prinsiplərindəndir. İnteqrasiya prosesləri çərçivəsində, təbii sərvətlərin qorunmasına və ekosistemlərin davamlılığını təmin edən tədbirlərin görülməsi vacibdir.

- Təmiz texnologiyaların tətbiqi: Ekoloji baxımdan təmiz və enerji səmərəli texnologiyaların istifadəsi, inteqrasiya proseslərinin ekoloji təsirlərini azaltmağa kömək edir. Yenilənə bilən enerji mənbələri və ekoloji təmiz istehsal metodları bu sahədə mühüm rol oynayır.
- Ekoloji monitorinq və qiymətləndirmə: İnteqrasiya layihələrinin icrası zamanı ətraf mühitin monitorinqi və qiymətləndirilməsi, potensial ekoloji problemləri vaxtında aşkar etməyə və müvafiq tədbirlərin görülməsinə imkan tanıyır. Çevrəvi təsir qiymətləndirmə (ÇTV) prosesləri inteqrasiya layihələrinin ətraf mühitə təsirini azaltmaq məqsədini güdür.

Türk dövlətləri arasında ətraf mühit məsələlərində əməkdaşlıq, bölgədəki ekoloji problemlərin həllində və davamlı inkişafın təmin edilməsində əhəmiyyətlidir:

- Ortaq ekoloji proqramlar: Türk dövlətləri arasında ortaq ekoloji proqramların hazırlanması və icrası, bölgə miqyasında ekoloji mühitin qorunmasını təmin edə bilər. Su resurslarının idarə olunması, ətraf mühitin mühafizəsi və iqlim dəyişikliyi məsələlərində birgə strategiyaların həyata keçirilməsi vacibdir.
- Təcrübə mübadiləsi və bilgi paylaşımı: Ətraf mühit məsələlərində təcrübə mübadiləsi və biliklərin paylaşılması, Türk dövlətləri arasında ekoloji problemlərin həllinə kömək edə bilər. Təşkilat və mütəxəssislərin mütəmadi olaraq bir araya gəlməsi, ekoloji yanaşmaların inkişafını dəstəkləyir.
- Ətraf mühit qanunvericiliyi və standartların harmonizasiyası: Üzv dövlətlər arasında ətraf mühit qanunvericiliyinin və standartlarının harmonizasiyası, inteqrasiya proseslərinin ekoloji təsirlərini azaltmaq və bölgə miqyasında vahid qaydaların tətbiqini təmin etmək məqsədini güdür.

Türk dövlətləri davamlı inkişaf prinsiplərinə əsaslanaraq ətraf mühitin qorunması və inteqrasiya proseslərinin müsbət təsirlərini artırmaq üçün aşağıdakı sahələrdə tədbirlər görə bilərlər:

- Qanunvericilik: Ətraf mühitin qorunması ilə bağlı qanunvericiliyin gücləndirilməsi və tətbiqinin monitorinqi.
- Texnologiya və innovasiya: Təmiz texnologiyalar və innovativ həllərin tətbiqi ilə ətraf mühitin qorunması.
- Təhsil və maarifləndirmə: İctimaiyyətin ətraf mühit məsələləri barədə məlumatlandırılması və təhsil proqramlarının genişləndirilməsi.

Bu sahədəki fəaliyyətlər, Türk dövlətlərinin davamlı inkişaf məqsədlərinə çatmalarına kömək edəcək və eyni zamanda ətraf mühitin qorunması üçün müsbət təsir göstərəcəkdir.

Türk dövlətləri arasındakı inteqrasiya prosesləri, ətraf mühit məsələləri və davamlı inkişaf prinsipləri baxımından müxtəlif təsirlərə malikdir. Ekoloji təsirlərin azaldılması və davamlı inkişafın təmin edilməsi üçün müasir texnologiyaların tətbiqi, ekoloji monitorinq və regional əməkdaşlıq önəmlidir. Türk dövlətlərinin birgə səyləri, bölgədə ətraf mühitin qorunması və davamlı inkişafın təmin edilməsi məqsədini güdür və bu sahədə uğurlu nəticələr əldə etmək üçün mütəmadi olaraq strateji yanaşmaların inkişaf etdirilməsi vacibdir.

# DİFERENSİAL TƏLİMİN RİYAZİYYAT DƏRSLƏRİNDƏ TƏTBİQ EDİLMƏSİ METODLARI

**Elşən Səfixanov**
**magistrant**
**Allahşükür Quliyev**
**dosent**
**Lənkəran Dövlət Universiteti**
**elsen.sefixanov40@gmail.com**
**quliyev_allahsukur@mail.ru**

**Açar sözlər:** diferensial təlim, riyaziyyat dərsləri, layihələr, fəal təlim metodu

Riyaziyyat dərslərində hər bir şagirdin fərqli öyrənmə tərzi və sürəti var. Ənənəvi tədris üsulları isə bəzən bu fərqləri nəzərə almaqda çətinlik çəkir, nəticədə bəzi şagirdlər dərsdə geri qalır, digərləri isə öz potensiallarını tam göstərə bilmir. Diferensial təlim, bu problemi həll etmək üçün yaradılan bir yanaşmadır. Bu yanaşmada müəllimlər, hər bir şagirdin ehtiyaclarına, maraqlarına və öyrənmə sürətinə uyğun dərs metodları və materialları hazırlayırlar. Bu metod şagirdlərin özlərini daha rahat və inamlı hiss etmələrinə kömək edir, çünki onlar özlərinə uyğun bir şəkildə öyrənirlər. Bu tezisdə, riyaziyyat dərslərində diferensial təlimin necə tətbiq edilə biləcəyini və bu yanaşmanın təlimin keyfiyyətinə necə təsir göstərə biləcəyini araşdıracağıq.Tezisin əsas məqsədi riyaziyyat dərslərində diferensial təlimin tətbiqi üsullarını araşdırmaq və şagirdlərin fərdi öyrənmə tərzlərinə, qabiliyyətlərinə və ehtiyaclarına uyğun tədris prosesinin təşkilinə dair effektiv metodlar təklif etməkdən ibarətdir.

Diferensial təlim riyaziyyat dərslərində şagirdlərin öyrənmə səviyyələrinə, qabiliyyətlərinə və maraqlarına uyğun olaraq fərdi və qrup şəklində tədris metodlarının tətbiqini nəzərdə tutur. Bu yanaşma təlimin effektivliyini artırmaqla yanaşı, şagirdlərin fərdi inkişafını və motivasiyasını da dəstəkləyir.Aşağıdaki metodları nəzərdən keçirək:

1. Fərdi təlim planlarının tərtib edilməsi:
   - Şagirdlərin öyrənmə səviyyələrinin və ehtiyaclarının diaqnostik qiymətləndirmələrlə müəyyən edilməsi.
   - Fərdi təlim planlarının hazırlanması və hər bir şagirdə uyğun tapşırıqların təqdim edilməsi.
2. Şagirdlərin qruplaşdırılması:
   - Heterogen və homogen qrupların təşkil edilməsi.
   - Qrup daxili əməkdaşlığın və qarşılıqlı dəstəyin təşviqi vasitəsilə öyrənmə prosesinin inkişaf etdirilməsi.
3. Müxtəlif tədris metodlarından istifadə:
   - Vizual, kinestetik və eşitmə üsullarını birləşdirən tədris metodlarının tətbiqi.
   - Müxtəlif öyrənmə tərzlərinə uyğun olaraq mühazirə, seminar, riyazi oyunlar və interaktiv təlim platformalarından istifadə edilməsi.
4. Adaptiv texnologiyaların istifadəsi:
   - Adaptiv öyrənmə platformaları vasitəsilə şagirdlərin fərdi ehtiyaclarına uyğunlaşdırılmış tədris materiallarının təqdim edilməsi.
   - Şagirdlərin performansını izləyən və fərdi öyrənmə yollarını optimallaşdıran texnologiyaların tətbiqi.
5. Müxtəlif tapşırıq və fəaliyyətlərin təqdim edilməsi:
   - Eyni mövzu üzrə fərqli səviyyələrdə tapşırıqların hazırlanması.

- Şagirdlərin başa düşmə səviyyəsinə uyğun olaraq sadə və ya kompleks riyazi problemlərin təqdim edilməsi.

6. Müxtəlif qiymətləndirmə üsullarından istifadə:
   - Ənənəvi testlərdən əlavə, layihə işi, portfoliolar və şifahi təqdimatlar kimi alternativ qiymətləndirmə üsullarının tətbiqi.
   - Davamlı və formatik qiymətləndirmələrlə şagirdlərin inkişafının izlənilməsi.
7. Şagirdlərin fəal iştirakını təşviq etmək:
   - Şagirdlərin öz təlim məqsədlərini müəyyən etməsi və öz inkişaflarını izləməsinə imkan yaradılması.
   - Özünü və yoldaşlarını qiymətləndirmə fəaliyyətlərinə cəlb edilmə.
8. Real həyat problemləri və layihələr üzərində iş:
   - Riyazi anlayışların real həyat vəziyyətlərində tətbiqi üçün real problemlər və layihə əsaslı öyrənmə metodlarından istifadə.
   - Şagirdlərin maraq və bacarıqlarına uyğun layihələrin seçilməsi və onların riyazi biliklərini tətbiq etməsi.

Riyaziyyat dərslərində diferensial təlimin tətbiqi, şagirdlərin riyazi bilik və bacarıqlarını fərdi ehtiyaclarına uyğun inkişaf etdirməsinə imkan yaradır. Bu yanaşma təlimin effektivliyini artırmaqla yanaşı, şagirdlərin öyrənmə prosesinə olan marağını və motivasiyasını da gücləndirir.

# AĞCİYƏR XƏRÇƏNGİNİN TƏDQİQİNDƏ BİOLOJİ VƏ BİOKİMYƏVİ YANAŞMALAR

**Elvin Əliyev**
**dosent**
**Lənkəran Dövlət Universiteti**
**elvinaliyev1989@gmail.com**

**Açar sözlər**: ağciyər, hüceyrə kulturası, xərçəng

Dünyada xərçənglə bağlı ölümlərin başlıca növlərindən biri, ağciyər xərçəngi hesab olunur. Ən çox yayılmış olan bu xərçəng növü, ildə təxminən 1.2 milyon insanın ölümünə səbəb olmaqdadır. Kişilərdə prostat, qadınlarda isə süd vəzi xərçəngindən sonra yayılmasına görə ikinci yerdə durur. Xəstəliyə gec diaqnoz qoyulması və xəstəliyin tez bir zamanda yayılması onun tam müalicə olunması prosesini çətinləşdirir. Hal-hazırda ağciyər xərçənginin müalicəsində cərrahi, radioterapiya və kimyaterapiya müalicələri geniş istifadə olunur. Bununla əlaqədar olaraq son illərdə bir çox tədqiqatçı ağciyər xərçənginin müalicəsində yeni təbii və ya biokimyəvi təsiredicilərin kəşf edilməsi yönündə işlər aparmağa cəhd edirlər. Ağciyər xərçəngi ilə əlaqədar aparılan mövcud araşdırmalar risk faktorları, xərçəngin molekulyar mexanizmlərinin tədqiqi, erkən diaqnozu, yeni antixərçəng dərmanlarının istehsalını və eyni zamanda bu dərmanların toksiki təsirlərinin minimuma endirilməsi məsələlərində qabaqcıl məlumatları üzə çıxarır.

Digər xərçəng növlərində olduğu kimi ağciyər xərçənginin yaranmasında da böyümə faktorları, böyümə faktor reseptorları, angiogenetik faktorlar, hüceyrə siklusu tənzimediciləri və ya DNT (Dezoksiribonuklein turşusu) bərpa genləri kimi bir çox gendə meydana gələn müxtəlif genetik və epigenetik dəyişikliklər rol oynayır. Bir çox dərman araşırmalarında olduğu kimi xərçəngin müalicəsi üçün yeni biokimyəvi təsiredicilərin inkişaf etdirilməsi üzrə aparılan işlər birinci mərhələdə in vitro (canlı orqanizmlərdən kənarda) şəraitdə hüceyrə kulturasında aparılır və müvəffəqiyyətli nəticələr əldə edildikdən sonra heyvan və insanlar üzərinə tətbiq edilir. Biokimyəvi araşdırmalar zamanı, in vitro şəraiti üçün seçiləcək hüceyrə tipi və hüceyrə kulturasının xüsusiyyətləri aparılan tədqiqat nəticələrinə birbaşa təsir edir.

Nəticə olaraq istifadə olunacaq hüceyrələrin biokimyəvi dərmanlara cavab verən reseptorlara malik olması, ağciyər xərçənginin tədqiqində əsas effektiv amillərindən biri kimi hesab etmək olar.

Şəkil 1. Ağciyər xərçəngi



# YENİ TƏDRİS TEXNOLOGİYALARININ TƏDRİS PROSESİNDƏ ƏHƏMİYYƏTİ

**Natiq İbrahimov**
**professor**
**Qadir Quliyev**
**magistrant**
**Lənkəran Dövlət Universiteti**
**quliyevqadir888@gmail.com**
**natiq_ibrahimov@mail.ru**

**Açar sözlər :** tədris  texnologiyaları, fəza fiqurları, müasir təlim

Müasir təhsil sisteminin inkişafı informasiya texnologiyalarının sürətli irəliləyişi ilə sıx əlaqəlidir. Tədris prosesində texnologiyaların tətbiqi müəllimlərə dərsə daha yaradıcı yanaşmaq və şagirdlərin təlim prosesində daha fəal iştirak etmələrini təmin etmək üçün geniş imkanlar yaradır. Bu işdə yeni tədris texnologiyalarının rolu və onların ümumtəhsil məktəblərində istifadəsi təhlil olunur. Xüsusilə, fəza fiqurlarının öyrədilməsi misalı üzərində bu texnologiyaların praktiki əhəmiyyəti araşdırılacaq.

Yeni tədris texnologiyalarının mahiyyəti: yeni tədris texnologiyaları dedikdə, əsasən rəqəmsal resursların, interaktiv proqram təminatlarının və onlayn tədris vasitələrinin istifadəsi nəzərdə tutulur. Bu texnologiyalar tədris prosesinin daha effektiv və interaktiv təşkilini təmin edir. Məsələn, multimedia təqdimatları, elektron lövhələr, virtual reallıq (VR) və artırılmış reallıq (AR) kimi vasitələrdən istifadə etməklə şagirdlərə daha əyani və yadda qalan dərs təqdim etmək mümkündür.

Təhsil prosesində yeni texnologiyaların tətbiqi şagirdlərin nəzəri biliklərini praktik şəkildə tətbiq etmələrinə şərait yaradır. Eyni zamanda, təhsil texnologiyaları müəllimlərin işini yüngülləşdirir, dərs materiallarını daha asan formada çatdırmağa və fərdi yanaşmanı artırmağa imkan verir.

Fəza fiqurlarının tədrisində texnologiyaların rolu: məkan və fəza fiqurları mövzusunun tədrisində yeni texnologiyalar vacib əhəmiyyət kəsb edir. Ənənəvi üsullarla şagirdlər ikiölçülü lövhə üzərində fəza fiqurlarını təsəvvür etməkdə çətinlik çəkirlər. Müasir texnologiyalar isə bu problemi aradan qaldırır. Məsələn, 3D modelləşdirmə proqramları, GeoGebra kimi tətbiqlər və ya artırılmış reallıq vasitəsilə şagirdlər fəza fiqurlarını interaktiv şəkildə görə və manipulyasiya edə bilirlər. Bu, onların fəza anlayışlarını daha yaxşı başa düşmələrinə və mövzunu dərin mənimsəmələrinə kömək edir.

Texnologiyalar həmçinin şagirdlərin marağını artırır. Onlar fəza fiqurlarının real dünyada necə tətbiq olunduğunu daha yaxşı başa düşürlər. Məsələn, binaların memarlıq modelləri, mühəndislik konstruksiyaları və digər sahələrdə fəza fiqurlarının istifadə edildiyini texnologiyalar vasitəsilə əyani göstərmək olar.

Tədris texnologiyalarının üstünlükləri və çətinlikləri :Yeni tədris texnologiyalarının bir neçə əsas üstünlüyü var:

Əyanilik və anlaşıqlıq: dərslər daha əyani və anlaşılan olur. Şagirdlər vizual elementlər vasitəsilə mövzunu daha yaxşı mənimsəyir.

İnteraktivlik: texnologiyaların tətbiqi şagirdlərin dərsə aktiv iştirakını təmin edir. Bu, şagirdlərin öyrənmə həvəsini artırır və dərsin keyfiyyətini yüksəldir.

Fərdi yanaşma: müəllimlər fərdi şagirdlərin ehtiyaclarına uyğun material təqdim edə bilirlər. Lakin bəzi çətinliklər də mövcuddur:

Maliyyə xərcləri: tədris texnologiyalarının tətbiqi üçün məktəblərin maliyyə resursları yetərli olmaya bilər. Texniki təchizat və proqram təminatlarının alınması bəzi təhsil müəssisələri üçün maliyyə baxımından yük yarada bilər.

Texnoloji problemlər: texnologiyaların işləməməsi və ya texniki nasazlıqlar dərs prosesini ləngidə bilər. Bu da öz növbəsində dərs ardıcıllığında pozuntulara gətirib çıxara və dərsin keyfiyyətini azalda bilər. Bunun üçün texniki təminat düzgün quraşdırılmalı və daim nəzarət dioqnostika aparılmalıdır.

Yeni tədris texnologiyalarının gələcək istiqamətləri: yeni tədris texnologiyalarının inkişafı ilə təhsil prosesində daha çox yeniliklər gözlənilir. Virtual reallıq, süni intellekt, adaptiv təlim sistemləri kimi yeni texnologiyalar müəllimlərə və şagirdlərə daha da zəngin tədris imkanları verəcək. Xüsusilə, fərdi tədris yanaşmalarının gücləndirilməsi, şagirdlərin bilik və bacarıqlarının real vaxt rejimində qiymətləndirilməsi gələcəkdə daha geniş istifadə olunacaq.

Nəticə: yeni tədris texnologiyaları ümumtəhsil məktəblərində təhsilin keyfiyyətini artırmaq üçün geniş imkanlar yaradır. Fəza fiqurlarının öyrənilməsi kimi çətin mövzularda texnologiyaların istifadəsi şagirdlərin mövzunu daha dərindən qavramalarına kömək edir. Lakin bu texnologiyaların effektiv istifadəsi üçün məktəblərin lazımi texniki dəstək və resurslarla təmin edilməsi vacibdir. Gələcəkdə yeni texnologiyaların daha geniş miqyasda tətbiqi tədris prosesini daha interaktiv, anlaşıqlı və maraqlı edə bilər.

# ORTA MƏKTƏB RİYAZİYYAT KURSUNDA MƏNTİQ ELEMENTLƏRİNİN FORMALAŞMASI

**Rəşid Qasımov**
**dosent**
**Hüseyn Yaqublu**
**magistrant**
**Lənkəran Dövlət Universiteti**
**yaqubluhuseyn16@gmail.com**
**resid5757@mail.ru**

**Açar sözlər:** məntiq, riyaziyyat, çoxluq dizyunksiya, konyunksiya, teorem, isbat

Məntiq bütün elmlərin əsası kimi götürülür. Məntiq bir elm kimi, bizim eradan əvvəl IV əsrdə formalaşmışdır və onun banisi Aristotel olmuşdur. Məntiq əsasən iki hissəyə bölünür: Ənənəvi məntiq üzərində qurulmuş formal məntiq və formal məntiq üzərində qurulmuş riyazi məntiq.

Orta məktəbdə tədris edilən bütün fənlər, o cümlədən ətraf aləmin miqdar və forma münasibətlərini öyrənən riyaziyyat elmi riyazi məntiqin qanunlarından istifadə etmədən tədris metodikasını səmərəli şəkildə təşkil edə bilməz.

Məntiq elmi təfəkkürün formalarını öyrənir. Məntiq insana necə düşünməli olduğu barədə bir struktur verir ki, bir çox hallarda bu struktur məntiqli əqli nəticəyə gəlməkdə insana kömək edir. Məntiq daim yaradıcı axtarışların və yeni-yeni məntiqi nəzəriyyələrin meydana gəldiyi elm sahəsidir. Məsələn, semantik məntiq, predikatlar məntiqi, simvolik məntiq, ehtimali məntiq, qeyri-səlis məntiq, dialektik məntiq, konstruktiv məntiq və s. Məntiq təfəkkürün şüursuzluq prosesini şüurluluğa çevirir, bununla da təfəkkürün özü dəqiqləşir. Beləliklə, məntiq elmi çox qədimdən başlayaraq bu günkü səviyyəsinə çatana qədər müxtəlif mərhələlər keçərək təkmilləşmişdir. Riyazi məntiqin banisi sayılan ingilis alimi Corc Bul bu elmi formal məntiqin əsasında qurmuşdur.

Məntiqdə riyazi üsulların tətbiqi üçün müəyyən simvollar ardıcıllığının olması vacibdir. Bu isə iki sinfin olmasına–semantika və sintaksisə ehtiyac yaradır. Sintaksis dilin obyektlərinin qurulması qaydalarının məcmusudur. Semantika isə doğru və ya yalan qiymətləri aşkar edən mülahizələr çoxluğudur. Ümumiyyətlə, məntiq elminin inkişaf tarixində onun üç əsas tarixi və regional formalarını qeyd etmək olar – çin, hind və yunan. Müasir məntiq elminin əsasları məhz yunan məntiqindən götürmüşdür. Müasir məntiq elminin inkişafı XIX əsrin axırları XX əsrin əvvəlindən başlamışdır. XX əsrdə riyazi məntiq artıq sərbəst riyazi elm kimi formalaşmış və inkişaf etmişdir.

Qeyd edək ki, ibtidai siniflərdə şagird doğruya həqiqətə uyğun fikir, yalana isə həqiqətə uyğun olmayan fikir kimi tərif verir, buna aid müxtəlif mülahizələri nəzərdən keçirirlər. Məsələn, “Ay Yer ətrafında fırlanır” doğru, “Günəş Yerdən kiçikdir” yalan mülahizədir.

Azərbaycanlı alimlərdən Abdulla Nuruşov, Məlik-Baxış Babayev, Rəşid Məmmədov və başqaları riyaziyyatda məntiqi məsələlərin həllinə dair çoxlu maraqlı kitablar yazmışlar. Aşağıdakı kimi riyazi məsələlərə baxaq:

1) 2-yə vurduqda tam ədədin kvadratı, 3-ə vurduqda isə kubu olan ən kiçik natural ədədi tapın. (cavab: 72)

2) **+***=**** bərabərliyində toplananları və onların cəmini soldan sağa və sağdan sola oxuduqda onlar dəyişmir. Bərabərliyin şifrini açın. (cavab: 22+979=1001)

Belə məsələlər məntiqi məsələlər olmaqla bərabər, şagirdlərin hesab vərdişlərini inkişaf etdirir. Dərs prosesində belə məsələlərdən istifadə dərsin səmərəsini daha da artırır.

3) "Əgər *a* və *b* ədədləri 6-ya bölünürsə, *ab* hasili də 6-ya bölünür, *ab* hasili 6-ya bölünmürsə, onda nə *a*, nə də *b* ədədləri 6-a bölünmür". Bu mühakimə üç hissədən ibarətdir:

1) əgər *a* və *b* ədədləri 6-ya bölünürsə;

2) *ab* hasili 6-ya bölünür;

3) *ab* hasili də 6-ya bölünmürsə, nə *a*, nə də *b* ədədləri 6-ya bölünmür.

İlk iki mühakimədən məntiqi nəticə kimi sonuncu mühakimə alınır, cünki 3-cü mühakimə 1-ci və 2-ci mühakimələrin inkarıdır. Beləliklə, bu misalda aşağıdakı elementləri ayırd edə bilərik:

- "*a*, *b*, 6" ədədləri, "bölünmə əməli" - riyazi terminlərdir,
- "əgər, onda, və" - məntiqi terminlərdir.

Aşağıdakı mühakimələrə də baxaq.

1. "Əgər düzbucaqlının bütün tərəfləri bərabərdirsə, onda bu düzbucaqlı kvadratdır". Bu nümunədə də riyazi və məntiqi terminlər iştirak edir:

- "düzbucaqlı, kvadrat, tərəf, bərabərdir" – riyazi terminlər,
- "əgər, onda"– məntiqi terminlərdir.

2. " $8 > 5$ " mülahizədir, çünki, onun doğru olduğunu hökm edə bilərik.

3. " $x+3 = 7$" mülahizə deyil; $x$-in nəyi ifadə etdiyi məlum olmadığı üçün onun doğru və ya yalan olduğunu hökm etmək olmaz.

Deməli, bütün riyazi mühakimələrdə həm riyazi, həm də məntiqi termin və anlayışlardan istifadə olunur. Lakin orta məktəblərdə istifadə edilən riyazi dil riyaziyyatın elmi dilindən çox fərqlidir.

Orta məktəb riyaziyyat kursunda riyazi məntiq ayrıca fənn kimi tədris edilmir, lakin bəzi məntiqi əməliyyatların və məntiqi nəticələrin izahını vermədən riyaziyyat dərsini səmərəli təşkil etmək mümkün deyildir.

XIX əsrin axırlarından başlayaraq G.Kantor tərəfindən əsası qoyulmuş çoxluqlar nəzəriyyəsi riyaziyyatın nəzəri-çoxluq əsasında öyrənilməsi üçün zəmin yaratmışdı. Müasir riyaziyyat çoxluqlar nəzəriyyəsi əsasında öyrənilir. Lakin bu nəzəriyyənin özü məntiqin qanunlarından istifadə edir. Çoxluqlar nəzəriyyəsinin qurulmasında müxtəlif məntiqi mülahizələrdən istifadə edilir ki, bu da mülahizələr məntiqinin həmin nəzəriyyə üçün ilkin məntiqi sistem olduğunu göstərir. Deməli, riyaziyyatın öyrədilməsi və öyrənilməsi üçün riyazi məntiqin qanunları bilmək zəruridir. Bu səbəbdən də müəllimlərin məntiq qanunlarını, mülahizələr məntiqini və çoxluqlar nəzəriyyəsini öyrənmələri çox mühümdür. Bu da ilk növbədə proqramda nəzərdə tutulan mövzuları daha səmərəli şəkildə öyrətməyə imkan yaradır. Mövzunu eyni tipli çoxlu çalışmalar həll etməklə deyil, çalışmanı daha əlverişli və qısa yolla həll etməklə daha tez mənimsəmək olur. Bu isə öz növbəsində riyaziyyatın tədrisi metodikasını təkmilləşdirərək, dərs prosesini maraqlı edir və həmçinin dərsin vaxtından qənaətlə istifadə edilməsinə şərait yaradır.

# HƏR İKİ TƏRƏFİNİN FƏRQİNİN İŞARƏSİNİ TƏYİNETMƏ YOLU VƏ QİYMƏTLƏNDİRMƏ ÜSULU İLƏ BƏRABƏRSİZLİKLƏRİN İSBATI

**Rəşid Qasımov**
**dosent**
**Mirsadiq Əsgərov**
**magistrant**
**Lənkəran Dövlət Universiteti**
**resid5757@mail.ru**
**esgerovmirsadiq@gmail.com**

**Açar sözlər**: bərabərsizlik, üçbucaq bərabərsizliyi, Koşi bərabərsizliyi, eynigüclülük, isbat

Bərabərsizlikləri isbat etmək ona daxil olan hərflərin, bərabərsizliyin təyin oblastından götürülmüş qiymətlərində doğru olduğunu göstərmək deməkdir. Bərabərsizliklərin isbatı onun xassələri nəzərə alınmaqla müxtəlif üsullarla yerinə yetirilir. Bərabərsizliklərin isbatında istifadə olunan əsas üsullar aşağıdakılardır:

a) Eynigüclülük xassələrinə əməl etməklə isbat ediləcək bərabərsizlik çevirmələrin köməyi ilə aşkar bərabərsizliyə gətirilir;

b) Eynigüclülük xassələrinə əməl etməklə aşkar və ya məlum bərabərsizlikdən, isbat ediləcək bərabərsizlik alınır;

c) Yuxarıdakı iki üsulun eyni zamanda tətbiqi, yəni məlum və verilən bərabərsizliklərin çevrilməsi nəticəsində aşkar bərabərsizliyə gətirilir.

Bu işdə orta məktəbin VII-IX siniflərində öyrənilən bərabərsizliklərin isbatının istifadə olunan üsullardan ikisindən-bərabərsizliklərin onun tərəfinin fərqinin işarəsini təyin etmə və qiymətləndirmə üsullarından istifadə olunmuşdur.

Bərabərsizliyin isbatının onun tərəflərinin fərqinin işarəsini təyin etmə üsulu, başqa sözlə bərabərsizliyin tərifinin köməyi ilə isbat üsulu adlanır. Tərifə görə $A-B>0$ olarsa, yəni bu fərq müsbət ədəd olarsa, onda $A>B$ olar. Buna görə də $a,b,\cdots,k$ qiymətlərinin verildiyi çoxluqda $f(a,b,\cdots,k)>g(a,b,\cdots k)$ bərabərsizliyini isbat etmək üçün $f(a,b,\cdots,k)-g(a,b,\cdots k)$ fərqini qurub, verilən $a,b,\cdots,k$ qiymətlərində bu fərqin müsbət olmasına əmin olmaq kifayətdir. Koşi bərabərsizliyi və bəzi digər bu tip bərabərsizliklər yalnız bu üsulla isbat olunur. Bu üsulu tətbiq edərkən ilk öncə müəyyən çevirmələr aparmaq22 lazımdır. Bu üsulun tətbiqinə dair bir neçə nümunə göstərək.

Misal 1. $\forall a,b>0$ olduqda $4(a^3+b^3)\geq(a+b)^3$ bərabərsizliyinin doğru olduğunu isbat edin.

İsbatı. Bu bərabərsizliyi isbat etmək üçün $4(a^3+b^3)-(a+b)^3$ ifadəsinə baxaq. Əvvəlcə bu ifadəni çevirək.

$$4(a^3+b^3)-(a+b)^3=4(a+b)(a^2-ab+b^2)-(a+b)(a^2+2ab+b^2)=$$
$$=(a+b)(4a^2-4ab+4b^2-a^2-2ab-b^2)=(a+b)(3a^2-6ab+3b^2)=3(a+b)(a-b)^2.$$

Şərtə görə $a>0$, $b>0$ olduğundan $a+b>0$ olar. $(a-b)^2\geq 0$ məlum doğru bərabərsizlik olduğundan $3(a+b)(a-b)^2\geq 0$ doğru olar. Beləliklə, isbat etdik ki, $4(a^3+b^3)\geq(a+b)^3$.

Misal 2. $a+b+c\geq 0$ olduqda $a^3+b^3+c^3\geq 3abc$ bərabərsizliyinin doğruluğunu isbat edin.

İsbatı. Bu bərabərsizliyi isbat etmək üçün $a^3+b^3+c^3-3abc$ ifadəsinə baxaq. Əvvəlcə bu ifadəni çevirək.

$$a^3+b^3+c^3-3abc=(a^3+3a^2b+3ab^2+b^3)+c^2-3a^2b-3ab^2-3abc=$$
$$=(a+b)^3-3ab(a+b+c)+c^3=(a+b+c)((a+b)^2-c(a+b)+c^2)-3ab(a+b+c)=$$
$$=(a+b+c)(a^2+2ab+b^2-ac-bc+c^2-3ab)=(a+b+c)(a^2+b^2+c^2-ab-ac-bc)=$$
$$=\frac{1}{2}(a+b+c)(2a^2+2b^2+2c^2-2ab-2ac-2bc)=$$
$$=\frac{1}{2}(a+b+c)((a-b)^2+(a-c)^2+(b-c)^2)\geq 0.$$

$a+b+c\geq 0, (a-b)^2\geq 0, (a-c)^2\geq 0, (b-c)^2\geq 0$ olduğundan

$(a-b)^2+(a-c)^2+(b-c)^2\geq 0$ olar. Bu bərabərsizliklərin doğruluğundan

$a^3+b^3+c^3\geq 3abc$ bərabərsizliyinin doğruluğu alırıq.

Müxtəlif funksiyalar daxil olan bir çox bərabərsizliklərin isbatı zamanı ifadənin yuxarı və ya aşağı qiymətini bilməyin xüsusi rolu vardır. Ona görə də bəzi bərabərsizliklərin isbatında qiymətləndirmə üsulundan istifadə olunur. Belə qiymətlərin tapılmasının xüsusi bir universal üsulu yoxdur, lakin belə qiymətlərin tapılması yaradıcı işdir, evrestikadır. Qiymətləndirmə üsulu yalnız hazır bərabərsizliklərin isbatında tətbiq olunmur, eyni zamanda doğru bərabərsizliyi sərbəst təyin edən zaman ədədi ifadələrin müqayisəsində də bu üsuldan istifadə olunur.

Misal 3. $a^2+b^2=1$, $c^2+d^2=1$ şərtini ödəyən istənilən $a,b,c,d$ həqiqi ədədləri üçün $|ac-bd|\leq 1$ bərabərsizliyinin ödənildiyini isbat edin.

İsbatı. Əvvəlcə məlum $(a+c)^2+(b-d)^2\geq 0$ və ya

$a^2+b^2+c^2+d^2+2(ac-bd)\geq 0$ bərabərsizliyinə baxaq. Şərtə görə

$a^2+b^2+c^2+d^2=2$ olduğundan, sonuncu bərabərsizlikdə bu qiyməti nəzərə alsaq

$$ac-bd\geq -1 \qquad (1)$$

olar. Eyni qayda ilə $(a-c)^2+(b+d)^2\geq 0$ bərabərsizliyindən alırıq ki, $bd-ac\geq -1$ və ya

$$ac-bd\leq 1 \qquad (2)$$

(1) və (2) bərabərsizliklərini birləşdirsək, $|ac-bd|\leq 1$ alarıq.

# X-XI SİNİFLƏR ÜZRƏ İNFORMATİKA DƏRSLƏRİNDƏ DİSTANT TƏLİMİN MODELİ

**Səlimə Mirzəyeva**
**dosent**
**Mailə Hüseynzadə**
**magistrant**
**Lənkəran Dövlət Universiteti**
**mirzayeva_salima@mail.ru**
**mayila.husseyni@mail.ru**

**Açar sözlər:** distant təhsil, onlayn təhsil, Skype proqramı, telekonfrans, Google Hangouts

X sinif dərsliyində distant formada tədris üçün ən uyğun mövzulardan biri telekonfrans mövzusudur. Telekonfrans hansısa bir mövzu haqqında onlayn formada təşkil olunmuş informasiya mübadiləsi prosesidir. Bu prosesin təşkil olunmasını aparıcı həyata keçirir, o iştirakçıları konfransa dəvət etmək, dili seçmək, konfransa yekun vurmaq kimi vacib işləri həyata keçirir. Distant formada bu mövzunun tədrisi zamanı şagirdlərlə telekonfrans təşkil edərək şagirdlərin mövzunu daha yaxşı mənimsəməsinə imkan yaratmış olarıq. Telekonfransların təşkili üçün çox sayda proqramlar vardır ki, bunlardan ən məşhurları Skype, TrueConf, Cisco TelePresence**,** GoToMeeting, Google Hangouts proqramlarıdır. Məsələn, biz şagirdlərlə internet üzərindən skype proqramı vastəsi ilə telekonfrans təşkil edə bilərik.

Bunun üçün ilk növbədə konfrans iştirakçıları skype proqramını endirib, quraşdırmalıdır. Bu addımlar ardıcıl olaraq şagirdlərə göstərilir. Onlara birinci www.skype.com saytına daxil olaraq, downland menyusunu açmaq daha sonra isə işlədiyimiz qurğunun növünü seçərək "get sykpe for windows" istifadə edib, faylı endirmək tapşırılır. Bu zaman fayl yüklənən fayllar qovluğuna köçürülmüş olacaq. Bura daxil olaraq "run" düyməsi çıqqıldadanda ekran açılacaq və sorğular görünəcək. Həmin sorğuları cavablandırdıqdan sonra proqram quraşdırılması başa çatacaq.

Skype programı internet üzərindən qurğular arasında müxtəlif tipli əlaqələri təmin edən proqramlardan biridir. Burada əlaqə mətn, səs, video formasında təşkil ola bilər. Onu da qeyd edək ki, bu proqram ödənişsizdir və ilk versiyası 2003-cü ildə hazırlanmışdır.

Şagirdlərlə konfrans təşkil edərkən əməl olunmalı etik qaydaları tətbiq etməklə səhvi etiraf etməyi bacarığı, yoldaşların və konfrans iştirakçılarının fikrinə razılaşmadıqda belə hörmətlə yanaşmağı, fikri ifadə edərkən dəlillərə əsaslanmağı, mənasız gedən söhbətləri dayandırmağı bacarmaq, o cümlədən məlumatın qısa olmağı və haqqında danışılan mövzuya müvafiq olmağı kimi qaydalar öyrədilir.

XI sinifdə tədris olunan mövzuların çoxunun onlayn şəkildə keçirilməsi olduqca əlverişlidir. Həmin mövzulardan biri idarəetmə panelidir. Şagird telefonun və ya komputerinin idarəetmə paneli üzərində mövzunu olduqca yaxşı mənimsəyə bilər. Dərs prosesində əvvəlcə onlara motivasiya üçün bir neçə sual verilə bilər. Məsələn, şagirdlərə mobil telefonunun və ya televizorun hansı parametrlərini dəyişməyi haqqında sual ünvanlaya bilərik.

İnsanların çoxunda belə bir düşüncə formalaşmışdır ki, ƏS parametrlərinin dəyişdirilməsini yalnız bu sahədə çalışan təcrübəli işçilər həyata keçirə bilər, digərləri bunu həyata keçirə bilməz. Əslində isə heçnə belə deyil, çünki, parametrləri tənzimləmədən komputer, telefon və s. istifadə etmək mümkünsüzdür. Komputerdə tənzimləmələr etmək üçün idarəetmə panelindən istifadə olunur. Burada sadələşdirilmiş formada fərqli

komponentləri tənzimləmək üçün qruplaşdırmalar aparılmışdır. Aparılan qruplaşdırmalar sayəsində biz tənzimləmək istədiyimiz hissəni asanlıqla tapa bilərik. Aşağıdakı şəkildən göründüyü kimi, həmin komponentlərə saat, dil və bölgə, internet və şəbəkə, erişim asanlığı, fərdiləşdirmə və görünüş, istifadəçi hesabları, proqramlar, sistem və təhlükəsizlik və s. daxildir.

Adından məlum olduğu kimi saat, dil və bölgə tənzimləmələrində tarix, saat qurşağı, istifadə edəcəyimiz dilin və s. tənzimlənməsi həyata keçirilir. Erişim asanlığı, hərəkəti məhdud, görmə və eşitmə əngəlli şəxslərə yardım etmək üçün, görünüş və fərdiləşdirmə isə müxtəlif menyuların xarici görünüşünün tənzimləmələri üçün nəzərdə tutulmuşdur. System and security bölümü ən diqqətlə davranmalı olduğumuz tənzimləmələrdir çünki, dəyişiklik olan halda ƏS-nin işləmək qabiliyyətinə anidən təsir göstərə bilər. Network and internet tənzimləmələri qlobal şəbəkəyə qoşulma kimi tənzimləmələri həyata keçirir. Proqramlar bölümündə quraşdırılan proqramları, həmçinin ƏS-nin bəzi komponentlərini dəyişdirə və ya uzaqlaşdıra bilərik. Bundan başqa hava proqnozu kimi kiçik tətbiqi proqramların əks etdirilməsini burada tənzimləyə bilərik. User Accounts and Family Safety bölümündə istifadə edilən hesabı uzaqlaşdıra, yeni hesab əlavə edə, o cümlədən valideyn nəzarəti quraşdıra bilərik. Hardware and sound bölməsində kompüterin qurğularını nəzərdən keçirə və tənzimləmələr apara bilərik. Bundan başqa burada elektrik enerjisinə qənaət parametrlərində də dəyişikliklər edə bilərik.

Control Panel-də bütün bu sadaladığımız tənzimləmələri dərsin distant formada təşkili zamanı ekran paylaşma funksiyasından istifadə edərək, şagirdlərə əyani şəkildə göstərərək izah edə bilərik. Şagirdlər də həmin tənzimləmələri özləri fərdi şəkildə həyata keçirərək, mövzunu daha dərindən mənimsəyə biləcəklər.



# MATATALAB ROBOT TEXNİKASI DƏSTİNİN İMKANLARININ TƏHLİLİ

**Vahab Həbibov**
**dosent**
**Xəyalə Mehsumzadə**
**magistrant**
**Lənkəran Dövlət Universiteti**
**vahab.hebibov@mail.ru**
**mehsumzadexeyale@gmail.com**

**Açar sözlər:** matatalab robot texnikası, kodlaşdırma bacarıqları, interaktiv öyrənmə, yaradıcılığın inkişafı, fiziki və abstrakt düşüncə, proqramlaşdırma, robotların qurulması

Matatalab robot texnikası dəsti, uşaqlara kodlaşdırma bununla yanaşı robot texnikası sahəsində təməl biliklərə yiyələnmək üçün nəzərdə tutulmuş interaktiv oyuncaqlardır. Matatalab robot texnikası dəstinin aşağıdakı bacarıqları vardır:

1. Kodlaşdırma bacarıqları: Şagirdlər, vizual kodlaşdırma vasitəsilə robotları proqramlaşdıra bilərlər, bu da onların məntiqi düşünmə bacarıqlarını inkişaf etdirir.
2. Əl ilə icra: Dəst, müxtəlif hissələrdən ibarətdir, şagirdlər bu hissələri bir araya gətirərək öz robotlarını yarada bilərlər.
3. Kooperativ oyun: Matatalab robot texnikası dəsti şagirdlərin komanda şəklində işləyə bilmək bacarıqlarını inkişaf etdirir.
4. İnteraktiv öyrənmə: Şagirdlər, robotları idarə edərək eyni zamanda tapşırıqları icra edərək praktiki təcrübə əldə etmiş olurlar.
5. Müxtəlif aktivliklər: Matatalab dəsti şagirdlərin marağını artıra biləcək müxtəlif oyun və layihələr təqdim edir.
6. Kreativlik və innovasiya: Şagirdlər öz robotlarını yaradır bununla yanaşı qeyri-adi layihələr həyata keçirərək yaradıcılıqlarını inkişaf etdirə bilərlər.
7. Fiziki və bstrakt düşüncə: Robotların qurulması və proqramlaşdırılması, həm fiziki düşüncə (hissələri birləşdirmək) həm də abstrakt düşüncə (kod yazmaq) qabiliyyətlərini artırır.
8.Müxtəlif çətinlik səviyyələri: Dəst, müxtəlif yaş qruplarına uyğun çətinlik səviyyələri təqdim edir, bu da şagirdlərin bilik və bacarıqlarını inkişaf etdirmək üçün idealdır.
9. İnkişaf etmiş sensorlar: Bəzi robot dəstlərdə sensorlar və eyni zamanda digər elektron komponentlər də var. Bu da şagirdlərə müasir texnologiyalarla tanış olmağa daha çox imkan yaradır.
10.Təhsil resursları: Matatalab, müəllimlər və şagirdlər üçün dərsliklər, videolar və digər resurslar təqdim edir, bu da robot dəstindən istifadə qaydalarını öyrənmə prosesini dahada asanlaşdırır.

Bu imkanlar sayəsində Matatalab robot texnikası dəsti, STEM (elmi, texnoloji, mühəndislik və riyaziyyat) sahəsində erkən yaşda öyrənmə üçün mükəmməl bir vasitədir. Matatalab robot texnikası dəsti, şagirdlərin yaradıcılıq, məntiqi bacarıqlarını və müasir texnologiyalarla tanış olmalarını təmin edən əyləncəli və eyni zamanda elmi vasitədir. Müxtəlif çətinlik səviyyələri və çoxlu təhsil resursları ilə bu dəst, şagirdlərin mühəndislik və eyni zamanda proqramlaşdırma sahələrində inkişaf etməsinə dəstək olur. Nəticədə, bu, onların gələcəkdə texnologiyaya olan marağını artıraraq, innovativ düşüncə qabiliyyətlərini formalaşdırır.

# AVTOMATLAŞDIRILMIŞ ÇEVİK İNFORMASİYA SİSTEMLƏRİNİN ÇEVİKLİYİ

**Vahab Həbibov**
**dosent**
**Sənani Teymurlu**
**magistrant**
**Lənkəran Dövlət Universiteti**
**vahab.hebibov@mail.ru**
**sanani.teymurlu@gmail.com**

**Açar sözlər:** çevik informasiya, inteqrasiya, modularlıq, səmərəlilik, risk idarəetməsi

Avtomatlaşdırılmış Çevik İnformasiya Sistemlərinin(AİS) çevikliyi, sistemlərin çevikliyi və müasir tələblərə adaptasiya olunma qabiliyyəti ilə bağlıdır. Bu sistemlər, istifadəçilərin və müştərilərin tələblərinə tez cavab verə bilmək, dəyişiklikləri asanlıqla qəbul etmək və dəyişən şəraitə uyğunlaşmaq üçün dizayn edilir. Avtomatlaşdırılmış Çevik İnformasiya Sistemlərinin əsas xüsusiyyətləri aşağıdakılardır:

1. İnteqrasiya: Müxtəlif sistemlərin bir-biri ilə inteqrasiya oluna bilməsi, məlumat mübadiləsini asanlaşdırır və çevikliyi artırır.
2. Dəyişkənlik: Sistemlərin tez bir zamanda yeni funksiyalarla genişləndirilə bilməsi, onları daha çevik edir.
3. Modularlıq: Sistemlərin modullara bölünməsi, onların asanlıqla dəyişdirilməsini və genişləndirilməsini təmin edir.
4. İstifadəçi Mərkəzli Dizayn: İstifadəçilərin ehtiyaclarına və rəylərinə əsaslanan dizayn, sistemin daha effektiv olmasını təmin edir.
5. Avtomatlaşdırma: İdarəetmə proseslərinin avtomatlaşdırılması, insan səhvlərini azaldır və iş proseslərini sürətləndirir.
6. Real Zamanlı Məlumat: Avtomatlaşdırılmış sistemlərin real zamanlı məlumat emalı, sürətli qərar qəbul etməyə imkan tanıyır.

Avtomatlaşdırılmış Çevik İnformasiya Sistemlərinin üstünlükləri aşağıdakılardır**:**

- Səmərəlilik: Resurslardan daha səmərəli istifadə imkanı.
- Risk idarəetməsi: Dəyişikliklərə tez reaksiya vermək, riskləri azaldır.
- Sürətli adaptasiya: Müxtəlif bazar şərtlərinə sürətlə uyğunlaşa bilmək.
- Müştəri məmnuniyyəti: İstifadəçi tələblərinə tez cavab vermə, müştəri məmnuniyyətini artırır.

Çevik İnformasiya Sistemlərinin Tətbiqi:

Avtomatlaşdırılmış çevik informasiya sistemlərinin tətbiqi müxtəlif sahələrdə geniş yer alır. Bu sistemlərin effektivliyini artırmaq üçün aşağıdakı sahələrdə istifadəsi xüsusilə diqqətə layiqdir:

1. İstehsalat: Avtomatlaşdırılmış sistemlər istehsal proseslərinin optimallaşdırılmasına, istehsal xətləri arasında məlumat axınının artırılmasına və məhsulun keyfiyyətinin yüksəldilməsinə kömək edir.
2. Maliyyə və iqtisadiyyat: Müxtəlif maliyyə əməliyyatlarının avtomatlaşdırılması, sürətli və dəqiq hesabatların hazırlanmasını, risklərin idarə olunmasını təmin edir.
3. Sağlamlıq: Tibb müəssisələrində məlumatların avtomatlaşdırılması, xəstə məlumatlarının daha sürətli və effektiv idarə olunmasına, müalicə proseslərinin yaxşılaşdırılmasına imkan tanıyır.

4. Ticarət: E-ticarət platformalarında müştəri davranışlarının analizi, təkliflərin fərdiləşdirilməsi və müştəri xidməti proseslərinin avtomatlaşdırılması müştəri məmnuniyyətini artırır.
5. Təhsil: Təhsil sistemlərində çevik informasiya sistemləri, tələbələrin məlumatlarına asanlıqla çıxış imkanı tanıyır, e-öyrənmə platformalarının inkişafını təmin edir.

Nəticə: Avtomatlaşdırılmış çevik informasiya sistemləri, müasir iş mühitində müvəffəqiyyət üçün kritik bir rol oynayır. Çevikliyi artıraraq, təşkilatların bazar tələblərinə və müştəri ehtiyaclarına uyğunlaşmasına kömək edir. Bu, müasir informasiya sistemlərinin dizaynında və inkişafında önəmli bir prinsiplərdən biridir. Avtomatlaşdırılmış çevik informasiya sistemləri, müasir iş mühitinin tələblərinə cavab vermək üçün əvəzsiz bir alətdir. Onların səmərəli tətbiqi, təşkilatların bazar dinamikasına uyğunlaşmasını, müştəri məmnuniyyətini artırmasını və ümumi iş səmərəliliyini yüksəltməsini təmin edir. Çevik yanaşmanın tətbiqi, sistemlərin daha dayanıqlı və adaptiv olmasına kömək edərək, təşkilatların gələcəkdəki uğurlarına zəmin yaradır.

## "AQRAR VƏ İQTİSADİYYAT ELMLƏRİ" BÖLMƏSİ

# TÜRK DÖVLƏTLƏRİNİN İNVESTİSİYA İMKANLARI

**Almas Həmidova**
**İqtisad üzrə fəlsəfə doktoru**
**Sumqayıt Dövlət Universiteti**
**almashamidova@mail.ru**

**Açar sözlər:** Türk dünyası dövlətləri, investisiya, iqtisadi inkişaf

Türk dövlətlərinin investisiya imkanlarını araşdırmaq üçün əvvəlcə həmin ölkələrin ayrı-ayrılıqda iqtisadi inkişaf göstəriciləri ilə tanış olmaq lazım gəlir. Daha sonra həmin ölkələrdə investisiya yatırımları üçün cəlbedici sahə, yaxud sektorlar və mövcud imkanları dəyərləndirmək mümkündür. Əsasən Türkiyə, Azərbaycan, Qazaxıstan, Türkmənistan, Özbəkistan və Qırğızıstanın investisiya imkanları bu tezisdə araşdırılmışdır.

Bildiyimiz kimi, Türk dövlətləri içində ən inkişaf etmiş iqtisadiyyata sahib olan ölkə Türkiyədir. Türkiyə öz iqtisadi inkişaf səviyyəsi, xidmət və sənaye sahələri, eyni zamanda xarici kapital üçün əlverişli mövqeyi olan Türk dövlətlərindən biridir. Türkiyə böyük sənaye potensialına malikdir. 2023-cü ildə bu ölkənin ümumi daxili məhsulu təxminən 900 milyard dollara bərabər olmuşdur. İqtisadiyyatın strukturuna baxdıqda ən çox xidmət sektorunun (təxminən 60%) payına düşdüyü görünür. ÜDM-in strukturunda sənayenin payı - 30%, kənd təsərrüfatı isə 10% paya malikdir. Son dövrlərdə Türkiyə iqtisadiyyatında bərpa olunan enerji mənbələri sahələrinin inkişafına böyük miqdarda investisiyalar yatırılmaqdadır. Bu sahədə günəş və külək enerjisi xüsusilə seçilir. Bundan əlavə onu da qeyd etmək lazımdır ki, Türkiyədə infrastruktur və logistika layihələrinə investorların marağı son illərdə artmaqdadır. Texnologiya və startapların sürətli inkişafını nəzərdən qaçırmaq olmaz.

Azərbaycanda əsasən 1994-cü ildən başlayaraq neft-qaz sənayesinə böyük həcmdə investisiyalar yatırılmışdır, hazırda qeyri neft-qaz sektoru üzrə iqtisadiyyatın diversifikasiyalaşdırılması istiqamətində səylər göstərilir. Azərbaycanda kənd təsərrüfatı, infrastruktur və texnologiya sahələrində əlverişli investisiya cəlb etmək imkanları mövcuddur. Azərbaycan iqtisadiyyatında neft-qaz sektorundan əlavə, kənd təsərrüfatı və turizmin inkişafı üçün əlverişli imkanlar vardır. Əsasən aqrobiznes və turizmin bir sıra növlərinin ölkədə inkişaf etdirilməsi üçün dövlət dəstəyi ilə yanaşı, investisiya cəlb ediciliyini də artırmaq lazımdır.

Qazaxıstan Orta Asiyada ən böyük iqtisadi inkişafa malik olan ölkə kimi Türk dünyası ölkələri arasında öz enerji sektoru, kənd təsərrüfatı, mədənçilik və logistik imkanları ilə seçilir. Belə ki, 2023-cü ildə Qazaxıstanda ümumi daxili məhsul 250 milyard dolları keçmişdir. Bu ölkə neft və kömür ehtiyatına görə Türk dövlətləri içərisində birinci yeri tutur. Bu baxımdan mədənçilik sahəsində xarici investisiya üçün böyük imkanlara sahibdir. Qazaxıstanda kənd təsərrüfatında əsas ixtisaslaşmış sahə taxılçılıq olmasına baxmayaraq, eyni zamanda burda günəbaxan, şəkər çuğunduru, tütün və pambıq da əkilir. Bu sahədə yeni texnologiyalara investisiya yatırılması ilə məhsuldarlığı yüksəltmək mümkündür. Dünyada sahəsinə görə 9-cu yerdə olan Qazaxıstanda nəqliyyat sektorunda yükdaşımalarda həcminə görə dəmiryolunun mühüm rol oynadığını görmək olar. Qazaxıstan Sakit okeana çıxışı Çindən çəkilən dəmiryolu vasitəsilə əldə etmişdir. Yeni nəqliyyat dəhlizləri regional ticarətin mərkəzi olmaq imkanını daha da artıra bilər.

Özbəkistan Türk dövlətləri arasında qızıl və uran ehtiyatına görə birinci yeri tutur. Son illərdə bu ölkədə davamlı iqtisadi islahatlar həyata keçirilməkdədir. Ölkənin iqtisadi inkişafına təkan verən sahələr çoxşaxəli yüngül sənaye, kənd təsərrüfatı və enerji sahələridir. Türk dünyasında pambıq yığımına görə Özbəkistan birinciliyi ilə seçiılir. Bu ölkənin toxuculuq sənayesindəki üstünlükləri xarici investorlar üçün cəlbedicidir. Bununla yanaşı, Özbəkistanda su elektrik stansiyası və günəş enerjisi potensialı geniş imkanlara sahibdir.

Qaz ehtiyatına görə Türkmənistan Türk dövlətləri içərisində birinci yeri tutur. Qaz sektorunun inkişafında infrastruktur və digər iri layihələr böyük investisiya imkanları yaradır. Qırğızıstan aqrar-sənaye ölkəsi kimi Türk dövlətləri içində seçilir. Bu ölkədə əsas iqtisadi sahələrə kənd təsərrüfatı, turizm (xüsusilə İssuk-Kul gölü) və mədənçilik sənayesini aid etmək olar. Dağlıq regionda yerləşən Qırğızıstanda dağarası çökəkliklərdə kömür ehtiyatları və neft yataqları vardır. Hidrotexnika sahəsində və yuxarıda qeyd edilən sahələrdə investiya imkanları mövcuddur.

Nəticə olaraq qeyd edə bilərik ki, Türk dünyasında son illərdə böyük iqtisadi inkişaf və yüksəliş sürətlənmiş, investorlar üçün cəlbedici region formalaşmışdır. Bu regionda investorların diqqətini cəlb edən əlverişli məqamlar vardır ki, bunlardan ilk növbədə Türk dövlətlərində inkişaf etmiş ölkələrə nisbətən ucuz işçi qüvvəsinin olmasını qeyd etmək olar. Bundan əlavə bu ölkələr yuxarıda qeyd edildiyi kimi, bir sıra enerji, xammal və resurs potensialı ilə zəngindir. İnvestorlar üçün cəlbedici məqamlardan biri də Türk dünyasının böyük bazar payına sahib olması ilə əlaqədardır. Belə ki, Türk dünyasında təxminən 200 milyon əhali yaşayır. Xarici investorları cəlb etmək üçün bəzi türk dövlətləri (Azərbaycan, Türkiyə, Qazaxıstan) bir sıra təşviq və vergi güzəştləri tətbiq edirlər. Türk dövlətləri arasında bir sıra azad ticarət sazişlərini də qeyd etmək lazımdır. Bu amil də xarici investorların bu ölkələrə investisiya yatırımlarını artırmağa təşviq edir.

**BEYNƏLXALQ TƏCRÜBƏNİN TURİZMDƏ TƏTBİQİ İMKANLARI**

**Aytəkin Əfəndiyeva**
**dosent**
**Ayşə Fərəcli**
**magistrant**
**Lənkəran Dövlət Universiteti**
**aytek@mail.ru**
**aysafaracli2002@gmail.com**

**Açar sözlər:** beynəlxalq turizm, effektiv inkişaf, rəqabət qabiliyyətlilik

Turizm, qlobal iqtisadiyyatda önəmli sahələrdən biri olaraq, ölkələrin iqtisadi inkişafında və mədəni əlaqələrin gücləndirilməsində böyük rol oynayır. Beynəlxalq təcrübələrdən yararlanmaq, turizmin daha effektiv inkişafını təmin etmək üçün vacibdir. Azərbaycanda da turizmin inkişafı istiqamətində beynəlxalq təcrübələrin tətbiqi ölkənin rəqabət qabiliyyətini artırmaq üçün mühüm amillərdən biri ola bilər. Bu tezisdə marketinq, infrastruktur, davamlı turizm və kadr hazırlığı kimi əsas istiqamətlər üzrə beynəlxalq təcrübələrin Azərbaycanda turizm sektoruna tətbiq imkanları araşdırılacaq.

Bir çox ölkələr beynəlxalq turizm bazarında özlərini tanıtmaq üçün güclü marketinq strategiyalarından istifadə edirlər. Turizm sektorunda uğur qazanmış ölkələrin təcrübələrinə nəzər saldıqda, onların effektiv marketinq kampaniyalarının və unikal turizm brendlərinin ön plana çıxdığını görürük. Məsələn, İspaniya "España es Cultura" kampaniyası ilə ölkənin mədəniyyəti, tarixi və təbii sərvətlərini dünya miqyasında tanıdır. Yunanıstan isə öz turizm strategiyasında tarix və mədəni irs amilinə diqqət yetirir.

Azərbaycan da bu təcrübələrdən faydalanaraq, öz turizm brendini formalaşdırmaq üçün addımlar ata bilər. Xəzər dənizi sahilləri, qədim tarixi abidələr və zəngin mədəniyyət Azərbaycanın turizm marketinqində cəlbedici elementlər kimi istifadə oluna bilər. Rəqəmsal marketinq və sosial media platformalarından istifadə edərək ölkənin turizm potensialını dünya miqyasında tanıtmaq mümkündür. Bu baxımdan, beynəlxalq turizm sərgilərində iştirak etmək və ölkənin turizm brendini qlobal arenada gücləndirmək üçün beynəlxalq səviyyəli marketinq strategiyaları tətbiq olunmalıdır. Azarbaycanda turizmin daha dinamik inkişafı üçün ölkəmizin əlverişli coğrafi - strateji mövqeyi, münbit şəraiti və zəngin təbii-iqtisadi resurs ehtiyatlarına sahib olmasi asas şərtlərdən biridir.

Beynəlxalq turizm təcrübələrində ən mühüm amillərdən biri inkişaf etmiş turizm infrastrukturudur. Bir çox ölkələr müasir nəqliyyat, otellər, restoranlar və əyləncə obyektləri inşa etməklə turistlər üçün cəlbedici şərait yaradırlar. Məsələn, Birləşmiş Ərəb Əmirlikləri (BƏƏ) və Sinqapur, inkişaf etmiş infrastruktur vasitəsilə qlobal turizm mərkəzlərinə çevrilmişdir. BƏƏ-də turistlər üçün müasir hava limanları, dünyanın ən məşhur otelləri və unikal turizm obyektləri yaradılmışdır ki, bu da ölkənin dünya turizm bazarında güclü mövqeyə sahib olmasına səbəb olmuşdur.

Azərbaycan da bu təcrübələrdən bəhrələnərək turizm infrastrukturunu gücləndirə bilər. Bakıda və regionlarda müasir otellərin, nəqliyyat şəbəkələrinin və turizm obyektlərinin inkişafı turizmin genişlənməsinə təkan verə bilər. Eyni zamanda, regionlarda ekoturizm və kənd turizminin inkişafı üçün infrastruktur layihələri həyata keçirilə bilər. Azərbaycanın turizm potensialını artırmaq üçün beynəlxalq investorlar cəlb edilməli və müasir turizm infrastrukturu yaradılmalıdır.

Son illərdə turizm sahəsində davamlı inkişaf və ekoturizm konsepsiyaları daha çox ön plana çıxır. Beynəlxalq təcrübələr göstərir ki, təbii resursların qorunması və yerli icmaların

rifahının yüksəldilməsi üçün davamlı turizm strategiyalarının tətbiqi vacibdir. Skandinaviya ölkələri, xüsusilə Norveç, ekoturizm sahəsində qabaqcıl təcrübələrə sahibdir. Bu ölkələrdə ekoloji cəhətdən məsuliyyətli turizm layihələri həyata keçirilir, təbiətin qorunması və yerli əhalinin iştirakını təmin edən turizm modelləri tətbiq olunur.

Azərbaycan da öz təbii sərvətlərindən, dağlıq ərazilərindən və milli parklarından istifadə edərək ekoturizm sahəsində beynəlxalq təcrübələrdən faydalana bilər. Məsələn, Azərbaycanın Şahdağ, Göygöl və Hirkan kimi milli parkları, davamlı turizm layihələri üçün böyük potensial təqdim edir. Yerli icmaların turizm sektoruna cəlb olunması, təbiətin qorunması və turistlər üçün ekoloji cəhətdən məsuliyyətli xidmətlərin göstərilməsi ilə Azərbaycanın ekoturizm potensialı gücləndirilə bilər.

Turizm sektorunun inkişafı üçün peşəkar kadrların hazırlanması və insan resurslarının təkmilləşdirilməsi mühüm əhəmiyyət kəsb edir. Beynəlxalq təcrübədə turizm sektorunda çalışan kadrların peşəkar hazırlığı, xidmət keyfiyyətinin yüksəlməsinə və turist məmnuniyyətinin artırılmasına töhfə verir. Məsələn, Fransa və İtaliya kimi ölkələrdə turizm sektorunda çalışan işçilərin təlimləri və ixtisas artırma kursları sistematik şəkildə həyata keçirilir.

Azərbaycanda beynəlxalq turizm təlim proqramlarından istifadə edərək kadrların hazırlığını gücləndirə bilər. Turizm sektorunda çalışan işçilərin müasir beynəlxalq standartlara uyğun təlimlərdən keçməsi, dil biliklərinin artırılması və xidmət sahəsində peşəkarlığın yüksəldilməsi, turistlərin məmnuniyyətini və turizm sektorunun ümumi inkişafını təmin edəcəkdir. Bununla yanaşı, turizm məktəblərinin və tədris mərkəzlərinin fəaliyyətinin gücləndirilməsi və beynəlxalq təcrübəyə əsaslanan tədris proqramlarının tətbiqi də vacibdir.

Beynəlxalq təcrübələrin Azərbaycanda turizm sektorunda tətbiqi böyük potensialı olan bir sahənin inkişafı üçün əsas şərtlərdən biridir. Marketinq strategiyalarının gücləndirilməsi, müasir infrastrukturun yaradılması, davamlı turizm və ekoturizm modellərinin tətbiqi və kadr hazırlığının təkmilləşdirilməsi Azərbaycan turizminin beynəlxalq səviyyədə rəqabət qabiliyyətini artıracaq. Bu istiqamətlər üzrə beynəlxalq təcrübələrin tətbiqi, Azərbaycanın turizm sektorunun uzunmüddətli inkişafını təmin edəcək və ölkənin iqtisadiyyatına əhəmiyyətli töhfələr verəcək.

# AZƏRBAYCAN VƏ DİGƏR TÜRK DÖVLƏTLƏRİNİN BİRGƏ İNKİŞAFINDA TURİZM SƏNAYESİNİN ROLU

**Aytəkin Əfəndiyeva**
**dosent**
**Nərgiz Məmmədzadə**
**magistrant**
**Lənkəran Dövlət Universiteti**
**aytek@mail.ru**
**memmedzadenergiz97@gmail.com**

**Açar söz:** Türk dövlətləri, turizm sənayesi, inteqrasiya

Son illər ərzində Türk dövlətləri arasında əməkdaşlıq öz səmərəliliyini sübut etmiş və Türk dünyasının yaranmasına səbəb olmuşdur. Bu gün Türk dövlətləri özünəməxsus şəkildə inkişaf edir. Türkdilli dövlətlərin başçılarının 2021-ci ildə İstanbulda keçirilən son Zirvə toplantısı tarixi dönüş nöqtəsi oldu.Türk qardaşlığı və onlar arasında olan qarşılıqlı əlaqələr olduqca güclüdür. Türk Dövlətləri Birliyinin yaradılması bu prosesi uğurla başa çatdıracaq başlıca fəaliyyət istiqamətlərindəndir. Türk respublikaları arasında siyasi-mədəni inteqrasiyanın əsasları bunlardır:

1.Türk Dövlətləri Birliyinin yaradılmasının tarixi-siyasi zərurətindən və ideya konseptuallığından çıxış edilməsi;
2. Birliyin siyasi ideologiyasının təşəkkülü;
3. İnteqrasiya proseslərinin prinsiplərinin müəyyən edilməsi;
4. Türk dövlətlərinin vahid və universal dövlətçilik ənənələrinin söykənilməsi.

Türk dünyasına inteqrasiya üçün bu gün əlverişli şərait yaranmışdır. Hazırda Türk dövlətləri arasındakı münasibətlər böyük əhəmiyyət kəsb edir. Vahid Türk dünyası artıq reallıq olsada, hələ tam tamamlanmıyıb. Tarixi keçmişi, mədəniyyət və digər oxşarlıqlar türk dövlətlərini daim birləşdirir. Bu gün verəcəyimiz siyasi qərarlar və addımlar Türk dünyasının uzun illər inteqrasiya yolunda qalıb qalmıyacağını müəyyən edəcək. Türk dövlətləri turizm məlumatlarının mübadiləsinin inkişaf etdirilməsində böyük bir təcrübəyə malikdir. Buna görə, Türk turizm şirkətləri öz məlumatlarını veb səhifələrində dərc etdirirlər və müxtəlif turizm istiqamətləri haqqında öz informativ bülletenlərini dərc edirlər. Bu bülletenlər müxtəlif dillərdə nəşr edilir. Bülletenlər qədim binaları, gözəl mənzərələri və insanların həyat tərzi fotoşəkillərini əks etdirirlər.

Bu yaxınlarda turizmi şəhərlər səviyyəsində təşviq etmək üçün “Türk Dünyası Turizm Paytaxtı” layihəsinə start verilməklə turizm sahəsində əməkdaşlıq daha da sürətlənmişdir. Digər tərəfdən, “Təbərrük Ziyorat” layihəsinin TDT dövlətlərinin müqəddəs məkanlarına turistlərin marağını artıracağı gözlənilir. Bu il, turizm nazirləri “Türk dövlətlərinin ən yaxşı turizm kəndləri” təşəbbüsünün irəli sürülməsi və turizm agentlikləri assosiasiyaları arasında əlaqələrin qurulması barədə razılığa gəliblər.

Azərbaycanın xarici siyasətinin müəyyən edilməsində Türk dünyasının gücləndirilməsi, Türk dövlətləri ilə əlaqələr əsas istiqamət kimi götürülüb. Azərbaycan Respublikasının prezidenti İlham Əliyev TÜRKPA nümayəndə heyəti ilə görüşdə qeyd etmişdir ki, “Bu ilki prezident seçkilərindən sonra andiçmə mərasimindəki çıxışımda bildirmişdim ki, bizim ailəmiz Türk dünyasıdır, bizim başqa ailəmiz yoxdur”.

Nəqliyyat əlaqələrinin qurulması və genişlənməsi Türk dünyasının birləşməsi ilə sıx bağlı olan prosesdir. Dünyada gedən qloballaşma fonunda Türk xaqlarının öz mədəniyyətini qoruması və etnik köklərini unutmaması çox vacibdir. Azərbaycan Türk Dünyası Birliyinin

gücləndirməsinə mühüm töhfələr verib. Əminliklə deyə bilərik ki, ortaq soy-kök, ortaq mədəniyyət, milli dəyərlər Türk Dövlətləri təşkilatının rolunu daha da artırır və dünyanın aparıcı beynəlxalq qurularından birinə çevrilir.

Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının 2012-ci ilin avqustunda Bişkekdə keçirilən İkinci Zirvə Görüşündə bir sıra mühüm siyasi əhəmiyyətli sənədlərlə yanaşı, humanitar sahəni əhatə edən sənədlər də qəbul edilmişdir. Həmin tədbirdə çıxış edən Qırğızıstan Respublikasının Prezidenti Almazbek Atambayev qurumun üzvü olan dövlətlər arasında əlaqələrin humanitar sahədə də dərinləşməsi istiqamətində görülən işlərdən danışmışdır. Türkiyə, Qazaxıstan, Azərbaycan dövlət və hökumət başçıları da çıxışlarında ölkələrarası münasibətlərin bir sıra vacib məsələlərini qaldırmışlar. Azərbaycan Respublikasının Baş naziri Artur Rasizadə son illərdə TDƏŞ-in üzvü olan ölkələr arasında iqtisadi əlaqələrin yüksələn xətlə inkişaf etdiyinə diqqəti yönəltmiş, cari ildə Azərbaycanın bu ölkələrlə mal dövriyyəsinin 55,5 faiz artmasını nümunə göstərmişdir. Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasında, eyni zamanda, üzv dövlətlər arasında çoxtərəfli əlaqələrin daha da vüsətlənməsi, xüsusən də mədəniyyət və təhsil sahəsində əməkdaşlıq, birgə əlifbanın və dərsliklərin, qurum çərçivəsində Türk Akademiyasının yaradılması məsələləri müzakirə olunmuşdur. Bu tarixi sammitdə Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasına üzv dövlətlərin hökumətləri arasında dörd sənəd – Türk Mədəniyyəti və İrsi Fondunun Nizamnaməsi, Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurası Katibliyinin maliyyə qaydaları və Türk Akademiyasının təsis edilməsi haqqında sazişlər və Türk Şurasının İkinci Zirvə Toplantısının "Bəyannaməsi" qəbul olunmuşdur.

# NEFT GƏLİRLƏRİNDƏN SƏMƏRƏLİ İSTİFADƏNİN DÜNYA TƏCRÜBƏSİ

**Aytəkin Əfəndiyeva**
**dosent**
**Lənkəran Dövlət Universiteti**
**aytek@mail.ru**

**Açar sözlər:** neft hasilatı, diversifikasiya, “Norveç modeli”, insan kapitalı

Tədqiq olunan işdə neft gəlirlərindən səmərəli istifadə olunmasının və iqtisadiyyatın diversifikasiyasının əhəmiyyəti araşdırılmışdır. Eyni zamanda tədqiqat nəticəsində aşkar edilmişdir ki, neftlə zəngin ölkələr uzunmüddətli iqtisadi artıma və dayanıqlı iqtisadi inkişafa nail olmaq üçün qeyri-neft sektorunu inkişaf etdirməlidir.

Hər bir milli iqtisadiyyatın və eləcə də dünya iqtisadiyyatının inkişafı iqtisadi ehtiyatlardan-istehsal amillərdən asılıdır. Təbii kapitalın ölkə iqtisadiyyatına yarada biləcəyi böyük müsbət təsir üçün enerji artımında bərpa olunan mənbələrdən artan nisbətdə istifadə edilməli, insan kapitalı, yaxşı idarəetmə və müvafiq maliyyələşmə imkanları da təmin edilməlidir. Neftlə zəngin ölkələrdə iqtisadi inkişafın müxtəlif mərhələlərində, xüsusən inkişaf etməkdə olan ölkələrində neft gəlirləri büdcə gəlirlərinin əsasını təşkil edir. Lakin bu tendensiyanın davamlı olması ölkə iqtisadiyyatı üçün riskli hesab olunur. Bu baxımdan, uzunmüddətli dövrdə neft gəlirləri hesabına sosial və iqtisadi inkişafa nail olunmalı, iqtisadi diversifikasiya aparılmalı və büdcə gəlirləri qeyri-neft sektorunun inkişafı ilə əsasən vergilər hesabına maliyyələşdirilməlidir. Bu vasitələr həm makro, həm də mikro səviyyədə iqtisadiyyata təsir göstərir.

Müasir dövrün əsas çağırışı insan kapitalının inkişafıdır. Bunu zəngin təbii sərvətləri olan Norveç təcrübəsində görmək olar. Ümumiyyətlə, “Norveç modeli” neft gəlirlərinin idarə edilməsinin ən uğurlu modelidir. Ölkədə neft sənayesi inkişaf etdirildi - neft hasilatı, neft-kimya, neft-kimya sənayesi, bir tərəfdən insan kapitalına çox əhəmiyyətli investisiyalar. Son 10 ildə neft ixracı iqtisadi artımın əsas sürücüsü olmasına baxmayaraq, bu mərhələdəki əsas problem qeyri-neft sektorunun inkişafını sürətləndirmək, eyni zamanda iqtisadiyyatın səmərəliliyini və rəqabət qabiliyyətini artırmaq, innovativ inkişafını təmin etməkdir. Başqa sözlə, ənənəvi iqtisadiyyatdan "bilik iqtisadiyyatı" na keçidi qoyulmalı və bunun üçün vacib olan insan kapitalının inkişafı ön plana çəkilməlidir.

Bunun formalaşması üçün müvafiq tələblərin qoyulması əsas şərtdir. Eyni zamanda təhsil sistemində köklü bir dəyişikliyə səbəb olan - əlavə təhsil və ömür boyu təhsil kimi komponentlərin əhəmiyyətini, virtual öyrənmə və kompüter şəbəkəsi biliklərinin rolunu artırmağı son illərin hadisələri bir daha təsdiq etdi.

Təbii sərvətlərdən əldə olunan gəlirlərin iqtisadi inkişaf baxımından optimal bölgüsü aşağıdakı kimidir:

1. İnsan kapitalının inkişafı üçün;
2. Böyük infrastruktur layihələri üçün;
3. Ölkədə əlverişli mikromaliyyə mühitinin təmin edilməsi üçün.

Davamlı və təmiz iqtisadi artım prosesi komponentlərini müəyyən etmək üçün yaradılan yeni böyümə modelləri iqtisadi məhsul artımının daha əhatəli nəzərdən keçirilməsini də təmin edir.

Tədqiqatda proqnozlaşdırılacaq və ətraf ölçüsü nəzərə alınan yeni böyümə modeli aşağıdakı kimi xarakterizə edilə bilər:

$lnY_{it}=\beta_{0,it}+\beta_{1,it}lnSCH_{it}+\beta_{2,it}lnGFCF_{it}+\beta_{3,it}lnLAB_{it}+[\beta_{4,it}lnWS_{it}+\beta_{5,it}lnFOR_{it}+\beta_{6,it}lnNREN_{it}+\beta_{7,it}lnREN_{it}+\beta_{8,it}RENT_{it}+\beta_{9,it}lnARAB_{it}+\beta_{10,it}lnPROT_{it}+\beta_{11,it}lnAGR_{it}+\beta_{12,it}lnCROP+\beta_{13,it}lnLUCP_{it}]+\varepsilon_{it}$

Y: Cari ilin ÜDM-i sabit bir dollar qiyməti il
SCH: Orta təhsildə təhsil alan tələbələrin toplama dərəcəsi
GFCF: Cari ilin sabit dollar qiyməti ilə ümumi əsas kapitalın yığılması
LAB; ümumi işçi qüvvəsi
WS: İstifadə olunan su ehtiyatları (Cəmi əhaliyə çıxışı olanların nisbəti)
FOR: Meşə sahələri (ümumi ərazinin nisbəti)
NREN: Neft, təbii qaz və kömürdən elektrik enerjisi istehsalı (ümumi% -ə nisbətdə)

REN: Bərpa olunan mənbələrdən elektrik enerjisi istehsalı (ümumi miqdarda%)
RENT: İcarəyə götürülmüş təbii ehtiyatlar (ÜDM-ə nisbət)
ARAB: Əkin sahələri (ümumi ərazinin nisbəti)
PROT : Torpaq və dənizdən qorunma əraziləri (Ölkənin ümumi ərazisinə nisbət)
AGR: Kənd təsərrüfatı sahəsi (ümumi torpaq sahəsinə nisbət)
CROP: Daimi sahələr (ümumi torpaq sahəsinə nisbət)
LUCP: Taxıl əkin sahələri (hektarlar)

NC

Yuxarıda verilmiş yeni böyümə modelində təbii kapital dəyişənləri kvadrat mötərizədə göstərilmişdir. Təbii kapital dəyişənlərinin əmsallarının cəminə NC əmsalı deyilir. NC əmsalı sıfırdan böyük bir dəyər götürərsə, bu təbii ehtiyatların iqtisadi nəticələrə müsbət təsir etdiyini göstərir. Ətraf mühit siyasətinin tənzimlənməsindəki yaxşılaşdırma müsbət təbii kapital əmsalı ilə nisbətən daha müsbət xarici cəhətlər yaradır. Bununla birlikdə, sıfırdan çox olan əmsal davamlı və təmiz yaşıl bir böyümə prosesinin mümkün olduğunu göstərir. NC əmsalı sıfırdan az olarsa, təbii ehtiyatların iqtisadi nəticələrə mənfi təsir göstərdiyini göstərir. Mənfi NC əmsalı təbii ehtiyatların iqtisadi artıma maneə və mənfi təsir göstərdiyini göstərir

# LƏNKƏRAN MƏTBƏXİNDƏ QUŞ VƏ QUŞ MƏHSULLARININ YERİ VƏ ROLU

**Ehtiram Əhmədzadə**
**magistrant**
**Mikayıl Məhərrəmov**
**professor**
**Lənkəran Dövlət Universiteti**
**ehtiramahmedzade@gmail.com**
**mikailbyst@mail.ru**

**Açar sözlər:** quş, Lənkəran, mətbəx

Quş ətinin əsas xüsusiyyətlərindən biri digər ətlərə nisbətən tərkibində birləşdirici toxumaların az olmasıdır. Quş əti iki qrupa bölünür: ağ (toyuq, hindtoyuğu, fırəngtoyuğu) və tünd (qaz, ördək). Bunlar zülal və mineral maddələr, yağlar və vitamin mənbəyidir. Quş ətində orta hesabla 18- 20 % zülal vardır. Amin turşusu tərkibinə görə quş əti zülalları bütün əvəzolunmayan amin turşularını əhatə edib, yüksək qidalılıq dəyərinə malik məhsullara aiddir.

Ağ quş əti tünd ətlərə nisbətən daha çox azotlu ekstraktiv maddələrə malikdir. Quş ətində piylərin miqdarı köklükdən asılı olaraq müxtəlif olub, toyuqlarda 3,1-16 %, ördəklərdə isə 3,1-33,6 % təşkil edir. Quş piyləri yağ turşuları ilə zəngin, bioloji aktivliyə malik olub, asan həzm olunur.

Mal ətinə nisbətən quş əti 3 dəfə çox dəmirə malik olub, fosfor və kükürdlə zəngindir. Quş əti qiymətli B qrup vitaminləri mənbəyidir. Quşun daxili iliyində dərialtına nisbətən daha çox A vitamini vardır.

Vəhşi quşların ətində ev quşlarına nisbətən daha çox ekstraktiv maddə vardır. Quş əti xoşagələn ətir və dada malikdir. Bu, termiki emal zamanı dad və ətir "bukef'inin əmələ gəlməsində iştirak edən maddələrin xarakterik nisbətinin yaranmasıdır. Quş əti tərkibində ətir əmələ gətirən komponentlərin böyük miqdarı ilə fərqlənir ki, bunların da çoxu termiki emal zamanı meydana gəlir. Misal üçün bişmiş toyuq ətinin uçucu maddələrində etanol, asetaldehid, metilketon, aminlər, spirtlər, efirlər, fenollar, üzvi sulfidlər və s. vardır.

Ev quşlarından toyuq, ördək, qaz, hinduşka əti və yumurtası Lənkəran süfrəsinin gündəlik yeməklərində mühüm yer tutur. Toyuqdan hazırlanmış ləvəngi və murqutuş (turş toyuq) Lənkəranın ən məşhur xörəyidir. Murqutuş həm də lənkəranlıların bayram və təntənəli mərasimlərində bişirilir. Burada yağlı çöl quşları – qaşqaldaq, qızılqaz, ördək və s. ətindən çölmək kababı, qızartma, qovurma və s. yeməklər hazırlanır.

Ləvəngi toyuq Cənub mətbəxinin şah əsəridir. Bu qədim və dadlı təam xanların və bəylərin dövründən günümüzə qədər gəlib çıxmışdır. Bu yemək təkcə talışların deyil eləcə də bütün Azərbaycan ailələrində sevilən yeməkdir. Toyları və xeyir işləri bu yeməksiz təsəvvür etmək mümkün deyil. Toyuğa zövqə görə istiot, palçıq turşu və duz vurulur. Ayrıca ləvəngi hazırlanır. Ləvəngi hazırlamaq üçün soğan və qozdan istifadə olunur. Daha dadlı olmağı üçün qırmızı soğandan istifadə olunması mütləqdir. Soğanın suyu mütləq çıxarılmalıdır. Ləvəngi hazır olduqda ona bir çimdik bibər tozu da əlavə edilir. Kütlə hazır olduqda toyuğun içərisinə doldurulur. Pörtləndikdən sonra həyətdə ocaq qalanır və üzərinə mis teşt qoyulur və həmin toyuq mis teştin içərisində qızardılır. Mis teştin üzərinə ikinci əlavə olaraq teşt qoyulur və həmin teştin üzərinə kömür yığılır. Ləvəngi toyuğu dada gətirən həmin mis teştin üzərinə yığılan közərmiş kömürdür. Eləcə də bu yeməyi təndirdə də bişirmək olar. Təndirdə bişdikdə toyuqda spesifik ocaq qoxusu yaranır. Süfrəyə plovla verilir.

# TÜRK DÖVLƏTLƏRİNİN İNTEQRASİYASINDA AZƏRBAYCANIN ROLU

**Esmira Cəfərova**
**dosent**
**Mətanət Yusifova**
**baş müəllim**
**Mingəçevir Dövlət Universiteti**
**esmira.ceferova@mail.ru**
**yusifovametanet350@gmail.com**

**Açar sözlər:** Türk dövlətləri, ortaq maraqlar, inteqrasiya, iqtisadi, mədəni, siyasi və hərbi əlaqələr

Türk dövlətlərinin inteqrasiyasında və birliyinin gücləndirilməsində Azərbaycan strateji və əhəmiyyətli rol oynayır. İnteqrasiyanın təməlində Azərbaycanın türk dövlətləri ilə ortaq tarixi və mədəniyyəti dayanır. Mədəni irsin qorunması və təbliği üçün Azərbaycan tərəfindən çoxsaylı təşəbbüslər həyata keçirilir ki, bu da Türk dövlətləri arasında mədəni, siyasi və iqtisadi əməkdaşlığın dərinləşməsinə xidmət edir.

Azərbaycan, hələ 2009-cu ildə qurulan və əvvəlcə Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurası (TDƏŞ) kimi tanınan Türk Dövlətləri Təşkilatının (TDT) yaradıcılarından biridir. Bu təşkilatın məqsədi Türk dövlətləri arasında iqtisadi, siyasi, mədəni və humanitar sahələrdə əməkdaşlığı gücləndirməkdir. Təşkilat çərçivəsində Azərbaycan Türk dövlətlərinin ortaq maraqlarını qorumaq və regional inteqrasiyanı gücləndirmək məqsədi ilə çoxşaxəli layihələrə imza atmaqda davam edir.

Prezident İlham Əliyev TDT-nin təsisçi dövlətlərinin başçılarından biri kimi daim təşkilat çərçivəsində əməkdaşlığın daha da inkişafı məqsədi ilə mühüm təşəbbüslərlə çıxış edir. Bu baxımdan 2009-cu ildə Naxçıvanda Türk dövlət başçılarının IX Zirvə görüşünün keçirilməsi uğurlu diplomatik-siyasi gediş idi. Qəbul edilən Naxçıvan Bəyannaməsi ilə Türkdilli Ölkələrin Əməkdaşlıq Şurasının (Türk Şurası) yaradılması Azərbaycan dövlətinin və prezidentinin bu prosesə dəstəyinin göstəricisidir. Həmçinin dövlət başçısının 2014-cü ildə Bodrumda Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının IV Zirvə toplantısı zamanı Türk İnvestisiya Fondunun yaradılması ilə əlaqədar təşəbbüs irəli sürməsi iqtisadi əlaqələrin inkişafına güclü təkan verdi.

Türkiyə ilə Azərbaycan arasında iqtisadi əlaqələrin əsas məqsədi: 1) onların ixtiyarında olan iqtisadi potensialdan və təbii sərvətlərdən qarşılıqlı olaraq səmərəli istifadə etməkdən; 2) hər iki dövlətin iqtisadiyyatının müstəqil inkişafını təmin edə biləcək bütün imkanları səfərbər etməkdən; 3) Azərbaycanla Türkiyə arasında mövcud olmuş iqtisadi əməkdaşlığın özülündə hər iki tərəf üçün əhəmiyyətli olan dünya iqtisadiyyatına inteqrasiya etməkdən; 4) iqtisadiyyatın istehsal imkanlarını cəmiyyət və dövlət üçün həyati əhəmiyyət kəsb edən mühüm sosial-iqtisadi vəzifələrin həllinə istiqamətləndirməkdən ibarətdir.

Türk Dövlətləri Parlament Assembleyasının və Beynəlxalq Türk Mədəniyyəti və İrsi Fondunun qərargahları Bakıda yerləşir ki, bu da Azərbaycanın Türk dünyasının inteqrasiyasına verdiyi böyük önəmin konkret təzahürüdür.

2020-ci ildə II Qarabağ müharibəsində Azərbaycanın qələbəsi, Türk dövlətləri arasındakı inteqrasiyanın güclənməsinə təkan verdi. Zəfərin əldə edilməsinə Türkiyənin verdiyi dəstək bu iki dövlət arasındakı strateji əlaqələrin daha da möhkəmlənməsinə səbəb oldu. Bu birlik, eyni zamanda Türk dövlətlərinin hərbi və siyasi sahədə əməkdaşlıq imkanlarını nümayiş etdirdi.

2021-ci il noyabrın 12–də İstanbulda Türk Dövlətləri Təşkilatının tarixi iclasında qeyd edildi ki, Vətən müharibəsində Azərbaycanın əldə etdiyi qələbə sadəcə işğal altındakı torpaqların azad edilməsi demək deyil. Əslində, həm qələbə, həm də müharibədən sonrakı dövrdə baş verən proseslər 200 il ərzində Türk dünyasının daxili və xarici siyasətdəki milli düşüncə ideyasına bəzi regional dövlətlərin ağalıq etmək cəhdinin başa çatdığının göstəricisidir. Təsadüfi deyil ki, o gündən etibarən Cənubi Qafqazda və Mərkəzi Asiyada yaranan yeni nizamda Türk amili əhəmiyyətli gücə çevrildi.

Azərbaycanın Türk dövlətləri arasında iqtisadi inteqrasiyaya verdiyi töhfələr böyükdür. Bakı-Tbilisi-Ceyhan neft kəməri, Bakı-Tbilisi-Qars dəmir yolu və Trans-Anadolu Təbii Qaz Boru Kəməri (TANAP), eləcə də Zəngəzur dəhlizi kimi strateji layihələr Türk dövlətlərinin iqtisadi əlaqələrini genişləndirərək ortaq iqtisadi maraqların inkişafına xidmət edir.

Azərbaycan Türk dövlətləri arasında iqtisadi əlaqələrin gücləndirilməsi məqsədi ilə bir sıra ticarət sazişlərinin və ittifaqlarının yaradılmasında fəallığı ilə fərqlənir. Ortaq gömrük rejimlərinin yaradılması, ticarət maneələrinin aradan qaldırılması və sərbəst ticarət zonasının təşkili istiqamətində görülən tədbirlər Türk dövlətləri arasında iqtisadi inteqrasiyanın dərinləşdirilməsinə kömək edir. Azərbaycan bu iqtisadi təşəbbüslərdə öz açar mövqeyi ilə mühüm rol oynayır və bu dövlətlərin ticarət əlaqələrinin artırılmasına şərait yaradır.

Türk dövlətləri arasında Azərbaycan həm mədəni sahədə, həm də təhsil mübadiləsinin inkişafında mühüm rol oynayır. Bu baxımdan ortaq Türk tarixinin, mədəniyyətinin və dilinin tədrisi, ortaq təhsil proqramları və universitetlərarası əməkdaşlıq mühüm addım hesab edilə bilər.

Azərbaycan Mərkəzi Asiya ilə Qafqaz arasında körpüdür. Bu, Azərbaycanın Türk dövlətləri ilə siyasi-iqtisadi əməkdaşlığında strateji üstünlük yaradır. Həmçinin, Azərbaycan diplomatiyası Türk dövlətləri arasında birgə mövqe sərgiləmək və beynəlxalq təşkilatlarda ortaq maraqları qorumaq üçün səylər göstərir.

İyulun 6-da Şuşada Azərbaycan Respublikasının təşəbbüsü ilə Türk Dövlətləri Təşkilatının "Nəqliyyat, bağlantı və iqlim fəaliyyəti vasitəsi ilə dayanıqlı gələcəyin qurulması" mövzusunda qeyri-rəsmi Zirvə görüşü keçirildi. Bu görüş Azərbaycanın Türk dünyasının birliyinə növbəti töhfəsi oldu. Görüş türkdilli dövlətlərin daha sıx inteqrasiyası, qarşıya qoyulan hədəflərə nail olunması və yeni güc kimi beynəlxalq münasibətlər sistemində formalaşmasında mühüm əhəmiyyət kəsb edir.

Zəngəzur dəhlizinin əhəmiyyətinə gəldikdə, bu dəhliz Azərbaycanın təşəbbüsü ilə yaradılan, Türk dövlətləri arasında nəqliyyat əlaqələrini daha da gücləndirmək üçün nəzərdə tutulan strateji layihələrdən biridir. Bu dəhliz vasitəsi ilə Mərkəzi Asiya ölkələrinin Azərbaycan, Türkiyə və Avropa ilə birbaşa nəqliyyat əlaqəsinin təmin edilməsi nəzərdə tutulur. Məqsəd yalnız iqtisadi əlaqələri deyil, həm də Türk dövlətləri arasındakı siyasi və mədəni əlaqələri möhkəmləndirməkdir.

Azərbaycanla Türkiyə və digər Türk dövlətləri arasında ortaq hərbi təlimlərin keçirilməsi və təhlükəsizlik sahəsində əməkdaşlıq da Türk dövlətlərinin kollektiv təhlükəsizliyinin təmin edilməsinə xidmət edir və regional sabitliyi qorumağa yönəlmişdir.

Azərbaycan Türk dövlətlərində multikulturalizm siyasətinin həyata keçirilməsinə böyük əhəmiyyət verir, Türk dövlətləri arasındakı mədəni müxtəliflik və dini tolerantlığı, regional sabitlik və əməkdaşlığı inkişaf etdirir. Azərbaycan bu sahədə nümunəvi siyasət yürüdərək, Türk dövlətləri arasında birlik və tolerantlıq mədəniyyətinin təbliğinə çalışır.

Azərbaycanın Türk Dövlətləri Təşkilatının beynəlxalq səviyyədə nüfuzunun artırılmasına göstərdiyi səylər xüsusi qeyd edilməlidir. Bu təşəbbüslər Türk dövlətlərinin beynəlxalq arenada birgə hərəkət etməsinə və ortaq maraqların təbliğ edilməsinə şərait yaradır.

Azərbaycanın diaspor təşkilatları da Türk dünyasının birliyinə töhfə verən mühüm amillərdən biridir. Azərbaycan, Türk diasporasının əməkdaşlığını təşviq edərək, beynəlxalq arenada ortaq məsələlərdə birgə lobbi fəaliyyəti aparılmasına dəstək verir. Məqsəd Türk dövlətlərinin dünyada daha güclü təmsil olunmasını təmin etməkdir.

Göründüyü kimi, Azərbaycanın Türk dövlətlərinin inteqrasiyasındakı rolu çoxşaxəlidir. Azərbaycan Türk dövlətlərinin iqtisadi, siyasi, mədəni və təhlükəsizlik sahələrində fəal iştirak edərək, Türk dünyasının birliyi və güclənməsi üçün mühüm addımlar atır. Bütün bunlar Türk dövlətlərinin qlobal arenada daha təsirli çıxış etməsinə və ortaq maraqların qorunmasına xidmət edir. Azərbaycanın bu sahədəki rolu, Türk dövlətlərinin daha güclü və birgə şəkildə gələcəyə irəliləməsinə təkan verir.

# TÜRK DÖVLƏTLƏRİNİN BANK SEKTORUNUN İNTEQRASİYA PROBLEMLƏRİ

**Əlixan Bədəlov**
**dosent**
**Lalə Şahbazova**
**baş müəllim**
**Lənkəran Dövlət Universiteti**
**alixan.badalov@mail.ru**
**lale.shahbazovaa@gmail.com**

**Açar sözlər:** bank sektoru, inteqrasiya, əməkdaşlıq, iqtisadi birlik, rəqəmsal bank, maliyyə stabilliyi, maliyyə texnologiyaları (FinTech), maliyyə infrastrukturu, texnologiya və rəqəmsal inteqrasiya

Türk dövlətləri arasında münasibətlər yüksələn xətlə inkişaf edir və bu münasibətlərin daha da möhkəmləndirilməsi Azərbaycanın prioritet istiqamətlərindəndir. Türk Dövlətləri Təşkilatına (TDT) üzv və müşahidəçi ölkələr Avropa İttifaqının ərazisində daha böyük coğrafiyanı əhatə edirlər. Türk dövlətləri dünya əhalisinin 2,2 faizini, ümumi ticarət dövriyyəsinin 2,4 faizini və qlobal ÜDM-in 1,6 faizini təşkil edir. Mövcud potensial isə bu rəqəmlərin gələcəkdə artırılmasına imkan verir. Türk dövlətləri şərqlə qərbi birləşdirən orta dəhlizin əsas drayveridir. Türk dövlətləri arasında siyasi və iqtisadi inteqrasiyanın dərinləşməsində "Türk Dünyasına Baxış - 2040" sənədinin xüsusi rolu vardır. Bu sənəddə türk dövlətləri arasında iqtisadi iş birliyi, nəqliyyat, gömrük, enerji, turizm, kənd təsərrüfatı və digər sahələrdə əməkdaşlığın yol xəritəsi verilib. Bu istiqamətdə Türk dövlətlərinin bank sektorunun inteqrasiyası aktuallıq kəsb edir. Digər tərəfdən maliyyə sektorunda dayanıqlığın təmin edilməsinin əsas istiqamətlərindən biri bank sektorudur. Bank sektorunda domino effekti böyük həssaslığa malik olduğundan hər bir dövlət çalışır ki, maliyyə-bank sistemində sabitlliyə nail olsun. Bu baxımdan Türk dövlətlərinin maliyyə bazarlarının əsas problemlərindən biri bank fəaliyyətinin inteqrasiya problemlərinin öyrənilməsi və çıxış yollarının müəyyən edilməsidir. Bu sahədə innovativ olan rəqəmsal bankların və dünya təcrübəsinin yerli banklar üzrə praktiki tətbiqi mütləqdir. Azərbaycan və Türkiyə banklarının fəaliyyətində oxşar və fərqli cəhətləri, Azərbaycan bank sisteminin təkmilləşdirilməsində Türkiyə təcrübəsinin əhəmiyyəti, bankların fəaliyyətində informasiya texnologiyalarının rolunun artırılması istiqamətləri prioritet məsələlərdən hesab edilməlidir.

Türk dövlətlərinin bank sektorunun inteqrasiyası regional əməkdaşlığın və iqtisadi birliyin gücləndirilməsi baxımından əhəmiyyətli bir məsələdir. Bu inteqrasiya bir neçə aşağıdakı əsas amillə əlaqədardır:

– Regional təşkilatlar və əməkdaşlıq. Türk Dövlətləri Təşkilatı (TDT) çərçivəsində maliyyə əməkdaşlığının gücləndirilməsi məqsədilə müxtəlif təşəbbüslər həyata keçirilir. Bu çərçivədə bank sektorunun inteqrasiyası üçün ortaq layihələrin həyata keçirilməsi, maliyyə stabilliyinin artırılması və regional ticarətin genişləndirilməsi məqsədini güdür.

– Tənzimləmə və standartların birləşdirilməsi. Bank sektorunun inteqrasiyası üçün ortaq tənzimləmə sistemlərinin yaradılması vacibdir. Müxtəlif Türk dövlətlərinin bank tənzimləmə standartlarının birləşdirilməsi, sərmayə axınlarını asanlaşdırar və maliyyə əməliyyatlarını daha təhlükəsiz edər.

– Maliyyə infrastrukturu. Maliyyə infrastrukturunun inkişafı bankların bir-biri ilə əlaqəsini gücləndirir. Rəqəmsal bankçılığın inkişafı və ortaq maliyyə platformalarının yaradılması, müştəri xidmətlərini və əməliyyatları asanlaşdırır.

– İnvestisiya və ticarət müqavilələri. Türk dövlətləri arasında ticarət və investisiya əlaqələrinin genişləndirilməsi bank sektorunun inteqrasiyasına töhfə verir. Bu əlaqələr regional bazarlarda daha çox iştirakı təmin edir və daha geniş imkanlar yaradır.

– Maliyyə texnologiyaları (FinTech). FinTech sektoru Türk dövlətlərinin bank sektorunun qurulması üçün yeni imkanlar təqdim edir. Rəqəmsal ödəniş sistemləri, blockchain texnologiyası və digər yenilikçi həllər, banklar arasında əlaqələri gücləndirir.

– Beynəlxalq ticarət və valyuta əməkdaşlığı. Türk dövlətləri arasında beynəlxalq ticarət genişləndikcə bu ölkələrin milli valyutalarından istifadənin əhəmiyyəti artır. Valyuta əməliyyatlarının sadələşdirilməsi hesablaşmaları sürətləndirməyə kömək edir.

– Təhsil və intellektual inkişaf. Bank əməkdaşları arasında məlumat mübadiləsi, test proqramlarının həyata keçirilməsi və birgə tədqiqatlar bankların regional bazarlarda daha səmərəli fəaliyyət göstərməsinə kömək edir.

Türkiyənin bank sektorunun qlobal iqtisadiyyata inteqrasiyası regional əməkdaşlığın və qarşılıqlı iqtisadi yardımın gücləndirilməsi baxımından böyük əhəmiyyət kəsb edir. Bu proses təkcə iqtisadi deyil, həm də siyasi və sosial xarakter daşıyır və ölkələr arasında əlaqələri gücləndirir. Çətinliklərə baxmayaraq inteqrasiya prosesi Türk dövlətləri arasında daha sıx əməkdaşlığa səbəb ola bilər.

Türk dövlətlərinin bank sektorunun inteqrasiya prosesi coğrafi və iqtisadi faktorlarla əlaqəli bir sıra aşağıdakı problemlərini qeyd etmək olar:

– Fərqli tənzimləmə sistemləri. Hər bir Türk dövləti öz bank tənzimləmə qanunlarına və standartlarına malikdir. Bu fərqliliklər maliyyə institutlarının inteqrasiyasını çətinləşdirir.

– İqtisadi sabitlik və inkişaf fərqlilikləri. Türk dövlətləri arasında iqtisadi sabitlikdəki fərqliliklər, bank sektorunun inteqrasiyasını təsir edə bilir. Bəzi ölkələrdə iqtisadi böhranlar və yüksək inflyasiya bank sisteminin dayanıqlılığını azalda bilər.

– Maliyyə infrastrukturunun inkişaf dərəcəsi. Maliyyə infrastrukturu bank sektorunun inteqrasiyasını asanlaşdıran bir amildir. Lakin bəzi Türk dövlətlərində maliyyə infrastrukturu hələ də kifayət qədər inkişaf etməmişdir ki, bu da beynəlxalq əməliyyatları çətinləşdirir.

– Müxtəlif valyutalar. Fərqli valyutalar arasında dəyişkənlik beynəlxalq ticarət və maliyyə əməliyyatları zamanı əlavə risklər yaradır. Valyuta mübadiləsi banklar arasında əməliyyatları mürəkkəbləşdirə bilər.

– Texnologiya və rəqəmsal inteqrasiya. Rəqəmsal bankçılığın inkişafı inteqrasiyanı sürətləndirə bildiyi ki müxtəlif texnoloji infrastruktur problemləri yarada bilər. Bu da müxtəlif sistemlərin bir-biri ilə uyğunlaşdırılması zamanı çətinliklərə səbəb ola bilər.

Türk dövlətlərinin bank sektorunun inteqrasiyası prosesində qeyd edilən problemlərin aradan qaldırılması üçün regional əməkdaşlıq və standartların birləşdirilməsi vacibdir. Ölkələr arasında iqtisadi, siyasi və texnoloji sahələrdə müsbət dəyişikliklər bu sahədə inteqrasiyanı asanlaşdıra bilər.

# TÜRK DÖVLƏTLƏRİ ÖLKƏLƏRİNİN AUDİT SİSTEMİNİN İNTEQRASİYA PROBLEMLƏRİ

**Əlixan Bədəlov**
**dosent**
**Murad Təhməzov**
**müəllim**
**Lənkəran Dövlət Universiteti**
**alixan.badalov@mail.ru**
**murad.tahmazov.97@mail.ru**

**Açar sözlər:** audit, audit sistemi, mühasibat və audit standartları, beynəlxalq kapitalın hərəkəti, inteqrasiya, audit sisteminin inteqrasiyası, audit fəaliyyətinin səmərəliliyi, inteqrasiya problemləri, rəqəmsal texnologiyalar

Audit maliyyə məlumatlarının, əməliyyatların və proseslərin müstəqil şəkildə yoxlanılmasıdır. Audit təşkilatların maliyyə hesabatlarının düzgünlüyünü, şəffaflığını və etibarlılığını təmin etmək məqsədini güdür.

Audit sistemi müstəqil ölkələrdə hər bir təşkilatın maliyyə məlumatlarını, əməliyyatlarını və proseslərini müstəqil və sistematik şəkildə qiymətləndirmək üçün yaradılan çərçivədir. Bu sistem təşkilatların düzgünlük, şəffaflıq və etibarlılıq prinsiplərinə uyğun fəaliyyət göstərməsini təmin edir.

Ölkələr arasında inteqrasiya və beynəlxalq kapitalın hərəkəti dünya ölkələri arasında audit sisteminin inteqrasiyasını zərurətə çevirmişdir.

Ölkələrarası audit sisteminin inteqrasiyası qlobal mühasibat və audit standartlarının harmonizasiyası üçün vacibdir. Bu proses bir neçə əsas aşağıdakı elementdən ibarətdir:

- Standartların uyğunlaşdırılması;
- Təcrübə mübadiləsi;
- Təlim və sertifikasiya;
- Rəqəmsal texnologiyalar;
- Hüquqi çərçivənin yaradılması;
- Risklərin idarə olunması.

Bu yanaşmaların tətbiqi ölkələrarası audit sisteminin effektivliyini artırır və mühasibat sistemlərinin qlobal səviyyədə uyğunlaşmasına şərait yaradır.

Ölkələrarası audit sisteminin inteqrasiyası aşağıda qeyd edilən bir sıra üstünlükləri təmin edir:

- Standartlaşma: Müxtəlif ölkələrdə tətbiq olunan audit standartlarının uyğunlaşdırılması məlumatların daha aydın və müqayisəli olmasına imkan yaradır.

- Şəffaflıq: İntegrasiya edilmiş sistemlər mühasibat və audit proseslərinin daha şəffaf olmasına kömək edir, bu da investorların və digər maraqlı tərəflərin etimadını artırır.

- Risklərin azaldılması: Beynəlxalq standartlara uyğun audit risklərin daha effektiv idarə olunmasına kömək edir, bu da maliyyə pozuntularının qarşısını alır.

- Təcrübə mübadiləsi: Müxtəlif ölkələrdəki mütəxəssislərin bilik və təcrübələrini paylaşması innovativ yanaşmaların tətbiqini təşviq edir.

- Rəqabət üstünlüyü: Şirkətlər beynəlxalq səviyyədə tanınmış audit standartlarına riayət etdikdə, qlobal bazarda daha çox rəqabət qabiliyyəti qazanır.

- Effektiv resurs idarəetməsi: İnteqrasiya edilmiş sistemlər resursların daha səmərəli istifadəsinə imkan yaradır ki, bu da maliyyə xərclərinin azalmasına səbəb ola bilər.

- Təlim və inkişaf: Müxtəlif ölkələrdəki mühasibat və audit mütəxəssisləri üçün ortaq təlim proqramları yaradılması biliklərin artırılmasına və peşəkar inkişafın stimullaşdırılmasına kömək edir.

Audit sisteminin ölkələr arasında inteqrasiyası beynəlxalq ticarətin və investisiyaların inkişafına kömək edir. Bu iqtisadi əlaqələri gücləndirir və qlobal bazarda daha geniş imkanlar açır.

Bu üstünlüklər ölkələrarası audit sisteminin inteqrasiyasının mühasibat və audit sahəsindəki inkişafına müsbət təsir göstərir.

Yuxarıda qeyd edilən kontekstdə Türk dövlətləri arasında audit sisteminin inteqrasiyası bir sıra səbəblərdən vacibdir. Bu inteqrasiya yalnız mühasibat və audit standartlarının harmonizasiyasını deyil, həm də iqtisadi əməkdaşlığın gücləndirilməsini nəzərdə tutur. Türk dövlətləri ölkələrinin audit sisteminin inteqrasiyasının zəruri edən əsas səbəblər aşağıdakılar hesab edilə bilər:

- İqtisadi əməkdaşlığın artırılması;
- Standartların harmonizasiyası;
- Risklərin idarə edilməsi;
- Bilik və təcrübə mübadiləsi;
- Şəffaflıq və etibar;
- Təlim və İnkişaf imkanları;
- Regionlararası iqtisadi inkişaf.

Bu səbəblər Türk dövlətləri arasında audit sisteminin inteqrasiyasının vacibliyini nümayiş etdirir. Türk dövlətləri ölkələrinin audit sisteminin inteqrasiyası iqtisadi əməkdaşlığın güclənməsinə, müştərək inkişaf layihələrinin reallaşmasına və bölgədəki stabilliyin artırılmasına kömək edəcəkdir.

Türk dövlətləri ölkələrinin audit sisteminin inteqrasiyası, bir sıra çətinliklər və problemlərlə üzləşir. Bu problemlər audit fəaliyyətinin səmərəliliyini və effektivliyini azaldır. Türk dövlətləri ölkələrinin audit sisteminin inteqrasiya problemlərinin əsas aspektlərini aşağıdakı kimi göstərmək olar:

1. Fərqli tənzimləmə və qanunvericilik: Türk dövlətlərinin hər birinin öz audit tənzimləmə sistemləri və qanunvericilik çərçivələri var. Bu beynəlxalq standartlara uyğunlaşmanı çətinləşdirir. Bu istiqamətdə fərqli hüquqi mühitlər, audit standartlarının birgə tətbiqini əngəlləyir.

2. İnfrastruktur və texnologiya: Bəzi Türk dövlətləri audit sistemləri üçün lazım olan texnoloji infrastrukturdan məhrumdurlar. Bu məlumat mübadiləsi və analiz üçün əngəl yaradır. Audit proseslərinin daha effektiv olması üçün məlumatların standartlaşdırılması vacibdir.

3. İnsan resursları: Audit sahəsində peşəkar kadrların müvafiq təcrübəyə malik olmaması inteqrasiya prosesini çətinləşdirir. Türk dövlətləri ölkələrinin audit sisteminin inteqrasiyası istiqamətində audit mütəxəssislərinin yeni standartlar və texnologiyalarla tanış olması üçün davamlı təlimlər təşkil edilməlidir.

4. Mədəniyyət və etika: Türk dövlətləri arasında mədəniyyət və iş etikasındakı fərqliliklər audit fəaliyyətinin səmərəliliyini azalda bilər. Audit sistemlərinin etibarlılığı, mədəni və etik məsələlərdən təsirlənə bilər. Bu audit nəticələrinin qəbul edilməsinə təsir göstərə bilər ki, bu istiqamətdə fərqliliklər aradan qaldırılmalıdır.

5. İnstitusional əməkdaşlıq: Türk dövlətləri arasında audit orqanları arasında əlaqələrin zəif olması məlumat mübadiləsini çətinləşdirir. İnkişaf etmiş regional əməkdaşlıq mexanizmlərinin olmaması, inteqrasiya səylərini əngəlləyir. Bu istiqamətdə də əməkdaşlıq mexanizmlərinin təkmilləşdirilməsi prioritet məsələlərdəndir.

Türk dövlətləri ölkələrinin audit sisteminin inteqrasiyası bir çox çətinliklərlə üzləşir. Bu problemlərin aradan qaldırılması üçün regional əməkdaşlığın gücləndirilməsi, tənzimləmə və qanunvericilik standartlarının harmonizasiyası, peşəkar kadrların yetişdirilməsi və texnoloji infrastrukturun inkişafı mühüm əhəmiyyət kəsb edir. Bu yanaşmalar audit sisteminin daha səmərəli və effektiv şəkildə inteqrasiya edilməsinə kömək edəcək.

# TÜRK DÖVLƏTLƏRİNİN MALİYYƏ SİSTEMİNDƏ RƏQƏMSAL İNTEQRASİYA PROBLEMLƏRİ

**Əlixan Bədəlov**
**dosent**
**Vüsal Novruzov**
**müəllim**
**Lənkəran Dövlət Universiteti**
**alixan.badalov@mail.ru**
**vusal.novruzov.23@mail.ru**

**Açar sözlər:** maliyyə sistemi, rəqəmsal maliyyə, rəqəmsal inteqrasiya, rəqəmsal ödəniş sistemləri, blockchain, kriptovalyuta

Rəqəmsal maliyyə müasir maliyyə xidmətlərinin və məhsullarının rəqəmsal texnologiyalar vasitəsilə təqdim edilməsini ifadə etməklə bankçılıq, sığorta, investisiya və digər maliyyə xidmətlərinin rəqəmsal platformalar üzərindən müştərilərə təqdim olunmasını əhatə edir. Bu sahə müasir texnologiyaların maliyyə sahəsində mobil və web tətbiqləri, P2P (Peer-to-Peer) kreditləşmə, rəqəmsal ödəniş sistemləri (PayPal, Apple Pay, Google Pay kimi platformalar), fintech startapları və s. vasitələrdən istifadə edir. Qeyd edilən vasitələr maliyyə xidmətlərinin daha sürətli, daha effektiv və daha əlçatan olmasına kömək edir.

Rəqəmsal maliyyənin təşkili vasitələri yalnız fərdi istifadəçilər üçün deyil, həm də biznes üçün yeni imkanlar yaradır. Gələcəkdə bu vasitələrin inkişafı maliyyə sektorunun daha da transformasiyasına səbəb olacaq.

Azərbaycan Respublikasının maliyyə sistemində rəqəmsal transformasiya iqtisadiyyatın modernləşdirilməsi və dünya ilə inteqrasiyası üçün vacib bir mərhələdir. Bu prosesin uğurla həyata keçirilməsi ölkənin maliyyə xidmətlərinin keyfiyyətini artıracaq və iqtisadi artıma müsbət təsir göstərəcəkdir.

Müasir dövrdə Azərbaycan Respublikası və eləcədə Türk dövlətləri ölkələrində rəqəmsal maliyyənin əsas xüsusiyyətlərinə aşağıdakılar aiddir:

– Müştərilər maliyyə əməliyyatlarını istənilən vaxt və yerdən həyata keçirə bilərlər. Mobil tətbiqlər və web platformalar sayəsində xidmətlər daha əlçatandır.

– Rəqəmsal maliyyə xidmətləri əməliyyatları avtomatlaşdıraraq sürət və dəqiqlik təmin edir. Rəqəmsal maliyyə xidmətləri insan səhvlərinin azalmasına da kömək edir.

– Rəqəmsal maliyyə platformaları istifadəçi davranışlarını və bazar tendensiyalarını analiz edərək daha dəqiq maliyyə qərarları verməyə imkan verir.

– Rəqəmsal maliyyə ənənəvi maliyyə xidmətlərinə çıxışı çətin olan kiçik istehlakçılara və mikro müəssisələrə də xidmət göstərir.

– Blockchain və kriptovalyutalarla maliyyə əməliyyatlarını daha təhlükəsiz və şəffaf şəkildə həyata keçirməyə imkan verir.

Maliyyə sistemində rəqəmsal inteqrasiya Türk dövlətləri arasında maliyyə xidmətlərinin daha səmərəli və əlçatan olmasına imkan yaradaraq onlar arasında iqtisadi əlaqələrin gücləndirilməsi, ticari mübadilənin artması və maliyyə inklüzivliyinin təmin edilməsi məqsədini həyata keçirə bilər. Lakin bu istiqamətdə aşağıdakı problemlərin həlli vacibdir:

– Rəqəmsal maliyyə sistemlərinin tənzimlənməsi üçün müvafiq qanunvericilik çərçivələrinin yaradılması;

– Təhlükəsizlik baxımından kiberhücumlara qarşı müvafiq təhlükəsizlik tədbirlərinin görülməsi;

– İstifadəçilərin yeni texnologiyalardan istifadə etməyi öyrənməsi üçün maarifləndirmə tədbirlərinin həyata keçirilməsi.

Türk dövlətləri arasında rəqəmsal maliyyənin təşkili vasitələrinə olan zərurət müasir dövrdə bu ölkələrin iqtisadiyyatının inkişafı ilə sıx bağlıdır ki, bu vasitələrin əhəmiyyəti bir neçə aşağıdakı əsas səbəbdən irəli gəlir:

– Dünya iqtisadiyyatının getdikcə rəqəmsallaşması. Onlayn ticarət, e-şirkətlər və startaplar artdıqca, maliyyə xidmətlərinin də rəqəmsal platformalar vasitəsilə təqdim olunmasına zərurət yaranır. Bu daha geniş müştəri bazasına xidmət etməyə imkan tanıyır.

– Ölkələr arasında əməliyyatların daha şəffaf və təhlükəsiz bir şəkildə həyata keçirilməsi. Blockchain texnologiyası və kriptovalyutalar maliyyə əməliyyatlarının izlənilməsini asanlaşdırır və şəffavlığı təmin edir.

– Rəqəmsal maliyyə xidmətlərinin ənənəvi metodlarla müqayisədə daha sürətli və səmərəli əməliyyatlar həyata keçirməsi. İstifadəçilər, mobil tətbiqlər və onlayn platformalar vasitəsilə 24/7 maliyyə əməliyyatları apara bilərlər.

– Maliyyə xidmətlərinə çıxışın artması;

– Fintech şirkətlərinin yeni maliyyə məhsulları və xidmətləri təqdim etməsi. Ağıllı müqavilələr süni intellekt və analitika, istifadəçilərə daha fərdi və optimal maliyyə həlləri təqdim etməyə imkan verir.

Müasir çağırışlar və hədəflər kontekstində Türk dövlətlərinin maliyyə sistemində rəqəmsal maliyyə inteqrasiyasının əsas istiqamətlərini aşağıdakı kimi göstərə bilərik:

– Türk dövlətləri ortaq rəqəmsal maliyyə infrastrukturu yaratmaq məqsədilə əməkdaşlığın daha da inkişafına nail olmaq. Bu ödəniş sistemlərinin və maliyyə texnologiyalarının inteqrasiyasını asanlaşdıracaqdır.

– Türk dövlətləri kriptovalyuta tənzimləmələri və blockchain texnologiyalarını tətbiq edərək maliyyə əməliyyatlarının şəffaflığını artırmağa nail olacaqdır.

– Fintech şirkətləri Türk dövlətlərinin maliyyə sistemində innovativ həllər təqdim edə bilər ki, bu da ölkələrdə müştərilərə daha sürətli və sərfəli xidmətlər təqdim etməyə imkan yaradacaqdır.

– Rəqəmsal inteqrasiya maliyyə xidmətlərinə çıxışı çətin olan Türk dövlətlərinin müvafiq bölgələrində yaşayan insanlara və kiçik müəssisələrə daha geniş imkanlar təqdim edə bilər.

Türk dövlətlərinin maliyyə sistemində rəqəmsal inteqrasiya bir çox perspektiv təqdim etsə də, bir sıra problemlərlə də üzləşir. Bu problemlərin aradan qaldırılması üçün Türk dövlətlərinin əməkdaşlığı uyğun tənzimləmə, təhlükəsizlik tədbirləri və müştəri maarifləndirməsi mühüm əhəmiyyət kəsb edir. Bu cür yanaşmalar rəqəmsal inteqrasiyanın daha səmərəli və dayanıqlı şəkildə həyata keçirilməsinə kömək edəcək. Həmçinin Türk dövlətlərinin maliyyə sistemində rəqəmsal inteqrasiya ölkələrin iqtisadiyyatının modernləşməsinə müsbət təsir göstərməklə iqtisadi artıma dəstək verər. Gələcəkdə bu inteqrasiyanın daha da genişlənməsi gözlənilir, bu da regionun iqtisadi gücünü artıracaq.

# TURİZM - TÜRK DÖVLƏTLƏRİNİN İNTEQRASİYA OBYEKTİ KİMİ (AZƏRBAYCAN VƏ TÜRKİYƏNİN TİMSALINDA)

**Fərid Xankişiyev**
**dosent**
**İlkana Hacızadə**
**müəllim**
**Lənkəran Dövlət Universiteti**
**ferid_khan@mail.ru**
**ilkanahacizade@mail.ru**

**Açar sözlər:** turizm, inteqrasiya, iqtisadi fəaliyyət

Türk dövlətləri arasında inteqrasiya prosesi sürətli formada inkişaf edir və bu münasibətlərin aktiv iştirakçılarından biri də Azərbaycan hesab edilir. Belə ki, Azərbaycan bir çox türk dövlətləri ilə iqtisadi, siyasi və bir sıra digər müstəvilərdə əməkdaşlıq etməkdədir, eyni zamanda onu da vurğulayaq ki, bu fəaliyyət sürətlənən xətt üzrə davam etməkdədir.

Ölkəmizin iqtisadi cəhətdən neft sektorunundan asılılığının azaldılması məqsədi ilə qeyri-neft sektorunun inkişafı ölkəmizin prioritetlərindəndir. Bu məqsədlə də, kənd təsərrüfatı ilə yanaşı turizm sektorunun inkişaf etdirilməsinə dövlət böyük qayğı göstərməkdədir. Bu məqsədlə də 2023-2026-cı illərdə turizm inkişafı ilə bağlı həyata keçirilən tədbirlər planı bizə imkan verəcəkdir ki, 2026-cı ildən sonrakı dövrdə ölkəmizə gələcək turistlərin sayı 4 milyondan çox olsun. Bu məqsədlə də, istər turizm sektorunda yüksək nəticələr əldə etmiş dövlətlərin, istərsə də qonşu respublikaların bu istiqamətdə əldə etdikləri nailiyyətlərin tədqiq edilməsi, nəticələrin turizm sektoruna tətbiq edilməsi ən öndə öhtəliklərimizdəndir.

Turizm müəssisələrində modernizasiya prosesinin təşkili, tur operatorları və səyahət agentliklərinin birgə fəaliyyəti, qiymətlərdə endirim siyasətinin həyata keçirilməsi, keyfiyyət meyarlarının ön plana çıxarılması, ən əsası bu sahəyə insanlar arasında marağın artması turizm sektorunun yaxın gələcəkdə daha perspektivli bir sektora çevriləcəyinin bariz nümunəsidir. Azərbaycan və Türkiyə arasında turizmin inkişafı, turistik səfər saylarının artırılması, qarşılıqlı əməkdaşlıq əlaqələrinin genişləndirilməsi və təcrübə mübadiləsinin aparılması məsələləri iki dövlət səviyyəsində inteqrasiya prosesinin priotetlərindən biri kimi ön plana çıxmaqdadır. Dövlət Turizm Agentliyi, eləcə də turizm sənayesi nümayəndələri, turizm təşkilatları Türkiyədə keçirilən bir sıra tədbirlərdə iştirak etmiş, turizm əlaqələrinin genişləndirilməsi üçün $B_2B$ formatlı görüşlər keçirmişdir.

Türk dövlətləri kifayət qədər geniş turizm potensialına malikdir. Türk Dövlətləri təşkilatında turizm sektoru üzrə ən inkişaf etmiş ölkə Türkiyədir. 2024-ci ilin yanvar-iyul aylarında Türkiyəyə səfər etmiş əcnəbilər arasında Azərbaycan vətəndaşlarının payı isə 2,43 faiz təşkil edib. Bundan əlavə onu da qeyd etmək istərdik ki, 2024-ci ilin aprelində Azərbaycandan Türkiyəyə 66 min 228 turist səfər edib ki, bu da 2023-cü ilin apreli ilə müqayisədə 26,39 faiz çoxdur. Qeyd edilən rəqəmlər onu deməyə əsas verir ki, yerli vətəndaşlar öz səyahətləri zamanı daha çox üstünlük verdiyi ərazi Türkiyə hesab edilir. Son dövrlərdə ölkəmizə gələn türk vətəndaşlarının da sayı artmaqdadır. Belə ki, son illərin statistik göstəricilərinə baxdığımız zaman görürük ki, Azərbaycana gələn turistlərin sayı xarici ölkələrin nümayəndələrinin bu meyar üzrə sıralamasında ilk səkkizlikdə məskunlaşmaqdadır.

Qeyd edilən statistik məlumatlar iki ölkə arasında turist axınının artdığını göstərir. Bu səbəbdən də ölkələrimizin turizm imkanlarını qarşılıqlı şəkildə tanıtmaq, təbliğ etmək prosesininin sürətləndirilməsi hər iki dövlətin prioritet istiqamətlərindəndir. Azərbaycan-Türkiyə qarşılıqlı olaraq turist mübadiləsi haqqında danışarkən termal, sağlamlıq, qış, idman, çimərlik, gənclik, ekoloji və digər turizm sahələrinin daim dinamik inkişafının və mütəmadi olaraq tanıdılmasının vacibliyi ön plandadır.

İnternet resurslarında ölkənin turizm potensialının təbliğ edilməsi və bundan yararlanma, həftəlik və aylıq səyahət paketlərinin qiymətlərində endirimlərin reallaşdırılması, eləcə də Azərbaycan Hava Yolları və Türk Hava Yollarının turizm şirkətləri ilə danışıqlar aparılması vacib inteqrasiya prosesinin aspektlərdəndir.

Turizm sektorunda gənc dövlətlərdən biri olaraq bizim Türkiyənin bu istiqamətdəki təcrübələrindən faydalanmağımıza çox böyük ehtiyac vardır. Belə ki, istər kadr hazırlığının yetərli səviyyəyə çatdırılması, turizm sektoru üzrə lazım olan tədris vəsaitələrinin təkmilləşdirilməsi, yeni mehmanxana və restoranların müasir dövrün istəklərinə uyğun şəkildə tikilməsi, nəqliyyat xidmətində komfort amilinin ön planda tutulması şərti ilə inkişaf etdirilməsi turizm sahəsində daha effektiv nəticələrin əldə edilməsi baxımından önəmlidir. Bu baxımdan da qeyd edilən istiqamətlər üzrə Türkiyə Cumhuriyyətinin dəstəyinin alınması ölkəmizdə turizm sektorunun inkişafı baxımından vacib nüanslardandır.

# MÜSTƏQİL TÜRK DÖVLƏTLƏRİ ARASINDA İNTEQRASİYA (AZƏRBAYCAN-TÜRKİYƏ TİMSALINDA)

**Fidan Qurbanova**
**iqtisad üzrə fəlsəfə doktoru**
**Sevinc Xasayeva**
**baş müəllim**
**Azərbaycan Dövlət İqtisad Universiteti**
**qurbanova_fidan@mail.ru**
**geofaq@mail.ru**

**Açar sözlər:** Türk dövlətləri, Azərbaycan Respublikası, neft-qaz kəmərləri

"Türk Dünyası" anlayışı hazırda siyasi və mədəni mənada bir reallıqdır. Lakin bu reallığı nə dünyada, nə Türk dünyasında, nə də Türkiyədə qəbul etmək asan olmayıb.

Bu gün müxtəlif ölkələrin fərqli strateji hədəflərlə, iqtisadi və siyasi səbəblərlə bir araya gəlməsi, yeni təşkilat, qurum və təşkilatlar yaratması beynəlxalq aləmdə ortaq bir inkişafdır. İkiqütblü dünyanın dağılmasından sonra müstəqil respublikaların yaranması bu istiqamətdə, yəni regional və beynəlxalq təşkilatların formalaşması və inkişafı baxımından mühüm proses olmuşdur.

Hal-hazırda da müstəqil Türk dövlətləri kimi mövcudluğunu davam etdirən dövlətlər Türkiyə, Azərbaycan, Qazaxıstan, Qırğızıstan, Özbəkistan, Türkmənistan, Şimali Kipr Türk Respublikası de-fakto statusu ilə 7 ölkəni saymaq olar. Bundan əlavə, Başqırdıstan, Çuvaşiya, Tatarıstan, Tuva və Yakutiyadır. Türklərin çoxluq təşkil etdiyi Rusiya dövlətinə bağlı muxtar respublikalar sayılırlar.

Azərbaycanın müstəqilliyini bərpa etməsindən 30 ildən çoxdur, bu dövrü nəzərə alsaq, Türkiyə ilə Azərbaycan arasında əlaqələr əhəmiyyətli irəliləyişlər əldə edib. İki qardaş ölkə arasında münasibətlərin gedişatı dörd mərhələyə bölünür.

1. Birinci mərhələdə münasibətlər emosiya və ideologiya ilə sıx idi.
2. İkinci mərhələdə şəxsi münasibətlər ön planda olub. Türkiyə Azərbaycan Prezidenti Heydər Əliyevlə Sabiq prezident Süleyman Dəmirəl arasındakı şəxsi münasibətlər ikitərəfli əlaqələrin əsasını təşkil edir. Mərhum prezident Heydər Əliyev tərəfindən Türkiyə və Azərbaycan üçün istifadə edilmişdir. Münasibətlərdə "bir millət, iki dövlət" sözləri əsas prinsipə çevrilib və münasibətlərin gedişatı da bu prinsip üzərində qurulub.
3. Üçüncü mərhələ münasibətlərin institusionallaşmasıdır. Əsaslar əvvəlki administrasiyalar tərəfindən ləğv edilsə də, Azərbaycan prezidenti İlham Əliyev tərəfindən izlənildi.

Türkiyə prezidenti Rəcəb Tayyib Ərdoğanın səyləri ilə formalaşan və çox ölçülü işbirliyinin baş verdiyi dövr idi. Ən mühüm razılaşma təbii qaz müqaviləsi idi. Şahdəniz 2 yatağından çıxarılan təbii daş Qazın Türkiyə və Avropaya nəqlini təmin edən Cənubi Qafqaz Boru Kəməri, Anadolu Təbii Qaz Boru Kəməri (TANAP) və Trans-Adriatik Boru Kəmərindən (TAP) ibarətdir.

Cənub Qaz Dəhlizinin tikintisi iki ölkə arasında münasibətləri strateji müstəviyə gətirib. Beləliklə, münasibətlərini strateji müttəfiqlik əsasında quran Türkiyə və Azərbaycan Bakı-Tbilisi-Ceyhan Neft Kəməri, TANAP, Bakı-Tbilisi-Qars dəmir yolu xətti kimi layihələrə imza atdılar.Planlaşdırılan layihələrlə əlaqələri möhkəmləndirdilər.

4. Dördüncü mərhələ 44 gün davam edən II Qarabağ müharibəsi və ondan sonrakı dövrdür. Bu dövr Türkiyə-Azərbaycan münasibətlərinə strateji əhəmiyyət kəsb etdi.

İki ölkə arasında əməkdaşlığın səviyyəsi dərinləşib və pik həddinə çatıb. İki ölkə arasındakı münasibətlərdə "Bir millət, iki dövlət bir dövlət kimi fəaliyyət göstərir" prinsipi

həyata keçib. İkinci Qarabağ müharibəsi zamanı Türkiyə və türk xalqı Azərbaycanı ən yüksək və ən yüksək səviyyədə dəstəklədi. Türkiyə Azərbaycana siyasi və mənəvi dəstək verdi. Qələbədən sonra Ərdoğan və Əliyev 15 iyun 2021-ci ildə Şuşada "Şuşa bəyannaməsi"nin imzalanması ilə iki ölkə arasında əlaqələr daha yüksək səviyyəyə qaldırıldı və qardaş ölkələri strateji müttəfiqlərə çevirdi.

# TÜRK DÖVLƏTLƏRİ ARASINDA İNTEQRASİYA VƏ TURİZM SEKTORUNUN İNKİŞAFI: BİRGƏ SİYASƏTLƏRİN ROLU VƏ STRATEJİ HƏDƏFLƏR

**Gülbəniz Əliyeva**
**dosent**
**Mirəhməd Nəsirov**
**magistrant**
**Lənkəran Dövlət Universiteti**
**gulbeniz_aliyeva@mail.ru**
**nasirovmirahmad@gmail.com**

**Açar sözlər:** Türk dünyasında turizm, turizm strategiyaları, sosial mədəni strategiya

Tarixən türk torpaqlarında birlik və türk xalqlarının inteqrasiyası türkdilli xalqların can atdığı nüanslardan biri olmuşdur. Ümumtürk sosial-mədəni sferasının yenidən və daha dərin mənəvi-intellektual əsaslarda sistem bütövlüyünə qayıtması – planetin ən köklü sivilizasiya məkanlarından birinin müasir şəraitdə və formada yenidən parlaması deməkdir. Müstəqil türk dövlətlərinin hər birinin milli humanitar siyasəti onların Birliyə doğru hərəkətində uzlaşma məqamlarını taparaq konvergensiya olunmağa qadirdir. Türk dövlətləri arasında inteqrasiyanın humanitar aspektlərinin hədəflərinə vahid siyasi-mədəni məkanın linqvistik-klituroloji platformasının hazırlanması; Mədəniyyət və sivilizasiya dəyərlərinin konvergensiyası; Türk millətlərinin vahid və universal dövlətçilik ənənələrinə söykənilməsi; Türk siyasi əxlaqının və qabiliyyətinin dar məkanda deyil, bütövlükdə genişmiqyaslı Türk geopolitik regionunda optimallıq qazanmasının təsdiqi ən böyük misallardır. Türk respublikalarının birgə səyi ilə son iyirmi ildə davamlı olaraq keçirilən Türk xalqlarının dostluq, qardaşlıq və əməkdaşlıq qurultayları, türkdilli ölkələrin dövlət başçılarının zirvə toplantıları, türkdilli dövlətlərin əməkdaşlıq şurasının iclasları, TÜRKSOY çərçivəsində görüşlər, Türkdilli Ölkələrin Parlament Assambleyasının sessiyaları və s. tədbirlər böyük Türk dünyasını orqanik bütövlüyə qovuşdura biləcək fəaliyyətlərin miqyasını gündən-günə genişləndirir.

Bildiyimiz kimi, turizm sektoru qeyri neft sektoru olmaqla ölkə iqtisadiyyatında mühim payı olan sahələrdəndir. Turizm fəaliyyətləri, səyahətlər və tanışlıq, ölkə və xalqlar arası tolerans, mədəniyyət inteqrasiyası və siyasi stabil əlaqələr, həmçinin qlobal və regional birgə fəaliyyətlərin ideal arenası hesab olunur. Turizmin inkişafı regionun coğrafi resursları ilə yanaşı mədəni-maarif səviyyəsi, elm, incəsənət, kulinariya, təhsil, memarlıq və idealogiya kimi amillərin səviyyəsi ilə də bağlıdır. Türk dünyasında humanitar münasibətlərin inkişafı – ideologiya, mədəniyyət, elm, təhsil, ədəbiyyat, incəsənət sferasında müasir zaman üçün ortaq dəyəryaratma praktikası üzərində genişlənir və dərinləşir. BMT-nin Təhsil, Elm və Mədəniyyət Təşkilatı – YUNESKO son illər Türk sivilizasiyasının dünyaya bəxş etdiyi maddi və mənəvi mədəniyyət abidələrinə xüsusi həssaslıqla yanaşır və ümumtürk mədəniyyəti klassiklərinin yubileylərini beynəlxalq səviyyədə keçirir. Bu fəaliyyətlər regionun turizm potensialını və turist cəlbini arttırır. Turizm gəlirlərinin regionların və ümumilikdə ölkələrin iqtisadiyyatlarında rolu əvəzolunmazdır.

Bu baxımdan Türk dövlətlərinin birgə turizm strategiyaları nəinki sosial-mədəni inteqrasiyaya, həmçinin qarşılıqlı iqtisadi mənafeyə xidmət edir. Sentyabrın 25-də Qırğızıstan Respublikasının Cəlal-Abad şəhərində keçirilmiş Türk Dövlətləri Təşkilatına (TDT) üzv dövlətlərin Turizm nazirlərinin 9-cu iclası və Turizm üzrə işçi qrupunun 19-cu iclasında Dövlət Turizm Agentliyinin nümayəndə heyəti iştirak edib. İclas çərçivəsində Azərbaycan tərəfinin təşəbbüsü ilə yaradılmış Xizək Kurortları İttifaqı haqqında geniş məlumat verilib, hazırda 4 ölkənin (Azərbaycan, Qazaxıstan, Türkiyə və Özbəkistan) üzv

olduğu ittifaqa qoşulmağa digər TDT ölkələri də dəvət edilib. Bununla yanaşı, TDT çərçivəsində növbəti ilə ərzində keçirilməsi nəzərdə tutulan tədbirlərin gündəliyi müzakirə olunub, üzv dövlətlərin turizm şirkətləri və mövcud hava yollarının iştirakı ilə təşkil ediləcək B2B formatlı Turizm Forumunda iştirakda ölkəmizin maraqlı olduğu qeyd edilib. 2023-cü ilin 9 ayı ərzində Azərbaycana səfər edən Qazaxıstan(32%), Özbəkistan(59%), Türkiyə(20%), Macarıstan(91%), Qırğızıstan(78%), Türkmənistan(188%) vətəndaşlarının sayında artımlar müşahidə edilib. (cədvəl 1). Azərbaycanın 2023-cü ilin sonunadək ümumilikdə 2 milyona yaxın əcnəbi vətəndaşı qəbul edəcəyini, bu rəqəmin 2026-cı ildə 4 milyona çatmasının gözlənildiyini bildirilib, 2026-cı ildə turizmdən gələn gəlirlərin ümumilikdə10 milyard manata çatdırılması proqnozlaşdırılır.

Türk dövlətləri arasında turizm fəaliyyətlərinin artırılması üçün dövlət miqyasında birgə fəaliyyətlər, festivallar, otel və istirahət-əyləncə mərkəzləri kimi infrastrukturun inkişaf etdirilməsi, viza-passport proseslərinin asanlaşdırılması məqsədəuyğun addımlar ola bilər.

**AZƏRBAYCANLA TÜRKİYƏ İQTİSADİ ƏLAQƏLƏRİNDƏ TİCARƏT İMKANLARINDAN İSTİFADƏNİN İQTİSADİ REALLIQLARI**

**Gülbəniz Əliyeva**
**dosent**
**Vasif Zamanov**
**magistrant**
**Lənkəran Dövlət Universiteti**
**gulbeniz_aliyeva@mail.ru**
**vasifzamanov002@gmail.com**

**Açar sözlər:** pereferensial ticarət, istehsal, ticarət dövriyyəsi, qida məhsulları

Azərbaycanla Türkiyə arasında ticarət əlaqələrinin kökləri çox qədim tarixi ənənlərə söykənir. Təsadüfi deyildir ki, Azərbaycanın xarici ticarət dövriyyəsində əsas yer alan ölkələr sırasında Türkiyə 7.650.599,5 ABŞ dollar həcmində paya sahib olmaqla (İtaliya 15.685.971,6 ABŞ dolları) ikinci yerdədir. Bu dinamika əvvəlki illərlə müqayisədə artan tendensiya ilə davam etməkdədir.

Qrafik:1. Azərbaycanla Türkiyə arasında ticarət dövriyyəsinin dinamikası, min ABŞ dollar




Qrafik materialından göründüyü kimi iki ölkə arasındakı ticarət dövriyyəsinin həcmi artan dinamika üzrə (2020-ci il pandemiya səbəbindən azalma baş vermişdir) davam etmişdir. Müşahidələr göstərir ki, iki ölkə arasında olan ticarət əlaqələrinin dinamikasında olan artım tempi digər heç bir ölkə ilə müqayisədə qeydə alınmamışdır. 2023-cü ildə iki ölkə arasında olan ticarət dövriyyəsinin həcmi 2022-ci illə müqayisədə 1808104,5 min dollar və ya 23,7 % artmışdır.

Qeyd edək ki, ticarət əlaqələrinin 2020-ci ildən sonra sürətlə artması əsasən həmin ilin 25 fevral tarixində Azərbaycanla Türkiyə arasında Preferensial ticarət sazişinin təsdiq edilməsi olmuşdur. Preferensial (seçim) ticarət sazişinə görə malların hərəkəti zamanı gömrük tariflərin azaldılması və ya ləğvi ya da buna bənzər imkanlar yaradılır. Preferensial ticarət qabaqcadan seçilmiş və siyahısı tərtib edilmiş mallar üzərində tətbiq edilə bilər.

Sazişin tətbiq olunacağı güzəştli mallar siyahısında Azərbaycandan Türkiyəyə ixrac ediləcək kənd təsərrüfatı məhsulları - pendir, bəzi meyvə-tərəvəzlər, qara çay, şokolad və şirniyyat məhsulları, diabet xəstələri üçün alma, ərik və sair meyvə pürələri və sair məhsullar, Türkiyədən isə diabet xəstələri üçün nəzərdə tutulan qida məhsulları, qənnadı məmulatları, şokolad və şirniyyat məhsulları, qurudulmuş meyvə və sair məhsulları yer alıb.

Hazırda Azərbaycanda 4 minə yaxın Türkiyə şirkətləri fəaliyyət göstərir. Azərbaycanda fəaliyyət göstərən Türkiyə şirkətlərinin 300-dən çoxu müxtəlif layihələrdə 16 milyard dollar həcmində iş gördüyü bildirilir. 2022-ci ilə qədər Azərbaycan Türkiyə iqtisadiyyatına 18 milyard dollardan çox, Türkiyə isə Azərbaycan iqtisadiyyatına 12,5 milyard dollardan yuxarı sərmayə qoyub. İqtisadi əlaqələrin dərinləşdiyi bir şəraitdə bu sazişi seçimli (preferensial) ticarət anlaşmasından sərbəst ticarət anlaşmasına çevirmək daha məqsədəyuğun olardı.

Qrafik 2. Azərbaycanla Türkiyə arasında idxal-ixrac əməliyyatlarının dinamikası, milyard dollar




Qrafikdən göründüyü kimi, Azərbaycanla Türkiyə arasında idxal-ixrac əməliyyatlarında ticarət saldosu 2016-2022-ci illərdə mənfi olmuşdur və bu tendensiya getdikcə dərinləşməkdə davam edir. Artan ticarət dövriyyəsinin fonunda Azərbaycandan ixrac olunana məhsulların da həcmində dəyişiklik qeydə alınmışdır. Belə ki, 2021-ci ildə 225,2 milyard dollar həcmində məhsul ixrac olunmuşdursa, 2022-ci ildə bu göstərici 29,0 milyard dollar və ya 11,5 % artmışdır. Müşahidələrdən görünür ki, iki ölkə arasında olan ticarət dövriyyəsinin həcmi ildən ilə artmaqdadır.

# TÜRK DÜNYASININ İNTEQRASİYA MODELİNİN HƏDƏFLƏRİ

**Gülbəniz Əliyeva**
**dosent**
**Lənkəran Dövlət Universiteti**
**gulbeniz_aliyeva@mail.ru**

**Açar sözlər:** Türk dünyası, inteqrasiya, əməkdaşlıq

Son illər ərzində Türk dövlətləri arasında əməkdaşlıq öz səmərəliliyini sübut etmiş və yeni geosiyasi reallıq kimi vahid Türk dünyasının yaranmasına səbəb olmuşdur. Tarixi qardaşlıq əlaqələri, ortaq dil, mədəniyyət və adət-ənənələrdən ilhamlanan bu fenomen nəhəng Avrasiya materikində mühüm siyasi və iqtisadi nəticələr əldə etməyə imkan verib. Bu gün Türk dövlətləri özünəməxsus şəkildə inkişaf edən, əhatə dairəsi və miqyası getdikcə genişlənən əməkdaşlığı dəstəkləmək üçün böyük nailiyyətlərə imza atırlar. Türkdilli dövlətlərin başçılarının 2021-ci ildə İstanbulda keçirilən son Zirvə toplantısı Türk dünyasının birləşməsi baxımından tarixi dönüş nöqtəsi oldu. Vahid Türk dünyası artıq reallıq olsa da, hələ tamamlanmayıb. Bu, Türk dövlətlərinin iqtisadi inteqrasiyasına nail olmaq məqsədi daşıyan və hazırda davam edən bir prosesdir. Lakin inteqrasiya səylərinə yalnız iqtisadi baxımdan baxmaq düzgün olmazdı. Ortaq mədəni zənginliyi, dəyərləri, prinsipləri və maraqları təşviq etmək türk tərəfdaşlığının əsasını təşkil edir.

Bundan əlavə, türklərin inteqrasiya səyləri Türk coğrafiyasını öz daxilində və ətrafında sülh və sabitliyə töhfə verən, qlobal problemlərin həllində mühüm rol oynayan, təhlükəsiz və firavan bir cazibə və maarifləndirmə mərkəzi kimi formalaşdırmalıdır. Etiraf etmək lazımdır ki, Türk dünyasına inteqrasiya üçün bu gün daha əlverişli şərait yaranıb. Türk dövlətləri arasında əməkdaşlığın dönüş nöqtələrindən biri Türkdilli dövlət başçılarının 2019-cu ildə Bakıda keçirilmiş Zirvə Görüşü oldu. Bu toplantıda üzv dövlətlər gələcəkdə vahid mövqedən çıxış etməyə hazır olduqlarını bildirərək, münasibətlərini əməkdaşlıqdan tədricən inteqrasiya səviyyəsinə keçirməyi qərara aldılar. Məhz buna görə də Bakı Zirvə Görüşü birləşmiş türk dünyası istiqamətində atılmış ilk həlledici addım kimi yadda qalıb. Türk dövlətləri arasında əməkdaşlığın ən mühüm dönüş nöqtəsi 2021-ci ildə İstanbulda keçirilən ölkə başçılarının Zirvə Görüşü olub. Bu toplantıda türkdilli ölkələrin birliyi və bütövlüyü üçün, eləcə də türk dünyasının gələcək istiqamətini müəyyənləşdirən önəmli qərarlar qəbul edilib. İlkin olaraq, Türk Şurası Türk Dövlətləri Təşkilatı (TDT) adlandırıldı və tamhüquqlu beynəlxalq təşkilata çevrildi. İkincisi, təşkilata Türkmənistanın da cəlb olunması ilə məqsəd bütün Türk dünyasını birləşdirmək idi. Üçüncüsü, Zirvə Görüşünün iştirakçıları türkdilli ölkələrin inteqrasiya səylərini dəstəkləyən və əməkdaşlığın uzunmüddətli məqsədlərini müəyyənləşdirən "Türk dünyasına baxış - 2040" sənədini qəbul etdilər. TDT müxtəlif sahələrdə əməkdaşlığın daha da inkişaf etdirilməsi üçün səmərəli mexanizmə malik tamhüquqlu beynəlxalq təşkilat kimi özünü təsdiqləyib. Türk dövlətləri arasında əməkdaşlığın gündəliyi indi milli idarələrə, maraqlı tərəflərə və hədəf qruplara daha səmərəli şəkildə çatdırılır. TDT, həmçinin biznes mühitini yaxşılaşdırmaq və regiondaxili birbaşa xarici sərmayələri artırmaq məqsədilə öz investisiya proqramını işləyib hazırlayıb. Bundan başqa, sənayeləşmə, kiçik və orta sahibkarlığa dəstək (KOB) və ağıllı biznes modelləri sahəsində sıx əməkdaşlıq TDT-nin üzvü olan dövlətlər arasında əməkdaşlığa təkan vermişdir. Bundan əlavə, sənayeləşmə, kiçik və orta sahibkarlığa dəstək və ağıllı biznes modelləri sahəsində sıx əməkdaşlıq TDT ölkələrinin iqtisadi əməkdaşlığını müəyyən edib. Buna görə, TDT-nin üzvü olan ölkələrin xalqlarını bir-birinə daha da yaxınlaşdırmaq üçün mobillik problemlərini həll etmək məqsədilə əhəmiyyətli səylər göstərmişdir.

TDT akademik əməkdaşlığı təşviq edən və tələbələrin, müəllim və tədqiqatçı mobilliyini təşviq edən unikal təhsil proqramları təqdim edib. Məsələn, Türk Universitetləri Birliyi ali təhsil sahəsində hərtərəfli əməkdaşlıq prosesinə başlayıb, Orxon Mübadilə Proqramı isə müəllim və tələbələrin əhəmiyyətli mobilliyinə təkan verib. Digər tərəfdən, Türk Akademiyası tərəfindən ortaq tarix, coğrafiya və ədəbiyyat kitablarının hazırlaması özlüyündə mühüm bir nailiyyətdir. Azərbaycanın sədrliyi ilə 2020-ci il aprelin 10-da "COVID-19 pandemiyasına qarşı mübarizədə həmrəylik və əməkdaşlıq" mövzusunda Türk Şurasının növbədənkənar Zirvə toplantısı keçirilib. Əldə edilmiş nailiyyətlər, TDT ölkələrinin ehtiyacları haqqında dərin biliklər və müvafiq dövlət orqanları ilə hərtərəfli məsləhətləşmələr əsasında qurularaq, bu proqram 2040-cı ilə qədər olan dövr üçün türk dövlətləri arasında əməkdaşlığın strateji istiqamətini formalaşdıracaq aydın hədəflər təqdim edir. Əslində, "Türk dünyasına baxış 2040" proqramı TDT ölkələrinin münasibətlərini əməkdaşlıqdan tədricən inteqrasiyaya doğru aparır. Beləliklə, Türk dövlətlərindən məhsulların, xidmətlərin, kapitalın və yüksəkixtisaslı işçi qüvvəsinin maneəsiz axınına şərait yaratmaqla və qarşılıqlı asılılığın qaçılmaz olduğu nəqliyyat və enerji kimi həyati əhəmiyyətli sektorlarda əməkdaşlığı intensivləşdirməklə öz iqtisadi zonasını qurması gözlənilir. Bu baxımdan, bu proqram aşağıdakı məsələlər üçün bir çağırışdır: a) geniş spektrli beynəlxalq məsələlərdə vahid mövqedən çıxış etmək üçün siyasi birliyin inkişaf etdirilməsi; b) spesifik sahələrlə bağlı siyasətlərin və bütün müvafiq tənzimləyici çərçivələrin konvergensiyasının dəstəklənməsi; c) tam ticarət inteqrasiyasına nail olmaq; d) vahid investisiya məkanının yaradılması; e) rəqəmsal texnologiyaların daha yaxşı istifadəsinə şərait yaratmaq və rəqəmsal inteqrasiyanı həyata keçirmək; f) nəqliyyat və enerji əlaqələrinin təkmilləşdirilməsi və g) insanların daha çox mobilliyini təmin etməklə sosial və mədəni sahələrdə qarşılıqlı əlaqələrin artırılması.

2011-ci ildən sonra müxtəlif sahələrdə əməkdaşlıq daha da inkişaf edib. İqtisadiyyat, mədəniyyət, təhsil, nəqliyyat, turizm, media, İKT, gənclər və idman, səhiyyə və enerji nazirləri çərçivəsində keçirilən görüşlər bu günə qədər davam etməkdədir. TDT ölkələri arasında ümumi məhsul ixracı 2016-cı ildə 13,9 milyard ABŞ dolları olubsa, bu göstərici 2021-ci ildə 25,9 milyard ABŞ dollarına çatıb. TDT gündəliyində ticarətin sadələşdirilməsi, ticarət xidmətlərinin liberallaşdırılması və rəqəmsal ticarətin inkişafı ilə bağlı bir çox digər mühüm təşəbbüslər var ki, bunlar da ticarətin bu həcmini daha da artırmağı vəd edir.

TDT Transxəzər Nəqliyyat Dəhlizi (Orta Dəhliz) vasitəsilə səmərəli, sabit və fasiləsiz daşımaları sahəsində maneələri aradan qaldırmaq üçün nazirlər səviyyəsində ölkələri arasında nəqliyyat əlaqəsini və gömrük əməkdaşlığını təşviq edir. Bu baxımdan "Qardaş limanlar" layihəsi TDT ölkələrinin əsas limanları arasında kommersiya və institusional əməkdaşlığın qurulmasına, "Karvansaray" layihəsi isə sərhəd-keçid məntəqələrindən nəzarət prosedurlarının asanlaşdırılmasına töhfə verib. Beynəlxalq Birləşmiş Yük Daşımaları və Sadələşdirilmiş Gömrük Dəhlizinin yaradılmasına dair son sazişlər Orta Dəhlizin əhəmiyyətini və səmərəliliyini daha da artıracaq. Onu qeyd etmək lazımdır ki, nəqliyyat və tranzit prosedurlarının rəqəmsallaşdırılması inkişaf etməkdə davam edir.

Regiondaxili innovasiya ekosisteminin dəstəklənməsi, yaşıl transformasiya, insan kapitalının təkmilləşdirilməsi və qlobal dəyər zəncirlərinə daha yaxşı inteqrasiya olunmaq da bu proqramın prioritetləri sırasındadır. Türk dövlətləri inteqrasiya ilə bağlı gündəliklərini davam etdirməli və XXI əsrin çağırışlarına cavab verməyə hazırlaşmalıdırlar. Bu gün verəcəyimiz siyasi qərarlar və addımlar Türk dünyasının uzun illər inteqrasiya yolunda qalıb-qalmayacağını uzun illər müəyyən edəcək. Əminik ki, türk dövlətləri bundan sonra da əməkdaşlıq etmək əzmini nümayiş etdirəcək və daha güclü, daha yaxşı inteqrasiya olunmuş və daha sıx birləşmiş Türk dünyasına nail olacaqdır.

# TÜRK DÖVLƏTLƏRİ ARASINDA İNTEQRASİYA PROSESLƏRİ

**Gülbəs Rüstəmova**
**dosent**
**Könül Şirvani**
**assistent**
**Sumqayıt Dövlət Universiteti**
**gulbes.rustemova@mail.ru**
**konul.sirvani.75@mail.ru**

**Açar sözlər:** Türk dövlətləri, inteqrasiya, dünya iqtisadiyyatı, iqtisadi əməkdaşlıq, iqtisadi siyasət

Türk dövlətərinin özünəməxsus ortaq tarixi mədəni əlaqələri mövcuddur. Türkiyə, Azərbaycan, Qazaxıstan, Özbəkistan, Türkmənistan və Qırğızıstan müstəqil Türk dövlətləri kimi dünyada tanınır. Türk dünyası ölkələrində müxtəlif faydalı qazıntı yataqları mövcuddur. Bunlardan, neft, qaz, əlvan metallar, daş kömür, filiz və qeyri filiz yataqlarını qeyd etmək olar. Resurs potensialının mövcudluğu Türk dünyası ölkələrinin iqtisadi inkişafı üçün əsas amillərdən biri kimi çıxış edir.

Son illərdə bu dövlətlərin dünya iqtisadiyyatına inteqrasiya prosesləri və eyni zamanda öz aralarında iqtisadi əlaqələri güclənməkdədir. Türkiyə, Azərbaycan və Özbəkistanda ölkə iqtsadiyyatının şaxələndirilməsi istiqamətində atılan addımlar və bu sahədə aparılan islahatlar həmin ölkələrin iqtisadi modellərinin dəyişməsində təzahür olunur.

2009-cu ildə Naxçıvanda imzalanan müqavilə əsasında yaradılan Türk Dövlətləri Təşkilatı Türkiyə, Azərbaycan, Qırğızıstan və Qazaxıstan ölkələri arasında iqtisadi əməkdaşlığın genişləndirilməsində ortaq iqtisadi siyasət və digər layihələrin müzakirəsi üçün əsaslar yaratmışdır. 2019-cu ildə bu təşkilata Özbəkistan daxil olmuşdur. Türk Dövlətləri Təşkilatının üzv dövlətləri arasında birgə sənaye parkları, azad ticarət zonalarının yaradılması və digər əməkdaşlıq çərçivəsində həyata keçirilən layihələr nəticəsində ticarət həcminin artırılması hədəf olaraq seçilmişdir. Türk Dövlətləri Təşkilatının əsas vəzifələrinə üzv ölkələr arasında qarşılıqlı inamın gücləndirilməsi, bütün sahələrdə bu ölkələrin əməkdaşlığının möhkəmləndirilməsi, investisiyalar üçün münbit şəraitin formalaşdırılması və ticarət əlaqələrinin genişləndirilməsi məsələləri daxil edilmişdir.

2024-cü ilin 6 iyul tarixində Şuşada Türk Dövlətləri Təşkilatının rəhbərlərinin növbəti görüşü keçirilmişdir. Bu görüşdə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev çıxışında qeyd etmişdir ki, Azərbaycanın xarici siyasətində əsas hədəflərdən biri məhz Türk ölkələri ilə əlaqələrin genişləndirilməsidir və Türk dünyasının tarixində XXI əsri inkişaf əsri kimi qiymətləndirmişdir.

Türk dövlətləri arasında enerji sektorunda əməkdaşlıq böyük əhəmiyyət kəsb edir. Bu sahədə həyata keçirilən böyük layihələrdən BTC, TANAP və digər layihələri nümunə göstərmək olar. Türkiyə ilə Azərbaycan arasında enerji əməkdaşlığı Bakı-Tbilisi-Ərzurum, Cənub Qaz Dəhlizi kimi layihələrlə bir çox ölkələrin enerji təminatında mühüm rol oynayır. Burada bərpa olunan enerji mənbələri sahəsini də nəzərdən qaçırmaq olmaz. Bu sahədə yeni layihələrin reallaşması gözlənilir. Belə ki, Azərbaycan elektrik enerji sistemlərini Türk dövlətləri ilə əlaqələndirmək məqsədi ilə Qazaxıstan, Özbəkistan və Qırğızıstanla yaşıl enerji dəhlizləri layihələrini həyata keçirmək üçün əməkdaşlıq sazişlərinin imzalanmasını planlaşdırmışdır.

2025-ci ilin 16 sentyabr tarixində Bişkekdə Türk Dövlətləri Təşkilatının (TDT) energetika nazirlərinin görüşü keçirilmişdir. Bu görüşdə Azərbaycanın Energetika naziri

Şahbazov Pərviz çıxışında qeyd etmişdir ki, Azərbaycan TDT-nın üzv və müşahidəçi ölkələri (Şimali Kipr, Macarıstan və Türkmənistan) ilə 2023-cü ildə 9 milyard dollarlıq ticarət dövriyyəsinə sahib olmuş, qeyd olunan ölkələrin iqtisadiyyatına 20,3 milyard dollar investisiya yatırmış, həmin ölkələr isə Azərbaycan iqtisadiyyatına 18,2 milyard dollar həcmində investisiya yatırmışlar. Bu göstəricilər Türk dövlətləri arasında artıq kifayət qədər interqasiya proseslərinin gücləndiyini göstərir.

Türk dövlətləri arasında rəqəmsal texnologiyanın inkişafı, sürətli və sabit internet şəbəkələrinin genişləndirilməsi üzrə əməkdaşlıq çərçivəsində Türkiyə, Qazaxıstan və Azərbaycan bir sıra layihələrə imza atılmışdır. Buna nümunə olaraq Azərbaycan ərazisindən Avropa və Asiya arasında Xəzər dənizi vasitəsilə fiber-optik telekommunikasiya marşrutu üzrə Rəqəmsal İpək Yolu adlı layihəni qeyd etmək olar.

Hazırda Türk dünyası ölkələri arasında turist əlaqələrinin genişləndirilməsi, daha çox turistlərin cəlb edilməsi və səmərəli turizm layihələrinə üstünlük verilməsi, qarşılıqlı investisiyaların yönəldilməsi, turizm şirkətlərinin bu və ya digər ölkələrdə fəaliyyətinin təşkili və bunun üçün müvafiq şəraitin yaradılması məsələləri diqqət mərkəzindədir.

Şamaxı şəhərində 2022-ci ilin may ayında Türk dövlətləri təşkilatının turizm üzrə işçi qrupunun 17-ci iclası keçirilmişdir. Burada əsas məqsəd Türkdilli dövlətlər arasında birbaşa uçuş sayının artırılması, turizm sahəsində bilik və təcrübə mübadiləsinin aparılması və İpək yolu turizm potensialından səmərəli istifadənin təmin edilməsi nəzərdə tutulmuşdur.

Türk dövlətləri arasında əməkdaşlığın möhkəmləndirilməsi, iqtisadi inteqrasiyanın getdikcə dərinləşməsi həm siyasi, həm də iqtisadi baxımdan bu ölkələrin güclənməsinə gətirib çıxara bilər ki, bu isə gələcəkdə region dövlətlərin iqtisadi maraqları ilə necə uzlaşacağı ilə bağlı bəzi məsələlərin diqqət mərkəzində olmasını zəruru edir.

# BALQABAĞIN KİMYƏVİ TƏRKİBİ VƏ QİDALANMADA ROLU

**Gültac Əliyeva**
**magistrant**
**Mikayıl Məhərrəmov**
**professor**
**Lənkəran Dövlət Universiteti**
**gultaceliyeva699@gmail.com**
**mikailbyst@mail.ru**

**Açar sözlər:** balqabaq, qidalılıq, kimyəvi tərkib

Balqabağın vətəni Mərkəzi və Cənubi Amerikadır. Çiçəkləri tək-tək, ayrı-ayrı rəngdədir. Balqabaq çarpaz tozlanan bitkidir. Bitki üzərində meyvələr 1-3 ədəd yetişir. Yetişmə tozlanmadan 45-80 gün sonra baş verir.

Balqabaqlar yetişdirmə mühitindən, növündən və ya hissəsindən asılı olaraq qida maddələrinin tərkibində əhəmiyyətli fərqlərə malikdirlər.

Balqabaq qida sənayesində antioksidant və faydalı bioloji xüsusiyyətlər mənbəyidir. Balqabaq qiymətli tərəvəz və balqabaq bitkilərindən biridir, meyvələri və toxumları müalicəvi xüsusiyyətlərə malikdir pəhriz və müalicəvi qidalanmada istifadə olunur.

Balqabağın tərkibində çox miqdarda şəkər – 10%-ə qədər, pektin - 5,1%, karotin - 15 mq%, dəmir-1,3mq%, kalium- 220 mq%, mis – 181mkq%, kobalt- 7,1 mkq%, flüör-85 mg% - insan orqanlarına və funksiyalarına xüsusi təsirini müəyyən edir.

Eyni maddələr saxlama zamanı balqabağın özünün uzunömürlülüyünü təmin edir.

Yuxarıda sadalanan bioloji aktiv maddələrlə yanaşı, balqabaq p tərkibində (%) var: su-91, zülal-1,0, qida lifi- 0,6, üzvi turşular- 0,1, vitaminlər (mq%) $B_1$-0,046, $B_2$-0,064, $B_5$-0,401, B6-0,111, E-0,340, C-0,801, PP-0,501; makronutrientlər ( mq%): kalsium- 39-a qədər, maqnezium-14, kükürd-17, fosfor 24, xlor-17; iz elementləri (mkq%): manqan- 38-ə qədər, sink 230.

Xaricdə qida lifi ilə zənginləşdirilmiş balqabaq məhsullarının tərkibi və texnoloji xüsusiyyətləri ilə bağlı tədqiqatlar aparılır.

Qida liflərinin fizioloji dəyəri və mədə-bağırsaq traktının xəstəlikləri ilə mübarizədə rolu sübut edilmişdir.

Qida lifləri insan orqanizmində aşağıdakı funksiyaları yerinə yetirir: bağırsağın fəaliyyətini funksiyasını stimullaşdırır; xolesterolun udulmasına mane olur; bağırsaq mikroflorasının tərkibinin normallaşdırılmasında,çürük proseslərin qarşısının alınmasında müsbət rol oynayır; pozulması piylənməyə səbəb olan lipid mübadiləsinə təsir göstərir; safra turşularını adsorbsiya etmək; mikroorqanizmlərin həyati fəaliyyətinin zəhərli maddələrinin azalmasına və zəhərli elementlərin bədəndən çıxarılmasına kömək edir.

Qida lifi həzm olunmur, bağırsaq hərəkətliliyini tənzimləyir və nəcisin kütləsini artırır.

Balqabağın sarı rəngi tərkibindəki karotindən asılıdır. Karotinoidlər əczaçılıq potensialına malik bioloji aktiv birləşmələrdir.

Balqabağın tərkibində olan ən güclü antioksidantlardan biri beta-karotindir. Xərçəng, mutagen əleyhinə qarşı xüsusiyyətlərə malikdir, şiş hüceyrələrinin əmələ gəlməsinin qarşısını alır, immun sistemini gücləndirir, qan zərdabında lipidlərin səviyyəsinin normallaşmasına kömək edir və aterosklerozun qarşısının alınmasında mühüm amildir. Bədəndə beta-karotinin olması da yaxşı görmə qabiliyyətini təmin edir.

Əvvəlcə balqabağa provitamin A (β-karotin) mənbəyi kimi baxılırdı, sonra müəyyən olundu ki, bəzi balqabaqlar sağlamlıq üçün lazım olan başqa bir karotenoidi-luteini sintez edə bilir.

Bütün dünyada yetişdirilən çoxlu sayda balqabaq növü müxtəlif karotinoid tərkibi və buna görə də müxtəlif müalicə-profilaktik təyinatı var.

Balqabağın yüksək qidalılıq dəyəri, onkoloji və ürək-damar xəstəliklərinin, piylənmənin və s. qarşısının alınmasında istifadəsinin effektivliyi tədqiqatçıların müxtəlif balqabaq növlərinin biokimyəvi tərkibinə davamlı marağını müəyyənləşdirir.

# DÜYÜNÜN KADMİUMLA ÇİRKLƏNMƏSİ VƏ ONUN İNSAN SAĞLAMLIĞI ÜÇÜN TƏHLÜKƏ RİSKLƏRİ

**İlahə Məlikzadə**
**magistrant**
**Mikayıl Məhərrəmov**
**professor**
**Lənkəran Dövlət Universiteti**
**ilahemelikzade922@gmail.com**
**mikailbyst@mail.ru**

**Açar sözlər:** düyü, torpaq, təhlükəsizlik, çirklənmə, kadmium

Ağır metalların artıqlığı insan orqanizmində baş verən normal fizioloji prosesləri pozur. Məhsulların ağır metallardan təmizlənməsindən əmin olmaq üçün hər tarlanın ən təhlükəli ağır metallarla çirklənmə ehtimalını kimyəvi analizlərlə dəqiqləşdirmək lazımdır. ÜST-nın məlumatına görə, kadmium insan orqanizminə təsir edən ən təhlükəli kimyəvi maddələr arasında 5-ci yeri tutur. Bu metal adətən ətraf mühitdə az miqdarda olur. Lakin insan fəaliyyəti nəticəsində kadmiumun səviyyəsi hər il tədricən artır.

Kadmium yer kürəsində mövcud olan təbii metaldır və ətraf mühitin ən təhlükəli toksikantlarından birirdir. Düyüyə kadmium əsasən torpaq vasitəsi ilə düşür. Torpaqda kadmiumun yol verilə bilən qatılığı yəni buraxıla bilən qatılığı 5 mq/kq-dır. Zəhərli ağır metal olan kadmium düyüdə asanlıqla toplanır və daha sonra həzm sistemi vasitəsilə insan orqanizminə ötürülür və onun sağlamlığı üçün ciddi təhlükə yaradır. İnsanlar tərkibində kadmium olan qidalar qəbul etdikdə qaraciyərdə, sümüklərdə, böyrəklərdə, ağciyərdə və bədənin digər hissələrində toplanır. Kadmiumun orqanizmdə uzun müddət yığılması zəhərlənmələrə səbəb olur böyrəklərə zərər verir, eyni zamanda sümüklərin zədələnməsi və sümük ağrıları baş verir. "Itai-itai" xəstəliyi kadmiumla çirklənmiş düyü yeyən insanların zəhərlənməsi nəticəsində yaranan xroniki xəstəlikdir. "Itai-itai" xəstəliyi ilk dəfə 1950-ci ildə Yaponiya həkimləri tərəfindən təsvir edilmişdir. Tərkibində kadmium olan qidaların uzun müddət istifadəsi Itai-itai xəstəliyinə səbəb olur. Simptomlara bel, əllər, ayaqlar və digər oynaqlarda oynaq ağrıları aid edilir. Xəstəliyin sonrakı mərhələlərində xəstənin sümükləri yumşalır və atrofiyaya uğrayır, ətraflar əyilir, onurğa sütunu deformasiyaya uğrayır, sümüklər kövrək olur. Kadmium zədələnməsinin əsas təzahürlərinə aşağıdakılar daxildir:

1. Baş ağrısı
2. Başgicəllənmə
3. Şiddətli öskürək və yuxarı tənəffüs yollarının qıcıqlanması
4. Gözlərin selikli qişalarının qıcıqlanması
5. Dəridə solğunluq
6. Ürəkbulanma və qusma
7. Nəfəs almada çətinlik
8. Hərarətin yüksək olması

Kadmiumun insan orqanizminə uzun müddətli təsiri mərkəzi sinir sisteminin zədələnməsinə, bir sıra orqanların funksiyalarının pozulmasına, yaddaşın itirilməsinə, görmə və ürək-damar sisteminin zədələnməsinə səbəb olur. Həmçinin kadmium qanda olan dəmirlə reaksiyaya girərək onu kənarlarşdırır və nəticədə qan azlığı yəni anemia kimi xəstəliklərin də yaranmasına səbəb olur.

Düyü ən çox istehlak edilən qida məhsullarından biridir. Düyü torpaqdakı toksinlərdən, pestisidlərdən və gübrələrdən kadmium kimi ağır metalları tez bir zamanda mənimsəyərək milyonlarla insanın sağlamlığının pozulmasına səbəb olur. Torpağa isə kadmium gübrələrin tərkibindən keçir, oradan isə bitkilərə daxil olur və qida qəbulu nəticəsində insan orqanizmində toplanır. Bəzi ekspertlərin araşdırmaları zamanı onlar belə bir nəticəyə gəlmişdilər ki, fosfat gübrəsinin həddindən artıq istifadəsi düyünün kadmiumla kəskin şəkildə çirklənməsinə səbəb olur. Eyni zamanda kənd təsərrüfatında kalsium superfosfatın normadan çox istifadə edilməsi bitkilərdə kadmium birləşmələrinin miqdarını artırır.

ÜST-nın kadmium üçün təhlükəsizlik standartları həftədə hər kiloqram bədən çəkisi üçün 7 mikroqram yuxarı həddi ilə böyrək toksikliyinə əsaslanır. Sağlam adamın bədəninə gün ərzində 48 mq kadmium daxil olması təhlükəli hesab edilmir. Yetkin yaşlı insanlar 1 sutkada qida rasionu ilə bədən çəkisinin hər kiloqramına 150 mkq və daha çox kadmium qəbul edir. Bir siqaretdə 1-2 mkq kadmium olur və ona görə də, siqaret çəkən insanların qanında kadmiumun miqdarı siqaret çəkməyən insanlara nisbətən 1-2 dəfə çox olur. Araşdırmalar göstərir ki, orqanizmə düşən kadmiumun 80%-i qida ilə, 20%-i isə atmosferdən ağciyərlərə və siqaret vasitəsi ilə daxil olur. Kadmium əsasən ion şəklində daha təhlükəlidir və o tərkibində Zn olan fermentlərin fəaliyyətini xeyli zəiflədir, həmçinin hüceyrədə membran keçiriciliyini pozur.

Yuxarıda qeyd olunan halların qarşısını almaq məqsədilə kənd təsərrüfatı gübrələrinin istifadəsinin buraxıla bilən hədd daxilində istifadə edilməsi, həmçinin düyü və düyü məhsullarının hərtərəfli tədqiq ediləməsi müasir dövrdə ən ümdə məsələlərdən biridir.

# TÜRK DÖVLƏTLƏRİNDƏ E-TİCARƏT PLATFORMALARININ İNKİŞAFI VƏ GƏLƏCƏK PERSPEKTİVLƏRİ

**Leyla Yusubzadə**
**müəllim**
**Lənkəran Dövlət Universiteti**
**leylayusubzada@gmail.com**

**Açar sözlər:** e-ticarət, iqtisadiyyat, Türk dövlətləri

Son dövrlərdə elektron ticarət sektoru iqtisadiyyatın sürətlə inkişaf edən sahələrindən birinə çevrilmişdir. Beynəlxalq Ticarət Mərkəzinin məlumatlarına əsasən, 2023-cü ildə qlobal e-ticarət dövriyyəsi təxminən 5.8 trilyon ABŞ dollarına çatmışdır və proqnozlar 2027-ci il üçün bu rəqəmlərin təxminən 8 trilyon ABŞ dollarına ötəcəyini və 39 faiz artacağının gözlənildiyini qeyd edir. Son illərdə texnologiyaların inkişafı, internetin genişlənməsi və istehlakçıların post-pandemiya dövründən sonra onlayn alış-verişə meyillənməsi e-ticarət sektorunun genişlənməsini təmin etmişdir.

Qlobal e-ticarətin inkişafı türk dövlətlərində də aydın şəkildə müşahidə olunur. Elektron ticarətin inkişafı yeni bazar imkanlarının yaranmasından əlavə eyni zamanda Türk dövlətləri arasında qarşılıqlı iqtisadi əlaqələrində güclənməsinə gətirib çıxarmışdır. Dünya Bankının hesabatlarına əsasən, Türk dövlətlərində internet istifadəçilərinin sayı 2023-cü il üçün 60%-dən çox artmışdır və bu, e-ticarət sektorunun inkişafı üçün əsas amillərdən biri hesab oluna bilər. Türk dövlətlərində qlobal e-ticarət platformaları ilə yanaşı yerli e-ticarət platformalarıda inkişaf etmiş və qarşılıqlı iqtisadi əlaqələrin möhkəmlənməsində son illərdə böyük rol oynamışdır. 2023-cü ildə Türkiyənin ən böyük e-ticarət platformalarından biri olan Trendyol, Azərbaycan bazarında fəaliyyət göstərmək və iqtisadi münasibətləri gücləndirmək üçün Paşa Holdinqlə tərəfdaşlıq müqaviləsi imzalamışdır. E-ticarətin inkişafı türk dövlətlərində fərqli rəqəmsal iqtisadiyyata dəstək verən məhsul və xidmətlərin bazara çıxarılmasına səbəb olmuşdur.

Azərbaycan Respublikasının e-ticarət sektorunda inkişafı və yerli brendlərin xaricə vahid məlumat bazasında toplanılaraq satılması üçün Prezident İlham Əliyevin "Azərbaycan Respublikasında istehsal olunan malların vahid məlumat bazasının yaradılması haqqında" 21 sentyabr 2016-cı ildə imzalanan Sərəncamı əsasında Azexport portalı yaradılmışdır. Portal Azərbaycan istehsalı olan ixracyönümlü məhsulların xarici bazarlarda “Made in Azerbaijan” brendi adı altında təşviqinə dəstək verir. Eyni zamanda bu platforma bzines mühitinin inkişafı və ixrac potensialının artırılması üçün yerli sahibkarlara logistika, sertifikatlaşdırma, ödəniş və.s sahələrdə dəstək göstərir. Azərbaycanda e-ticarət sahəsində yerli bazarda fəaliyyət göstərən digər platformalardan umico.az, kontakt.az, bravo.az və.s onlayn alış-veriş saytlarını qeyd edə bilərik.

Türkiyə, e-ticarət sektorunda Türk dövlətləri arasında ən inkişaf etmiş ölkədir. Trendyol, N11 və Hepsiburadaglobal kimi platformalar, geniş məhsul çeşidi təklif etməsi ilə yanaşı eyni zamanda müştəri dostu olması ilə e-ticarət sektorunda diqqət çəkməyə davam edir. 2022-ci ildə Türkiyədə yerli e-ticarət dövriyyəsi 350 milyard TL-ə çatmışdır. Bu platformalar, istehlakçılara yerli istehsalçıların məhsullarını asanlıqla tapmaq imkanı tanıyır.

Qazaxıstanda da yerli elektron ticarətin inkaşfı sürətlə davam edir. Chocotravel və Sulpak kimi platformalar, turizm və elektronika məhsulları üzrə ölkədə liderdir. 2023-cü ildə Qazaxıstanda e-ticarət dövriyyəsi 15% artmışdır. Bu platformaların yaradılmasında əsas məqsəd yerli məhsulların qlobal bazara çıxarılmasına dəstək olmaqdır.

Özbəkistanda yerli e-ticarət platformaları, xüsusilə qida və gündəlik ehtiyac məhsulları sahəsində inkişaf etmişdir. Nümunə olaraq OLX.Uz və ZoodMall kimi platformaların adlarını qeyd edə bilərik. Bu platformalar müştərilərə öz zövqlərinə uyğun gündəlik tələbat məhsulları seçimində geniş seçim imkanı təqdim edir. 2022-ci ildə Özbəkistan e-ticarət dövriyyəsi 20% artmışdır. Yerli platformalar, qlobal markaların müştərilər tərəfindən qəbul edilməsində də təsirli olmuşdur.

Türk dövlətlərində elektron ticarət sektorunun inkişafı üçün bir çox perspektivlər mövcuddur. Logistika infrastrukturlarırın gücləndirilməsi, rəqəmsal ödəniş sistemlərinin inkişafı, istehlakçıların onlayn alış-veriş davranışlarına araşdırılması və təşviqinin artırılmasına çalışılması lazımdır. Əlavə olaraqda, yerli sahibkarların e-ticarət platformalarından istifadəsinə və ixraca təşviq edilməsi imkanı yaradılmalıdır. Türk dövlətləri arasında da e-ticarət sektoru ilə bağlı əməkdaşlıqların artırılması, məhsul çeşidinin genişlənməsinə və müştəri bazasının artırılmasına bu sahəsinin inkişafına imkan yaradacaqdır.

# AZƏRBAYCANIN TÜRK DÖVLƏTLƏRİ İLƏ İQTİSADİ VƏ MƏDƏNİ ƏMƏKDAŞLIĞI YENİ MƏRHƏLƏDƏ

**Məhəmməd Hüseynov**
**dosent**
**Fəridə Mikayılova**
**baş müəllim**
**Azərbaycan Dövlət Pedoqoji Universitetinin Ağcabədi filialı**
**sahibanasirova1963@mail.ru**
**huseynovrovsen763@gmail.com**

**Açar sözlər:** prioritet, investisiya, qloballaşma, Zirvə görüşü, TÜRKSOY, TÜRKPA, strateji, inteqrasiya

Ötən əsrin sonlarında dünyada baş verən geosiyasi dəyişikliklər nəticəsində müstəqil Türk dövlətləri yaranmışdı. Qloballaşan dünyanın yeni çağırışları ilə üzləşən Türk xalqları beynəlxalq aləmdə birgə hərəkət etmək zərurətini dərk etdilər. Nəticədə ötən əsrin 90-cı illərindən başlayaraq türkdilli ölkələrin dövlət və hökumət başçılarının vaxtaşırı keçirilən zirvə toplantıları iqtisadi və mədəni əməkdaşlığın genişləndirilməsi, ortaq mənəvi irsin qorunması və təbliği baxımından əvəzsiz rol oynamışdır. Mütəmadi olaraq Türk dövlətlərinin başçılarının zirvə görüşlərinin keçirilməsi Beynəlxalq Türk Mədəniyyət Təşkilatının (TÜRKSOY) yaradılması, Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının (Türk Şurası) formalaşması, Türkdilli Ölkələrin Parlament Assambleyasının (TÜRKPA), Türk Akademiyası, Türk mədəniyyəti və Miras fondu, Türk Biznes Şurası kimi regional təşkilatların qurulması məhz bu zərurətdən irəli gəlmişdir. Yuxarıda göstərilən qurumlar yaradıldıqdan sonra türkdilli ölkələr arasında mövcud olan əməkdaşlıq daha da təkmilləşdirilmiş, yeni mərhələyə qədəm qoymuşdur.

Beləliklə, Türk dövlətlərinin Liderləri siyasi, iqtisadi, mədəni və digər sahələrdə əlaqələrin daha da güclənməsinə xidmət edən sistemli və davamlı fəaliyyətin əsasını qoymaqla əbədi qardaşlıq bağlarının möhkəmlənməsinə zəmin yaratmış oldular. Məlum olduğu kimi, Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurası (Türk Şurası) türkdilli dövlət başçılarının 3 oktyabr 2009-cu il tarixində Azərbaycanın qədim şəhərlərindən olan Naxçıvanda keçirilən Zirvə görüşündə Cənab Prezident İlham Əliyevin ev sahibliyində imzalanmış Naxçıvan Sazişinə əsasən yaradılmışdır. Azərbaycan, Qazaxıstan, Qırğızıstan və Türkiyə təşkilatın ilk təsisçi üzvləridir. Sonradan digər Türk dövlətləri də həmin təşkilata daxil olmuşlar. 2013-cü ildə Dövlət başçılarının Zirvə görüşü Qəbələ şəhərində keçirilmişdir. Bu da Azərbaycanın türkdilli dövlətlər arasında nə qədər inamlı və əvəzsiz körpü rolunu oynadığının bariz nümunəsidir. Ortaq tarix, ortaq dil, ortaq kimlik və ortaq mədəniyyət kimi 4 əsas prinsip üzərində qurulmuş olan Türk Şurası özünü bu ümumiliklərlə məhdudlaşdırmır. Daha doğrusu təşkilat üzv dövlətlər arasında iqtisadiyyat, elm, təhsil, nəqliyyat, turizm və digər müxtəlif sahələr kimi mövcud ikitərəfli əməkdaşlıq sahələrini genişləndirəcək. Regiona fayda verməsi üçün çoxtərəfli əməkdaşlıq formatına çevrilmək niyyəti daşıyır. Türk Şurası eyni zamanda, tarixi İpək Yolunun bərpası, regional Türk diasporu mərkəzlərinin qurulması kimi əhəmiyyətli mövzularda önəmli qərarlar qəbul etmişdir.

Eyni zamanda, Türk Akademiyası, Türk Mədəniyyəti və Miras fondu kimi təşkilatlar Azərbaycanla digər Türk dövlətləri arasında elm, təhsil və mədəni humanitar əlaqələrin

inkişafına böyük töhfələr verir. Bu təşkilatlar vasitəsilə türkdilli ölkələr həm öz milli-mənəvi kimliyini qoruyur, həm də siyasi-iqtisadi cəhətdən daha da böyük güc kimi təmsil olunurlar.

Türkdilli ölkələr arasında əlaqələr hər keçən gün artmaqda və inkişaf etməkdədir. Türkdilli xalqları ortaq mədəniyyət, adət-ənənələr, milli-mənəvi və dini dəyərlər, tarixi köklər və etnik əlaqələr birləşdirir və bu amillər qarşılıqlı səmərəli fəaliyyət üçün əsas təməldir. Bu əlaqələrin əhatə dairəsi çox genişdir. Beynəlxalq Türk Mədəniyyət Təşkilatının olan TÜRKSOY Türk dünyasının milli-mənəvi irsinin qorunması, inkişafı və təbliği istiqamətlərində mühüm vəzifəni həyata keçirir. Türkdilli dövlətlər coğrafi-strateji baxımından dünyanın əhəmiyyətli bölgəsində yerləşir.

Türkdilli dövlətlər regionda öz aralarında əməkdaşlıq etməklə bərabər, başqa ölkələrlə də dostluq və qarşılıqlı anlaşma şəraitində münasibətlərini inkişaf etdirirlər. Ona görə də türkdilli ölkələr arasında Türk Şurası və TÜRKPA kimi təşkilatlar digər üzv olmayan ölkələr və təşkilatlar üçün hər zaman açıq olmuşdur. Prezident İlham Əliyev və digər Türk dövlətlərinin Liderləri dəfələrlə öz bəyanatlarında bunu xüsusi olaraq vurğulamışlar ki, bizimlə qarşılıqlı əməkdaşlığa maraq göstərən bütün təşkilatlar və ölkələr bu qurumlara inteqrasiya edə bilərlər.

Bundan əlavə, türkdilli dövlətlərin qurulması bir sıra nüfuzlu beynəlxalq təşkilatlarla qarşılıqlı faydalı əməkdaşlıq edirlər. Türk Şurası BMT Ümumdünya Ticarət Təşkilatı, ATƏT və digər nüfuzlu təşkilatlarla mükəmməl dialoq qurmuşdur. TÜRKPA, İslam Əməkdaşlıq təşkilatı, Parlament İttifaqı, Beynəlxalq Parlamentlərarası İttifaq, Asiya Parlament Assambleyası və digər təşkilatlarla sıx əməkdaşlıq edir. Beynəlxalq əməkdaşlıq çərçivəsində, TÜRKSOY qeyri-maddi-mədəni irsin qorunması ilə bağlı UNESCO ilə birgə fəaliyyətlər həyata keçirməklə əlaqələri inkişaf etdirir.

Siyasi, mədəni əlaqələrlə yanaşı Türk dövlətlərini bir-birinə bağlayan iqtisadi əlaqələr də mövcuddur. Təqdirəlayiq haldır ki, Türkdilli ölkələr arasında iqtisadi münasibətlər hər il inkişaf edir, ticarət əlaqələri genişlənir. Təkcə 2017-ci ildə Azərbaycanın Türk Şurası ölkələrli ilə ticarət dövriyyəsi 11,4%, 2018-ci ilin 8 ayı ərzində isə 16% artıb, Azərbaycan Türk Şurası ölkələrinə 14 milyard ABŞ dollardan çox, Türk Şurası ölkələri isə Azərbaycan iqtisadiyyatına 12 milyard dollardan artıq sərmayə yatırıb. (2018 -ci ilin statistikasına görə).

Bu iqtisadi əlaqələri daha da genişləndirmək üçün Bakı-Tiflisi-Qars dəmir yolu xətti Avropanı Asiya ilə birləşdirən ən qısa və etibarlı yoldur. Bu yol vasitəsilə ilk mərhələdə 5 milyon ton, sonrakı mərhələdə 17 milyon ton, ondan sonra isə daha böyük həcmdə yüklərin daşınması nəzərdə tutulmuşdur.

Son illərdə Türk dövlətləri təşkilatının sıraları əhəmiyyətli dərəcədə möhkəmlənib. Quruma üzv olan dövlətlər arasında ümumi ticarət dövriyyəsinin həcmi 30 milyard dollara yaxınlaşıb. Tərəflər arasında həm qarşılıqlı şəkildə, həmdə TDT çərçivəsində ticarət dövriyyəsinin artırılması davamlı şəkildə yaxşılaşıb, əlaqələrin dahada güclənməsi məqsədilə genişmiqyaslı layihələr reallaşıb.

Ötən il (2023-cü il) TDT-nin Zirvə görüşündə dövlətimizin başçısı İlham Əliyev çıxış edərək bununla bağlı bir sıra məqamlara toxunub. Ölkə rəhbəri bu təşkilata üzv olan dövlətlər arasında münasibətlərin möhkəmləndirilməsinin Azərbaycanın xarici siyasətinin əsas prioritetlərindən biri olduğunu, artıq beynəlxalq səviyyədə böyük siyasi çəkiyə və nüfuza malik qurum kimi tanındığını diqqətə çatdırıb. Prezident İlham Əliyev daha sonra respublikamızın TDT iqtisadiyyatına 20 milyard dollardan çox sərmayə qoyduğunu və bunun əsas hissəsinin Türkiyəyə yönəldiyini də qeyd edib.

Azərbaycan Türk dövlətləri arasında əməkdaşlığın dərinləşməsi prosesində aparıcı rola malik ölkələrdəndir. Rəsmi Bakı Türk dövlətlərinin inteqrasiyası üçün fəal siyasi təşəbbüslərlə çıxış edir. Nəticədə Respublikamızın Türk dövlətləri ilə iqtisadi və mədəni əlaqələri getdikcə möhkəmlənir və bu istiqamətdə yüksək göstəricilər aydın nəzərə çarpır. Bu

baxımdan Azərbaycanın sıx, tarixi əlaqələrə malik Türk dövlətlərindən biri olan Türkiyə ilə münasibətləri daha çox diqqət çəkir.

Ölkələrimiz arasında imzalanmış sənədlər o cümlədən investisiyaların təşviqi və qarşılıqlı qorunması haqqında sazişlər ikitərəfli hüquqi bazanı dahada möhkəmləndirib. İndiyədək iki ölkə arasında yüzlərlə işgüzar tədbir, biznes formları və ixrac missiyaları həyata keçirilib. Azərbaycan-Türkiyə qardaşlığı iqtisadi tərəfdaşlığın inkişafında xüsusi önəm daşıyır. Türkiyə Azərbaycanın ikinci əsas ticarət tərəfdaşıdır. 2023-cü ilin 11 ayında ticarət dövriyyəmiz 7.2 milyard dollar təşkil edib. Bu göstərici 2022-ci ilin analoji dövrü ilə müqayisədə 33 faiz artıb.

Azərbaycan xarici ölkələrdə, ən çox investisiyanı Türkiyəyə yatırıb. Həmçinin ölkəmizdə neft-qaz sektoruna investisiya yatıran ölkələr sırasında Türkiyə 1-ci yerdə qərarlaşıb.

Azərbaycanın digər türkdilli dövlətlər olan Özbəkistan, Qazaxıstan, Qırğızıstan və Türkmənistan ilə əməkdaşlığında ticarət-iqtisadi əlaqələr xüsusi yer tutur.

Regionda yaranmış yeni reallıqlar çərçivəsində nəqliyyat-kommunikasiya xətlərinin açılması istiqamətində aparılan işlər və postmünaqişə dövrünün reallığı olan Zəngəzur Dəhlizi Türk dövlətləri üçün yeni fürsətlər yaradır. Bu əlaqələr Prezident İlham Əliyevin Türk dövlətlərinə rəsmi və işgüzar səfərləri, o, cümlədən Türk dövlətləri liderlərinin ölkəmizə səfərləri zamanı aparılan danışıqlar zamanı imzalanmış sənədlər əsasında daha da möhkəmlənir. Türk dövlətləri ilə qarşılıqlı səmərəli əməkdaşlıq Azərbaycanın sürətli iqtisadi inkişafına təkan verir, onu regionun aparıcı dövlətinə çevirir.

## TÜRK DÖVLƏTLƏRİ ARASINDA ƏMƏKDAŞLIĞIN İNKİŞAFINDA ƏSAS MƏRHƏLƏLƏR

**Natiq Qarayev**
**dosent**
**Kamran Bayramov**
**magistrant**
**Lənkəran Dövlət Universiteti**
**natiq_qarayev@rambler.ru**
**kamran13ayramov@gmail.com**

**Açar sözlər:** əməkdaşlıq, Türk dövlətləri, institusional

Müasir Türk dünyasının əməkdaşlıq prosesi rəsmi olaraq 1992-ci ildə türkdilli ölkələrin liderlərinin tarixdə ilk dəfə Ankarada bir araya gəlməsi ilə başlayıb. Bu, öz müqəddəratını təyin etmək arzusunda olan bütün T ürk xalqları üçün ilhamverici hadisə idi. 1992-2009-cu illərdə dövlət başçılarının səkkiz Zirvə görüşü keçirilib. Onlar həmrəyliyin gücləndirilməsi və türkdilli dövlətlərin cəmiyyətlərinin müxtəlif sahələrdə hərtərəfli əməkdaşlığına istiqamət vermək üçün nadir platforma yaratdılar. Daha sonra bu Zirvə görüşləri Türk dövlətləri arasında əməkdaşlığının mərhələli şəkildə institusionallaşmasına zəmin yaratdı. Bu xüsusda, 1993-cü ildə türkdilli xalqları mədəniyyət və incəsənət vasitəsilə bir-birinə daha da yaxınlaşdırmaq üçün mərkəzi ofisi Ankarada olan Beynəlxalq Türk Mədəniyyəti Təşkilatı (TÜRKSOY) yaradıldı. Digər tərəfdən, mərkəzi ofisi Bakıda olmaqla 2008-ci ildə yaradılmış Türkdilli Ölkələrin Parlament Assambleyasının (TÜRKPA) türkdilli dövlətlər arasında əməkdaşlığa sadiqliyi dəstəkləyən əsl işçi parlament forumuna çevrildi.

İllər keçdikcə müxtəlif sahələrdə artan əməkdaşlıq türkdilli dövlətlərin əməkdaşlıq prosesini koordinasiya etmək üçün ayrıca mərkəzi təşkilatının yaradılması tələb olunurdu. Qazaxıstan Azərbaycan, Qazaxıstan, Qırğızıstan və Türkiyə arasında Naxçıvan Sazişinin imzalanması ilə 2009-cu ildə rəsmi fəaliyyətə başlayan Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının (Türk Şurası) yaradılmasında vasitəçi rolunu öz üzərinə götürdü. Beləliklə, Türk Dövlətləri Təşkilatının yaradılması ilə Türk dünyası özünün regional siyasətini fəal şəkildə həyata keçirən aktora çevrilib.

Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurası 2018-ci ildə Macarıstana müşahidəçi statusu verməklə və 2019-cu ildə Özbəkistanın tamhüquqlu üzv kimi təşkilata qoşulması ilə coğrafi baxımdan daha da genişlənib. Türkmənistan 2021-ci ildə rəsmi olaraq bu təşkilata qəbul edilib. Bu gün Türk dövlətləri əməkdaşlığının daha geniş olduğunu, eləcə də hər bir Türk dövlətinin bu əməkdaşlıq prosesindən faydalandığını və bu prosesə töhfə verdiyini görmək sevindirici haldır.Türk dövlətləri arasında əməkdaşlığın dönüş nöqtələrindən biri Türkdilli dövlət başçılarının 2019-cu ildə Bakıda keçirilmiş Zirvə Görüşü oldu. Bu toplantıda üzv dövlətlər gələcəkdə vahid mövqedən çıxış etməyə hazır olduqlarını bildirərək, münasibətlərini əməkdaşlıqdan tədricən inteqrasiya səviyyəsinə keçirməyi qərara aldılar. Məhz buna görə də Bakı Zirvə Görüşü birləşmiş Türk dünyası istiqamətində atılmış ilk həlledici addım kimi yadda qalıb.

Türk Dövlətləri Təşkilatına üzv ölkələr arasında əlaqələrin möhkəmləndirilməsi və təşkilat çərçivəsində əməkdaşlığın qurulması artıq daha aydın görünür. Türk Dövlətləri Təşkilatına bütün üzv ölkələrin gözləntiləri siyasi baxımdan daha güclü tərəfdaşlıqdan, iqtisadi cəhətdən genişlənmiş iqtisadi fürsətlərdən və təkmilləşdirilmiş kommunikasiyadan,

eləcə də geosiyasi baxımdan daha çox sabitlik və təhlükəsizlikdən faydalanmaqdır. Türk Dövlətləri Təşkilatı çərçivəsində əməkdaşlıq Baş katib, İstanbulda yerləşən Katiblik və Budapeştdəki nümayəndəlik tərəfindən əlaqələndirilir. Katiblik dövlət başçılarının qərarlarının həyata keçirilməsində operativ qurum kimi çıxış edir və digər yüksək səviyyəli forumlarda razılaşdırılmış tədbirlərin həyata keçirilməsində hökumətlərə kömək göstərir. Katiblik, həmçinin ehtiyacların müəyyən edildiyi, lakin əməkdaşlıq mexanizmlərinin mövcud olmadığı sahələrdə yeni regional təşəbbüslər üçün mühüm inkubator rolunu oynayır. Beləliklə, yuxarıda adları çəkilən TÜRKSOY və TÜRKPA ilə yanaşı, Türk Akademiyası, Türk Mədəniyyəti və İrsi Fondu, Türk Ticarət və Sənaye Palatası, Türk Şurası Gənclər Platforması, Türk Universitetlər Birliyi, Türk İş Şurası da daxil olmaqla, əlaqəli və törəmə qurum və şəbəkələrin sayı artmaqdadır. TDT ölkələrinin əməkdaşlığa sadiqliyi Katibliyə öz mandatını uğurla yerinə yetirməyə imkan verib. Katiblik bütün hökumətləri ilə sıx əməkdaşlıq edir və müxtəlif əməkdaşlıq sahələrində bir çox regional proqramlar hazırlayır və onların icrasını dəstəkləyir. Ən əsası, bu illər ərzində TDT-nin katibliyi üzv ölkələrin dəyişən tələbatlarını nəzərə alaraq müvafiq siyasətin hazırlanması işini müəyyən etmək baxımından səmərəliliyini sübut edib.

Otuz il ərzində Türk dövlətləri arasında əməkdaşlıqla bağlı xeyli irəliləyiş və kifayət qədər güclü nailiyyətlər əldə olunub. TDT ölkələri arasında tarixi əlaqələr planlı və davamlı əməkdaşlığa çevrilib. Bir sıra nazirlərin görüşlərinin keçirilməsi ilə müvafiq sahələrlə bağlı əməkdaşlıq gücləndirilib. TDT müxtəlif sahələrdə əməkdaşlığın daha da inkişaf etdirilməsi üçün səmərəli mexanizmə malik tamhüquqlu beynəlxalq təşkilat kimi özünü təsdiqləyib. Türk dövlətləri arasında əməkdaşlığın gündəliyi indi milli idarələrə, maraqlı tərəflərə və hədəf qruplara daha səmərəli şəkildə çatdırılır. Hətta son bir neçə ilin təhlili göstərir ki, TDT və ona bağlı və tabe olan qurumların həyata keçirdiyi fəaliyyətlərin intensivliyi heyranedicidir. Türkdilli ölkələr arasında əməkdaşlığın koordinasiyasının daha da gücləndirilməsi: Katiblik ilə digər əlaqəli və törəmə qurumlar arasında əməkdaşlıq illər ərzində əsaslı koordinasiya prosesinə və Türk dünyasında əməkdaşlığın dərinləşdirilməsinə uyğun artan sinerjiyə çevrilmişdir. TDT-nin Əməkdaşlıq Təşkilatlarının Koordinasiya Komitəsi bu istiqamətdə mühüm rol oynamaqda davam edir. Beynəlxalq təşkilatlarla əməkdaşlığın genişləndirilməsi: TDT Katibliyi müxtəlif proqram və layihələrin daha çox koordinasiyasını təşviq etmək üçün tərkibində TDT-nin üzv ölkələrinin də daxil olduğu bir çox mühüm beynəlxalq təşkilatlarla sıx əlaqələr yaradıb. Bundan əlavə, Budapeştdəki nümayəndəlik TDT-ni və onun fəaliyyətini Avropa ölkələrində təşviq edir, eləcə də Avropa qurumları ilə əlaqələri gücləndirir. Daha sıx iqtisadi əlaqələr: TDT öncədən ölkələrinin böyümə və inkişaf prioritetlərini dəstəkləmək, onlar arasında ticarət və investisiyaları artırmaq üzərində çalışıb. Mütəmadi olaraq müvafiq nazirlər və işçi qruplarının görüşləri ilə yanaşı, TDT özəl sektorun fəal iştirakına imkan yaradıb və biznes ictimaiyyəti ilə daha sistemli əməkdaşlıq təqdim edib. Bu səylərdə nəticələrin əldə olunmasında Türk İşgüzar Şurasının fəaliyyəti və biznes forumların mühüm rolu olub. Bundan başqa, Türk Ticarət və Sənaye Palatasının və Türk İnvestisiya Fondunun yaradılması ilə bağlı qərarlar iqtisadi sahədə əməkdaşlığın daha da inkişaf etdirilməsi üçün ümidvericidir. Türk İnvestisiya Fondu fəaliyyətə başladıqdan sonra tədqiqat və innovasiyalar da daxil olmaqla, kiçik və orta sahibkarlığın gücləndirilməsinə və sahibkarlığın inkişafına dəstək verəcək. TDT, həmçinin biznes mühitini yaxşılaşdırmaq və regiondaxili birbaşa xarici sərmayələri artırmaq məqsədilə öz investisiya proqramını işləyib hazırlayıb. Bundan başqa, sənayeləşmə, kiçik və orta sahibkarlığa dəstək (KOB) və ağıllı biznes modelləri sahəsində sıx əməkdaşlıq TDT-nin üzvü olan dövlətlər arasında əməkdaşlığa təkan vermişdir. Bundan əlavə, sənayeləşmə, kiçik və orta sahibkarlığa dəstək və ağıllı biznes modelləri sahəsində sıx əməkdaşlıq TDT ölkələrinin iqtisadi əməkdaşlığını müəyyən edib.Turizm sahəsində əməkdaşlığa yeni

təkan: TDT dövlətləri zəngin mədəni-tarixi irsi və müxtəlif təbii cazibədarlığı ilə böyük turizm potensialına malikdir. "Müasir İpək Yolu Birgə Tur Paketi" layihəsi bu turizm potensialından istifadə etmək və inkişaf etdirmək üçün bir vasitə kimi hazırlanıb. Bu məqsədlə müxtəlif tədbirlər, sərgilər, festivallar, təlim proqramları, səyahət turları həyata keçirilib. Bu yaxınlarda turizmi şəhərlər səviyyəsində təşviq etmək üçün "Türk Dünyası Turizm Paytaxtı" layihəsinə start verilməklə turizm sahəsində əməkdaşlıq daha da sürətlənmişdir. Digər tərəfdən, "Təbərrük Ziyorat" layihəsinin TDT dövlətlərinin müqəddəs məkanlarına turistlərin marağını artıracağı gözlənilir. Bu il, turizm nazirləri "Türk dövlətlərinin ən yaxşı turizm kəndləri" təşəbbüsünün irəli sürülməsi və turizm agentlikləri assosiasiyaları arasında əlaqələrin qurulması barədə razılığa gəliblər.

# DÜYÜNÜN ARSENLƏ (MƏRGÜMÜŞ) ÇİRKLƏNMƏSİ VƏ ONUN İNSAN SAĞLAMLIĞI ÜÇÜN TƏHLÜKƏ RİSKLƏRİ

**Nigar Fatullazadə**
**magistrant**
**Mikayıl Məhərrəmov**
**professor**
**Lənkəran Dövlət Universiteti**
**fatullazadenigar10@gmail.com**
**mikailbyst@mail.ru**

**Açar sözlər:** düyü, arsen çirklənməsi, təhlükəsizlik

Düyü kənd təsərrüfatı dənli bitkiləri arasında olan ən qədim bitki olub, birillik bitki kimi tanınır. Düyü orqanizmdə asan həzm olunduğuna görə pəhriz qidasında geniş istifadə olunur. Buna görə də o, pəhriz qidasının əsasını təşkil edir. Düyü ilə yanaşı onun həlimidə orqanizm üçün olduqca faydalıdır. Ondan mədə-bağırsaq xəstəliklərinin müalicəsində istifadə olunur. Düyü digər dənlilərə nisbətdə qida dəyərliliyinə görə xeyli yüksəkdir. Onun tərkibində orta hesabla 6% zülal, 88% nişasta, 0,6% su, 0,5% yağ, 0,5% şəkər vardır. Qeyd edim ki, hər kiloqram düyü dənində 67 qram zülal vardır. Düyüdən müxtəlif qida, o cümlədən iaşə məhsullarının, xüsusilə plovların hazırlanmasında geniş istifadə olunur, tərkibində zülal az, kleykovina isə yox dərəcəsindədir.

Düyü həmçinin vitaminlərlə zəngindir. Onun tərkibində suda həll olan B qrupu vitaminlərinin hamısı, PP, E və D vitaminləri ilə zəngindir. Bildiyimiz kimi B qrup vitaminləri beyin sağlamlığı üçün vacib sayılır. D vitamini isə sümük inkişafı üçün mühüm rol oynayır. Düyü insan bədənini enerji ilə təmin edir, həzm fəaliyyətini yaxşılaşdırır, bədənin vitamin ehtiyacını ödəyir. Çünki onun tərkibində orqanizm üçün vacib olan sink, yod, dəmir, kalsium, fosfor kimi mineral maddələr vardır.

Düyü bitkisi Çində, Yaponiyada, Hindistanda bizim eramızdan 4-5 min il əvvəl becərilmişdir. Çin və Hindistan dünyada düyü istehsalının 56%-dən çoxunu təmin edir. Azərbaycan ərazisinə isə bu bitki İran və Orta Asiya respublikalarından gətirilərək becərilməyə başlanmışdır. Qeyd edim ki, düyü dayaz sularda becərilən yeganə dənli bitkidir. Düyü bitkisi su sevən bitki olduğundan onun becərilməsi zamanı tarlada müəyyən təbəqə su olması vacibdir. Onun yetişmə müddəti 30-40 gün təşkil edir. Hal-hazırda yüksək keyfiyyətli məhsul alınması üçün düyü bitkisi əkilən sahələrə müxtəlif üzvi və qeyri- üzvi gübrələr verilir. Bu prosesin nəzarətsiz həyata keçirilməsi bitkidə ağır metalların, orqanizm üçün zərərli maddələrin toplanmasına səbəb olur. Düyünün əsas çirkləndiricisi kimi arseni (mərgümüşü) qeyd edə bilərik. Düyünün arsenlə çirklənməsi, qida təhlükəsizliyi baxımından ciddi bir problem olaraq ortaya çıxır. Arsen, təbii mühitdə yer alan bir yarımmetal olduğu üçün torpaq, su və bitkilər vasitəsilə ərzaq məhsullarına keçə bilər. Düyü bitkisi düyü sahəsində arsenin müvafiq forma olan qeyri-üzvi arsenini toplamağa meyillidir. Bu, insanların istehlak etdikləri qida məhsulları vasitəsilə arsenin bədənə daxil olmasına səbəb olur. Uzun müddət ərzində yüksək miqdarda arsen istehlakı, xroniki xəstəliklərə, ürək- damar xəstəlikləri və sinir sistemi problemlərinə yol aça bilər. Uşaqların arsenlə çirklənmiş düyü istehlakı, onların inkişaf və sağlamlığında daha ciddi təsirə malik ola bilər. Sözsüz ki, uşaqların toksinlərə qarşı daha həssas olduğu məlumdur.

Düyünün təhlükəsizliyini təmin etmək üçün bir neçə mühüm amil var. Bunlar arasında:

1. Yuyulma: Düyü bişirmədən əvvəl yaxşıca yuyulmalıdır. Bu, üzərindəki toz, kimyəvi maddələr və bakteriyaları aradan qaldırmağa kömək edir.
2. Qaynama və Bişirmə: Düyü yaxşı istiliklə bişirilməlidir. Düyü tam bişmədikdə, bəzən zərli bakteriyalar sağ qala bilər.
3. Saxlama: Bişirilmiş düyü 2 saat ərzində soyudulmalı və daha sonra soyuducuda saxlanmalıdır.
4. İstifadə Tarixi: Saxlama tarixlərinə diqqət etmək vacibdir. Soyuducuda saxlanılan düyü 2 gündən çox qalarsa, zərərli mikrofloranın inkişafı mümkündür.

Göstərilən və digər tədbirlər düyünün istehlakının insan orqanizmi üçün təhlükə risklərini azaltmağa imkan verir.

# BİZNESDƏ İNNOVASİYA VƏ RƏQABƏT QABİLİYYƏTİ ARASINDA QARŞILIQLI ƏLAQƏ

**Orxan Şükürov**
**dissertant**
**Azərbaycan Dövlət İqtisad Universiteti**
**orxan@inbox.ru**

**Açar sözlər:** biznes, innovasiya, rəqabət qabiliyyəti, üstünlük, potensial və əlavə

Biznes strukturunun rəqabət qabiliyyəti bir neçə komponentdən-ideyanın, məhsulun, istehsal və satış sisteminin səmərəliliyi və dayanıqlılığından formalaşan mürəkkəb bir sistemdir. Amma sahibkarlığın innovativ modelinin inkişafı rəqabətin qiymət formalarından qeyri-qiymət formalarına keçməsinə səbəb olur. Fərdi istehlakçı seçimlərinin müəyyən edilməsi və təmin edilməsi, müştərilər üçün dəyər yaratmağın ən təsirli yollarının tapılması kimi aspektlər ön plana çıxır. Daha uzun müddətli üstünlüyün əldə edilməsi üçün şirkətlər istehlakçıların tələbat və ehtiyaclarını öncədən görərək rəqiblərin malik olmadığı məhsul, xidmət və s. yaratmalıdırlar. Fərqlilik ideya şəklində ola bilən və onun orijinallığı sayəsində standart fəaliyyətlə müqayisədə innovasiya prosesi yüksək gəlir və effektivlik əldə etməyə imkan verir. Bu şərtlərdə biznes strukturunun rəqabət qabiliyyəti həm xarici, həm də daxili amillərdən asılı olaraq çoxölçülü bir forma alır. Nəzərə almaq lazımdır ki, innovasiya həmişə tamamilə müsbət bir hadisə deyil. Bəziləri üçün sıçrayış və yeni imkanlar deməkdirsə, digərləri üçün isə bazarın itirilməsi və problemlər deməkdir. Bu problem yeni texnologiyaların tətbiqi nəticəsində işçilərin kütləvi ixtisarı qorxusunu yaradır. Buna görə də işçilər, hətta özləri üçün mənfi nəticələrdən qorxan menecerlər tərəfindən yeniliklərə gizli müqavimət var. Bu, bir tərəfdən düşünülməmiş innovasiyaları aradan qaldırmağa imkan verir, digər tərəfdən isə inkişafa ciddi əngəl törədə və nəticədə rəqabət qabiliyyətinin itirilməsinə səbəb ola bilər.

Biznes strukturun rəqabət qabiliyyəti onun bazar şəraitində rəqabət üstünlükləri mənbələrini real üstünlüklərinə çevirmək strategiyasını həyata keçirmək qabiliyyətidir. Uğurla rəqabət aparmaq üçün şirkət nəinki geniş resurs bazasına malik olmalı, həm də onu daim innovativ şəkildə inkişaf etdirməlidir. Bu, rəqabət üstünlüklərini vaxtında təmin etməyə imkan verir. Həmçinin şirkətin potensialının innovativ inkişafı, rəqabətqabiliyyətli məhsulların istehsalı və satışı ilə əldə edilir ki, bu da son nəticədə sahə üzrə orta göstəricidən daha yüksək nailiyyət əldə etməyə imkan verir. Bu baxımdan şirkətin rəqabət üstünlüyü ilə onun innovativ potensialı arasında bir əlaqənin olması müşahidə edilir və bunu aşağıdakı cədvəldən görmək olar.

**Cədvəl 1.**

**Şirkətin rəqabət üstünlüyü ilə innovativ potensialı arasında əlaqə**

| Rəqabət üstünlüyü mənbələri | İnnovativ əsaslı potensial |
|---|---|
| Əmək məhsuldarlığı | İnnovativ istehsal potensialı - əsas fondların vəziyyəti, texnologiya səviyyəsi, məhsulun keyfiyyəti, əmək məhsuldarlığı, patentlərin sayı, yeni məhsulların payı |
| İstehsal olunan məhsulların yüksək keyfiyyəti, texniki səviyyəsi | |
| İxtisaslı kadrlar | Kadr potensialı - kadrların ixtisası, motivasiya sistemi, korporativ mədəniyyət |
| Effektiv idarəetmə, idarəetmənin strateji düşüncəsi | İdarəetmə potensialı - idarəetmə keyfiyyəti, strateji baxış, çeviklik |

| | |
|---|---|
| Effektiv təşkilati struktur | Təşkilati potensial - təşkilati struktur, biznes prosesləri, keyfiyyətin idarə edilməsi sistemi |
| Resurslara və texnologiyalara çıxış | Maliyyə və informasiya vəziyyəti - sabitlik, ödəmə qabiliyyəti, gəlirlilik, kapital strukturu, texnologiya və avtomatlaşdırma səviyyəsi, informasiya sistemlərinin keyfiyyəti. |
| Güclü brend və imic | Marketinq potensialı - bazar bilikləri, tanıtım səmərəliliyi, marka gücü |
| İnkişaf etmiş satış şəbəkəsi | |

Rəqabət qabiliyyətinin səviyyəsinin yüksəldilməsi iki əsas yolla: birincisi, rəqabət qabiliyyətinin kəmiyyət göstəricilərinin yaxşılaşdırılması, ikincisi, biznes strukturunun rəqabət qabiliyyətinə təsir edən keyfiyyət meyarlarının təkmilləşdirilməsi yolu ilə əldə edilir. Biznes strukturun innovativ inkişafını və rəqabət qabiliyyətini effektiv idarə etmək üçün şirkətin potensialı və bazardakı rəqabət mövqeyini müəyyən edən bütün amillər kompleksini qiymətləndirməyə imkan verən sistemli yanaşma tələb olunur.

Ən uğurlu innovativ ölkələr həm innovasiya, həm də sahibkarlıq potensialına malik olurlar. İnnovasiya və rəqabətqabiliyyətlilik arasındakı əlaqə iqtisadi tərəqqinin dinamik dövrəsini formalaşdırır. İnnovasiyalar şirkətlərə bazarda fərqlənməyə, səmərəliliyi artırmağa və istehlakçılar üçün yeni dəyər yaratmağa imkan verir. Eyni zamanda, rəqabət mühiti davamlı təkmilləşmə üçün stimullar yaradaraq, gələcək innovasiyaları stimullaşdırır. İnnovasiya və rəqabətlilik birinin elementinin digərini gücləndirdiyi bir növ "çevrə"ni təşkil edir. Bu bir növ qarşılıqlı asılılığa çevrilir və innovativ fəaliyyət rəqabət qabiliyyətini artırır, rəqabət mühiti isə öz növbəsində gələcək innovasiyaları stimullaşdırır. Bu qarşılıqlı əlaqələri başa düşmək innovativ iqtisadiyyatın effektiv şəkildə idarə etmək və inkişaf etdirmək istəyən siyasətçilər və biznes liderləri üçün uzunmüddətli uğurun açarına çevrilir.




**Sxem 1. İnnovasiya və rəqabət qabiliyyətlilik arasındakı əlaqə**

İnnovasiya ilə rəqabət qabiliyyəti arasında qarşılıqlı əlaqəni nəzərə alaraq şirkətlərə bu istiqamətdə aşağıdakılar tövsiyə olunur:

–Ümumi biznes strategiyası ilə innovasiya strategiyası uyğunlaşdırılması;

–Yeni imkanları müəyyən etmək üçün bazarı və müştəri ehtiyaclarının, innovasiya ilə rəqabət qabiliyətinin yuxarıda qeyd edilən səkkiz prinsip əsasında hərtərəfli təhlilinin aparılması;

–İdeyaların yaradılması, layihələrin seçilməsi, həyata keçirilməsi və kommersiyalaşdırılması proseslərini özündə birləşdirən innovasiyaların idarə edilməsi sisteminin yaradılması;

–Təşkilat daxilində yaradıcılığı və risk almağı təşviq edən innovativ mədəniyyətin formalaşdırılması və inkişaf etdirilməsi. Hazırda şirkətlər üçün əsas problem ilkin innovatorların əqli mülkiyyət hüquqlarını qorumaq və innovasiyaların sürətli yayılmasını arasında balansı tapmaqdır;

–Həm daxili, həm də xarici tərəfdaşlarla əməkdaşlıqda tədqiqat və inkişafa investisiyanın qoyulması və ya cəlb edilməsi;

–Bütün biznes proseslərinə müasir texnologiyalar və rəqəmsal həllərin tətbiq edilməsi;

–Təlimlər və istedadların cəlb edilməsi ilə işçilərin innovasiya bacarıqlarının inkişaf etdirilməsi;

–Yeni məhsulların hazırlanması və bazara çıxarılması üçün çevik metodologiyalardan istifadə edilməsi, bilik və resursları bölüşmək üçün tərəfdaşlıq və ittifaqların yaradılması;

–İnnovasiya fəaliyyətlərinin mütəmadi olaraq monitorinq və auditinin aparılması və yanaşmalara düzəlişin edilməsi.

**TURİZMİN XÜSUSİ İQTİSADİ ZONALARIN YARADILMASINDA TÜRK DÖVLƏTLƏRİNİN ROLU**

**Rövşən Ələkbərov**
**dosent**
**İlkin Bayramov**
**magistrant**
**Lənkəran Dövlət Universiteti**
**rovsen1234@bk.ru**
**ilkinbayramov13@gmail.com**

**Açar sözlər:** xüsusi iqtisadi zonalar, turizm narketinqi, turizm təhlükəsizlik standartları

Türk dövlətləri turizm sahəsi üçün iqtisadi zonaların yaradılması üçün inkişaf perspektivləri nümayiş edir. Zonalar, gömrük rüsumlarının aşağı olması, sərmayə cəlb etmək üçün əlverişli şərtlər və infrastrukturun yaxşılaşdırılması kimi üstünlüklər təklif edir. Genişlənən turist axını Türk dövlətləri arasında iqtisadi əməkdaşlıq və vizasız rejim turistlərin rahat səyahət etməsini təmin edir. Bu tədbirlər turist axınının artmasına səbəb olur. Turizm infrastrukturunun inkişafı ölkədə turizm infrastrukturu turizm sektorunun uğurlu fəaliyyətinin və davamlı inkişafının ən mühüm komponentidir. İqtisadi zonalarda otellər, kurortlar, turizm mərkəzləri və digər infrastruktur layihələr üçün investisiya şəraitinin yaxşılaşdırılması aiddir. Bu da turizm obyektlərinin inkişafına şərait yaradır. İxtisaslaşmış turizm yönləri, turizm fəaliyyətinin spesifik sahələrə yönəldiyi və müəyyən bir maraq dairəsinə uyğunlaşdırıldığı turizm növlərini əhatə edir. Xüsusi iqtisadi zonalar müəyyən bölgələrdə tematik turizm növlərinin inkişafına şərait yarada bilər. Məsələn, ekoturizm, mədəni turizm, tibbi turizm və s.

Qrafik 1 : 2023-cü il  ölkələr üzrə turistlərin hərəkəti




| | **Türkiyə** | **Türkmənistan** | **Qazaxıstan** | **Özbəkistan** | **Qırğızıstan** |
|---|---|---|---|---|---|
| **gəlmə** | 756408 | 52030 | 116144 | 79326 | 11658 |
| **getmə** | 1629622 | 34950 | 98820 | 24246 | 2028 |

Mənbə:Dövlət Statistika Komitəsi

Turizm Təhlükəsizliyi və Standartları: Zonalarda standartların artırılması və təhlükəsizlik tədbirlərinin təkmilləşdirilməsidə çoxlu beynəlxalq turisti cəlb etmək imkanı yaradır.

Rəqabət üstünlüyü: Türk dövlətləri arasında əməkdaşlıq rəqabətliliyi artıracaq və turizm sahəsində dünya bazarında daha böyük rol oynamağa imkan verir. Mədəni əlaqələrin genişlənməsi Türk dövlətləri arasındakı mədəni əlaqələrində turizmin inkişafı üçün mühüm rol oynayır. Burada mədəni tədbirlər, festivallar və turizm proqramları daha çox ziyarətçi cəlb edir. Bu zonaların yaradılması yalnız turizm sahəsində deyil, həmçinin iqtisadiyyatın inkişafına müsbət təsir edir, çünki xarici investisiyaların cəlb edilməsinə və məşğulluğun artmasına səbəb olur. İnfrastrukturun inkişafı xüsusi iqtisadi zonaların yaradılması, yol, hava nəqliyyatı və digər turizm infrastrukturunun inkişafına təkan verə bilər. Bu, turistlərin rahatlığını artırar və səyahət təcrübəsini yaxşılaşdırar.

Ticarət və investisiyalar üçün imkanlar iqtisadi zonalarda investorlara cəlbedici şərtlər təklif edə bilər. Xüsusi turizm obyektləri, otellər, kurortlar və digər infrastruktur layihələri üçün xarici və yerli sərmayələrin cəlb edilməsi mümkün ola bilər. Marketinq və brendləşmədə Türk dövlətləri birgə turizm marketinq kampaniyaları ilə regionu vahid bir turizm məkanı kimi təqdim edə bilərlər. Bu cür əməkdaşlıq qlobal turizm bazarında rəqabət qabiliyyətini artırmağa kömək edə bilər. Çoxşaxəli turizm məhsullarının inkişafı xüsusi iqtisadi zonalarda turistlərə müxtəlif növ turizm xidmətləri təqdim etməklə turizmin mövsümi olmasını azalda bilər. Sağlamlıq turizmi, qış turizmi, aqroturizm və ekoturizm kimi fərqli sahələrin inkişafı, regionda turizmin davamlı şəkildə artmasına kömək edəcək. Ətraf mühitin qorunması və dayanıqlı inkişaf iqtisadi zonalarda turizmin ekoloji təsirlərinə nəzarət edilərək dayanıqlı turizm siyasətləri tətbiq oluna bilər. Bu zonalar ətraf mühitə mənfi təsirləri minimuma endirərək turizmin davamlı inkişafına kömək edəcək. Maliyyə dəstəyi və güzəştlər iqtisadi zonalarda fəaliyyət göstərən turizm obyektlərinə dövlət tərəfindən müxtəlif maliyyə dəstəyi və vergi güzəştləri təklif edilə bilər. Bu, xüsusilə yeni yaranan və ya inkişaf etməkdə olan turizm obyektlərinin daha tez böyüməsinə və dayanıqlı olmasına şərait yaradar. Bütün bu məqamlar birlikdə Türk dövlətləri arasında turizm sahəsində iqtisadi zonaların yaradılmasının çoxşaxəli bir inkişaf mexanizmi olduğunu və regionun iqtisadi rifahına əhəmiyyətli təsir göstərə biləcəyini göstərir.

**AZƏRBAYCANDA ƏHALİNİN GİGİYENİK VASİTƏLƏRƏ OLAN TƏLƏBATININ ÖYRƏNİLMƏSİNİN BƏZİ ASPEKTLƏRİ**

**Seymur Məmmədov**
**magistrant**
**Rafiq Çobanov**
**professor**
**Azərbaycan Tibb Universiteti**
**semistans57@gmail.com**
**rafiqcobanov6@gmail.com**

**Açar sözlər:** gigiyenik vasitələr, əhali, marketinq, tələbat

Məlumdur ki, qlobal dünyada olduğu kimi, Azərbaycan Respublikasında da inkişaflar, ekologiya və innovasiyalar gigiyena məhsullarına üstünlük və tələblərdə dəyişiklikləri formalaşdırır. İşdə müasir cəmiyyətdə şəxsi gigiyenanın artan əhəmiyyətinə, eləcə də pandemiya kimi qlobal böhranların gigiyena məhsulları bazarının dinamikasına təsirinə diqqət yetirilmişdir.

Tədqiqatın məqsədi cəmiyyətin müasir çağırışlarını və tələblərini nəzərə alaraq gigiyena məhsullarının vəziyyətini dərindən öyrənmək və bu məhsullara tələbat dinamikasını araşdırmaqdır.

Vəzifələr:

- Gigiyena məhsulları bazarının vəziyyətinin təhlili: gigiyena məhsulları bazarında əsas tendensiyaların, istehsalçıların və yeniliklərin öyrənilməsi;
- İstehlakçı tələbinin qiymətləndirilməsi: istehlakçı tələbinə təsir edən amillərin, o cümlədən sosial, iqtisadi və sağlamlıq aspektlərinin öyrənilməsi;
- İstehlakçı davranışındakı dəyişikliklərin təhlili: ictimai şüurun və istehlakçı seçimlərinin dəyişməsinin gigiyena məhsulları bazarına necə təsir etdiyinə dair araşdırmaların aparılması;
- Məhsulun keyfiyyətinin və təhlükəsizlik standartlarına uyğunluğunun qiymətləndirilməsi: gigiyena məhsulları istehsalçılarının keyfiyyət və məhsulun təhlükəsizliyi tələblərinə necə cavab verdiyini öyrənmək;
- Sağlamlıq amillərinin tələbata təsirinin təhlili: sağlamlığın, o cümlədən tibbi aspektlər, profilaktika və psixoloji təsirlərin gigiyena məhsullarına olan tələbata təsirinin nəzərə alınması;
- Böhranların və pandemiyaların təsirinin qiymətləndirilməsi: pandemiya kimi qlobal böhranların bazar dinamikasına və gigiyena məhsullarına tələbata necə təsir etdiyini araşdırmaq.

Araşdırmaların nəticələri gigiyena məhsulları bazarının vəziyyətini, onların sağlamlığa və istehlakçı məmnunluğuna təsirini daha dərindən başa düşməyə kömək edəcək ki, bu da öz növbəsində həm istehsalçılar, həm də istehlakçılar üçün effektiv strategiyaların hazırlanması üçün əsas ola bilər.

Gigiyena məhsullarının tarixi bəşər sivilizasiyasının inkişafı ilə sıx bağlıdır. Əsrlər boyu insan öz gigiyena təcrübələrini təkmilləşdirməyə çalışıb və gigiyena məhsulları bu prosesin ayrılmaz hissəsinə çevrilib. Qədim dövrlərdə insanlar şəxsi gigiyenanı qorumaq üçün parçalar və bitki materialları kimi sadə gigiyena məhsullarından istifadə edirdilər. Zaman keçdikcə texnologiyanın və mədəniyyətin inkişafı ilə gigiyena vasitələrinin ilk formaları, o cümlədən müxtəlif növ sabunlar, ətirli yağlar və s. meydana çıxmışdır. XIX əsrdə Sənaye İnqilabı və elmi kəşflər daha təsirli gigiyena vasitələrinin yaradılmasına səbəb oldu. Standart sabun qablarının, diş fırçalarının və uşaq bezlərinin ilk formalarının yaranması

gigiyena məhsulları sənayesinin inkişafında mühüm mərhələ oldu. XX əsrdə sintetik liflər və polimerlər kimi müasir materialların meydana çıxması ilə gigiyena məhsullarının istehsalı daha səmərəli və rahat olmuşdur. Bu gün gigiyena məhsulları sənayesi uşaq bezləri, şəxsi qulluq məhsulları, qadın gigiyena məhsulları və digərləri daxil olmaqla geniş çeşiddə məhsullar təqdim edir.

Gigiyena məhsullarının səhiyyədə rolu: Müasir cəmiyyətdə gigiyena vasitələrinin səhiyyədə rolu getdikcə daha çox əhəmiyyət kəsb edir. Bu məhsullar müxtəlif xəstəliklərin qarşısının alınmasında və ümumi gigiyenanın qorunmasında əsas rol oynayır. Onların təsirinin əsas sahələrini nəzərdən keçirək:

1. İnfeksiya və bakteriyalara qarşı qorunma: sabun, antiseptiklər, intim gigiyena məhsulları kimi gigiyena məhsulları bakteriya və infeksiyalara qarşı qorunmanı təmin edir. Onlar dərinin sağlamlığını qorumağa və patogenlərin yayılmasının qarşısını almağa kömək edən bir maneəyə çevrilirlər.
2. Şəxsi gigiyena: diş fırçası, diş pastası, şampun, duş geli kimi gigiyena məhsulları pis qoxunun, ağız boşluğunun xəstəliklərinin, dəri problemlərinin qarşısını alaraq şəxsi gigiyenanı təmin edir.
3. Körpə və uşaq baxımı: uşaq bezləri, yaş salfetlər, körpə təmizləyici vasitələr - bu gigiyena məhsulları körpələr və uşaqlar üçün xüsusilə vacib qayğı göstərir, qıcıqlanmanın qarşısını alır və kiçikləri sağlam və rahat saxlayır.
4. Qadın gigiyena məhsulları: tamponlar, yastıqcıqlar, nəm salfetlər kimi qadın gigiyena məhsulları menstrual dövrlərdə rahatlıq və təhlükəsizliyin təmin edilməsində, qadınlara inamın təmin edilməsində və ümumi sağlamlıqlarının dəstəklənməsində mühüm rol oynayır.

Gigiyena məhsullarının vəziyyəti və onlara tələbat üzrə mövcud tədqiqatların təhlili bazar dinamikasını və cari tendensiyaları əks etdirir. Tədqiqat həm akademik institutlar, həm də istehsalçılar tərəfindən istehlakçıların üstünlükləri, məhsulun keyfiyyəti və innovativ texnologiyalar haqqında məlumatları ümumiləşdirərək aşağıdakı istiqamətlərdə aparılır:

- İstehlakçı tələbi və tərcihləri: araşdırmalar istehlakçıların müxtəlif kateqoriyalı gigiyena məhsullarına tələbatını qiymətləndirir, istehlakçı seçimlərində dəyişiklikləri müəyyən edir;
- Məhsulun keyfiyyəti və təhlükəsizliyi: tədqiqatın əsas aspektlərindən biri gigiyena məhsullarının keyfiyyətinin və onların təhlükəsizlik standartlarına uyğunluğunun təhlilidir. Buraya istehsalda istifadə olunan materialların və məhsulların sağlamlığın qorunmasında effektivliyinin qiymətləndirilməsi daxildir;
- Texnoloji yenilik və ekoloji davamlılıq: araşdırma daha effektiv və rahat məhsullar yaratmaq üçün yeni və bioloji parçalana bilən materiallar, təkmilləşdirilmiş dizaynlar və rəqəmsal texnologiyaların inteqrasiyası kimi gigiyena məhsullarının istehsalında texnoloji yeniliklərə nəzarət edir;
- Bazarların spesifik ehtiyacları: tədqiqat sosiomədəni xüsusiyyətləri, demoqrafik dəyişiklikləri və tələb və təklifə təsir edə biləcək iqtisadi amilləri nəzərə alaraq müxtəlif bazarların və regionların spesifik ehtiyaclarını nəzərə alır.

Gigiyena məhsulları bazarı əsas qlobal brendlər və innovativ həllər təqdim edən yeni iştirakçılar arasında rəqabətlə xarakterizə olunur. Procter & Gamble, Kimberly-Clark, Unilever və Essity kimi şirkətlər geniş çeşiddə məhsullar təklif edərək və aqressiv şəkildə yeni texnologiyalar tətbiq etməklə sənayenin liderləri olaraq qalırlar.

Gigiyena məhsullarında innovasiyalar istehlakçıların cəlb edilməsində və məhsulların fərqləndirilməsində əsas rol oynayır. Materiallarda, dizaynda və qablaşdırmada qabaqcıl texnologiyalar müəyyənedici amillərə çevrilir. Məsələn, innovativ liflərdən, antimikrob komponentlərdən və təkmilləşdirilmiş nəm udma texnologiyalarından istifadə istehsalçılara nəinki yüksək gigiyenik mühafizə standartlarına cavab verən, həm də istifadə zamanı rahatlığı təmin edən məhsullar yaratmağa imkan verir.

Gigiyena məhsullarının tarixi və onların səhiyyədə rolu, habelə bazar şəraiti və onlara tələbat haqqında ədəbiyyatın hərtərəfli nəzərdən keçirilməsi bu mühüm sənayenin dinamikasını daha dərindən başa düşmək üçün əsas zəmin yaradır. Gigiyena məhsullarının vəziyyəti və onlara tələbatla bağlı araşdırmalar mövcud bazar vəziyyəti haqqında tam təsəvvür yaradır və gələcək tendensiyalar haqqında nəticə çıxarmağa imkan verir. Tədqiqatdan irəli gələn tövsiyələr səhiyyənin yüksək standartlarını qorumaq istəyən istehsalçılar, tənzimləyicilər və istehlakçılar üçün faydalı ola bilər.

# AZƏRBAYCAN RESPUBLİKASININ TÜRKDİLLİ DÖVLƏTLƏRİN İQTİSADİYYATINDA ROLU

**Şahanə Babazadə**
**doktorant**
**Lənkəran Dövlət Universiteti**
**shahanababazade@gmail.com**

**Açar sözlər:** Türk dünyası, iqtisadi inkişaf, xarici ticarət

Məlumdur ki, Türk xalqları arasındakı yaxınlıq yalnız ortaq mədəniyyət, dil, din və bu kimi dəyərlər ilə deyil, həm də ticarət əlaqələrinin qədim dövrlərdən bəri qurulması və çoxşaxəli əməkdaşlığın tarixi inkişafı ilə əlaqədardır. Mərkəzi Asiyadan Anadolu yarımadasına qədər mühüm geosiyasi mövqedə yerləşən və zəngin sərvətlərə malik Türkiyə, Azərbaycan, Qazaxıstan,Türkmənistan, Qırğızıstan, Özbəkistan Türkdilli ölkələrdir. İqtisadi inkişafına, əsas makroiqtisadi, sosial göstəricilərinə görə bir-birindən fərqlənən bu ölkələr siyasi, ticarət, iqtisadi və mədəni-humanitar sahələrdə uğurla əməkdaşlıq edir, bir-birinə dəstək olurlar. Hazırda Ticarət əlaqələri, qarşılıqlı investisiya qoyuluşları, regional meqa layihələr və quruculuq-bərpa işlərindəki əməkdaşlıq Azərbaycan ilə Türkdilli ölkələrin iqtisadi münasibətlərində əsas istiqamətlərdəndir. Hazırkı iqtisadi potensialın artırılması tərəflər arasında inteqrasiyanın dərinləşməsi ilə mümkün olacaq. Türk dünyasında daha geniş əməkdaşlıq üçün yaradılmış digər təşkilatlar arasında TÜRKSOY, TÜRKPA, Türk Mədəniyyəti və İrsi Fondu, Türk Akademiyası, Türk Universitetlər Birliyi və Türk Dünyası Bələdiyyələr Birliyi var.

Belə ki, 2019-cu ildə türkdilli ölkələrin Azərbaycanın ümumi ticarət dövriyyəsində payı 5,6% idisə, 2023-cü ildə bu rəqəm 18,4%-ə yüksəlib. Türkdilli ölkələr içərisində ən mütəşəkkil investisiya əlaqələrimiz Türkiyə Respublikası ilədir. Türkiyə Azərbaycan iqtisadiyyatına ən çox investisiya qoyan ikinci ölkədir və qarşılıqlı investisiya həcmi hər il artır. 2021-ci ilin 1-ci rübündə türkdilli ölkələrdən Azərbaycan iqtisadiyyatına cəlb olunmuş investisiya həcmi 212,78 milyon dollar olub ki, bu da bir öncəki ilin müvafiq dövrü ilə müqayisədə 56,1% artım deməkdir.

2020-ci ildə Azərbaycanın xarici iqtisadiyyata yönəltdiyi birbaşa xarici investisiyalarda türkdilli ölkələrin payı 27,1% faiz olub. Hazırda Azərbaycan Türkiyə iqtisadiyyatına ən çox sərmayə qoyan ölkələrdən biridir. Türkiyə Azərbaycanda qeyri-neft sektoruna ən çox investisiya qoyan ölkədir. Azərbaycan şirkətləri isə Türkiyədə əsasən energetika və kimya sahələrinə kapital axını yaradır.

Tarixən qədim İpək Yolunun üzərində yerləşən ölkələrimiz arasında nəqliyyat sahəsində əməkdaşlıq iqtisadi əlaqələrimizin əsas istiqamətlərindən biridir. Ölkəmizin müzəffər qələbəsi Türkdilli dövlətlərin nəqliyyat kommunikasiya əlaqələrinin inkişafı üçün yeni imkanlar yaradır. Zəngəzur dəhlizi Şərq-Qərb marşrutu üzrə Mərkəzi Asiya ölkələrinin beynəlxalq bazarlara çıxışında nəqliyyat sisteminin şaxələndirilməsi, diversifikasiyası, daşınmaların təhlükəsizliyi, habelə səmərəliliyində yeni imkanlarını yaradır. Bu imkanlar isə türkdilli ölkələrlə yanaşı, həmçinin Azərbaycan üçün yeni perspektivlər deməkdir. Zəngəzur dəhlizinin fəaliyyətə başlaması istiqamətində aparılan işlər kimi dəmiryolu və avtomobil yolunun inşası işlərinin yekunlaşması ilə Azərbaycanın və Türkdilli ölkələrin nəqliyyat dəhlizlərinə çıxışının çoxşaxəliliyi, habelə daşımalarda vaxta və resurslara qənaət təmin ediləcək, Cənubi Qafqaz regionunun beynəlxalq ticarət və daşımalar baxımından türkdilli ölkələrin, habelə region dövlətlərinin iqtisadi inteqrasiyasında potensialı artacaq. Ölkəmizin

energetika sahəsində təcrübəsi, müasir və daim yenilənən infrastrukturu, strateji mövqeyi və apardığı islahatlar türkdilli ölkələr üçün böyük imkanlar və perspektivlər yaradır. Neft-qazla zəngin Mərkəzi Asiya dövlətləri isə öz ehtiyatlarını Azərbaycan vasitəsilə təhlükəsiz və rahat şəkildə Avropanın enerji bazarlarına çıxararaq həm gəlirlərini artıra, həm də beynəlxalq iqtisadi-siyasi arenada öz mövqelərini möhkəmləndirə bilərlər.

Bununla yanaşı, işğaldan azad olunmuş ərazilərimizdə turizm, kənd təsərrüfatı, dağ-mədən və hasilat sənayesi, tikinti materialları istehsalı, alternativ enerji kimi potensial sektorların yenidən canlandırılması və ölkə iqtisadiyyatına inteqrasiyası, habelə bölgədə yeni nəqliyyat-logistika dəhlizlərinin formalaşdırılması istiqamətində həyata keçiriləcək tədbirlər türkdilli ölkələr ilə əlaqələrimizin genişləndirilməsində yeni perspektivlər vəd edir.

Yaradılan birgə institutlar və təşəbbüslər iqtisadi infrastrukturun inkişafına mühüm töhfə verir. Azərbaycanın yürütdüyü siyasətin bunu aydın göstərdiyini vurğulayan dövlət başçısı bildirib: “Bizim başqa ailəmiz yoxdur. Bizim ailəmiz Türk dünyasıdır”.

# TÜRK DÖVLƏTLƏRİ VƏ AZƏRBAYCAN ARASINDA İQTİSADİ İNTEQRASİYANIN İNKİŞAF TENDENSİYALARI

**Şəfa Bağırova**
**baş müəllim**
**Lənkəran Dövlət Universiteti**
**shefa.baqirova@mail.ru**

**Açar sözlər:** Türk dövlətləri, yaşıl enerji, iqtisadi əməkdaşlıq

Türk dövlətləri arasında inteqrasiya mövcud bazar və investisiya imkanlarının öyrənilməsi, xarici ticarət rejimin asanlaşdırılması, xarici investor və şirkətlərin ölkəyə cəlb olunmasına dəstək, türkdilli ölkələr arasında iqtisadi dövriyyənin gücləndirilməsinə səbəb olmuşdur. Hazırda enerji və iqtisadiyyat sahəsindəki əməkdaşlıq, beynəlxalq yükdaşımalarında və "yaşıl enerji" dəhlizlərində əlaqələrin gücləndirilməsi yeni prioritetlərdəndir. Bu baxımdan enerji resurslarının bir dəhlizdə birləşdirilməsi Türk dövlətləri üçün əsas hədəfdir.

Azərbaycan Türk dövlətləri arasında əməkdaşlığın dərinləşməsi prosesində aparıcı rola malik ölkələrdəndir. Azərbaycanın müəllifi olduğu Transadriatik qaz kəmərinə (TAP) Türkmənistan və Qazaxıstanın qoşulması istisna deyil. Türk dövlətləri üçün əsas çağırışlardan biri də Zəngəzur dəhlizində birgə iştirakdır. Türk dövlətlərinin nəqliyyat-logistika imkanlarının daha da genişlənməsində Zəngəzur dəhlizi də mühüm rol oynayır. Türk dövlətlərinin ortaq layihəsi hesab edilən Zəngəzur dəhlizi bütün Türk coğrafiyasının gücünü dünyaya nümayiş etdirən qovşaqdır. Türk dövlətləri həm də Azərbaycanın azad edilmiş ərazilərinin yenidən qurulmasında ön plandadır. Qarabağda və Şərqi Zəngəzurda aparılan bərpa-yenidənqurma işləri Türkiyə, Özbəkistan, Qırğızıstan və Qazaxıstana da öz töhfəsini verməkdədir. Bu proseslərdə fəal mövqe tutan Azərbaycan Türk dövlətləri ilə iqtisadi dövriyyənin artırılmasında daha çox təşəbbüşkarlıq edir. Ölkəmizin 2023-cü ildə Türk dövlətləri ilə ticarət dövriyyəsinin həcmi əvvəlki illərlə müqayisədə 70 faizdən çox artaraq 8 milyard dollara çatıb. Azərbaycanın Türk dövlətləri ilə ticarət dövriyyəsinin yaxın illərdə 20 milyard dolları̇dək artırılması hədəflənir.

Hazırda Türk Dövlətləri Təşkilatına daxil olan müstəqil Türk dövlətləri 155 milyon əhaliyə sahib olmaqla 4,5 milyon kvadratmetr coğrafi ərazini əhatə edir 1,5 trilyon dollara yaxın nominal ÜDM-ə sahib olmaqla dünyada 13-cü yerdə qərarlaşır. Türk dövlətlərini vahid dövlət strukturu kimi götürsək, ÜDM-in həcminə görə dünyada 7-ci ən böyük ölkə hesab olunardı.

Qeyd edək ki, 2024-cü ilin 1-ci rübündə Türk dövlətlərinin ÜDM-i 518,4 milyard ABŞ dolları, ticarət dövriyyəsi 285,7 milyard ABŞ dolları təşkil edib. 2024-cü ilin ilk rübündə iqtisadi artım Türkiyədə 5,7 faiz, Azərbaycanda 4 faiz, Özbəkistanda 6,2 faiz, Qırğızıstanda 8,8 faiz, Qazaxıstanda 3,7 faiz, Macarıstanda 1,1 faiz, Şimali Kipr Türk Respublikasında 3,5 faiz və Türkmənistanda 6,3 faiz olub ki, bununla da Türk dövlətlərinin iqtisadi artımı orta hesabla 4,9 faiz qeydə alınıb (İİTKM, Türk İqtisadi İcmalı). Hazırda Türk dövlətləri arasında xarici ticarət dövriyyəsinin həcmi təxminən 45 milyard dollar təşkil edir. Bu, onların ümumi ticarət dövriyyəsinin 4 faizə yaxını deməkdir. Ancaq mövcud potensial bundan ən azı 10 dəfə böyükdür. Bu məqsədlə Türk ölkələri arasında ticarətin asanlaşdırılması, azad gömrük ittifaqının yaradılması istiqamətində səylər birləşdirilməlidir.

2022-ci ilin yanvar-oktyabr aylarında Azərbaycanın Türkiyə ilə ticarət dövriyyəsi 45 faiz artaraq 5 milyard dollar səviyyəsinə yüksəlib. Azərbaycandan Türkiyə iqtisadiyyatına 20 milyard dollara yaxın, Türkiyədən Azərbaycan iqtisadiyyatına isə 14 milyard dollara yaxın

sərmayə qoyuluşu reallaşıb. Türkmənistanla Azərbaycan arasında da ticarət dövriyyəsinin həcmində 5 dəfə artım qeydə alınıb. Ölkələrin nəqliyyat-logistika sahəsində qazandıqları böyük uğurları da ciddi önəm kəsb edir. Bu istiqamətdə ölkələrimiz tərəfindən bir çox layihələr icra edilib. Eyni zamanda, bu sahəyə qoyulan sərmayələr yeni, müasir infrastrukturun yaradılmasını tələb edir. Bu məsələni daim diqqət mərkəzində saxlayan Azərbaycan Şərq-Qərb və Şimal-Cənub nəqliyyat dəhlizlərinin fəal iştirakçısı kimi bölgədə aktiv mövqeyə sahibdir. Belə ki, Azərbaycan üzərindən daşınan tranzit yüklərin ümumi həcmi 2023-cü ildə 13 milyon 500 min tona çatıb.

Son dövrlərdə həyata keçirilən layihələr Türk dövlətləri arasında daha sıx birliyin təmin olunmasında və iqtisadi inkişafın stimullaşdırmasında əhəmiyyətli rol oynayır. Bu potensial Türk dünyasının iqtisadi gücünün real dəyəridir. İmkanlar isə daha böyükdür, nəqliyyat-tranzit imkanları, "yaşıl enerji", turizm və digər potensiallarla birlikdə bu coğrafiyanın üzvlərinin iqtisadi gücü daha da artmış olacaq.

# ƏTLİ-TƏRƏVƏZLİ XÖRƏKLƏRİN QİDALANMADA ROLU VƏ ONLARIN (KADMİUM VƏ QURĞUŞUN) ÇİRKLƏNMƏSİNİN MÜASİR VƏZİYYƏTİ

**Taleh Əhmədzadə**
**magistrant**
**Mikayıl Məhərrəmov**
**professor**
**Lənkəran Dövlət Unversiteti**
**talehahmedzade1@gmail.com**
**mikailbyst@mail.ru**

**Açar sözlər:** ətli-tərəvəzli xörəklər, kadmium, qurğuşun, çirklənmə, müasir vəziyyət

Ətli-tərəvəzli xörəklərin insan sağlamlığında böyük rolu vardır. Bildiyimiz kimi qida məhsulları toksiki metallarla çirkləndiyi zaman insan orqanizminə ciddi təhlükə yaradır. Toksiki metallara, əsasən, kadmium, qurğuşun, arsen, mərgümüş, civə və.s aiddir. Həmçinin ət və ət məhsulları bir çox mikroorqanizmlərin inkişafı üçün də yaxşı qida məhsuludur. Kadmium, qurğuşun kimi toksiki metalların ətli-tərəvəzli xörəklərin çirklənməsində rolu olduğu kimi bəzi mikroorqanizmlərin də çoxusunun iştirakını qeyd edə bilərik. Sadaladığımız toksiki metallar torpaqdan, atmosfer havasından, yeraltı və yerüstü sulardan aqrar təsərrüfat xammallarından qida məhsulların, qida məhsullarımdan isə insan orqanizminə düşə bilir. Onlar böyük dozalarda orqanizmə toksiki təsir göstərir. Ətli-tərəvəzli xörəklərin çirklənmə səbəbləri aşağıdakılardır:

Sənaye müəssisələrinin tullantıları, avtonəqliyyatın işlənmiş qazları, faydalı qazıntıların işlənməsi. Kimyəvi elementlər bitki və heyvan mənşəli xammallarda toplanır ki, bu da qida məhsullarında ərzaq xammallarında onların yüksək qatılığına gətirib çıxarır. Əsasən qurğuşun və kadmium ən geniş yayılmış toksikantlardan biridir. Müasir dövrdə ətraf mühitin toksikantı rolunda, ilk növbədə qurğuşun tetraetilqurğuşun kimi akil birləşmələri çıxış edir. Qurğuşun daxil olma mənbələri aşağıdakılardır:

Sənaye mərkəzlərinin, iri avtomagistralların yaxınlığında yetişdirilən bitkiçilik məhsulları və kənd təsərrüfatı heyvanlarının əti;

Heyvanların yemlənməsi üçün çirklənmiş yemlərdən istifadə olunması süd və ətin çirklənməsinə səbəb olur;

Tərkibində qurğuşun olan pestisidlərin istifadə olunması torpağın çirklənməsinə daha sonra isə meyvə-tərəvəzlərin çirklənməsinə səbəb olur;

Tənəkə qablarda olan qida məhsulları bankaların tikişlərin lehimlənməsi zamanı istifadə olunan qurğuşun məhsula düşür.

Qida məhsullarında qurğuşun miqdarı regional xarakter daşıyır. Ətraf mühitdə nə qədər çox qurğuşun olarsa, bitki və heyvan mənşəli məhsullarında bir o qədər çox qurğuşun qeydə alınır. Ərzaq məhsullarında qurğuşunun orta miqdarı-0,2 mq/kq-dır.Ayrı-ayrı məhsullar üçün isə məsələn: tərəvəzlərdə-0,02-1,60(0,19), ət və balıqda-0,01-0,78(0,16),süddə-0,01-0,1(0,027) və.s

Kadmiumda qurğuşun kimi ətraf mühitin ən təhlükəli toksikantlarından biridir.Təbii aləmdə kadmiuma çox cüzi miqdarda rast gəlinir, ona görə də onun zəhərləyici təsiri yalnız son zamanlar aşkar edilmişdir. Müəyyən edilmişdir ki, həmçinin orqanizmə düşən kadmium 80%-i qida ilə, 20%-i isə atmosferdən ağciyərlər və siqaretçəkmə ilə daxil olur. Kadmium və qurğuşunla çirklənən qida məhsullarını qəbul etdiyimiz zaman insan orqanizmində bir çox kəskin zəhərlənmələrin baş verməsinə gətirib çıxarır. Məsələn: ürəkbulanma, qusma, mədə

spazmları ilə xarakterizə olunur. Xroniki zəhərlənmələr zamanı isə böyrəklərin zədələnməsi, zülalların və nuklein turşusunun sintezinin pozulması, anemiya, immunitetin zəifləməsi və.s halların baş verməsi müşahidə olunur.

# MAŞINQAYIRMA SƏNAYESİNDƏ MALİYYƏ - İQTİSADİ TƏHLÜKƏSİZLİK GÖSTƏRİCİLƏRİNİN TƏHLİLİ VƏ QİYMƏTLƏNDİRİLMƏSİ

**Toğrul Əkbərli**
**doktorant**
**Lənkəran Dövlət Universiteti**
**togrulakberli@yahoo.com**

**Açar sözlər:** iqtisadi təhlükəsizlik, biznes, risk, təhdid, sahibkarlıq

Müasir iqtisadi şəraitin tələblərindən irəli gələrək bu gün sahibkarlıq fəaliyyəti üçün əlverişli iqtisadi mühitin yaradılması baxımından hüquqi, təşkilatı, texniki və sosial xarakterli problemlərin vaxtında həll edilməsi mühüm aktuallıq kəsb edir. Bu fakt da danılmazdır ki, şirkətin (firmanın) təchizatçıları, kontragentləri, kreditorları və s. nə qədər böyük və geniş tərkibə malik olarsa, onun idarəedilməsidə bir o qədər çox mürəkkəblik yaranır. Qeyd edək ki, hazırda dövlətin iqtisadi inkişafının ən yüksək prioritet istiqaməti sənayenin maşınqayırma seqmentinə daxil olan, emal sənayesi sahəsində aparıcı yerləri tutan və iqtisadiyyatın digər sahələrinin səmərəli fəaliyyət göstərməsinin əsasını təşkil edən müəssisələrin istehsal həcminin artırılmasıdır.

Sivil idarəetmə baxımından mürəkkəb və çoxaspektli fəaliyyət spektrinə malik sahibkarlıq subyektlərinin mövcud və ya yaranmaqda olan iqtisadi problemlərdən maksimum müdafiəsinin təşkil edilməsi üçün sistematik olaraq müvafiq tədbirlər həyata keçirilməli, bu proseslərin idarəedilməsinə yanaşmalar kompleks olmalı və sistemin bütün elementləri tam və bütöv halda nəzərdən keçirilməlidir. Bu isə öz növbəsində sahibkarlıq subyektlərinin istehsal-təsərrüfat fəaliyyətinin maliyə-iqtisadi təhlükəsizliyi üçün kompleks təminat sisteminin (təşkilatı - hüquqi xarakter daşıyan və iqtisadi itkilərin aradan qaldırılmasına yönəli tədbirlər) formalaşmasına ehtiyac yaradır. Qanunauyğunluq, iqtisadi məqsədyönülük prinsipinə söykənən kompleks təminat sistemi özündə əsasən sahibkarlıq subyektlərinin təhlükəsizliyinin təmin edlməsinin məqsəd (daxili və xarici təhdiləri mimimuma endirilməsi) və vəzifələri (təhdidləri proqnozlaşdırılması və xəbərdarlıq edilməsi, aşkar olunan təhdidlərni təhlili və qiymətləndirilməsi, qərarların qəbulu), obyekt və subyektləri, taktika və strategiyasından ibarət konsepsiyanı ehtiva edir.

Son dövrlərdə maliyyə-iqtisadi təhlükəsizlik problemləri, xüsusi ilə biznes subyektləri üçün daxili və xarici təhdidlərin azaldılması baxımından mühüm əhəmiyyət kəsb edir. Beynəlxalq, regional və ölkə miqyasında mürəkkəb iqtisadi situasiya, eləcə də çoxsaylı digər faktorlar bir çox sahibkarlıq subyektlərinin istehsal-təsərrüfat fəaliyyətinə əsaslı şəkildə təsir göstərir.

Biznes subyektlərinin iqtisadi təhlükəsizliyi təhdid və təhlükələrin aradan qaldırılması, eləcə də subyektin dayanıqlı fəaliyyəti üçün mövcud resurslardan effektiv istifadə edilməsi ilə xarakterizə olunur. İqtisadi təhlükəsizlik səviyyəsinin qiymətləndirilməsi subyektə imkan verir ki, o, müxtəlif səviyyələrdə mövcud və gözlənilən ixtiyarı təhlükələri aşkar etsin və müflisləşməyə şərait yarada bilən əlamətləri aradan qaldırmaq mümkün olsun.

İqtisadi təhlükəsizliyin vəziyyəti tədqiqat yolu ilə qiymətləndirilə bilər: 1) istehsal və texnoloji xüsusiyyətləri. Onların qiymətləndirmə üsulları aşağıdakılardır: texniki hazırlıq əmsalı, avadanlıqdan istifadənin intensivliyi əmsalı, növbə əmsalı, yeni avadanlıqların mənimsənilməsi əmsalı; 2) inzibati və hüquqi xüsusiyyətləri-qiymətləndirmə üsulları aşağıdakılardır: sığorta haqlarının məbləği, vergi endirimlərinin məbləği; məhkəmə cərimələrinin ümumi gəlirdə payı;

3) maliyyə-iqtisadi xüsusiyyətlər-qiymətləndirmə üsulları bunlardır: aktivlərin qaytarılması əmsalı, kapitalın məhsuldarlığı əmsalı, cari likvidlik əmsalı, geri qaytarılma müddəti, kapital və borc kapitalının nisbəti, debitor borclarının dövriyyəsi əmsalı, satışdan əldə olunan gəlirlilik əmsalı, əsas vəsaitlərin yenilənməsi əmsalı, əsas vəsaitlərin istifadədən çıxma əmsalı, istehsal gücü; 4) sosial-iqtisadi xüsusiyyətlər-qiymətləndirmə üsulları bunlardır: kadrların orta siyahı sayı, qəbul üzrə dövriyyə əmsalı, əmək intizamının səviyyəsi, kadr dəyişikliyi dərəcəsi, işçilərin orta tarif kateqoriyası.

İqtisadi təhlükəsizlik problemi müxtəlif mülkiyyət formasına malik sahibkarlıq subyektləri qarşısında duran ən ciddi problemlərdən biridir. Beynəlxalq təcrübəyə istinadən qeyd edə bilərik ki, məhsul və xidmətlər bazarında rəqabət formalarının mövcudluğu, qanunvericilik bazasının kifayət qədər təkmil olmaması, müxtəlif təşkilatı - hüquqi formaya malik çoxsaylı firma və şirkətlərin təşəkkül tapması, gizli - kölgə iqtisadiyyatının cəmiyyətin sosial-iqtisadi həyatında qalması, korrupsiya hallarının geniş vüsət alması, inhisarçı qruplaşmaların kriminallaşması və s. bu kimi hallar kiçik, orta daxili və regional bazar sahibləri) və iri (fəaliyyət sferasının sərhədləri milli bazar və hətta dünya xammal bazarı ilə müəyyənləşən neft-qaz və dağ-mədən sahələri) biznes subyektlərini iqtisadi təhlükəsizlik və onun təmin edilməsi problemini həll etməyə vadar edir.

Hər bir iqtisadi subyektin maliyyə vəziyyəti onun normal fəaliyyəti və inkişaf etməsi qabiliyyətini, dəyişən daxili və xarici mühitdə aktiv (dövriyyə və dövriyyədən kənar) və passivlər (xüsusi kapital, qısa və uzunmüddətli öhdəlikləri) arasında tarazlığın qorunub saxlanılmasını, tədiyəqabiliyyətini və riskin yol verilən həddi daxilində invsetisiya cəlbediciliyinin təmin edilməsini ifadə edən bir sıra göstəricilər sistemi vasitəsi ilə xarakterizə olunur. Deməli, müəssisənin maliyyə vəziyyəti və onun dayanıqlığı əsasən mənbələr üzrə kapitalın (xüsusi və borc vəsaitlərinin nisbəti), aktivlərin optimal strukturundan və ilk növbədə əsas və dövriyyə vəasitlərinin nisbətindən, həmçinin bəzi növ aktiv və passivlərin tarazlıq vəziyyətindən asılıdır.

Dünya praktikasında maliyyə-iqtisadi təhlükəsizliyin optimal həddini müəyyənləşdirmək üçün müəssisənin maliyyə vəziyyətini xarakterizə edən ayrı-ayrı göstəricilər üzrə qiymətlədirlmənin aparılması tövsiyyə edilir. Məsələn, xüsusi və borc vəsaitlərinin 1:1 nisbəti, likvidliyin ≥1 səviyyəsi, kapital üzrə təmiz mənfəətin bank kreditləri üzrə müəyyənləşdirilmiş faizlərdən yüksək olması və s. qəbul edilir.

Təhlil göstərir ki, 2018-ci illə müqayisədə 2022-ci ildə müəssisənin cari aktivləri 0.5%, xüsusi kapitalı 0.5% artmış, qısamüddətli öhdəliklər - 9.9%, uzunmüddətli öhdəliklər - 0.2% artmışdır.

Hesabat ilində balans valyutasında xüsusi çəkisinə görə immobilizə edilmiş vəsaitlər 2.4 %, cari aktivlər 24.6 %, xüsusi kapital 25.7 %, uzunmüddətli öhdəliklər 20.7 %, qısamüddətli öhdəliklər isə 3.5% təşkil etmişdir. Bütün bu göstəricilər isə hesabat ilinin sonuna müəssisənin maliyyə vəziyyətini yaxşı qiymətləndirməyə imkan verməklə yanaşı nəzərə alınmalıdır ki, balansın passiv hissəsində əks etdirilən və azalma meylləri müşahidə olunan qısamüddətli öhdəliklər təhlil aparılan dövr ərzində 18% azalmasına baxmayaraq, uzunmüddətli öhdəliklər qısamüddətli öhdəlikləri 2018-ci ildə 4.89 d , 2022-ci ildə isə - 5.9 d üstələyir ki, bu da müəssisənin maliyyə dayanıqlığına müsbət təsir göstərir. 2022-ci ildə kreditor borcların debitor borclara nisbəti 1.8 d təşkil etmişdir ki, bu da kreditor öhdəliklərin debitor öhdəliklərini əhəmiyyətli şəkildə üstələməsini göstərir ki, bu da aktivlərin əldə edilməsi üçün maliyyə ehtiyatlarının olmasına dəlalət edir.

Dövriyyə aktivlərinin tərkibində əəvvəlki dövrlə müqayisədə pul vəsaitləri 39.6%-dən 0.5%-ə qədər azalmışdır, bu isə onun səmərəliliyini yüksəldir. Müəssisənin bölüşdürülməyən mənfəəti əvvəlki dövrlə müqayisədə 1.22d artmışdır ki,bu isə müəssisənin fəaliyyətinə müsbət təsir göstərir.

Praktik təcrübədə maliyyə dayanıqlığını hərtərəfli və geniş qiymətləndirmək üçün yeni metodoloji yanaşmadan (balansın aqreqat formada nəzərdən keçirilməsi) istifadə edilir. Belə yanaşma əsasında müəssisənin maliyyə dayanıqlığını müəyyən etmək üçün avtonomluq əmsalı hesablanır. Avtonomluq əmsalı üçün qəbul edilmiş norma 0.65-0.85 aralığıdır. Bizim misalda bu əmsal 0.51 təşkil edir. 2018-2022-ci illərdə dəyişiklik +0.01 təşkil etmişdir.

Beləliklə, müəssisənin maliyyə dayanıqlığının təmin edilməsi üçün aşağıda qeyd edilən məqamlara diqqət yönəldilməsi xüsusi əhəmiyyət kəsb edir:

- kəskinləşən bazar şəraitində müəssisənin rəqabət qabiliyyətliliyini yüksəltmək üçün istehsal edilən məhsulun və göstərilən xidmətin maya dəyərinin aşağı salınması istiqamətində işləri intensivləşdirmək;

-bazar tələbindən irəli gələn marketinq strategiyaları əsasında müştəri bazasını genişləndirmək;

- müəssisənin investisiya cəlbediciliyinin artırılması üçün xüsusi təkliflər paketi işləyib hazırlamaq və reallaşdırmaq.

# AZƏRBAYCANIN İXRAC İMKANLARININ ARTIRILMASINDA TÜRKİYƏNİN ROLU

**Vildan Rizayeva**
**dosent**
**Fuad Ələkbərov**
**magistrant**
**Azərbaycan Dövlət İqtisad Universiteti**
**Lənkəran Dövlət Universiteti**
**vildan.vildan@mail.ru**
**elekberovfuad01@gmail.com**

**Açar sözlər:** ixrac, idxal, xarici ticarət

Azərbaycanın coğrafi mövqeyi, inkişaf etmiş nəqliyyat və logistika infrastrukturu ölkənin beynəlxalq ticarət şəbəkələrinə inteqrasiyasını daha da gücləndirir. Şərq ilə Qərb arasında yerləşən Azərbaycanın strateji mövqeyi onu regionun əsas ticarət qovşaqlarından birinə çevirir. Bundan əlavə, beynəlxalq əməkdaşlıq və ticarət razılaşmaları, ölkənin ixrac potensialını genişləndirmək üçün əlavə imkanlar yaradır. Qeyri-neft sektorunun ixracında aqrar sənaye, kimya, qida məhsulları, tekstil və turizm sahələrinin inkişafı xüsusi rol oynayır. Dövlət tərəfindən qeyri-neft sektoruna investisiyaların artması, bu sahədə ixracın payını əhəmiyyətli dərəcədə artırmışdır. Hökumət eyni zamanda ixracı təşviq etmək üçün müxtəlif vergi güzəştləri, texniki dəstək proqramları və beynəlxalq ticarət tədbirləri vasitəsilə yerli sahibkarların dünya bazarlarına çıxışını asanlaşdırır.

Qeyri-neft sektorunun ixracı hələ ki, neft sektoru ilə müqayisədə kiçik paya malik olsa da, bu sahədə müşahidə olunan artım uzunmüddətli dövrdə iqtisadiyyatın dayanıqlığını artırmaq potensialına malikdir. Qeyri-neft sektoru üzrə ixracın artırılması ölkənin xarici ticarət balansını daha dayanıqlı edir və neftin qiymətindəki dalğalanmalara qarşı iqtisadiyyatı daha müqavimətli hala gətirir. Azərbaycan iqtisadiyyatının şaxələndirilməsi istiqamətində atılan addımlar, ixrac strukturunun daha balanslı və davamlı inkişafına xidmət edir.

Cədvəl 1.

Qrafik 1. Azərbaycanın xarici ticarət dövriyyəsində idxal və ixracın dinamikası, min dollar



2020-ci ildən etibarən, ticarət dövriyyəsi yenidən artmağa başlayıb. Xüsusilə 2021-ci və 2022-ci illərdə müşahidə olunan sıçrayışlar bu dövrdə neft qiymətlərinin bərpası və qeyri-neft sektorundakı ixracın artımı ilə izah edilə bilər. 2022-ci ildə ticarət dövriyyəsi rekord səviyyəyə çatıb və 52,686.5 milyon dollar təşkil edib. İxrac həcmi də 38,146.7 milyon dollara yüksəlib, bu isə əvvəlki illə müqayisədə 71.8%-lik artım deməkdir. Bu dövrdə qeyri-neft sektorunun ixracında artım müşahidə edilsə də, əsas gəlirlər hələ də neft və qaz sektoruna aid idi. Saldonun 23,606.9 milyon dollara çatması ixracın idxalı əhəmiyyətli dərəcədə üstələməsi ilə bağlıdır.

Türkiyə Azərbaycanın əhəmiyyətli tərəfdaşı olmaqla Azərbaycanın xarici ticarət dövriyyəsində və ixracında 2015-ci ildən, idxal əməliyyatlarında isə 2013-cü ildən 2-ci yerdədir. Azərbaycanın xarici ticarət dövriyyəsində Türkiyənin payı son illərdə gettikcə artmaqdadır. 2021-ci ildə Azərbaycanın Türkiyə ilə ticarət dövriyyəsinin həcmi 12,06%, o cümlədən idxalın həcmi 18,00% , ixracın həcmi 8,48% təşkil etmişdir. Azərbaycanın 2010-2023-cü illər üzrə ticarət dövriyyəsi, idxal və ixrac göstəricilərinin təhlili ölkənin xarici ticarət strukturunun müxtəlif dinamikalar göstərdiyini nümayiş etdirir. Bu dövrdə Azərbaycanın ticarət dövriyyəsi, idxal və ixrac göstəriciləri bir sıra qlobal və regional faktorlarla, o cümlədən neftin dünya bazarındakı qiymətləri, qeyri-neft sektorunun inkişafı və ölkə daxilində həyata keçirilən iqtisadi islahatlarla formalaşıb. Bundan əlavə 2022-ci ildə Azərbaycan və Türkiyə Yüksək Səviyyəli Starteji Əməkdaşlıq Şurasının VIII iclası keçirildi. Bu iclasda Azərbaycanın ticarət dövriyyəsində Türkiyənin payının artırılması və bu rəqəmin 15 milyard dollara çattırılmasının hədəfləndiyi qeyd olunub. Bu hədəfə nail olmaq üçün bir sıra sazişlər imzalanmışdır. Sazişdən əvvəl Türkiyə Azərbaycan bazarında yüksək tariflər və kvotalar nəticəsində azad ticarət sazişinin üstünlüklərindən yararlanan MDB ölkələri ilə qiymət rəqabətində uduzur və Azərbaycanla xarici ticarətində aşağı nəticə göstərirdi. Həyata keçirilən tədbirlər nəticəsində iki ölkə arasında xarici ticarət dövriyyəsi artacaq və ölkələrin qoyduqları xarici ticarət dövriyyəsi hədəfinə çatmaqlarını sürətləndirəcək.

Azərbaycanın xarici ticarət göstəricilərinin təhlilindən belə nəticəyə gəlmək olar ki, ölkə iqtisadiyyatı hələ də neft və qaz sektoruna əsaslanır, lakin qeyri-neft sektorunun ixracında artım müşahidə olunur. Qeyri-neft sektorunun inkişafı ölkənin yalnız neft və qaz bazarlarından asılılığını azaldacaq, həm də xarici ticarət dövriyyəsini daha dayanıqlı hala gətirəcək. Hazırkı iqtisadi əməkdaşlıq həm Türkiyə və Azərbaycanın ölkə miqyasında, həmdə region miqyasında nüfuzunun və iqtisadi gücünün artırılmasında əhəmiyyətli rol oynayır.

# ВЛИЯНИЕ ПРЕДВАРИТЕЛЬНОЙ ФЕРМЕНТАТИВНОЙ ОБРАБОТКИ НА ХИМИЧЕСКИЙ СОСТАВ СОКОВ ИЗ ДИКОРАСТУЩИХ ЯГОД

**Севиндж Магеррамова**
**доцент**
**Микаил Магеррамов**
**профессор**
**Азербайджанский государственный экономический университет**
**Лянкяранский государственный университет**
**maqerramovasevinc75@mail.ru**
**mikailbyst@mail.ru**

**Ключевые слова:** ягоды, соки, ферменты, сырье, переработка

Натуральные биологические активные растительные сырье особенно привлекательны для производителей пищевых продуктов, поскольку позволяют не только улучшить внешний вид продуктов питания, но обладают биологической активностью и оказывают благоприятное действие на организм человека. Лидирующие позиции по объему производства занимают красные пищевые красители, в том числе антоцианы, широко востребованные в различных отраслях пищевой промышленности.

Известным источником биологически активных пищевых ингредиентов, в том числе антоциановых пигментов является разнообразное ягодное сырье, в том числе дикорастущие ягоды- кизила (Cornus mas L.), бузины черной (Sambucus nigra L.), боярышника (Crataegus monogyna subsp.), клюква обыкновенная (Vaccinium oxycoccos L.), ежевики (Rubus) и кинкана (Fortunella Swingle), в комплексе синтезируемых биоактивных полифенольных соединений. С точки зрения организации промышленной переработки интерес к данным видам сырья обусловлен значительными биологическими запасами, стабильной ежегодной возобновляемостью на территории Азербайджанской Республики. Очевидно, что разработка эффективной технологии переработки ягод открывает перспективы получения ингредиентов из ягод, которые могут быть позиционированы как источники природных, полезных для здоровья, экологически чистых пищевых продуктов и других биологически активных веществ ягод, применение которых при производстве продуктов питания позволит придать им не только привлекательный внешний вид, но и наделить полезными для здоровья человека свойствами.

Традиционными продуктами переработки плодов и ягод являются в т. ч. соки и экстракты (концентраты), при получении которых применяют следующие способы предварительной обработки растительного сырья: механическое измельчение, действие СВЧполя, ферментативную, тепловую и ультразвуковую виды обработки. Эффективность применения вышеперечисленных способов предобработки ягод для увеличения выхода сока, повышения экстрактивных свойств растительной ткани и наиболее полного извлечения биологически активных веществ ягод, убедительно продемонстрирована на примере рябины обыкновенной, ягод аронии черноплодной, плодов боярышника и бузины ягод брусники, черники, голубики, черной и красной смородины, малины и вишни. Успешным следует признать и применение ферментных препаратов на стадии экстрагирования и при получении сока: при этом отмечается увеличение выхода и снижение вязкости сока, сокращение продолжительности фильтрации, повышение степени извлечения природных компонентов. К сожалению,

приведенные в литературе данные не позволяют дать объективную оценку и сравнительную характеристику различным способам обработки различных ягод, произрастающих на территории Азербайджанской Республики при получении сока с позиции эффективности их применения для извлечения биологически активных ингредиентов и их сохранности в процессе переработки.

Следует также учитывать, что представленные в литературе данные получены на сырье различных годов сбора и регионов произрастания, не относящихся к Азербайджанской Республике.

Как известно, состав и особенности анатомического строения растительной клетки ягод в значительной степени формируются под влиянием эколого-географических и почвенноклиматических условий региона произрастания и зависят от сроков сбора. А именно эти факторы во многом определяют эффективность проведения предварительной обработки ягод при получении сока. Учитывая изложенное, нами в течении ряда лет проводятся комплексное исследование влияние предварительной, в том числе ферментативной обработки различного ягодного сырья, произрастающих в различных экономических регионах Азербайджанской Республики на выход сока, их химический, в том числе антиоксидантный состав.

Целю настоящей работы является возможности увеличение выхода сока, экстрактивных веществ и антиоксидантной активности с помощью предварительной ферментативной обработки мезгов различных ягод для создания новых или обогащения существующих продуктов питания за счет высокой биоактивности и биодоступности содержащихся в них компонентов питания.

В настоящей работе использовали следующие ферментные препараты с пектолитическим и глюконалитическим действием: Pectinex BE XXL, Amylase AG 300 L (производство Novozymes, Дания), Rapidaza CR (производство DSM-Food-Specialties, Франция), Sellokyuks. - A (производитель - «Сиббиофарм», Россия) и т. д.

Результаты анализов антиоксидантной активности плодоягодных экстрактов показывают, что наблюдается тенденция роста содержания фенольных веществ в экстрактах различных ягод с предварительной обработкой ферментными препаратами от 1,08 раза (кизил, Pectinex BE XXL) до 1,46 раза (кинкан, Sellolyuks-A) по сравнению с контрольнымы образцами. Содержание флавоноидов во всех анализируемых экстрактах увеличивается от 1,29 раза (кинкан, Pectinex BE XXL) до 1,68 раза (клюква обыкновенная, Amylase AG 300 L. Содержание антоцианов также увеличивается во всех анализируемых образцов от 1,07 раза до 1,60 раза, исключением является образец экстракта кизила при обработке Amylase AG 300 L. При определении антирадикальной активности ягодных экстрактов наблюдается как положительная при обработке кизила, бузина черная и ежевики ферментными препаратами Amylase AG 300 L, так и отрицательная тенденция при обработке клюквы обыкновенная с Amylase AG 300 L, бузины черная и ежевики с Sellolyuks-A.

Восстанавливающая сила экстрактов ягод после применения ферментных препаратов увеличивается 1,18-2,33 раза при обработке кизила и бузина черная с ферментными препаратами Sellolyuks-A, а клюквы обыкновенная, ежевики и кинкана Rapidaza TS-80L. Антиоксидантная активность же экстрактов ягод после применения ферментных препаратов имеет тенденция уменьшение за исключением ягод боярышника и клюквы обыкновенной.

Результаты проведенных исследований показывают целесообразность предварительной обработки мезгов ягод кизила, бузины черная, боярышника, клюквы обыкновенная, ежевики и кинкана ферментными препаратами. При этом повышается степени извлечения природных компонентов, таких как фенольные соединение,

флавоноиды, антоцианы, содержащихся в ягодах, что позволяет создания новых или обогащения существующих продуктов питания за счет высокой биоактивности и биодоступности содержащихся в них компонентов питания.



Konfrans materialları Lənkəran Dövlət Universtetinin
mətbəəsində çap olunmuşdur

Yığıma verilmişdir: 24.05.2024
Çapa imzalanmışdır: 04.06.2024
Kağızın formatı: $64 \times 84^{1/8}$
Çap vərəqi: 22 c.v., tiraj: 120

Ünvan: Az 4200, Lənkəran şəhəri, General Həzi Aslanov xiyabanı 50
Tel: (+994) 25-25-5-25-21
e-mail: elmi_tezis@lsu.edu.az
www.lsu.edu.az